Sonrakı dövrdə gender psixologiyası sahəsində fransız maarifçisi və filosofu Jan-Jak Russo (1712-1778) maraqlı ideyalar irəli sürmüşdür. Russonun fikrincə, kişi və qadınların bərabərliyi, onların oxşarlığı onların bioloji varlıq kimi bir-birinə uyğun gəlməsində ifadə olunur: hər ikisi insan nəslinin nümayəndəsidir, bir çox orqanları, tələbat və qabiliyyətləri oxşardır. Amma ictimai varlıq kimi onlar bərabər deyillər.Bu da onların anadangəlmə xarakteristikası ilə bağlıdır. Buna uyğun olaraq, davranış normaları da müxtəlifdir: kişilər üçün bu səmimilik, düzlük, müstəqillik, vicdanlılıq, qadınlar üçün isə utancaqlıq, çoxbilmişlik, hiyləgərlik, başqasının fikrini nəzərə almaq, nazlanmaq, ikiüzlülükdür. Qadınlar zərifdirlər, amma dərin ağıla malikdirlər, təhsil almağa qabildirlər. Eyni zamanda, yalnız ev təssərrüfatını, uşaqları idarə etməklə deyil, başqa sahələrdə də çalışa bilərlər. Nikaha isə kişi və qadınlar sevgi ilə daxil olmalıdırlar. Hər iki cinsin nümayəndəsi gələcək həyat yoldaşını seçməkdə bərabər hüquqa malikdir. Bununla belə, J.J.Russonun şəxsi ailə həyatı heç də uğurlu olmamışdır.O, Parisdə evində xidmətçilik edən Tereza adlı xanımla şəxsi münasibətlər qurmuş, ömrünün qalan hissəsini onunla yaşamışdır. Russo həmin qadından 5 uşağa sahib olsa da, onların hamısını uşaq evinə vermişdir.

Alman filosofu İmmanuel Kant (1724-1804) kişi və qadınları siyasi həyatda iştirak etmək xarakterinə, şəxsi xüsusiyyətlərinə və davranışına görə fərqləndirirdi.Kişilərə aktiv vətəndaşlıq, siyasi qərarları qəbul edilməsi, müstəqillik xasdır. Qadınlara isə passivlik, idarə ediləcək obyek olmaq xasdır. Qadınların bir çox xüsusiyyətləri uşaqların doğulması ilə bağlıdır: o qorxaqdır, zəifdir. Digərləri isə cəmiyyəti nəcibləşdirmək rolu ilə bağlıdır: gözəl natiq, hər şeyi ölçüb biçən, ifadəli sifətə malik olmaq, mənəvi cəhətdən yüksək vəs. İ.Kant heç vaxt evlənməmiş və ömrünün sonunadək elmöyrənməklə məşğul olmuşdur. O, 1781-ci ildə yazdığı ”Xalis zəkanın tənqidi” adlı məşhur əsərində yazırdı: “Gecə ucadır, gündüz gözəl, dəniz ucadır, yer gözəl, kişi ucadır, qadın gözəl”.

Kantın söylədikləri gender sterotipləri bu gün də qal-mışdır. Belə bir fikir bu günümüzdə də vardır ki, qadınlar siyasi qərarlar verə bilməzlər və onların bu xüsusiyyəti bio-loji və mədəni təyinatları ilə bağlıdır. Göründüyü kimi, keçmişin alimləri kişi və qadınların müxtəlifliyini qeyd etmişlər, amma bu bu müxtəlifliyin səbəblərini təbii hesab etmişlər.

İngilis yazıçısı Meri Uollstounkraft (1759-1797) belə bir ideya irəli sürmüşdür ki, kişi və qadınların təbii meyilləri və xüsusiyyətləri tərbiyənin nəticəsidir: qızlar gözəl geyinir və gəlinciklə oynayır, oğlanlar isə səsküylü, aktiv oyunlar oynayırlar. Bu gün bu məsələlər gender sosializasiyası kimiqeyd olunur.

Beləliklə, birinci dövrdə müxtəlif almlər ayrı-ayrı ideyalar irəli sürmüşlər ki, bu ideyalar da sonrakı dövrdə gender psixologiyasının inkişafında mühüm əhəmiyyət kəsbetmişdir.

2. Эендер психолоэийасынын предметинин вя сащяляринин формалашмасы

İkinci dövr (XIX əsrin sonu-XX əsrin əvvəli) gender psixologiyasının predmetinin və təbii elmi əsaslarının formalaşması dövrü kimi özünü göstərir. Bu zaman bir çox qərb dövlətlərində cəmiyyətdə qadınların vəziyyəti ağır idi. Fransa, İngiltərə və ABŞ-də qadınları azadlğı uğrunda mübarizə başlandı. Bu Rusiyada da özünü göstərdi. Feminizm cərəyanı geniş vüsət aldı.

Gender psixologiyasının inkişafına təsir edən amillərdən biri də müxtəlif təhsil müəssisələrində hər iki cinsin nümayəndələrinin təhsil almasıdır. Paralel olaraq yeni sahənin iki hissəsi meydana gəldi: qadın psixologiyası və cinsifərqlərin psixologiyası.Hər şeydən əvvəl bu iki problemlərdən birinə bütövlükdə həsr olunmuş tədqiqatlar yarandı.

Rus alimi P.E. Astafyevin (1846-1893) əsərlərində zaman psixi aktların və hadisələrin bir-biri ilə əvəz olunmasıbaxımından psixi həyatın əsas faktoru kimi göstərilir. Bu faktora əsasən kişi və qadınların psixi tipi müəyyənləşir: qadınlar daha cəld, kişilər isə yavaş psixi templə seçilir.

XX əsrin başlanğıcında yenicə çapdan çıxmış Avstriya alimi Otto Vayningerin (1880-1903) "Cins və xarakter"əsəri geniş mübahisələrə səbəb oldu. Bu əsərdə o, hər iki cinsin müşahidəsi ilə bağlı çoxlu ideyalar irəli sürmüşdür ki, onların bəziləri qəbuledilməzdir. Belə ki, bu ideyalarda "mi- zoginlik" (qadına nifrət) meyli özünü göstərir. Onun ideyaları ümumi qəbul olunmuş əxlaq qaydalarına zidd idi. Lakin müəllifin əsas üç ideyası gender psixologiyasının inkişafına təsir göstərmişdir. Bu ideyalar aşağıdakılardır: a) biseksuallıq və androginlik haqqında; b) psixikada cinsi fərqlər; c) seksual gender münasibətləri haqqında. O.Vayninger “Cins və xarakter” əsərində cinslər arasındakı bütün fərqliliklərin bioloji əsaslardan qaynaqlandığına işarə edərək yazırdı: “Cinslərin bioloji xarakteristikaları üçün inkişaf etdirilmiş əsas müddəalardan alınan nəticələr elə radikaldır ki, hətta bu vaxtadək bizim nəticələrlə razılaşmış insanları da hürküdüb qaçıra bilər”.

XIX əsrin ortalarında Almaniyada, Fransada, Böyük Britaniyada və s. ölkələrdə qadınları tədqiq edən təşkilatlarmeydana gəldi və bir sıra əsərlər nəşr edildi. Onların biri holland alimi H.Heymansın 1911-ci ildə yazdığı "Qadın psi- xologiyası" əsəri oldu. Bu əsərdə o, qadın və kişi psixologiyası ilə bağlı xüsusiyyətləri göstərmiş, emosionallıq, şüurun səviyyəsi, təlqinə qapılma, qavrayış, hafizə, təsəvvür, təxəyyül və əqli qabiliyyətərlə bağlı cinslər arasındakı fərqləri açıqlamışdır.

Bir qədər sonra Moskvada L.P. Koçetkovanın "Kişi cinsinin bitkilər və heyvanlar aləmində məhv olması" adlı kitabı nəşr olundu. Müəllifin gəldiyi nəticələr, onun şərhləri kişi cinsinə olan nifrəti göstərir. O, hesab edirdi ki, nəsil artırmaq funksiyası qadın üçün bir maneədir. Ona görə də o, cəmiyyəti kişilərsiz və övladı olan qadınlarsız görürdü. Bu zaman qadınları qarşısına geniş üfüqlər

açılacaq. Kişilərdə də anoloji ideyalar meydana gəlmişdi. Məsələn, H.F. Fedorov qadın cinsinin sonu haqqında ideyaları irəli sürmüşdür. Bu ideyalar gender psixologiyasının inkişafına deyil, onun tənəzzülünə gətirib çıxarırdı. Mövzunu özü isə cinslərin müharibəsinə səbəb olurdu. Psixoloqlar gender psixologiyası sahəsində tədqiqat aparanda da hər iki cinsin nü- mayəndələrinin qarşılıqlı anlamalarına nail olmalıdırlar. Amerikan psixoloqu və etnoqrafı Marqaret Midin (1901-1978) 1928-i ildə nəşr olunmuş "Samoada böyümə" adlı əsəri etnoqrafiya və gender psixologiyasının inkişafına güclü təkan vermişdir. O, həmin əsərində Samoa xalqlarının ailəsində oğlan və qızların, kişi və qadınların ünsiyyət, davranış və tərbiyə sahəsində xüsusiyyətlərini və qarşılıqlı münasibətlərini əks etdirmişdir. Bu əsərdə gender identikliyi, gender sosializasiyası kimi məsələlər də diqqəti cəlb edir.

Beləliklə, ikinci mərhələnin sonunda gender psixologiyasının predmeti və onun bölmələri haqqında fikir formalaşdı. Bu dövrdə eksperimental tədqiqatlar başladı. Helen Tompson, Leta Xollinqvors, Helen Doyç və b. öz eksperimentlərində kişilər və qadınlar arasında intellektual fərqləri, kişilərin bu sahədə qadınları üstələmələrini nümayiş etdirmişlər. Bununla belə, cinslərin bərabərliyi hərəkatının nümayəndələri bu dövrdə həm də neqativ rol oynamışlar. Belə ki, oğlan və qızların intellektual testləri yerinə yetirərkən göstərdikləri nəticələrdəki fərqlər cəmiyyətdə sağlam olmayan reaksiyalara səbəb olmuşdur. Nəticədə, ABŞ-da cinsi fərqlərə aid olan testlər ya aradan götürülmüş, ya da tamamilə dəyişdirilmişdir.

3. Фрейдизм вя йа психоанализ мярщяляси

Gender psixologiyasının formalaşmasında ***üçüncü dövr*** "Psixoanalitik dövr" adlanır (XX əsrin əvvəlləri-1930- cu illər). Bu mərhələnin başlanması Ziqmund Freydin fəaliyyəti ilə bağlı belə adlandırılmışdı. Freydin adı gələndə qadın psixologiyası nümayəndələrində neqativ emosiyalar özünü göstərir.Onun baxışları bu gün də diskussiya doğurur. Freydin özünü gender psixoloqu kimi təqdim etmək doğru olmazdı. Lakin, onun "Qadın psixologiyası", "Qadınlıq", "Məhəbbət həyatının alçaldılması haqqında" və s. kimi əsərləri və burada irəli sürülən cinslərin psixoloji xüsusiyyətləri haqqında müddəalar psixologiyanın və bir sıra digər elmlərin inkişafına güclü təsir göstərmiş, qadınlar haqqında təsəvvürlərdə mənfi stereotiplər yaratmışdır.

Freydin bu sahədəki fikirlərini ilk dəfə tənqid edən Şarlotta Perkins onun qadın psixologiyası haqqında baxışlarını "fallik kultun dirçəlişi" adlandırmışdır.

1920-ci ildə Freydin tələbəsi Karen Horni də onun fikirlərinə münasibət bildirərək qeyd etmişdir ki, qadınlar haqqında ideyalar maskulin narsizmdən yaranmışdır. Freydin "kişilərə həsəd aparmaq qadınların inkişafında kritik rol oynayır" fikirlərinin əksinə çıxan Horni göstərirdi ki, kişilər ondan əziyyət çəkirlər

ki, uşaq dünyaya gətirə bilmirlər, onlar da "qadınlarda olan uşaqlığa" həsəd aparırlar.

Klara Tompson qeyd edirdi ki, kişilərin baxışları onların hakim olmaları ilə bağlıdır. Əgər onlar matriarxart cəmiyyətdə yaşasaydılar, simvollar dəyişilərdi. Bir çox alimlər göstərirlər ki, Freydin qadın inkişafı ilə bağlı oçerkləri şiş xəstəliyindən əziyyət çəkdiyi illərdə (1925-1933) yazılmışdı. Sonrakı dövrdə psixoanaliz və qadın psixologiyası arasında ziddiyyətlər daha da inkişaf etdi.1960-cı illərin sonunda psixoanaliz qadınların ruhi sağlamlığında təhlükəli elan edildi.

Keçmiş SSRİ-də Sovet hakimiyyətinin ilk illərində gender psixologiyasının inkişafı ilə bağlı sosial-siyasi iqlim dəyişdi. Bu dövrdə kişi və qadınların bərabərliyi ideyası irəli sürülürdü, qadını ictimai və istehsalat işi ilə bağlı olaraq ailədən ayırmaq istəyirdilər. Bu ona gətirib çıxarırdı ki, cinslərarasındakı fərqlər, qadın psixologiyası kimi məsələlər qəbuledilmirdi. Bu məsələlər uzun müddət davam etdi və həmin dövrü "cinssiz psixologiya" və "cinssiz pedaqogika" adlandırırdılar.1920-1930-cu illərdən başlayaraq SSRİ-də gender problemləri üzrə araşdırmalar başlandı. Rusiyada E.A. Arkin, P. P. Blonskinin apardığı tədqiqatlar buna misal ola bilər. 1927-ci ildə E.A. Arkinin "Uşaq kollektivinin öyrənilməsi" haqqında kitabı nəşr olundu. Burada həm lider oğlanların, həm də lider qızların öyrənilməsinin nəticələri şərh olunurdu. O, müəyyən etmişdir ki, bir çox uşaq qruplarındarəhbər oğlanlar olur, qızlar isə kiçik qruplaşmalara rəhbərlik edirlər.Oğlanlar bütün qrupa təsir göstərirlər. Belə təsirə səbəb oğlanların təşəbüskarlıq və texniki bacarıqlarının olmasıdır.

Təəssüf ki, belə tədqiqatlar 1930-cu illərin sonundadayandırıldı, bu dövrdə pedologiya, psixotexnika, sosial psi-xologiya kimi elmlər qadağan edildi. SSRİ-də 1960-cı illərin ortalarına qədər gender psixologiyasının inkişafında bir uçurum əmələ gəldi.

4. Эениш експериментал тядгигатларын башланылмасы, илк нязяриййялярин йаранмасы. Эендер психолоэийасынын сürətli инкишафы

Gender psixologiyasının formalaşmasında **d*ördüncü dövr*** (1960-1980-ci illər) geniş eksperimental tədqiqatların aparılması və ilk nəzəriyyələrin meydana gəlməsi dövrü kimi özünü göstərir.

1930-cu ildən 1960-cı illərə qədər yaranmış fasilə keçmiş SSRİ-də siyasi səbəblərdən baş vermişdi. Bəs nəyə görə bu xarici ölkələrdə də müşahidə olunurdu? Məşhur genderşünas alim T.V.Bendas bunun səbəbini qadın azad-lığı uğrunda hərakatlarin təsirində görürdü.

Feminizmin aktivləşməsi ilə əlaqədar sonralar gender tədqiqatları da genişlənməyə başladı. Gender psixologiyasına həsr olunmuş əsərlərdən

danışarkən Martina Xorner,Eleonora Makkobi, Sandra Bem, Nensi Xodorov və Kerol Hilliqan kimi qadın alimlərin adını xüsusi qeyd etmək lazım- dır.

Eleonora Makkobi - cinsi fərqlər psixologiyasında ən məşhur simalarından biridir. Onun 1974-cü ildə çapolunmuş "Cinsi fərqlərin psixologiyası" kitabı gender psixologiyası sahəsində ən çox sitatlar gətirilən əsərlərdəndir. 1999-cu ildə özünün yeni monoqrafiyasında E.Makkobi"cins" termini ilə yanaşı "gender" termini də işlətmişdir. O, gender psixologiyasının inkişafına xüsusi töhfə vermişdir. E.Makkobi K.Ceklinlə birgə 1970-ci illədə cinslər arasındakı fərqləri tədqiq etmək üçün metaanaliz statistik metodunuişləyib hazırlamışdır. E.Makkobi Kerol Ceklin ilə birgə tədqiqatlarında cinslər haqqında 1400-ə qədər faktı təhlil edərəkbelə qənaətə gəlmişdir ki, indiyə qədər elmə məlum olan gender stereotiplərinin əksəriyyəti öz təsdiqini tapmamışdır.Bəzi fərqlər vardır və onlar əsasən məkana bələdləşmə və riyazi qabiliyyətlərdə, nitq vərdişlərində və aqressivlik kimi xüsusiyyətlərdə müşahidə olunur.

1960-cı illərin sonunda Martina Xorner qadınların kişilərlə müqayisədə az uğur qazanmasının sadə səbəbini belə izah etmişdir: qadınlarda motivasiyanın olmaması, "müvəffəqiyyət qorxusu". Xornerin tədqiqatları böyük rezonansa səbəb oldu. Bir çox psixoloqlar onun korreksiyası üçün xüsusi proqramlar hazırladılar. Onlardan biri tanınmış psixoterapevt M. Fridman tərəfindən hazırlanmış "Müvəffəqiyyət qorxusunu aradan götürülməsi" adlanır. Kollek Daulinq "Zoluşkanın kompleksi" (1981) əsərində də "uğurdan qaçış" ideyasını əsas götürmüşdü. O, göstərir ki, qadınlardagizli olaraq müstəqillikdən qorxu hissi var.

Sonralar isə bir çox ziyalı, səriştəli, işgüzar qadınlarda özünü göstərən "fırıldaqçı" (başqasının adını mənimsəyən) fenomeni müəyyən olundu. Belələri öz qazandıqlarıuğurlardan həzz ala bilmir və belə hesab edirlər ki, buna layiq deyillər.Bu dövrdə həm də belə qadınlara yardım üçünpsixoloji dəstək proqramları işlənib hazırlanmışdı.

1974-cü ildə gender psixoloqlarinin diqqəti - SandraBemin konsepsiyasına yönəldi. Bu konsepsiya müxtəlif identiklikdə 3 tip insanı fərqləndirirdi: 1) femin xarakteristikanın üstünlüyü ilə seçilən; 2) maskulinlik keyfiyyətləri üstün olan; 3)androginlər (hər iki xüsusiyyətləri olanlar).

S.Bem ilk dəfə olaraq androginlik ideyasını psixi sağlamlıqla əlaqələndirirdi. Bu konsepsiya psixoloqların-alim və praktiklərin aktivləşməsi ilə nəticələndi. 1976-1984-cü illər arasında 100-ə qədər belə tədqiqatlar aparıldı. Sonralar Bemin bu nəzəriyyəsi tənqid edildi və o özü bu nəzəriyyəsindən imtina etdi. O, yeni bir nəzəriyyə-gender sxemi nəzəriyyəsini işləyib hazırladı. Bu tədqiqatçının adı gender psixologiyasında ən məşhur adlardan biri oldu.

Psixoanalitik feminizmin görkəmli nümayəndəsi Nensi Xodorovun konsepsiyası isə öz mürəkkəbliyi ilə seçilir. O, 1978-ci ildə “Analığın xatırlanması: psixoanaliz və cinslərin sosiologiyası” haqqında əsərini çap etdirdi. Onun fikrincə, ana oğlan və qızları cəmiyyətdə və iqtisadiyyatda gender rollarına hazırlamalıdır.

Nensi Xodorova görə, ana oğluna və qızına münasibətdə özünü fərqli aparır, nətiədə oğlan qadını qiymətləndirməyən, xarici aləmə yönələn bir kişiyə çevrilir. Qız isə yalnız ana olmaq, ailə qurmaq üçün hazırlanır. Oğlanlarda bu dövrü pozmaq üçün müəllif ataları da uşaqların tərbiyəsində bərabər iştirak etməyə çağırırdı.

Bu nəzəriyyə geniş ictimai rezonans doğuraraq ABŞ-da milli debatlar yaratdı. Bu debatlarda qadınlara karyera qurmağa imkan yaratmaq tələb olunurdu.

1982-ci ildə Kerol Hilliqanın "Başqa səslə" məqaləsi çap olundu. Müəllif göstərirdi ki, qadınlar cəmiyyətdə qəbul olunmuş əxlaq qaydalarına münasibətləri ilə kişilərdən fərqlənirlər. Onların baxışları fərqlidir, amma yetkindir. Qadınlar üçün insanlarla qarşılıqlı münasibətlər vacibdir və əxlaq normaları da onların əsasında qurulur. Kişilər isə əxlaqi müzakirələri qəbul olunmuş qanunların əsasında qururlar.

Beləliklə, bu dövrdə küllü miqdarda emprik faktlar toplandı. Rusiyada 1960-cı illərin sonunda gender probleminin araşdırılması üçün əlverişli şərait yarandı. B.G. Ananyevin bu sahədə böyük xidmətləri olmuşdur.Cinsi dimorfizm prinsipi bu dövrdə psixoloji tədqiqatların əsas prinsipinə çevrildi. B.G. Ananyev nəinki bu tədqiqatları təşkil etdi, həmdə onlara dərin nəzəri qiymət verdi. Qadın və kişilərin qlobal fərqləri müəyyənləşdirildi: qadınların erkən yetişkənliyi, qadın orqanizminin və psixikasının stabilliyi, qadınların tipikliyi, kişilərin orjinallığı və s.

Bu dövrdə cinsi fərqlər Sovet psixologiyasında zoopsixologiyadan tutmuş sosial psixologiyaya qədər geniş aspektdə tədqiq olunurdu.

Sovet dövründə psixoloqlardan Ə.Ə.Əlizadənin, S.M. Barrunovun, E.Ş. Çuqunovun, T.V. Bendasın və b. tədqiqatları bu sahədə aparılan işləri daha da zənginləşdirdi.

Azərbaycanda Ə.Ə. Əlizadə psixoseksual inkişafın sosial-psixoloji nəzəriyyəsi sahəsində tədqiqatlar apararaq, yeni bir məktəbin əsasını qoydu. Alimin bu istiqamətdə " Ailədə uşaqların cinsi tərbiyəsi" (Bakı, 1968), "Uşaq və yeni- yetmələrin cinsi tərbiyəsi" (Bakı, 1968) adlı kitabları, yüzlərlə məqalələri çap olundu. Ə.Ə. Əlizadə elmi axtarışlarının nəticəsi olaraq 1975-ci ildə "Cinsi dimorfizm və şəxsi qarşılıqlı münasibətlərin psixoloji problemləri" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etdi.Bu dissertasiya Rusiya və Azərbaycan psixologiyasında bir tərəfdən psixoloji cins, digər tərəfdən cinsi fərqlər konsepsiyasının formalaşmasında önəmli rol oynamışdır. Təsadüfi deyildir ki, E.S. Kuzminin "Sosial psixologiya (LDU,1979) əsərində A.A.Bodalyev, İ.S.Kon, A.Q.Xripkova kimi tanınmış alimlərin sırasında professor Ə.Ə.Əlizadənin də adı çəkilir və ona yüksək qiymət verilir.

Ə.Ə.Əlizadəyə görə, psixi cins sosial–psixoloji fenomendir və şəxsiyyətin strukturunda önəmli yer tutur. Onun formalaşması prosesinin xüsusiyyətlərini ancaq və ancaq şəxsiyyət psixologiyasının uğurları axarında açıqlamaq olar. Psixi cinsin strukturu çoxcəhətlidir. O, müəyyən sosial–psixoloji sosiumda əmələ

gəlir, tələbatmotivasiya sahəsində, sərvət meyllərində, münasibətlər sistemində, xarak- ter strukturunda və mənlik şüurunda formalaşan özünəməx- sus cinsi xüsusiyyətlərlə səciyyələnir.

Cinsi fərqlər və cinsi tərbiyə məsələləri Ə.Ə.Əlizadənin yaradıcılığında müxtəlif istiqamətlərdə araşdırılmışdır. Ə.Əlizadəyə görə, cinsi tərbiyə ilk növbədə cinsi fərqlərin öyrənilməsi, nəzərə alınması əsasında aparılmalıdır.

Ə.Ə.Əlizadə cinsi tərbiyə və cinsi fərqlər probleminin ilk növbədə ailə kontekstində nəzərdən keçirir.Onun əsərlərində bu problem oğlan-qız tərbiyəsi, yaş xüsusiyyətləri, cinsi xüsusiyyətlər, qadın-kişi münasibətləri, ər-arvad mü- nasibətləri, valideynlərin övladları ilə münasibətləri kontekstində öyrənilir. Bu problemlər dünya psixologiyasının aktual problemləri içərisində xüsusi yer tutur. Müasir dövrdə gender probleminin, onun sosioloji, psixoloji və pedaqoji məsələlərinin öyrənilməsi məhz bu araşdırmalara söykənir. Ə.Ə.Əlizadə bu sahədə araşdırmalarını ümumiləşdirərək, dünya gender psixologiyasının inkişafında mühüm əhəmiyyəti olan “Uşaqlar və yeniyetmələr:seksual inkişafın psixopedaqogikası” (Bakı, 2009) monoqrafiyasında əks etdirmişdir. Əsərdə uşaq seksuallığı, seksual inkişaf bilavasitə psixopedaqoji qaynaqlarla açıqlanır.

Azərbaycan psixologiya elminin korifeyi, professor Ə.Ə. Əlizadə ömrünün son illərində gender psixologiyası sahəsində olan tədqiqatlarını davam etdirərək "Qadın psixologiyası" (Bakı, 2015) adlı samballı əsərini ərsəyə gətirdi. Çox təəssüf ki, əsər görkəmli alim dünyasını dəyişdikdən sonra işıq üzü gördü. "Qadın psixologiyası" kitabı həm Azərbaycan psixologiyasını, həm dünya gender psixologi- yasını zənginləşdirdi. Kitabda qadın psixologiyasının aktual məsələləri etnopsixoloji ənənələr və müasirlik, elm və praktika reprozentasiyası axarında araşdırılır. Əsərdə Ə.Ə.Əlizadə göstərir: "Sevib-sevilmək qızların, gəlinlərin ən ülvi arzularından biridir. Qadın psixologiyasında başlıca açar sözlər belədir: onlar qızlar, gəlinlər "ancaq sevərkən yaşayırlar" (Helvetsi). Ailə məkanında isə bu parafraz onlarla qadının təcrübəsi kökündə bu gün əsrin paradoksları ilə səslənməyə başlayır: qadın ancaq sevilərkən yaşayır, se- vilməyəndə isə..." Problemin konseptual modeli müəllifin məhəbbət konsepsiyası kökündə Azərbaycan etnopsixologiyasının önəmli perimetrləri ilə açıqlanır.

Professor Əbdül Əlizadə çoxlu sayda aspirant, dissertant və elmər doktorları yetişdirmişdir. Qətiyyətlə deməkolar ki, görkəmli alim psixologiyada öz məktəbini yaratmışdır. Onun davamçıları gender psixolgiyasının müxtəlif sahə- lərində tədqiqatlar apararараq bu sahəni daha da zənginləşdirmişlər.

Beşinci dövr (1990-cı ildən müasir dövrə qədər) експериментал тядгигатларын, емприк фактларын нязяри дярк олунмасы, эендер проблемляринин юйрянилмяси методларынын işlənilməsi gender psixologiyasının sürətli inkişafı ilə xarakterizə olunur.Yeni dövrdə alimlər gender probleminin mənimsənilməsinin daha incə yollarını axtarıb tapdılar.

2000-ci ildə Stokholmda psixoloqların növbəti ümumdünya konqresi oldu. Burada 6000 insan iştirak edirdi.Bundan başqa "Gender 1","Gender 2", "Gender: şəxsiyyət","İş və gender", "Şüurda cinsi fərqlər" və s. adda konqreslər keçirildi.

Bu dövrdə ən çox tədqiqat aparılan sahə cinsi fərqlər və gender fərqləri psixologiyası idi. Eyni zamanda qadınpsixologiyası sahəsi də inkişaf edirdi. Kişilərin psixologiyasıilə bağlı da tədqiqatlar yarandı, amma əvvəlki kimi "cinssiz"variantda deyil, cinslərin gender rollarının xüsusiyyətləri haqqında tədqiqatlar daha da genişləndi. Bir çox ölkələrdə gender tədqiqatları əsasında dərsliklər yeniləndi, tərbyə sistemində gender yanaşması özünü göstərdi.

Təəssüf ki, bizim cəmiyyətdə gender psixologiyası hələ inkişaf dövrünü keçir. Müxtəlif sahələrdə tədqiqatlar aparılır: cins-rol stereotipləri, gənc ailənin rol strukturu, kişi və qadınların psixofiziologiyası, liderliyin gender aspektləri,qadın davranışının stereotipləri və s. mövzular son illər elmitədqiqatların predmetinə çevrilməkdədir. Problemin ciddi- liyinə olan diqqətin nəticəsidir ki, Azərbaycanda Gender araşdırmaları mərkəzləri fəaliyyətə başlamış, 2017, 2018və 2019-cu illərdə üç dəfə ardıcıl olaraq Azərbaycan Universitetində “Gender problemi və müasir Azərbaycan” adlı respublika və beynəlxalq elmi konfranslar keçirilmişdir. Bir çox ali məktəblərdə gender və ailə problemlərinin öyrənilməsi xeyli aktuallaşmış, BDU-da “Gender və tətbiqi psixologiya” kafedrası yaradılmışdır.

Mövzu 4. AZƏRBAYCAN İCTİMAİ FİKİR TARİXİNDƏ GENDER PROBLEMİ

Plan:

1. Azərbaycan klassik ədəbiyyatında gender məsələləələri

2. Azərbaycanda gender problemi tarixi aspektdə

3. Azərbaycanda gender siyasəti və gender demokratiyasının inkişafı

İstifadə edilmiş ədəbiyyat:

1. Abbasov Ə., Mirzəzadə R. Genderə giriş. Bakı, 2004.

2. Байрамов Я.С., Ялизадя Я.Я. Психолоэийа: Али мяктябляр цчцн дярслик. Бакы: Чинар- чап, 2002.

3. Əfəndiyeva Ü. A. Əsrin gender konsepsiyası.Bakı, ADPU, 2017.

4. Ялизадя Я.Я. Ушаг вя йенийетмяляр: сексуал инкишафын психопедагоэикасы. Бакы: АДПУ-нун няшри, 2009.

5. Ялийев Р.И. Психолоэийа тарихи. Бакы: Нурлан, 2006.

7. Qurani-Kərim. Bakı. Azərnəşr, 1991.

8. Mollayeva E.Ə. Təlim prosesində şagirdlərin tərbiyəsinin imkan və vasitələri. Bakı, "Müəllim" nəşriyyatı, 2009.

9. Mollayeva E.Ə. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan qadınlarının maarifçilik və qadın hərəkatında rolu//Elmi əsərlər// Bakı, ARTPİ, 2007, №4.

1. Azərbaycan klassik ədəbiyyatında gender məsələlələri

Azərbaycan klassik ədəbiyyatının bir çox nümunələrində: "Kitabi-Dədə Qorqud"dastanında, N.Gəncəvinin, M.Füzulinin, M.F.Axundovun, F.B.Köçərlinin, M.M.Nəvvabın, N.B.Vəzirovun, C.Məmmədquluzadənin, M.Ə.Sabirin, H.Cavidin, C.Cabbarlının və b. əsərlərində cinslərarası sosial bərabərlik, qadına münasibət kimi gender məsələləri geniş əksini tapmışdır.

Gender aspektlərinin ədəbi və incəsənət əsərlərinin tədqiqi planında Oğuz türklərinin məşhur eposu olan "Kitabi-Dədə Qorqud" dastanı bu cəhətdən böyük maraq doğurur. Dastanda qadın surətləri, onların ailədə və cəmiyyətdə vəziyyəti geniş əks olunmuşdur.

Burada qadınlar təsvir edilən hadisələrin ən fəal aparıcı qüvvələrindəndir. Dastanda qadın obrazları haqqında danışarkən ilk növbədə əsərdə qadınlığın ümumi mövqeyindən, analıq şərəfindən, döyüşdəki igidliklərindən, at çap- maqda, ox atmaqda kişilərdən geri qalmamalarından, saf məhəbbət, ailə namusu və sadiqlik kimi yüksək bəşəri xüsusiyyətlərdən danışmaq lazımdır.

"Kitabi-Dədə Qorqud" boylarında hər şeydən öndə anadır, ana simvolu dastanda müqəddəsir. Bu yüksək ad bütün boylarda qürurla səslənir. Nə eşq, nə məhəbbət, nə gözəllik heç bir başqa hiss bu adın qarşısında dayana bilmir. Dastanda "Ana haqqı, Tanrı haqqı"na bərabər tutulur, ana müqqəddəsləşdirilir. Oğuz igidləri özlərinə tay ola biləcək, onlarla çiyin-çiyinə vuruşacaq, ocağı, evi qoruya biləcək xanımlar axtarır. Dastandakı qadın obrazlarının əksəriyyəti qurşaq tutur, ox atır, ov ovlayır, Oğuz elinin dar günündə ərləri ilə yanaşı döyüşlərdə iştirak edirlər. Ərə gedən qızın isməti, namusu, adı hər şeydən üstün tutulur. Ailə quran oğlanlar öz sevgililərini fiziki cəhətdən güclü görmək is- tədikləri kimi, əxlaqi cəhətdən də təmiz olmalarını arzulayırlar, onları ismətli, bakirə görmək istəyirlər. Dastanda Bamsı Beyrəyin dilindən eşitdiyimiz "Eyibli ərə getmək eyibdir ər evinə" fikri buna misal ola bilər.

Oğuz qadınları şərəfi, namusu, saf sevgi uğrundakı dəyanətləri, dözümlükləri və sədaqətləri ilə yüksək mövqeyə yüksəlmişlər. Bu səbəbdən də əsl türk üçün üç dilək hər zaman müqəddəs sayılıb: birincisi atı yəhərləmək, ikincisi ət yemək, üçüncüsü isə arvadını sevmək. Əsrlər boyu qadın türkün namusu sayılıb. "Kişinin namusu üç şeydir: at, arvad və papaq. Bunlara toxunmaq, onun namusunu ayaq altına atıb tapdalamaq demək idi. Türklər qadına müqəddəs bir varlıq kim baxırdılar.

Dədə Qorqud özü də qadına müqəddəs baxır, lakin onları xarakterinə görə 4 yerə bölürdü: "Arvadlar dörd cürdür: birisi soy soldurandır, birisi toy doldurandır, birisi evin dayağıdır, birisi necə desən bayağıdır.

Evin dayağı odur ki, çöldən bayırdan evə qonaq gəlsə, əri evdə olmasa, o gələn adamı yedirdib içirdir, əzizləyib-oxşayır, yola salır. Buradan da oğuzlar üçün qonağın nə qədər əziz olduğu göstərilir, Dədə Qorqudun dilindən "Ocağına bu cür arvad gəlsin"... duası səsləndirilir.

Gəlin, o ki, *soy soldurandır*, oğrunca yerindən qalxar, əl-üzünü yumadan doqquz bozlamacla bir bardaq qatığı gəvələyər, tıxıb-basıb doyunca yeyər, əlini böyrünə vurar, deyər: Bu evi görüm, xaraba qalsın! Ərə gedəndən bəri qarnım da doymadı, üzüm də gülmədi. Ayağım başmaq, üzüm yaşmaq görmədi". Deyər: "Ah nə olaydı, birinə də gedəydim. Umduğumdan da yaxşı-uyğun olaydı". Onun kimisinin, xanım, uşaqları böyüməsin! Ocağına bu cür arvad gəl- məsin.

Gəlin, o ki, *toy doldurandır*, tərpənincə yerindən qalxdı, əl üzünü yumadan obanın o ucunu bu ucuna çarpışdırdı. Söz-şayə yaydı, qapılara qulaq qoydu. Öynəyədək günortaya qədər gəzdi. Öynədən sonra evinə gəldi. Gördü ki, oğru köpəklə yekə dana evini qatıb qarışdırmışdır, evi toyuq komasına, inək damına dönmüşdür. Bunun kiminin, xanım, uşaqları böyüməsin! Ocağına bunun kimi arvad gəlməsin.

Gəlin, o ki, necə desən *bayağıdır*. Əri evdə olanda çöldən -bayırdan evinə bir abırlı qonaq gəlsə, əri desə ki, çörək gətir yeyək, qonaq da yesin. Desə, bişmiş çörək daimi deyil, yemək lazımdır. Arvad deyər: "Neyləyim, bu yıxılacaq evdə un yox, ələk yox. Dəvə də dəyirmandan gəlmədi... Nə gəlirsə, mənim sağrıma gəlsin", deyə əlini yanına vurar, üzünü o tərəfə, sağrısını ərinə döndərər. Min söylərsən, birini eşitməz, ərin sözünü qulağına almaz. O, Nuh peyğəmbərin eşşəyi nəslindəndir. Xanım, ondan da sizi Allah saxlasın! Ocağınıza belə arvad gəlməsin!

Dədə Qorqud qonağa hörmət etməyən tənbəl qadınları pisləyir, yaxşı qadınları tərifləyirdi. Qadının başqa adama, məsələn, qonağa münasibətə görə səciyyələndirilməsi Azərbaycan ictimai fikir tarixində psixoloji xarakteristikanın ilk nümunələri kimi qiymətlidir.

"Salur Qazanın evinin yağmalanması" boyunda düşmənlər Qazan xanın arvadi Burla xatunu qəflətən əsir alirlar. Onlar Qazan xanın şərəfinə toxunmaq üçün bundan istifadə etmək istəyirlər. Lakin Burla xatun paltarını dəyişib qız- ların içində gizləndiyi üçün düşmənlər onu tanıya bilmirlər. Düşmənlər ananı müəyyən etmək üçün onun gözü qarşısında oğlu Uruzu dara çəkmək və ətindən qovurub qizlara yedirtmək istəyirlər. Lakin ana ogulunun

təkidilə bu ağır izti- raba tab gətirir. Uruz anasına deyir: «Saqın ana, mənim üstümə gəlməyəsən. Mənim üçün ağlamayasan. Qoy məni çəngələ vursunlar, qoy ətimdən çəksinlər, qara qovurma etsinlər, qırx bəy qızının önünə aparsınlar. Onlar bir yeyəndə, sən iki ye. Təki səni düşmənlər bilməsinlər, tanımasınlar». Ana ürəyi yanıqlı-yanıqlı deyir:

"Qaza bənzər qız-gəlinimin çiçəyi oğul! Oğul, oğul, ay oğul!

Doqquz ay dar qarnımda gəzdirdiyim oğul!

On ay deyəndə dünyaya gətirdiyim oğul!

Bələyini beşikdə bələdiyim oğul!

Ana ürəyi buna dözmür və deyir:"Ay oğul sənin ətindən yeyimmi, yoxsa düşmənə təslim olummu?"

Uruz dedi: "Ağzın qurusun, ana! Dilin çürüsün, ana! "Ana haqqı-Tanrı haqqı" deyilməsəydi, qalxıb yerimdən durardım, yaxandan-boğazından tutardım. Qaba dizimin altına salardım. Ağ üzünü qara yerə çırpardım"

Bu səhnələr Oğuz kişisi üçün namusun tapdalanmasındansa, ölümün daha sərfəli olduğunu göstərir. Oğlu anasına deyir ki:

Sən sağ ol, xanım, ana! Atam sağ olsun! Bir mənim kimi oğul tapılmazmı?

Dastanda təsvir olunduğu kimi, Burla xatun və onu əhatə edən nəcib qızlar qadın ləyaqətini, el-oba ləyaqətini hər şeydən üstün tuturlar. Boyun sonunda Qazan xan anasını da, arvadını da, oğlunu da düşməndən xilas edir.

Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin tədqiqindən belə nəticəyə gəlmək olar ki, o, bütün yaradıcılığı boyu sosial münasibətlər, əxlaq, qadın- kişi arasındakı mənəvi bağlılıq haqqında suallara cavab axtarmışdır.Nizami dühasının ən böyük dəyərlərindən biri onun qadına, sevgiyə, ailəyə olan demokratik baxışlardır. Şair öz əsərlərində cinslərarası sosial münasibətləri özünəməxsus şəkildə vermişdir. Onun yaratdığı Leyli, Şirin, Nüşabə, Fitnə və digər qadın surətləri gender baxımından bu günə qədər aktuallığını itirməyiblər. Nizami otuz illik elmi axtarışlarının nəticəsi olan "İskəndərnamə" poemasında cəmiyyətdə qadının kişilərlə bərabər hüquqlara malik olma- sını təbliğ edirdi. Tarixi həqiqətləri pozaraq Makedoniyalı İskəndəri Azərbaycana-Bərdəyə gətirən Nizami onu qadın hökmdar Nüşabə ilə qarşılaşdırır. Heç vaxt məğlubiyyətin nə olduğunu bilməyən İskəndərə Nüşabə sübut edir ki, ağıl və müdriklikdə, qoçaqlıqda qadınlar heç də kişilərdən geri qalmırlar. Nüşabə o dövr üçün çox qeyri-adi olan ideyanı- qadın və kişinin cəmiyyətdə bərabər olması ideyasını bu sözlərlə ifadə edir:

Erkək tinətliyəm olsam da qadın,

Hər işi bəllidir mənə dünyanın.

Mən də bir aslanam, düşünsən bir az, Aslanın erkəyi, dişisi olmaz.

Nizami bu yolla qadının mütiliyi, köləliyi haqqında mövhumatı rədd edir, cinslərarası münasibətlərdə bərabər hüquqluğu müdafiə edir.

Poemanın “İqbalnamə” adlanan hissəsində şair təknikahlılığı-monoqamiyanı nikahın yeganə məqbul forması kimi təbliğ edirdi. O, yazır ki, kişi üçün bir arvad kifayət edər, əgər onun çoxlu arvadı varsa, deməli heç biri yoxdur. Nizaminin bu fikirləri şəriət qanun-qaydaları ilə ziddiyyət təşkil edir. Belə ki, şəriət qadınların qapalı həyat sürməsini və çoxarvadlılığı məqbul sayırdı. Qədim türklərdə həmişə mövcud olmuş təknikahlılığı ən ideal nikah sayan, türk qadınlarının gözəllik və sərbəstliliyini tərənnüm edən şair öz demokratik fikirlərini Qıpçaq ağsaqqallarının məsləhətlərində ifadə edir: "Əgər qadına baxmaq günahdırsa, sən gözlərini ört, qadını yox!".

Nizami bütün yaradıcılığı boyu qadın azadlığı ideyasını təbliğ və təqdir edərək, islamaqədərki dövrü ideallaşdırırdı. Çünki o zamanlar türk qadınları çadra və çarşabsız gəzir, öz taleyinə özü sahib olurdu. Məclislərdə kişilərlə yan-yana oturan bu qadınlar döyüş meydanlarında da onlarla bərabər döyüşür və qəhrəmanlıqda onlardan geri qalmırdılar. Nizaminin görüşlərində sosial bərabərlik fonunda kişi və qadın arasındakı saf sevgi haqqındakı ideyaları diq- qəti cəlb edir. O sevgini insan xilqətinin günahkar tərəfi kimi qiymətləndirən orta əsrin hər şeyi dəyişməz qəbul edən sxolastik qaydalarından çox uzaqdır. Öz humanist baxışlarına sadiq qalan Nizami qadını gözəl və uca məxluq, sevgini isə insan təbiətinin ən müqəddəs, əlçatmaz zirvəsi hesab edirdi. Nizamiyə görə, həqiqi sevgi qadın ilə kişi arasındakı bütün sosial fərqləri, ziddiyyətləri aradan qaldıra biləcək bir vasitədir.

Nizaminin qadınlar haqqında mütərəqqi, liberal fikirləri onun "Xosrov və Şirin" poemasında da geniş ifadəsini tapmışdır. Şirin şərəf və ləyaqətini uca tutan, fəal, öz xoşbəxtliyi uğrunda mübarizə aparan bir qadın obrazı kimi təsvir edilmişdir. Nizaminin əsərlərində yaratdığı qadın surətləri cəmiyyət daxilində müstəqil və sərbəsdirlər və eyni zamanda cəmiyyətin aparıcı qüvvəsi olmağa qadir insanlardır. Ailə səadətinin əsası olan eşqi “uca göylərin mehrabı” sə- viyyəsinə yüksəldən və məhəbbəti ən qiymətli dünya dəyəri adlandıran böyük Nizami insan psixologiyasına dərindən bələd olan söz sərrafı idi. O, düşkün həyat tərzi keçirən, hərəmxanalar saxlayan zalım hökmdarların pis əməllərini məhkum edir, qadın psixologiyasının bəzi məxsusi xüsusiyyətlərini incə poetik tərzdə oxuculara çatdırırdı.

Böyük Azərbaycan alimi, ensiklopedik zəka sahibi Nəsirəddin Tusinin “Əxlaqi-Nasiri” əsəri cinslərin psixoloji simasının təsviri baxımından bir çox dəyərli fikirlərlə zəngindir. Övlad tərbiyəsində ata və ananın rolundan bəhs edən N.Tusi qeyd edirdi ki, ata hüququ daha çox ruhanidir, bu səbəbə görə də, övlad ata tənbehi gözləməlidir.Ana hüququ isə, nisbətən cismanidir, bu səbəbə görə də övladlar bunu daha tez hiss edir və analarına daha artıq meyl göstərirlər. Tusi ailənin idarə edilməsində ailə başçısı olan atanın müdrikliyə, nüfuza sahib olmasını vacib şərt kimi qəbul edərək yazırdı: “Ailə başçısı (mənzil sahibi) ailə camaatının ehtiyac və rəftarını nəzərə alıb onları tərifləyib damğalamağa, mü- kafatlandırıb cəzalandırmağa, vədə verib könüllərini ələ almağa, dava-dalaşa yol verməməyə, mübahisələrinə son qoymağa, aralarında sülh və dostluq yaratmağa başlamalı, elə etməlidir ki, hərəsi özünə layiq dərəcəyə çatsın, rahat yaşamaları üçün necə lazımdırsa, aralarında elə də əmək bölgüsü və həmkarlıq olsun”.

Gender münasibətləri baxımından əhəmiyyətli olan əsərlərdən biri də M. Füzulinin "Leyli və Məcnun" əsəridir. Özündən əvvəl bir çox görkəmli şairlər tərəfindən qələmə alınmış bu faciəni təfəkkür süzgəcindən keçirən Füzuli Nizaminin "Leyli və Məcnun" poemasından fərqli olaraq, feodalizm cəmiyyətində kişi və qadın arasında mövcud olan qeyri-bərabərliyi geniş və çoxşahəli şəkildə açıqlamışdır. Feodalizm dövründə mənəvi meyllərdə azadlığın islama qarşı üsyan kimi qiymətləndirilən şəraitdə məsələnin məhz bu cür qoyulması heç də asan iş deyildi. Müsəlman qadınının dözülməz vəziyyətini, onun adi insan hüquqlarından mərhum edilməsini, qadının cəmiyyətdə əşya kimi alınıb- satılmasını Füzulu böyük və saf sevgi fonunda çox ustalıqla işıqlandırmışdır. Əsərdə qatı patriarxal qanunlara söykənən sosial bərabərsizlik Leylinin dililə belə ifadə edilmişdir:

Mən gövhərəm, özgələr xiridar, Məndə deyil ixtiyari- bazar.

Dövran ki, məni məzadə saldı, Bilməm kim idi satan, kim aldı?

Leylinin yaşam tərzini, həyat yolunu özünəməxsus şəkildə ustalıqla təsvir edən şair, onun iztirablarını, daxili sarsıntılarını sosial və psixoloji cəhətdən çox ustalıqla qələmə almışdır. Leylinin keçirdiyi iztirablar Şərqdə qadının qul vəziyyətini özündə dəqiq əks etdirir. Gənclər arasındakı saf, böyük sevginin yaşadıqları cəmiyyətin sosial-mənəvi normalarına, kişi hökmranlığı üzərində bərqərar olmuş adət- ənənələrə uyğun gəlməsi böyük faciə ilə nətiələnir. Bu faciə iki nəfərin şəxsi faciəsi çərçivəsindən çıxarılıb, ümumbəşər faciə, kədər kimi qələmə verilir. Sevgililərin xoşbəxtliyinə mane olan səbəblər şəxsi faciə sərhəddini aşıb, geniş sosial-fəlsəfi məna alır.

Ailə və gender problemləri XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb-yaratmış Azərbaycan maarifçisi və mütəfəkkirlərinin yaradıcılığında da geniş istinad edilən mövzulardan biri olmuşdur. Mirzə Fətəli Axundzadədən başlamış Cəlil Məmmədquluzadəyə qədər bir çox şair və yazıçılar bu dövrdə əsasən qadın hüquqsuzluğu, onların cəhalət və nadanlığın qurbanına çevrilmələri, ailədə şiddətə məruz qalmalarını kəskin tənqid etmişlər. Bunların sırasında Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Mir Mövsüm Nəvvab, Firudin bəy Köçərli, Sultan Məcid Qənizadə, Mirzə Ələkbər Sabir, Məmməd TağıSidqi, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə və b. adlarını xüsusi qeyd etmək lazımdır.

XX əsr Azərbaycan ədəbiyyatı incəsənətin digər növləri kimi xalqın ən vacib problemlərinə daha çox diqqət verirdi. Bu baxımdan Azərbaycanda sovet hakimiyyətinin ilk illərində yeni həyat ideallarının, əxlaq normalarının təbliğ olunduğu dövrdə qadın hərəkatının inkişaf xətti maraqlıdır. Azərbaycanda bu zaman kəsiyində baş verən qadın hərəkatı Şərqin müsəlman ölkələri üçün örnək ola biləcək səviyyədə idi. Çoxəsrlik patriarxal qanunları qismən dəf edib, çadrasını atan Azərbaycan qadını sosial-ictimai həyata daha fəal qoşulur. Sovet hakimiyyəti mövcudluğunun ilk illərindən qadın siyasətini qayğı və səbrlə həyata keçirirdi. Bu hakimiyyət Şərq qadınının əsarətdən xilas olub, cəmiyyətdə gedən quruculuq işlərinə qoşulmasını nümayiş etdirirdi. Ancaq qadınların cəmiyyətdə müəyyən qədər əldə etdikləri gender bərabərliyi öz spesifikliyi ilə fərqlənirdi. Belə ki, Azərbaycan qadınına "yuxarıdan" verilən bərabərlik onu öz hüquqları uğrunda Qərb qadınları kimi mübarizə etmək təcrübəsindən məhrum edir, daha çox onlara iş qüvvəsi kimi baxılırdı.

Məişət fonunda çoxəsirlik xurafatdan, asılılıqdan qadınların azad olması əslində çox uzun və mürəkkəb proses idi. Məhz bu dövrdə ədəbiyyat və incəsənət gender bərabərliyi uğrunda böyük və çətin mübarizədə əvəzsiz rol oynadı, bu dövrdə yaşayıb yaratmış ədiblər qadın emansipasiyası məsələsini öz əsərlərində daha qabarıq verirdilər.

Bu dövrdə yaşayıb-yaratmış görkəmli yazıçı, dramaturq C.Cabbarlı qadın azadlığı probleminə öz əsərlərində geniş yer vermişdir. Qadınların cəmiyyət tərəfindən hüquqsuzluğa, mütiliyə düçar edilməsini ədib kişilərin dili ilə belə ifadə etmişdir:

Buna kim yol verəcəkdir ki, qız olsun muxtar,
Kişilər eyləsin insan kimi qızla rəftar...
...Qıza layiq deyil aləmdə hüququn alsın,
Qız gərək qüsseyi-zillətdə müdamən qalsın.

C.Cabbarlı "Qızlardan kişilərə protesto" adlı satirik şerində cəmiyyət qarşısında belə bir sual qoyur: niyə kişilər daha çox hüquqlara, hökmranlığa, qadın və qızlar isə zorakılığa, məhrumiyyətlərə məruz qalır? Ədib qızların ağır vəziyyətini onların öz dili ilə belə ifadə edir:

Qız döyülür, qız söyülür hər zaman,

Oldu qızın halı yamandan yaman!

Qadın azadlığl məsələsi C.Cabbarlının "Arvadlar deyirlər" satirik şerində də qabarıq verilmişdir:

Tanrı bizi qul kimi yaradıbmı sizə?

Böylə keçərsə durarıq lap üzə.

C.Cabbarlı “Vəfalı Səriyyə”, “Solğun çiçəklər”, “Qız qalası” və s. kimi əsərlərində qadınların faciəvi həyatını məharətlə təsvir etmişdir. C.Cabbarlının dramaturgiyasında onun mədəni inqilab dövrünün ən qiymətli əsəri sayılan, gender bərabərliyi problemini sosial doktrina səviyyəsinə qaldıran "Sevil" pyesidir. Bu pyesin hələ də patriarxal qaydaların sarsılmadığı bir vaxtda yazılmasının nə qədər cəsur və aktual bir addım olduğunu indi təsəvvür etmək çətindir. "Sevil"in ilk tamaşaları güclü əks-səda yaratmaqla bərabər, qızğın mübahisələrə səbəb oldu. Bu da ondan irəli gəlirdi ki, C.Cabbarlı zəmanənin ən aktual probleminə -"yarasına" toxunub, həyatın ən mürəkkəb sosial-psixoloji və mənəvi dəyişikliklərinə biganə qalmayıb. "Sevil" əsərini və ümumilikdə C. Cabbarlının dramaturgiyasını feminist obrazların laboratoriyası hesab etmək olar. Dramaturq “Sevil” pyesində azadlıq simvolu Sevil obrazını xüsusi məharətlə yaratmışdır.

Sevilin həyatı azərbaycanlı qadının əsarətdən azadlığa, müstəqilliyə doğru gedən yolun tarixidir. Əri Balaş tərəfindən qadın, ana, bir insan kimi atılmış, təhqir edilmiş, Sevil bütün mürtəce adətləri ayaqlayıb keçir, ərindən ayrılır və evi tərk edir. Qapılarda qulluqçuluq edib çox təhqirlərə dözən bu qadın çarşabını əri Balaşın üzünə çırpıb fabrikə, zavoda üz tutur. Həyat burulğanına atılan Sevili həyat özü sınaqdan keçirir. İnqilab illərində Moskvaya düşən, burada təhsil alan Sevil tamamilə dəyişmiş, indi həyatda özünə güvənən bir insan kimi qayıdır. O cəmiyyətdə gedən mütərəqqi fəaliyyətə qoşulmaqla o dövrün şəriət qaydalarına əsaslanan ictimai rəydəki “əxlaqlı qadın” stereotipini dağıdır. 1928-ci ildə pyesin ilk tamaşası cəmiyyətdə şok yaratdı: tamaşa qur- taran kimi bir çox gənc qadın nümayəşkar şəkildə çadrasını atdı. "Sevil" pyesində göstərilən azərbaycanlı qadınının azadlıq yolu mətbuatda qaynar disskusiyalara səbəb oldu. Hətta qatı köhnəlik tərəfdarları C. Cabbarlını öldürmək üçün məqam axtarırdılar. Bütün bu çətinliklərə rəğmən, Sevil həyata real bir insan

kimi daxil oldu. Ədəbiyyatda əvvəl yaradılmış "qadınlıq" və "kişilik" obrazları ilə "Sevil"dəki yeni gender rolları və statusları ziddiyyət təşkil edirdi. Sevil obrazı Azərbaycan ədəbiyyatında yeni gender münasibətlərini özündə əks etdirən yeni feminist tipdir. Məhz bu yenilik insanların alışdıqları gender stereotiplərini laxlatdı. Gender münasibətlərinin ənənəvi patriarxal sistemini rədd edən Sevil kimi qadınlar "kişi dünyası" stereotipinin dağılmasına səbəb olan amilə çevrildilər. Bakıda “Azad qadın” heykəlinin qoyulmasında "Sevil" pyesinin təsiri müstəsna əhəmiyyətə malik olmuşdur.

Azərbaycanda və bütün müsəlman Şərqində demokratik satirik poeziyanın banisi M.Ə.Sabir nadanlıq və dini xurafata qarşı yorulmadan mübarizə aparmışdır. Onun yaradıcılığında qadın azdlığı mövzusu xüsusi yer tutur. Gender baxımından böyük əhəmiyyətə malik olan "qadın-kişi" mü- nasibətlərindəki eybəcərliklər şairin bütün yaradıcılığı boyu kəskin tənqid atəşinə tutulur. Şairin "Qoca cadugərin qızlara nəsihəti", "Xandostu, amandır, qoyma gəldi", "Gavur qızı", "Qadının şikayəti", “Ürəfa marşı” əsərlərində cinslərarası münasibətlər daha parlaq və eyni zamanda kəskin formada verilmişdir. Bu şerlərin hər biri öz dövrünün sosial bərabərsizliyini ittiham edir.

"Xandostu, amandır, qoyma gəldi" şerində şair ürək- ağrısı ilə hələ dünənə qədər gəlinciklə oynayan bədbəxt, balaca qızcığazın böyüklər tərəfindən mənəvi, fiziki əzablara məruz qoyulmasını həmin qızcığazın özünün dililə belə ifadə edir:

Dudkeş kimi bir papaq başında, Ağ tükləri bəllidir qaşında.

Gərçi qocadır babam yaşında, Xortdandı, yamandı, qoyma gəldi!

Kirdarı yamandı, qoyma gəldi!

Azadlığı, şərəf və ləyaqəti qəddar dövrdə tapdalanan qadınların ümidsizliyi və kədəri M.Ə. Sabirin "Daş qəlbli insanları neylərdin, ilahi?" şerində böyük ustalıqla əks etdirilmişdir. Qadın hüquqları uğrunda çıxış edən maarifçi şair başa düşürdü ki, qadınların kişilərlə bərabər savadlanması və inkişaf etməsi zamanın zəruri tələbidir. Şeirin hər sətrində əsarətdə saxlanan, ərləri başqa qadınlarla əyləndiyi halda, nəsil artımı və ya ev işlərində bir vasitə kimi istifadə olunan müsəlman qadınlarının acı naləsi, göz yaşları duyulur. M.Ə.Sabir müsəlman Şərq aləmində dərin kök salmış çoxarvadlılığı kəskin satira atəşinə tutmuş, bu mənəvi eybəcərliyi əslində qadın hüquqsuzluğunun bir təzahürü kimi ifşa etmişdir:

... Şair, milət övrətlə ədalət edir, etsin,

Övrət ərə, ər övrətə rəğbət edir, etsin.

Hər kim ki, bir övrətlə qənaət edir etsin,

Üç-dördün ötüb siğədə təhdad arırız biz!

Dindarlarız, gündə bir arvad alırız biz!

Dövrünün gender bərabərliyi probleminə kəskin tənqidi münasibət bəsləyən M.Ə.Sabir "qadın azadlığı" problemi ilə yanaşı "qadın-tərbiyəçi" problemini də cəmiyyətin qarşısında duran əsas vəzifələrdən biri kimi verirdi. Qadın yalnız həyat yoldaşı deyil, həm də anadır. Ana uşağı dünyaya gətirməklə bərabər, həm də onun tərbiyəsində məsuliyyət daşıyan tərbiyəçidir. Sabirə görə tərbiyəçisi nadan, savadsız qadın olan bir xalqın tərəqqisindən danışmağa dəyməz.

Dahi sənətkar Cəlil Məmmədquluzadə də Mirzə Ələkbər Sabir kimi köhnəlmiş etnik stereotipləri, mənfi adət- ənənələri kəskin təqid edərək, qadın hüquqsuzluğuna qarşı kəskin mübarizə aparmışdır. Onun “Arvada gücləri çatar”, “İt baxandan”, “Qız götürüb qaçmaq”, “Doqquz yaşında”, “Övrət məsələsi” və s. felyetonlarında, habelə, “Danabaş kəndinin əhvalatları”, povestində və “Ölülər” komediyasında ailə və genderlə bağlı bir çox məsələlər öz əksini tapmışdır.

2. Azərbaycanda gender problemi tarixi aspektdə

Qadın azadlığı ənənələri bəşəriyyətin mədəni təcrübəsinin və inkişafının ayrılmaz, ancaq yetərincə məlum olmayan hissəsidir. Cəmiyyət həyatında gender ideyalarının meydana gəlməsi və bu sahədə əldə olunan irəliləyişlər hadisələrə gender baxımından yanaşılması cəmiyyətdə və ailədə kişilərin daha böyük rola malik olması ideyasını laxlatdı.

Bəşəriyyətin ibtidai icma tarixinin əsas hissəsini əhatə edən mədəni layların xronoloji təbəqəşməsinə əsasən, Azərbaycanda ən qədim insan məskəni sayılan Azıx mağarasında 400 min il əvvəl, Orta Aşel dövrünün əvvəllərində qədim insanlar – “azıxantroplar” yaşamışdır. İnsan cəmiyyətinin ilk çağı sayılan ibtidai insan sürüsü mərhələsində həm kişi, həm də qadınlar arasında heç bir sahədə ayrı seçkilik yox idi. Azıxantroplar əsasən oturaq həyat tərzi keçirir, mağaralardan ev kimi istifadə edir, qida tapmaq üçün hərdən yerlərini dəyişirdilər.

Orta paleolit dövründə (100-70 min il əvvəl) ibtidai icma quruluşu nəsildən ibarət cəmiyyət formalaşdı və insanlar sürü kimi primitiv kollektiv formasından bir qədər mütəşəkkil olan həyat tərzinə keçdilər. İnsanlar ovçuluq və meyvə yığımı ilə məşğul olur, primitiv alətlər

və silahlar hazırlayırdılar. Ov silahlarının sadəliyi və məhdudluğu üzündən insanlar müntəzəm surətdə qida tapa bilmirdilər. İcmanı qida ilə təmin etməyin əsas mənbəyi yığıcılıq olaraq qalırdı və bununla əsasən qadınlar məşğul olurdular. Orta paleolit dövründən başlayaraq getdikcə qadın cəmiyyətin aparıcı iqtisadi və sosial fərdinə çevrilirdi. Ehtiyac və aclıq qadını yabanı taxıl əkməyə vadar etdi. Onlar tədricən şüurlu şəkildə dənli bitki yığmaqdan təbiət asılılığından qismən azad edə biləcək mədəni əkinçiliyə keçdilər.

İbtidai insan sürüsündən ibtidai-icma quruluşuna keçid dövründə nəsil əlaqələri ana xətti üzrə aparılırdı, yəni tarixdə anaxaqanlığı hökm sürürdü. Qadının ön plana keçməsilə o əvvəl nəslin, daha sonra isə qəbilənin həyatında hakimiyyətə sahib olmağa başladı. Çünki buna qadının təsərrüfatdaxili fəaliyyəti şərait yaradırdı. Belə ki, onun işi (bitki yığımı, sadə toxa əkinçiliyi) insanların əsas qida mənbəyi olaraq qalırdı. İqtisadi fəaliyyətilə bağlı qadının sosial statusu da yüksəlməyə başladı. Anaxaqanlığını səbəb və mənbəyini məhz bu istiqamətdə axtarmaq lazımdır. Orta paleolit dövründə yaranmış anaxaqanlıq yuxarı paleolit dövründə tam hökmran mövqeyə sahib oldu. Bu proses Qafqazda, Azərbaycanda, həm də Asiyanın bütün ərazisində mövcud olmuşdur.

Neolit dövründə Azərbaycanda matriarxat son çiçəklənmə dövrünü keçirirdi. Toxa əkinçiliyi ilə məşğul olan qadın daha bir neçə min il cəmiyyətdə öz liderliyini saxladı. “Neolit inqilabı”nın başlanması ilə mənimsəmə təsərrüfatın- dan, yəni, yığıcılıq və ovçuluqdan istehsal təsərrüfatına keçildi, ərzaq və qida istehsalında əsas rola malik olan əkinçilik və maldarlıq yarandı. Matriarxatdan patriarxata keçid prosesi hələ mezoloit dövründən (eramızdan 11-8 min il qabaq) mümkün olmuşdu ki, o zaman ox və yayın yaranması ovu yem məhsullarının daha sabit alınma mənbəyinə çevirmişdi. Lakin bu proses ilkin tunc dövründə(eramızdan 4 min il qabaq), ovçu, maldar və əkinçi kişinin cəmiyyətdə aparıcı iqtisadi və sosial vahidə çevrildiyi bir vaxtda başa çatdı.Bu dövrlərin bir-birini əvəz etməsinə xidmət edən əsas amil yeni ictimai əmək bölgüsü, maldarlığın əkinçilikdən ayrılması və toxa əkinçiliyindən xış əkinçiliyinə keçilməsi olmuşdur. Bu amillər ağır fiziki əmək və kişilərin yaşadıqları yerdən uzunmüddət uzaq qalmasını tələb edirdi. Kişilərin yaratdıqları daha çox səmərə verən əkinçilik və maldarlıq onları cəmiyyətdə aparıcı sosial qüvvəyə çevirdi. Artıq istehsalın bütün sahələrində əsas fiqurlara çevrilən kişi, ailə daxilində də qadın üzərində tam hökmranlığa sahib oldu. Tarixdə ilk dəfə olaraq Neolit dövründə miqrasiya və ticarət tayfalararası nigahların davamlı yayılmasına təsir etdi.

Atalığın iki səviyyəsi var - ictimai və bioloji. İkinci səviyyə düzgün başa düşülməsə, birinci səviyyə mövcud ola bilməz. Promiskuitet üstünlük edən cəmiyyətdə bu səviyyələr yox idi və gələcək nəslə görə bütün məsuliyyət qadının üzərinə düşürdü. Qadın ilə kişi arasında, yaxud bir kişi və bir neçə qadın arasında sabit əlaqə yaranan yerdə atalığın ictimai səviyyəsi avtomatik olaraq yaranır. Paleolit dövrünün kişisi ictimai səviyyədə atalıq borcunu öz çiyinləri üzərinə götürməyə, bəyəndiyi qadının uşaqları üçün rəhbər, məsləhətçi və köməkçi olmağa tam hazır idi. Antropoloqların fikrincə, insan təkamülü miqyasında nəslin davam etdirilməsində kişinin rolu çox gec aşkar edilmişdir - təxminən e.ə. X əsrdə.

Azərbaycanda anaxaqanlığın mövcudluğunu təsdiq edən bir sıra faktlar vardır ki, bunlardan da əsası Qobustanda, Qarğalartəpəsində və Azərbaycanın digər yerlərində tapılmış qadın heykəlcikləridir. Tarixçilərin qənaətinə görə heç şübhəsiz, onların Yaxın Şərqdə tapılmış “paleolit veneraları” ilə birbaşa əlaqəsi vardır.

Böyük Qafqaz sıra dağlarının cənubi-şərq qurtaracağında yerləşən və səma altında sirli muzey olan Qobustanda 6 minə yaxın qayaüstü təsvir və daş əsrinin 10 dayanacağı aşkar edilmişdir. Qayaaltı məskənlərin divarlarındakı qadın təsvirləri və Kəniz dayanacağında tapılmış gildən düzəldilmiş və bir qədər zədələnmiş qadın fiqurları cəmiyyətin ilk dövründə qadına verilən qiyməti özündə ehtiva edir. Ana-qadın obrazlarını təcəssüm etdirən bu fiqurlar şübhəsiz ki, ailələrin sitayiş etdikləri qadın ilahələrin bütləri olmuşdur. Qarğalartəpəsi yaşayış məskənlərindən Qobustandakı qadın fiqurlarını xatırladan oturmuş qadının gildən düzəldilən incə fiquru tapılmışdır. Məhz tapılan tarixi əşyalar içərisində çoxluq təşkil edən bu qadın fiqurları onu deməyə əsas verir ki, qədim dövr cəmiyyətində qadın başlanğıcının rolu çox böyük olub. Bu da həmin dövrdə yaşayan insanların təsəvvüründə və inanclarında öz əksini tapmışdır, yəni, qadın ana obrazı cəmiyyətin diqqət mərkəzində olub.

Azərbaycanda anaxaqanlıq qadının yalnız təsərrüfatdakı rolu ilə deyil, onun uşaqları tərbiyə etməsi funksiyası ilə də bağlı olmuşdur. Uşaqların tərbiyə edilməsində ananın aparıcı rolu tarixən danılmaz bir faktdır. Qadın başlanğıcı ibtidai cəmiyyətin ideologiyasında üstünlük təşkil etsə də, kişi başlanğıcı da müəyyən nüfuza malik idi. Kişi və qadınlar arasında sosial bərabərlik hökm sürsə də, onlar arasında rəqabət və qeyribərabərlik yox, əməkdaşlıq mövcud olub. Uzun zaman yaşayış yerindən uzaqda qalan kişi qadına hər bir çətinliyin öhdəsindən gələ bilən tərəf müqabil kimi baxmışdır. Uzun əsrlər boyu insan nəsli gender baxımından diskriminasiyaya yəni, cinslərin hüquqlarının pozulması prosesinə məruz qalmamışdır.

Qobustan kompleksində tapılmış qadın rəsmlərinin bir neçəsi daha çox məna və maraq kəsb edir. Bu rəsmlər “Ana zağa” mağarasının qarşısındakı qadın təsviri və “Yeddi gözəl” mağarasında olan qadın şəkilləridir. 29 №-li daşın üzərində, mağaranın girəcəyində, sol tərəfdə 77 şəkil qoyulub ki, onlardan 24-ü çılpaq qadın şəklidir. Məhz buna görə mağaranın adı “Ana zağa” adlanır.

Tədqiqatçıların nəzərini cəlb edən bir fakt da bu dövrdə qadının cəmiyyətdəki nüfuzunu təsdiqləyir. Belə ki, ibtidai insanın gildən düzlətdiyi ilk ilahi təsvir məhsuldarlığı özündə təcəssüm etdirən ilahə heykəli olmuşdur. Bütün qədim cəmiyyətdə ilk ilahi varlıqlar kişi yox, qadın şəklində olmuşdur.

Matriarxatın, ana hüququnun tədqiqi ilə hələ XIX-cu əsrdə üç alim eyni vaxtda məşğul olmağa başlamışdı: Amerika etnoloqu L.Q.Morqan, şotland hüquq tədqiqatçısı C.F.Maklennan və isveçrə hüquq tarixçisi İ.Y.Bahoven. 1861-ci ildə Coan Yakob Baxofen özünün “Ana hüququ” əsərində təxmin edir ki, sivilizasiya matriarxatdan patriaaxata doğru inkişaf yolu keçmişdir. Matriarxatın parlaq ifadəsini tədqiqatçılar Şimali Amerika irokezlərdə, melaneziya qəbilələrində, Afrikada, Avstraliyanın ovçu qəbilələrində aşkar etdilər. Poliandriyanın (çoxərlilik) izlərinə bu gün də Tibetdə, Hindistanın bəzi rayonlarında rast gəlmək mümkündür.

Ancaq tarixdə anaxaqanlığın mövcudluğunu heç də tarixçilərin hamısı qəbul etməmişdir. Onlar qadının tarixin müəyyən qədim bir dövründə lider olmasını cəngavər amazonkalar haqqındakı mif və rəvayətlərlə bağlayırlar. Yunan tarixçilərinin (Strabon, Herodot) fikrinə görə, anaxaqanlığın mövcud olduğu qəbilələrdən biri qədim Azərbaycan ərazisində, Araz çayı ətrafında yaşamış masseget tayfaları olmuşdur. İlk Azərbaycan qadın hökmdarı Tomrisin də məhz bu qəbildən olması bu miflərdə müəyyən qədər həqiqətlərin olması ehtimalını yaradır.

Hələ Homerin dövründə şairlər cəsur qadınlar haqqında yazır, dulusçular onıları vazaüstü şəkillərdə, heykəltəraşlar mərmər heykəllərdə təsvir edirdi. Rəvayətə görə, ildə bir dəfə amazonkalılar iki ay ərzində qonşu qəbilələrin kişiləri ilə ünsiyyətdə olurdu ki, nəsil davam etsin. Onlar yalnız qadın nəsli tərbiyə edir, ox atarkən mane olmaması üçün qızların sağ döşünü yandırır və onları hərbi şücaətə hazırlayır, at minməyə öyrədirdilər. “Amazonka” “döşsüz” sözünün təhrif olunmuş şəklidir. Tesey, Herakl, Axill, nəhayət, Aleksandr Makedonski kimi qəhrəmanlar bu cəsur qadın qəbiləsi ilə çətin döyüş aparmışlar.

Müasir etnoqraflar təsdiq edir ki, amazonkalar barəsindəki rəvayətlərdə tarixi bir reallığın toxumu vardır. Qədim yunan mifologiyasıana əsasən. Amazonkalar Kiçik Asiyanın şimal-şərqi, Qara dəniz sahili, Espera adası, Tritonis gölü, Şimali Qafqazın daxil olduğu bir ərazidə yaşamışlar. Onların baş şəhəri Formodont çayı yaxınlığında, müasir ərazisi Türkiyənin Trabzon və Sinop çayları arasında yerləşən Femiskira şəhəri olmuşdur.

E.ə. V əsrdə yaşamış tarixçi Herodot hesab edirdi ki, sonda amazonkalar Skifiyada məskan salmış və skiflərə qarışmışdılar, onların sələfləri isə savromat adlandırılmışdı. Herodotun dediyinə görə, skif dilində amazonkalara “zorpata” – “kişi qatili” deyirdilər. E.ə. I əsrdə yaşamış Diodor Sisilski təsdiq edir ki, amazonkalılar Kiçik Asiyada deyil, Liviyada yaşayırdılar.

Strabon birinci olaraq amazonkalılar meydana çıxandan sonra yunanları gözləyən təhlükədən danışmışdı: “Kim inanır ki, qoşun, yaxud şəhər, yaxud tamj bir qadın qəbiləsi mütəşəkkil şəkildə kişisiz yaşaya bilər?”Azərbaycanın qədim dövründə də cəngavər qadınların-amazonkaların izlərini görmək olar. Qobustanda arxeoloqların “Yeddi gözəl” adlandırdığı 7 qayaüstü qadın rəsmi vardır. Bu təsvir e.ə.IV-III əsrlərə aid edilir. Qadınlar ayaqüstə təsvir olunur. Fiqurların hamısının belində toqqa şəklində üfüqi xəttdən bəzək var; bəlkə də bu – tatuirovkadır.qadınların kürəkləri nisbətən iridir, döşləri iri və yumrudur, başları uzunsov çıxıntı kimidir, qolları nəzərə çapdırılmır. Həmin təsvirlərin ən maraqlı cəhəti saödan sola çiyindən aşırılmış, sağ döşü örtən oxlardır. Heç şübhəsiz ki, bu şücaətli qadınlar – amazonkalardır.

Sonradan amazonkalar haqqındakı bu rəvayət Nizami Gəncəvinin “İsgəndərnamə” poemasında öz əksini tapdı ki, burada şair Arranda – Albaniyada qadının idarə etdiyi siyasi sistemin klassik mənzərəsini yaradır.

Eramızdan əvvəl IV əsrdə Atropatenanın hökmdarı Atropat Makedoniyalı İskəndərə 1200 nəfərlik gözəl, yaxşı döyüşməyi bacaran qadın döyüşçü bağışlamışdır. Qədim Roma tarixçilərindən Plutarxin və Appianın sözlərinə görə, Roma sərkərdəsi Pompey Albaniyaya yürüş edən zaman Alazan çayı üzərindəki döyüşdə amazonkalar Albaniya tərəfində vuruşmuşlar. Appian yazırdı ki, bu qanlı döyüşdə əsir götürülənlər arasında çoxlu sayda qadın da olmuşdur. Müəyyən zaman çərçivəsində cəmiyyətdə liderlik edib ana-xaqanlığın əsasını qoymuş qadınlar onları özlərinə tabe etməyə çalışan kişilərə qarşı müqavimət göstərmişlər. Bu müqaviməti tarixdə iz qoymuş qanlı müharibələrlə müqayisə etmək düzgün

olmasa da, əslində qadınların tarix boyu kişilərə qarşı apardıqları mübarizə uzun sürən və amansız olmuşdur. Bu mübarizənin ən amansız dövrü amazonkaların adı ilə bağlıdır.

VII əsrdən başlayaraq İslam mədəniyyəti bəşər tarixində mütərəqqi bir dövrün əsasını qoydu. O, qadın və kişilərin tam bərabər hüquqlu olduğunu elan edib bunu ictimai qanunlar əsasında təhlil etmiş yeni bir səmavi dindir. İslam bu günkü gender-sosioloji cins problemini qadın hüquqlarını bəşəri hüquqların tərkib hissəsi olması aspektindən hələ erkən orta əsrlərdə tam təhlil etmişdir. “Qurani-Kərim”in dünyada qadınların sosial və hüquqi vəziyyətlərində mütərəqqi böyük dönüş yaratmaqla təkrarolunmazlığını sübut etmişdir.

Orta əsrlərdə İslam intibahının yaranması Şərq mədəniyyətinin inkişafına güclü təkan verdi. Əxlaq normalarına əsaslanan feodal mədəniyyətinə keçilməklə Şərqdə qadınların sosial-ictimai vəziyyətlərində köklü dəyişikliklər nəzərə çarpmağa başladı. Təəssüf ki, günümüzə qədər müsəlman qadınlarının ictimai və şəxsi həyatda rolu və nüfuzları barədə Avropa alimlərinin yanlış fikirləri üstünlük təşkil etmişdir. Bu fikirlər islamı qadın şəxsiyyətini alçaldan din kimi qələmə vermək məqsədini güdmüşdür. Qərbin fikrincə, müsəlman qadını sadəcə arvad və ya hərəm olmaqla heç bir hüquqa malik olmamışdır. İslam haqqında bu cür təbliğat bu gün də davam etdirilir. Bunu xüsusilə Qərb filmlərində və Qərb ədəbiyyatında görmək olar. İslam dini digər dinlərdən yayılma vasitələrinə görə əsaslı surətdə fərqlənən yeni bir dünyagörüşüdür. Belə ki, islamdan əvvəlki dinlərin yayılıb möhkəmləndirilməsində təbliğatçılıq böyük rola malik olmuşdur. İslam əxlaqi dəyərlərə əsaslandığından onu etnik qruplar kütləvi şəkildə qəbul edirdilər. İslamın müqəddəs kitabı olan “Quran”da kişi və qadınların qarşılıqlı asılılığının mövcudluğunun qabarıq verilməsinə heç bir başqa dində rast gəlinmir. Bu vaxta qədər mövcud olmuş heç bir cəmiyyət və din qadına islamdakı qədər yüksək dəyər verməmişdir. Məhz islamiyyət dövründən bu günə qədər cəmiyyətdə “gender”-yəni sosial cins problemlərinin həllində həyata keçirilən məsələlər cəmiyyət qanunlarının tərkib hissəsi kimi qəbul edilməyə başlandı. Quranda kişi və qadın arasındakı qarşılıqlı münasibət hörmət və ehtirama əsaslanır. Ən-Nisa surəsinin 195-ci ayəsində deyilir: “Siz hamınız bir-birinizdənsiniz (Azad kişi və qul, azad qadın və cariyə, hamısı Adəm nəslindəndir). Onlar hamısı Allah bəndələri olduqları üçün yaradılış və etiqad baxımından aralarında vəhdət, birlik mövcuddur”. “İstər kişi, istərsə də qadın olsun. Mən heç birinizin əməlini puça çıxarmaram”.

İslam nikaha məhəbbətə və etibara əsaslanan müqəddəs ittifaq kimi baxır. Bu ittifaqda əsas şərt qadının razılığıdır. Nikah maddi maraqlara yox, qadının namusluluğuna,

xeyirxahlığına, bakirəliyinə, eyni zamanda kişinin dini inamına, alicənablığına və sədaqətinə əsaslanmalıdır. Burada ailədaxili münasibətlər ədalətlə tənzimlənir. Bu xüsusda Əl-Bəqərə surəsinin 228-ci ayəsində deyili: “Kişilərin qadınlar üzərində şəriətə görə hüquqları olduğu kimi, qadınların da onlar (kişilər) üzərində hüquqları vardır”.

“Quran” müsəlmanlara tövsiyə edir ki, bacarırsansa, evlən. Bu o deməkdir ki, kişi həm fiziki, həm də iqtisadi cəhətdən ailə qurmağa tam hazır olmalıdır.

“Quran” müsəlman qadınlarının hüquqlarının tam qoruyucusu kimi çıxış edərək, onların həm kəbində, həm də ondan sonra boşanarsa, yaxud əri ölərsə, maddi cəhətdən təmin edilməsini əsas şərt kimi qəbul edir. Boşanma ailə ilə bağlı Allaha xoş getməyən əməl olduğundan, onun qarşısının alınması üçün bütün vasitələrdən istifadə edilməlidir. Bununla bağlı “Quran”da Əl-Bəqərə surəsinin 229-cu ayəsində deyilir: “(Riçi) talaq vermə boşama iki dəfə mümkün- dür, ondan sonra yaxşı dolanmaq, qadını yaxşı saxlamaq ya da xoşluqla ayrılmaq, buraxmaq gərəkdir. Ey kişilər, onlara (qadınlarınıza) verdiyinizdən, kəbin haqqından, mehirdən bir şey tələb etməniz sizə halal olmaz”.

Nikahın qorunması üçün “Quran”da qadın-kişi münasibətlərinin bütün tərəfləri diqqətlə və ədalətlə təhlil edilir. İnək surəsinin 230-cu ayəsinə görə, əgər boşanmış qadınla kişi arasında yenidən məhəbbətə əsaslanan ünsiyyət yaranarsa, onların yenidən evlənməsində heç bir günah yoxdur. İslam qanunlarına görə, əgər kişi öz qadınına dolanmaq üçün lazım olan vəsaiti verməzsə, kişi dinindən dönməzsə, uzun müddət yoxa cıxarsa, habelə onda evlənəndən sonra fiziki qusur ortaya çıxarsa, qadının öz ərindən boşanma hü- ququ vardır.

Ər-arvad xəyanətini ailə daxilində ən böyük günahlardan biri sayan “Quran” xəyanət edən tərəfin hansı cinsə mənsub olmasından asılı olmayaraq, cəzalandırılmasını təqdir edir. Şəriət qanunlarına görə, əxlaqsız kişiyə və ya qadına yüz şallaq vurulmalıdır. Lakin həqiqətdə isə qadın daha bərk cəzalandırılırdı. Kişinin ona itaət etməyən qadını döyməyə, söyməyə ixtiyarı var idi. İslamiyyət dövründə cahiliyyə dövrü ilə müqayisədə qadınlara kifayət qədər hüquqlar verilsə də, kişilər hüquqca daha üstün idilər. Belə ki, kişinin qadınla əlaqəsinə, evə kənar qadın gətirib onunla evlənməsinə və ya kənar qadından olan uşağın qanuni sayılmasına adi hal kimi baxılırdı. Belə məqamlarda nikahda olan qadın öz ərinə etirazını bildirməməli idi.

İslam dini mütəffəkirlərindən ən əhəmiyyətlisi sayılan Qəzali (1058-1111) “Şahlara məsləhət” kitabında qadınların bütün vəzifələrini və məhdudiyyətlərini yekunlaşdırmışdı. Qəzalinin siyahısı islam dünyasında qadın vəziyyətini, icazəli olan bu sosial ənənəsinin real

mahiyyətini göstərmişdir: qadın öz həyatını istədiyi kimi idarə edə bilməz, miras malında onun hissəsi daha azdır, onun ərindən ayrılmağa hüququ yoxdur, onunh yalnız bir əri ola bilər, o evdə qalmalıdır, o başını örtməlidir, bir kişinin adına yalnız iki kişinin andı bərabərdir, qadın yaxın qohumunun müşaiyyiəti olmadan çıxa bilməz, cümə günündə, bayramlarda, ölü bastırılanda o iştirak etməməlidir, o hakimiyyətdə və hakim ola bilməz, əri öləndən sonra qadın dörd ay, on gün yas saxlamadır, bundan sonra o yenidən ərə gedə bilər, kişi arvadını başamışsa, o yenidən ərə getməzdən əvvəl üç ay gözləmək müddətinə riayət etməli idi.

Quran cahiliyyə dövrünün qalığı olan qız uşaqlarına pis münasibəti alqışlamırdı. İslam üçün həm qız, həm də oğul övladı Allahın şirin nemətləridirlər. Quranın bu müqəddəs tövsiyəsinə baxmayaraq qız uşaqlarının doğulmasının bədbəxtlik sayılması təəssüf ki, günümüzə qədər gəlib çıxmışdır. Bu münasibətin kökündə sosial, maddi münasibətlər durur. Belə ki, oğlan uşaqları tarixən patriarxal ailədə nəslin davamçısı, mülkiyyətin varisliyində əsas şəxs sayılmişdır. Qız isə ailə-məişət təsərrüfatında nəzərə çarpmayan rola malik idi. Qadına alverlə, elmlə məşğul olmağa icazə verilməsə də, qanuni yollarla pul qazanmalarına qadağa qoyulmamışdır. Erkən islamiyyət dövründə qadınların ictimai və məişət həyatında aktiv fəaliyyətləri konkret faktlarla tarixi mənbələrdə öz əksini tapmışdır. Orta əsrlər dövründə Şərqin müsəlman qadınları Avropa qadınlarına nisbətən çox əvvəllər hüquqi statusa malik olmuşlar. Bu faktlar “Quran”ın surə və ayələrində, Məhəmməd Peyğəmbərin (ə), imamların hədislərində öz əksini tapmışdır. Avropa və müsəlman Şərqindəki qadınların sosial-ictimai vəziyyətlərini müqayisə etsək, görərik ki, Avropada Frank dövlətində Merovinqlər və Karolinqlər dövründə (V əsr) qüvvədə olan məşhur frank “Salik qanunları”nda (Zex Zalica) qadınlar mülkiyyət hüququndan tamamilə məhrum idilər. Bu qanunun 9-cu “Allodlar haqqında” fəslinə görə, miras yalnız qanuni və ya qanundan kənar doğulmuş oğullar arasında bölüşdürülürdü. Əgər ailədə oğlan uşaqları qalmazdısa, torpaq mülkiyyəti icmanın sərəncamına verilərdi.

İslamda isə qadına məxsus olan mülkiyyət hüquqları “Qadınlar” surəsinin ayələrində tam şəkildə verilmişdir: “...oğula iki qız hissəsi qədər pay düşür. Əgər (ölən şəxsin) qızlarının sayı ikidən artıqdırsa, mirasın üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir nəfər qızdırsa, mirasın yarısı onundur”. “Ata, ana və yaxın qohumların (vəfat etdikdə) qoyub getdikləri maldan kişilərə və qadınlara pay düşür”.

Allahın Rəsulu olan Məhəmməd Peyğəmbər(ə) son Həcc zamanı müsəlmanlara belə xitab etmişdir: “Arvadlarınızı incitməyin! Yaradan Allah onları sizin himayənizə vermişdir.

Onlara qarşı ürəyiyumşaq və əliaçıq olun”. Quran cinsi mənsubiyyətdən asılı olmayaraq, mömin olan kişi və qadına yaxşı əməllərinə görə bərabər mükafat vəd edir: “Mömin olmaqla bərabər, yaxşı işlər görən kişilər və qadınlar Cənnətə daxil olarlar. Onlara xurma çərdəyi qədər haqsızlıq edilməz”. İslam qanunlarına görə qadınların etdikləri günahlar üçün kişilər də məsuliyyət daşıyırlar. Hər bir qadının (arvadın) günahı üçün onun əri də Allah qarşısında günahkar sayılır. Ərsiz qadınların günahları üçün onlara bu günahı işlətməyə imkan verib, onları vaxtında öyrətmədikləri üçün ataları, qardaşları daha sonra kişi qohumları məsuliyyət daşıyırlar. Qadınlar isə kişilərin günahları üçün cavabdeh deyillər. İslamda qadına münasibətin yüksəkliyi qadına veriləcək cəzalarda da öz əksini tapmışdır. Şəriətə görə, kişi səhvə yol vermiş qadını əvvəlcədən daha sərt olan ədalət məhkəməsinə tapşırmır. İslam kişiyə icazə verir ki, o, öz qadınını yola gətirsin.

Peyğəmbərin arvadları arasında Ayişə öz nüfuzuna görə digər arvadlardan üstün idi. Xəlifələrdən Əbu Bəkr, Ömər və Osman bu qadının fikirlərilə hesablaşırdılar. O, müvafiq yüksək təhsilli olmaqla ədəbiyyatı və ilahiyyatı gözəl bilirdi. Rəvayətə görə, Peyğəmbər(ə) özü bəzən məsləhət üçün arvadlarına müraciət edərmiş. Belə ki, hicrətin 6-cı ilində Hüdeybiyyə sülhü bağlananda o, arvadı Ümmi Salamla məsləhətləşmişdir.

Mədəniyyət və incəsənət sahəsində islam qadınların ədəbi və elmi qabiliyyətlərinin inkişafına böyük dəyər verirdi. İslam dini qız atasına, sonra isə onun ərinə öz qızına və arvadına dini qaydaları öyrətməyi tövsiyə edir. Əgər ata və ya ər bu vəzifədən boyun qaçırardısa, belə hallarda qadın dini bilik əldə etmək üçün başqa yerə getmək hüququna malik idi. Məhəmməd Peyğəmbər(ə) qadınların da təhsil almasını öz hədislərində belə ifadə etmişdir: “Elm öyrətmək həm kişi, həm də qadın üçün vacibdir”. Müsəlman qadınları, xüsusilə qüreyşilər içərisində yazıçılar, şairlər, alimlər, istedadlı, natiqlər olmuşdur. İslamda qadın şairlərin yaratdıqları əsərlərdə dövrlərinin tarixi hadisələri öz əksini tapmışdır. Peyğəmbərin vəfatından sonra onun qızı Fatimeyi-Zəhra lirik matəm nəğmələri yaratmışdır ki, onlardan birini də atasının həsrətinə həsr etmişdir. İmam Hüseynin bacıları Zeynəb və Ümmi-Gülsüm öz matəm nəğmələrində Kərbala faciəsini təsvir etməklə bərabər, onun bütün ziddiyyətlərini açıb göstərmişlər. Quranda qadının imam olmasına icazə verilir. Bütün imamların ulu nənəsi İmam Fatimeyi-Zəhra, İmam xanım (onun qəbri Nardaran pirindədir), İmam Hökümə (Bibi-Heybət) buna parlaq misaldır.

Ər arvadı qarşısında vəzifələri haqqında özünün “Mərifətnamə” kitabında İbrahim Haqqı (1195-1781 il) qısa şəkildə yazmışdı.

Xristianlıqda isə kişi və qadın haqlarına fərqli münasibət mövcuddur. “Qadına təlim verməyi və kişi üzərində hakim olmağı qadağan edirəm. Qadın dinməz olsun”. Bu sətirlərdə qadınların diskriminasyası, yəni hüquqlarının po- zulması aydın şəkildə ifadə olunmuşdur. Yəhudilikdən dönüb məsihliyi qəbul etmiş Pavel məktublarının birində belə deyir: “...Hər ərin başçısı Məsih, arvadın başçısı ər, Məsihin başçısı isə Allahdır”. Bu ehkam qadını tamamilə kişidən asılı vəziyyətə salır, yəni kişi birinci, qadın isə ikincidir. İudaizmin müqəddəs kitabı “Talmud”da qadın kişinin mutlu qulu kimi təsvir edilir. Müqəddəs kitaba görə, hər bir dindar yəhudi Allaha şükür etməlidir ki, onu qadın yaratmayıb. Qadınlar isə kişiyə qulluq etmək üçün yaradıldıqlarına görə, Allaha minnətdar olmalıdırlar. Xristianlıqdan fərqli olaraq, İslam dini qadına hüquq və vəzifələrə malik tam şəxsiyyət kimi baxır. Bu gün dünyanın sonuncu müqəddəs kitabı olan Quranda qadına münasibət, müsəlman qadının hüquq və vəzifələrinin təhlili bir daha sübut edir ki, islam aləmində qadın asılı və hüquqsuz olmamışdır. Amma bu da real fakt olaraq qalır ki, bu günkü müsəlman ölkələri qadına İslamda verilən hüquqları vermirlər. Əslində isə İslam dini qadının islamaqədərki dövrdə ərəb qəbilələrinin qadına olan qeyri-insani, alçaldılmış münasibətlərini aradan qaldırmağı nəzərdə tuturdu və bu müqəddəs missiyanı tam yerinə yetirdi.

Müasir dünya təcrübəsində İslamın cinslərin sosial vəziyyətinə dair müddəalarının əksəriyyəti reallaşmamış qalır və ya çox zaman səhv şərh olunur.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda baş verən tarixi hadisələri gender baxımından araşdırarkən, Azərbaycan qadınlarının cəmiyyətdəki sosial-siyasi vəziyyətlərindən geniş danışılmalıdır. Bu dövrdə Azərbaycanı işğal etmiş Rusiyada və Avropada qadın azadlığı ilə bağlı baş verən hadisələr Şimali Azərbaycanda da öz əksini tapmışdır. XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda həm ədəbiyyat, həm də mədəniyyət sahəsində böyük uğurlar qazanmış qadınlar yaşayıb yaratmışlar.Həmin qadınlar arasında Qarabağ xanının qızı Xurşudbanu Natəvanın adını xüsusilə qeyd etmək lazımdır. XIX əsrin tanınmış şairəsi olan bu qadın Şuşa şəhərindəki “Məclisi-Fəramuşan” (1870) və “Məclisi-Üns” (1872) kimi ədəbi cəmiyyətlərin əsasını qoymuşdur. Natəvan yüksək bədii istedada malik olmaqla bərabər, eyni zamanda dövrünün istedadlı xanəndələrinə, musiqiçilərinə də himayədarlıq edirdi. Məşhur fransız yazıçısı Aleksandr Duma Azərbaycanda olarkən Xur- şudbanu Natəvanla və onun əri, general Xasaybəy Usmiyevlə görüşmüşdür. Dümanın bu şairə xanımın mədəniyyətinə, istedadına heyran olduğunu

Parisdə fransız dilində 1859-cu ildə üç cilddə nəşr olunmuş “Qafqaz” əsərindəki xatirələrində görmək olar.

XIX əsrin sonlarından başlayaraq dünyada baş verən ictimai-siyasi hadisələrin təsiri Şimali Azərbaycanda qadının cəmiyyətdə özünə müəyyən mövqe qazanmasına geniş imkanlar yaratdı. Bu dövrdən başlayaraq kişilərlə bərabər qadınların da orta təhsil alması cəmiyyətin vacib şərti kimi ortaya şıxır. 1874-cü ildə açılmış Marinskaya gimnaziyası ilk gimnaziya idi və orada qızlar da təhsil alırdılar. Bakı quberniyasında XIX əsrin sonunda 4915 şagirdin, o cüm- lədən 64 qızın təhsil aldığı 245 məktəb fəaliyyət göstərirdi.Yelizavetpol quberniyasındakı 268 məktəbdə təhsil alan 4384 şagirdin 145 nəfəri qızlar idi.

Qadınların da kişilər kimi yaxşı təhsil alması məsələsi təhsil sistemində dəyişiklik edilməsini vacib etsə də, Azərbaycanda qadınların cəmiyyət içərisinə buraxılmaması bunu çətinləşdirirdi. Hələ də patriarxal qanunların hökm sür- düyü Azərbaycanda qadınların təhsil almalarının vacibliyini düşünən mütərəqqi fikirli adamlar çətin də olsa, bunu həyata keçirməyə səy göstərirdilər. Onlardan Azərbaycanın ən böyük sənayeçisi və xeyriyyəçisi H.Z. Tağıyevin adı bu sı- rada şərəfli yer tutur. Belə ki, onun Bakıda ilk rus-müsəlman qadın məktəbini açması onun xeyriyyəçilik fəaliyyətinin ən yüksək zirvəsi sayıla bilər. Qadın təhsili məsələsinin həllini cəmiyyətin inkişafının vacib şərti sayan H.Z.Tağıyev, hələ XIX əsrin 90-cı illərində Azərbaycan qızları üçün xüsusi məktəbin yaradılması barədə düşünürdü. O, bunu tanınmış ictimai xadim M.A. Şahtaxtinskiyə yazdığı 1896-cı il, 4 may tarixli məktubunda belə ifadə etmişdir: “Müsəlman qadınını olduğu qapalı həyatdan çıxartmaqdan ötrü yeganə bir yol var yalnız məktəb və bu məktəbi elə yaratmaq və elə qurmaq lazımdır ki, müsəlmanlar ona rəğbətlə yanaşsın və tam əminliklə öz qızlarını oraya oxumağa göndərsinlər”.

Öz dövrü üçün həm aktual, həm də mürəkkəb olan bu işin öhdəsindən gəlməkdə H.Z. Tağıyevə onun inadkarlığı, müdrikliyi, cəmiyyətdəki nüfuzlu və maddi vəsaiti kömək etdi. Yerli hakimiyyətin və şəhərin varlı təbəqəsinin gizli narazılığını duyan H.Z. Tağıyev siyasi müdrikliyi nəticəsində bu çətin işin öhdəsindən bacarıqla gəldi. 1896-cı il 24 apreldə Qafqaz tədris dairəsinin nəzarətçisi P.Yankovskiyə ünvanladığl məktubunda o qeyd edirdi ki, Bakıda öz vəsaiti hesabına açılacaq rus-müsəlman məktəbini imperator II Nikolayın taxta çıxmasının il dönümünə həsr edir. H.Z.Tağıyev açılacaq məktəbə imperatriçə Aleksandra Fyodorovnanın adını verərək “Aleksandrinskaya” adlandırmağı vəd etdi və azərbaycanlı qızlar üçün ilk məktəbin açılmasına hökumət tərəfindən icazə verildi. Ancaq müsəlman qızları üçün məktəbin açılmasını şəriət qanunlarının tapdanması kimi qəbul edən ruhanilərin etirazı

bu işi bir qədər çətinləşdirirdi. Çox keçmədi ki, Tağıyev quberniyanın qazisi Mirməhəmməd Kərimin, Axund Mir Abutarbin və bir neçə mollanın razıığını ala bildi. Bununla da kifayətlənməyən H.Z. Tağıyev molla Mirzə Məmmədoğlunu Mədinə, Xorasan və Bağdad şəhərlərinə göndərib oradakı ən nüfuzlu müctəhidlərdən, yəni şiyələrin mənəvi liderlərindən müsəlman qızları üçün məktəb açılmasına yazılı icazə aldı. Bu məktub məktəbin hər bir əleyhdarına təqdim edildi və müsbət nəticə verdi.

1898-ci il mayın 16-da imperatorun xanımı Aleksandra Fyodorovna adına Bakı qadın rus-müsəlman pedaqoji məktəbini Nizamnaməsi təsdiq edildi. Nizamnaməyə əsasən məktəbə qızları 7 yaşdan başlayaraq 4 il müddətinə qəbul edirdilər. Məktəbin tərbiyə sistemində Şərqin özünəməxsusluğu nəzərə alınaraq, tərbiyədə müsəlman ailəsinin adət-ənənələrinə üstünlük verilirdi. H.Z. Tağıyev məktəbə H.B. Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikovanı di- rektor təyin etdi. O, paytaxt qəzetləri vasitəsilə bütün müsəlman qadın müəllimlərə məktəbə kömək etmələri üçün müraciət etdi. Çox keçmədi ki, cəmiyyətdə öz intellektual bacarıqlarını üzə çıxara bilməyən maarifçi qadınlar burada pedaqoji fəaliyyətə başladılar. Onlardan Rahilə xanım Terequlova-Hacıbababəyova, Məryəm xanım Sulikeviç, Adilə xanım Şahtaxtinskaya, Şəfiqə xanım Əfəndizadə, Mina xanım Aslanova, Gövhər xanım Qazıyeva, Nabat xanım Nərimanova, Azərbaycanın ilk qadın yazıçısı Səkinə xanım Axundzadə müsəlman qızlarının maariflənməsində önəmli rol oynamışlar.

1901-ci il, oktyabrın 9-da Bakıda Şərqdə ilk dünyəvi müsəlman qız məktəbinin açılışı oldu. 20 nəfər şagird üçün nəzərdə tutlmuş məktəb açılış günündə 35 pulsuz məktəbli və 15 nəfər 100 rubl ödəməklə gəlib-gedən tələbə qəbul etdi. Bakıda qız məktəbinin açılması Azərbaycan ziyalıları tərəfindən böyük rəğbətlə qarşılandı. Bu məktəb Şərqdə müsəlman qızlar üçün açılan ilk dünyəvi məktəb idi. H.Z.Tağıyevin qız məktəbinin açılması isə həqiqətən böyük heyranlıq oyandıran bir hadisə idi. Bu məktəb şəriaət qaydalarına riayət olunmaqla Qərb sivilizasiyasıın xüsusiyyətlərini özündə birləşdirən bir məktəb idi.

Məşhur vəkil, sonralar ADR-in xarici işlər naziri olmuş Əlimərdanbəy Topçubaşov məktəbin açılışında söyləmişdir: “Gələcək tarixçi bu hadisəni müsəlman qadınının, bütün başqa xalqlarda olduğu kimi, ailə ocağını yandıran bu gözəl varlığın yüksəliş dövrünün başlanğıcı kimi qeydə alacaqdır”. Görkəmli jurnalist Əhmədbəy Ağayev isə ilk qadın məktəbinin açılışını belə qiymətləndirmişdir: “İndən belə müsəlman qadınları ailəyə maarifin canlandırıcı şüasını səpmək imkanı qazanacaqlar... Onlar gələcək nəsillərə, in- kişafa, yaxınlarına, xeyirxah insanlara sevgi təlqin edəcəklər ki, bunsuz hər hansı cəmiyyət ölümə

məhkumdur”. Kazan müsəlmanlarının H.Z.Tağıyevə göndər-dikləri məktubda deyilirdi: “Bu ilk məktəbdir ki, bütün şəriət qaydalarına əməl olunmaqla müsəlman qızları qərb sivilizasiyası ilə tanış olacaq və təhsil məbədində müsəlman əhalisinin müxtəlif təbəqələri qarşılaşacaq və ümuminsani qardaşlıq və məhəbbət hadisələrinə malik olacaqdır”.

1919-cu ilə kimi mövcud olmuş qadın məktəbi çoxlu sayda təhsilli qadınlar yetişdirdi. Sonralar buna bənzər məktəbər Tiflisdə, Balaxanıda, Qazaxda, Qubada, Lənkə- randa, Dərbənddə, Naxçıvanda və İrəvanda açıldı.

XIX əsrin sonunda maarifçi qadınlardan Hənifə xanım Məlikova (H.Zərdabinin həyat yoldaşı) qadınlar arasında aparılan maariflənmə işində fəal rol oynamışdır. Təhsilini Tiflisdəki “Müqəddəs Nina” məktəbində almış Hənifə xanım 1901-1905-ci illərdə ilk qız məktəbinin müdiri vəzifəsini yerinə yetirməklə, həm də ilk Azərbaycan qəzeti olan “Əkinçi”nin çap olunmasında da yaxından iştirak etmişdir. O, 1880-ci ildə öz evində məktəb açmış və Bakıda yaradılmış “Nicat” cəmiyyətinin qadın şöbəsinin yaradıcılarından biri olmuşdur. Sonralar Hənifə xanım rus-tatar (azərbaycanlı) məktəbinin müdiri vəzifəsində çalışmışdır.

XIX əsrin sonu - XX əsrin əvvəllərində yaranmaqda olan kapitalist münasibətləri fonunda maarifin, səhiyyənin inkişafında qadınların iştirakı kişilərlə müqayisədə aşağı olsa da, Azərbaycanın ziyalı qadınlarının oynadığı rol böyük əhəmiyyətə malik idi. Belə ziyalı qadınlar arasnda Bakı və Tiflis qadın məktəblərinin müəllimi Gövhər Qayıbovanı, məşhur Azərbaycan dramaturqu N.Vəzirovun həyat yoldaşı Xurşud Vəzirovanı, Firudinbəy Köçərlinin həyat yoldaşı, Bakı qadın seminariyasının müəllimi Badisəba Köçərlini göstərmək olar. Bu dövrdə Xədicə xanım Əlibəyova, Məryəm xanım Sulikeviç, Adilə xanım Şaxtaxtinskaya, Nabat xanım Nərimanova, Gülbahar xanım Axriyeva, Şəfiqə xanım Əfəndizadə, Şəhrəbanu xanım Şabanova, Səkinə xanım Axund- zadə, Gövhər xanım Qayıbova, Fatma xanım Gəncinskaya və başqa ziyalı qadınlar xalqın maariflənməsinə böyük töhfələr vermişlər.

XIX əsrin sonu – XX əsrin əvvəllərində qadınların maariflənməsi Şimali Azərbaycanda yeni qadın tipinin yaranıb təşəkkül tapmasına güclü təkan verdi. Bu dövrdə qadınların cəmiyyətin ictimai həyatına daxil olmalarında Azər- baycan kişilərinin rolu böyük olmuşdur. Məsələn, Həmidə xanım Cavanşirin atası Əhmədbəy Cavanşir qızına onlara məxsus olan kənddə məktəb açmağı məsləhət görmüşdür. H.Z.Tağıyev qızlarını özünün açdığı ilk qız məktəbində oxutmuş, daha sonra qızı Sara xanımı Peterburq Smolnı Nəcib Qızlar İnstitutuna göndərmişdir.

Beləliklə, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan qadınları cəmiyyətdə gedən ictimai-siyasi proseslərdə kişilərin dəstəyi və islam ənənələri əsasında iştirak edirdilər. Bu da cəmiyyətdə hələ də patriarxal qayda-qanunların güclü olmasından irəli gəlirdi.

Müasir dövrdə Azərbaycanda vətəndaş cəmiyyəti və hüquqi dövlət yaradılması sahəsində cinslərin sosial bərabərhüquqluluğu əsas yerlərdən birini tutur. Ölkəmizdə cinslərin bərabərlik hüququnun qanuni yolla təsbit edilməsi Azərbaycan Xalq Cümhuriyyətinin adı ilə bağlıdır. Məhz 1919-cu il, 21 iyulda ADR-in Təsis İclasının təqdim etdiyi "Azərbaycan Respublikasının Təsis İclasına Seçkilər haqqında Nizamnamə"sində verilən azadlıqlar və hüquqlar arasında Azərbaycan qadınının hüquqları da vardı. Azərbaycan qadını ilk dəfə olaraq ölkənin bərabərhüquqlu vətəndaşı elan edildi və bunun nəticəsi kimi yeni cəmiyyətdə fəal iştirak etmək hüququ qazandı.

90-cı illərdən yenidən demokratik inkişaf yolunu tutan müstəqil Azərbaycan ilk növbədə dövlətimizin əsaslarının möhkəmlənməsi və ictimai-siyasi stabilliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının daha da genişləndirilməsi yolu ilə demokratiyanın inkişaf etdirilməsində və vətəndaşlıq cəmiyyətinin formalaşdırılmasında əhəmiyyətli nəticələrə nail olmuşdur.

Cinslərin bərabərlik hüququ "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" 18 oktyabr 1991-ci il tarixli Konstitusiya aktında da öz əksini tapmışdır. Azərbaycan Respublikasının Milli Məclisi 1992-ci il, avqustun 4-də BMT-nin "Qadınların siyasi hüquqları haqqında" Konvensiyasına qoşulmuşdur. 1994-cü ildən etibarən ictimai-siyasi vəziyyətin normallaşması ilə əlaqədar dövlət siyasətimizdə qadınlara münasibətdə yeni mərhələnin başlanğıcı qoyulmuşdur.

1995-ci ildə Pekində keçirilmiş Ümumdünya Pekin konfransından sonra qadınlara münasibətdə dövlət siyasətimiz yeni çalarlar qazandı. Pekin Deklarasiyasında digər hökumətlər kimi, Azərbaycan Respublikası da kişi və qadınların bərabərliyi və anadangəlmə insani ləyaqətinə, Ümum dünya insan hüquqları Deklarasiyasına, qadınlara münasibətdə hər növ diskriminasiyanın, yəni onların cinslərindən asılı olaraq hüquqlarının məhdudlaşdırılmasının ləğvi haqqında Konvensiyaya və "Uşaq Hüquqları haqqında Konvensiya"ya, həmçinin qadınlara qarşı münasibətdə zorakılığın aradan qaldırılması barədə Deklarasiyaya tərəfdar olduğunu bəyan etdi.

Bu gün cəmiyyətimizdə qadınların rolu güclənməkdədir. Bunu onlar istər iqtisadiyyatda, istərsə də Qarabağ müharibəsindəki iştirakları ilə bir daha sübut etdilər. Bu gün Azərbaycan

qadını cəmiyyətdə əvvəllər kişilərin ənənəvi olaraq tutduqları sosial-siyasi mövqeləri tutmağa başlayırlar. Tərbiyə, təhsil, tibb və digər humanitar tipli sahələrdə qadınlar üstünlük əldə etməklə bərabər, ticarət, sosial xidmət, mədəniyyət və elm sahəsində də onların sayı artmaq dadır. Müasir dövrdə qadınlarımızın 40%-ə qədəri bazar iqtisadiyyatı sahəsində çalışırlar. İşgüzar qadınlar müstəqil olaraq ailəni saxlamaq imkanına malikdirlər. Əhalinin qadın təbəqəsi artıq yalnız kişilərə məxsus hesab edilən sahələri mənimsəməyə başlayırlar və onlar siyasi partiyalarda, icti- mai təşkilatlarda fəal təmsil olunurlar. Bu gün ölkəmizdə 20-dən artıq qadın problemləri ilə məşğul olan qeyri-hökumət qadın təşkiltı fəaliyyət göstərir. Cəmiyyətdə baş verən bu dəyişikliklər respublikada yeni gender mühitinin formalaşmasına stimul yaratmışdır.

3 Azərbaycanda gender siyasəti və gender demokratiyasının inkişafı

Tarixən Azərbaycanda qadınlar kişilərlə bərabər cəmiyyət həyatında fəal iştirak etmişlər. Azərbaycan qadınları ana, bacı, həyat yoldaşı olmaqla bərabər lazımlı məqamlarda silaha sarılaraq Vətənin müdafiəçisi kimi müqəddəs vəzifəni də yerinə yetirmişlər.Təsadüfi deyildir ki, 1918-ci il- də yaradılmış Azərbaycan Demokratik Respublikası Şərqdə ilk dəfə olaraq qadınlara seçki hüququ vermiş və onların hüquq bərabərliyini təmin etmişdir.

Azərbaycan tarixdə ikinci dəfə milli müstəqilliyini əldə etdikdən sonra insan hüquq və azadlıqlarının müdafiəsi, o cümlədən qadınların hüquqlarının təmin edilməsi, cinsi ayrı-seçkiliyə son qoyulması, məişət zorakılığı ilə mübarizədə etibarlı hüquqi baza yaratmışdır. Respublikamız qadın hü- quqlarının qorunması sahəsində bütün mühüm beynəlxalq Konvensiyalara qoşulmuşdur. Belə ki, Azərbaycan Respublikası 1992-ci ildə BMT-nin “Qadınların siyasi hüquqları” üzrə Konvensiyasına qoşulmuş, Azərbaycan Parlamenti elə həmin il BMT-nin “Uşaq hüquqları haqqında Beynəlxalq Konvensiya”sını ratifikasiya etmişdir.

1995-ci ilin martın 31-də BMT-nin Qadınların Vəziyyəti üzrə Komissiyasının 39-cu sessiyasında Azərbaycan nümayəndə heyəti də iştirak etmişdir. Həmin sessiyada “Hərbi münaqişə zamanı girov götürülən və ya həbsxanaya düşən qadın və uşaqların azad edilməsi haqqında” qətnamə qəbul edilmişdir. Respublikamız 1995-ci il iyunun 30-da “Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi” haqqında Konvensiyasını da ratifikasiya etmişdir. Heydər Əliyev deyirdi: “Öz müstəqilliyinə nail olduqdan sonra Azərbaycan digər beynəlxalq sazişlərlə yanaşı, qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında sazişə də qoşularaq bir daha demokratik və dünyəvi bir dövlət qurduğunu təsdiq etmişdir”.

14 yanvar 1998-ci il tarixdə Azərbaycan Prezidenti Heydər Əliyev “Azərbaycan qadınlarının rolunun artırılması haqqında” Sərəncam imzalamışdır. Həmin Sərəncamda dövlət strukturları tərəfindən daha çox diqqət tələb edən qabaqcıl sahələr müəyyənləşdirilmiş, habelə ölkəmizdə qadınların problemlərinin həllinə yönəldilmiş qadın siyasətini həyata keçirəcək Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.

14-15 sentyabr 1998-ci ildə Azərbaycan qadınlarının I Qurultayı keçirildi. Qurultayda respublikanın bütün şəhər və rayonlarından nümayəndələr iştirak edirdi. Qurultayda qadınlar əsas problemlər, işsizlik, iqtisadi çətinliklər, Qarabağ probleminin həlli, qaçqın və məcburi köçkünlərin vəziyyəti, işğal olunmuş ərazilərlə bağlı narahatlıqlarını ifadə etdilər. Qadınların cəmiyyətdə yeri və rolu, onlara qarşı ayrı seçkiliyin ləğv edilməsi üzrə gələcək strategiya barədə nitq söyləyən Ulu Öndər Heydər Əliyevin çıxışı qurultay iştirakçılarının proqram sənədinə çevrildi.

2000-ci ilin mart ayında Azərbaycan Respublikası Prezidentinin imzaladığı “Azərbaycan Respublikasında Dövlət Qadın siyasətinin həyata keçirilməsi” adlı Fərmanda cəmiyyətin bütün sahələrində, xüsusilə dövlət strukturlarında qadın və kişilər arasında bərabərliyin təmin edilməsi, dövlət proqramları əsasında qaçqın və məcburi köçkün qadınların işlə təmin olunması, gender nöqteyi-nəzərindən qanunvericiliyə baxılması öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi 2010-cu il-də “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanun qəbul etmiş, habelə qızların erkən yaşlardan nikaha məcbur edilməsinin qarşısının alınması məqsədilə tədbirlərin gücləndirilməsi və bu sahədə fəallığın artırılması zəruri hesab edilmişdir. Görülən tədbirlərin nəticəsidir ki, 2012-ci ildə sahibkarlar arasında qadınların xüsusi çəkisi 17% idisə, 2017-ci ilin əvvəlində bu göstərici 21%-ə çatıbdır. Azərbaycan parlamentində qadınların xüsusi çəkisi 18%-ə çatıbdır. 78 rayon icra hakimiyyətindən 71-də icra başçılarının müavinləri qadındır.

Azərbaycanın beynəlxalq səviyyədə qadın hüquqlarına verdiyi önəmin nəticəsidir ki, 2010-cu ildə Avropa Şurası ölkələrinin qadınlar və kişilər arasında bərabərlik məsələlərinə cavabdeh nazirlərinin VII konfransı Bakıda keçirilmişdir.

Gender demokratiyası davamlı insan inkişafında müasir dövrün aktual problemlərindən biridir. O, hər iki cinsə aid edilən şəxslərin (kişilər və qadınların) vətəndaş cəmiyyətində bərabər hüquqlar və imkanlar şəraitində, qanunvericilik əsasında öz iradə azadlıqlarını təmin etmələrini nəzərdə tutur. Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli,

2307 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında Məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilmişdir.

Cəmiyyətdə qadın probleminə əvvəl feminizm, sonradan da gender mövqeyindən yanaşılmasının əsas səbəbi qarşılıqlı cəmiyyət münasibətlərdə kişi dəyərlərin və stereotiplərin üstün tutulması olmuşdur. Bunun da daha dərin səbəbi qadın və kişi arasında həyatda (məişətdə, ailədə) təbii iş və vəzifə bölgüsü olmuşdur. Gender demokratiyası kişi və qadınların bərabər paritet ictimai dəyər daşıdığını təsdiq edir, cəmiyyət qarşısında hər iki cinsin hüquq, vəzifə və məsuliyyətinin bərsbərliyi prinsipini rəhbər tutur.

BMT-nin 1979-cu ildə qəbul etdiyi “Qadınlara qarşı münasibətdə diskriminasiyanın bütün formalarının ləğv edilməsi haqqında” Konvensiya, 1995-ci ildə qəbul edilmiş “Pekin Deklarasiyası və fəaliyyət Platforması” adlı beynəlxalq əhəmiyyətli sənədlər, habelə 2006-cı ildə qəbul edilmiş “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunları respublikamızda gender demokratiyasının inkişafına əhəmiyyətli tə- kan vermişdir.

BMT gender demokratiyasının inkişafı dedikdə 4 əsas cəhəti prioritet kimi dəyərləndirir:

1. Yerli və milli seçkilərin qadınlar üçün ədalətli və azad şəraitdə keçirilməsi;
2. Qadınların maraqlarını təmin etmək üçün vətəndaş cəmiyyətində qadın təşkilatlarının dəstəklənməsini təmin etmək;
3. Dövlət müəssisələrində qadın hüquqlarının təmin edilməsi üçün məsuliyyətin artırılmasına nail olmaq;
4. Siyasətçi lider qadınların BMT-yə təsirini genişləndirmək sahəsində təşəbbüslərinin dəstəklənməsini təmin etmək.

Qadın hüququ ümumbəşəri hüquqların tərkib hissəsidir. Biz tarixə nəzər saldıqda görərəik ki, hələ ibtidai icma quruluşundan başlayaraq qadın cəmiyyətdə əsas qüvvə olmuşdur. Ocağı qorumaq, uşaqlara baxmaq, qida və s. qadınlar üzərinə düşən vəzifələr olmuşdur. Orta paleolit dövründə əsası qoyulmuş anaxaqanlıq erkən tunc dövrünə qədər davam etmişdir. Lakin ataxaqanlığına keçid heç də qadınların cəmiyyətdən kənarda qalmasına tam səbəb ola bilmədi. Antik müəlliflərin əsərlərində qadınların hökmranlığı, qadınların şücaəti ön plana çəkilir.

Orta əsrlərdə diplomat qadın kimi adını tarixə yazdıran Sara Xatun olduqca adil və işini bilən bir hakim idi.

Azərbaycanın tarix salnaməsində iz qoyan qadınlardan biri də Qubalı Fətəli xanın həyat yoldaşı Tutu Bikə xanım olmuşdur. Azərbaycan qadınlarının əzmi sadəcə orta əsr dövrü ilə yekunlaşmır. Eyni zamanda Çar Rusiyası za- manında da davam etmişdir. XIX yüzilliyin əvvəllərində Azərbaycanda qadın təhsili sahəsində ilk addımlar atıldı. Lakin xüsusi məktəblər olmadığından qızlar evlərində ayrı- ayrı şəxslərdən təhsil alırdılar. Bakıda Xırdaxanım, Şamaxıda Güllübəyim xanım kimi qadınlar ev məktəbləri açmışdılar. Bu məktəblərdə qızlara dərs verilirdi. Azərbaycanda ilk rus qız məktəbi 1848-ci ildə Quberniya mərkəzi Şamaxıda "Müqəddəs Nina" xeyriyyə məktəbi tərəfindən təsis edil- mişdir.

Doğrudur, tarixə baş çəkdiyimiz bu qısa səyahət zamanı qadınların nəyə qadir olduğu, hansı vəzifələri məharətlə yerinə yetirdiyini görürük. Lakin bunlar tarix boyu və indi də mövcud olan qadın hüquqlarının tapdalanmasının qarşısını almır. Qadın hüquqlarının keşiyində sadəcə qanunvericiliklə durmaq mümkün deyil. Bu eyni zamanda cəmiyyətdə də öz rolunu almalıdır. Məlumdur ki, İslamdan öncə qız uşaqları diri-diri torpağa basdırılırdı. Lakin İslam dininin yayılmasından sonra bu hadisələrə son verildi. İslam dininə əsasən qadınlara böyük hüquq verilmişdi. Doğrudur, İslam dinindən anlayışı olmayanlar bəzi məqamları özlərinə xas, əsassız şəkildə yazırlar. Elə cəmiyyətimizdə də bu cür fikirlərə rast gələ bilərik. Məhəmməd Peyğəmbərin kəlamlarında da qadın hüquqları çox ciddi şəkildə qorunur: "evə gələrkən arvadınızı salamlayın və onun işləri, ovqatı ilə maraqlanın. Onu təklikdə oturan məyus görsəniz tez baş verən hadisə ilə maraqlanın" və bu kimi digər fikirlər İslamda qadının hüquqi cəhətdən necə qorunduğunu göstərir.

Statistik məlumatlara baxdıqda bəlli olur ki, Azərbaycanda doğulan qızların sayı oğlanların sayından daha azdır. 2017-ci il yanvar ayına olan statistik məlumatlara görə 20-24 yaşlı gənclər arasında 48,2%-i qadınlar, 51,8%-i isə kişilər təşkil edir. Nisbətən aşağı yaşlarda isə bu göstərici daha çoxdur. Səbəb tibb sahəsində texnologiyaların inkişaf etməsi və qız övladlarının hələ doğulmamış öldürülməsidir. Qeyd etmək lazımdır ki, bu cinayətlər öz mənfi təsirini daha sonra çox böyük bir şəkildə göstərəcəkdir. Çünki bu uşaqlar nikah yaşına çatdıqda necə böyük sosial problemlə rastlaşdığımızın şahidi olacağıq.

Bu gün biz dünyada paradoksal bir vəziyyəti müşahidə edirik. Bir tərəfdən qloballaşma, inteqrasiya prosesinin geniş vüsət aldığı və informasiya texnologiyalarının sürətlə inkişafını görürük. Digər tərəfdən isə müasir şəraitdə ekstremizm, zorakılıq, terrorçuluq belə demək olarsa, qloballaşaraq beynəlxalq miqyas alır. Nəticə etibarı ilə bu gün "beynəlxalq ekstremizm" ifadəsi sosial-siyasi reallıqların əsas təzahürlərindən birinə çevrilmişdir.

Ədalətsizlik, terror- çuluq, ksenofobiya, ayrıseçkilik ziddiyyətləri yaradan əsas amillərdir. Əlbəttə ki, bundan daha çox qadınlar və uşaqlar əziyyət çəkirlər. Hesabata görə, il ərzində bütün dünya üzrə 53 min uşaq qətlə yetirilir. Dünyada 218 milyon azyaşlı uşaq əməyə cəlb edilir ki, onlardan 126 milyonu təhlükəli işlərdə çalışır. Ümumilikdə, dünya üzrə il ərzində 57 milyon uşaq məcburi əməyə cəlb olunur. Bütün dünyada, o cümlədən, Azərbaycanda qadın hüquqlarının təmin edilməsi sahəsində əldə edilmiş böyük uğurlarla yanaşı bir sıra problemlər aktuallığını saxlamaqdadır. Erkən nikahlar, qadınlara münasibətdə ayrı-seçkiliyə hələ də yol verilməsi, məişət zorakılığı və gidər problemlərin həlli üçün hələ çox iş görülməlidir.

Mühazirə 5. AİLƏ VƏ NİKAHIN MEYDANA GƏLMƏSİNİN TARİXİ ŞƏRTLƏRİ VƏ İNKİŞAFI

Plan:

1. Ailənin təbiəti və mahiyyətinin müəyyənləşdirilməsində dünya mütəfəkkirlərinin fərqli yanaşmaları
2. Bəşər cəmiyyətinin inkişafının ayrı-ayrı mərhələrində ailə-nikah münasibətləri
3. Azərbaycanda ailə-nikah münasibətlərinin inkişaf tarixi.
4. İbtidai icma cəmiyyətində cinsi rol münasibətləri haqqında E.Taylorun fikirləri.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan etnoqrafiyası, 3 cilddə, II cild. Bakı: Şərq- Qərb, 2007.
2. Çələbiyev N.Z. Ailə psixologiyası. / Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı: “Mütərcim”, 2015.

3. Çələbiyev N.Z. Azərbaycan ailə modeli qloballaşma və millilik kontekstində (müqayisəli-etnopsixoloji tədqiqat). Monoqrafiya, Bakı, ADPU, 2021.

4. Əfəndiyeva Ü.A. Əsrin gender konsepsiyası. Bakı, ADPU, 2017.

5. Süleymanov Ə. Qloballaşma kontekstində Azərbaycanda etnik qarışıq nikahlar.// (Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə və Müasir Azərbaycan dövlətçiliyinin 93 illiyinə həsr edilmiş beynəlxalq konfransın materialları). Bakı: Azərbaycan Universiteti, 4-5 may 2011-ci il.

1. Ailənin təbiəti və mahiyyətinin müəyyənləşdirilməsində dünya mütəfəkkirlərinin fərqli yanaşmaları

Maddi və mənəvi-ideoloji münasibətlərin dialektik vəhdəti sayəsində ailə ictimai varlıq və ictimai şüurun tərkib elementi kimi çıxış edir. Kiçik qrup və sosial institutlardan biri kimi ailə həm də mühüm funksiyaları–sosiallaşma, tərbiyəedici, pedaqoji vəzifələri yerinə yetirir. Sosial təsisat kimi yarandığı ilk dövrlərdən etibarən ictimai-tarixi təcrübənin gənc nəslə ötürülməsi ailənin ən mühüm vəzifələrindən biri olmuşdur.

Sosial-iqtisadi və mədəni–ideoloji dəyişikliklər ailənin tələbatlarına, funksiyalarına, ənənə, norma, dəyərlərinə və həyat tərzinə pozitiv və ya neqativ təsir göstərir.

Bəşəriyyətin yarandığı ilk dövrlərdən etibarən ailə və nikah məsələləri insanları dərindən düşündürən sosial-psixoloji problemlərdən biri olmuşdur. Ailənin təbiəti və mahiyyətinin müəyyənləşdirilməsinə dünya mütəfəkkirləri ayrı-ayrı tarixi dövrlərdə fərqli mövqedən yanaşmışlar. Ailə-nikah münasibətlərinin xarakterini açmaq sahəsində ilk təşəbbüslərdən biri antik dünyanın böyük filosofu Platona (b.e.ə. 427-347) məxsusdur. O, “İdeal dövlət” adlı əsərində cəmiyyətin birliyi məqsədinə nail olmaq üçün qadınların, uşaqların və mülkiyyətin ümumi olması ideyasını irəli sürmüşdür. O, qadınları ev qulluqçuları və uşaqlarla bir sıraya qoyur və bütün sahələr üzrə onların kişilərdən aşağıda dayandıqlarını qeyd edirdi. Patriarxal ailəni dəyişməz, “ilkin ictimai özək” adlandıran Platon belə hesab edirdi ki, dövlət ailələrin bir- ləşməsi nəticəsində meydana gəlir. Platon qeyd edirdi ki, 30-35 yaşlar arasında olan hər bir insan evlənməlidir, evlənməkdən imtina etmək cinayətdir. Qədim Yunanistanda bu yaş dövrünü keçən hər bir yunan subaylığa görə vergi ödəməli idi. Bu ideya əslində yeni deyildir. Platondan əvvəl qədim yunan tarixçisi Herodot (b.e.ə.V əsr) özünün “Tarix” əsərində qeyd etmişdir ki, qadınların ümumi olması bir çox qəbilələrin fərqləndirici əlaməti olmuşdur. Belə məlumatlara antik dövrün filosof və mütəfəkkirlərinin çoxunun əsərlərində təsadüf olunur.

Platonun «İdeal dövlət» layihəsini tənqid edən Aristotel (b.e.ə. 384-322) eyni zamanda onun patriarxal ailənin, cəmiyyətin başlanğıcı və ilkin özəyi olması haqqında ideyalarını inkişaf etdirərək ailənin kəndləri, kəndlərin isə birləşərək dövləti yaratması fikrini irəli sürmüşdür.

Aristotel ailədə ərlə-arvad arasındakı münasibətlərdən bəhs edərək yazırdı: “Yaxşı və yetkin qadın gərək öz evinə yaxşı yiyəlik etməyi bacarsın. İsmətli qadın öz ərinin davranışlarından örnək götürür və onun dediklərini qanun kimi qəbul eləyir. Evlilik bağlarına və birgəyaşayışa qadın ilahi vergi kimi yanaşmalıdır.

Plutarx da kişinin öz arvadı üzərində böyüklük etməli olduğunu məqbul sayaraq, qeyd edirdi ki, kişi qadını öz əmlakını yönəltdiyi kimi deyil, ruhun bədəni yönəltdiyi kimi sevgi və incəliklə etməlidir. Qədim Yunanıstan qanunlarına görə, kişinin öz arvadının sözünə baxaraq onun istədiyini yerinə yetirməsi məqbul sayılmırdı. Qadın isə öz istəyi ilə heç nə edə bilməzdi, onun özbaşına edə biləcəyi hər hansısa iş bir ovuc arpanın dəyərini aşmamalı idi. Ailəyə qeyd olunan bu nöqteyi-nəzərdən yanaşma uzun müddət davam etmişdir.

Homerin yazdığına görə, əski Yunanıstanda qadınların durumu çox yaxşı, onların kişilər üzərində təsiri çox böyük olmuş, sonradan bu münasibətlər pozulmuş, vəziyyət pisləşməyə doğru yönəlmişdir. Bu dövrün bizə gəlib çatan yazılı mənbələrində qadınların ev qaravaşları yerinə qo- yulduğu bəlli olur. Onların görməli olduğu tək bir iş evdə qayda-qanun yaratmaqdan, ərinin qulluğunda durmaqdan ibarət olmuşdur. Qadının “dilsiz-ağızsız” olması onun ən zəngin bəzəyi sayılırdı.

Fransız maarifçisi və mütəfəkkiri J.J. Russo (1712- 1778) “İctimai müqavilə haqqında və ya siyasi hüququn prinsipləri” adlı əsərində qeyd edirdi ki, “bütün cəmiyyətlərdə ən qədim və təbii, yeganə olan bir şey vardır ki, bu da ailədir”.

Orta əsrlərin yeni dövrünün filosofları cəmiyyətdə bütün ictimai münasibətlərin ailə münasibətləri əsasında meydana gəlməsi fikrini irəli sürmüş. Ailə ilə dövlətin münasibətlərinə müəyyən səviyyədə alman filosofları İ.Kant (1724-1804) və V.Hegelin (1770-1831) ideyalarında da rast gəlmək mümkündür. İ.Kant ailənin əsaslarını hüquq qaydalarında, V.Hegel isə “mütləq ideya”da görürdü. Monoqamiyanı ailənin başlanğıcı kimi qəbul edən alimlərin əksəriyyəti faktiki olaraq “nikah” və “ailə” anlayışlarını eyniləşdirmiş, onlar arasında fərqi isə formal hesab etmişlər. Aydındır ki, “nikah” və “ailə” anlayışları arasında sıx qarşılıqlı əlaqə vardır. Bir çox ədəbiyyatlarda həmin anlayışlar sinonim olaraq işlədilir. Lakin bu anlayışlar arasında oxşarlıq, ümumi cəhətlər olsa da, bir çox spesifik və xüsusi cəhətlər də vardır. Sosioloqların qənaətinə görə kişi və qadın arasında nikah tarixən öz sosial formasını dəyişən hüquqi tənzimləmə formasıdır. Onun vasitəsilə cəmiyyət ər- arvadlıq, valideynlik hüquqlarını və vəzifələrini müəyyənləşdirir.

Nikah ailədən fərqli olaraq fərdlər arasında münasibətlərin daha mürəkkəb sistemini əks etdirir. Ailə bir qayda olaraq yalnız ər-arvadı deyil, həm də onların uşaqlarını, həmçinin ər-arvadın qohumlarını və doğmalarını da əhatə edir.

Ailə və nikah münasibətlərinin yaranması və onların təkamülünə tarixi baxışlara İsveçrə alimi İ.Bahofenin (1815- 1887) “Ana hüququ”, amerikan alimi L.Morqanın (1818- 1881) “Qədim cəmiyyət” adlı əsərlərində də rast gəlinir.

Fransız etnoqrafı və sosioloqu Frederik Le-Ple (1806-1882) və ingilis sosioloqu Mak-Lennan (1827-1881) ailəni sosial həyatın əsas amili hesab edirdilər.

Le-Ple 1897-ci ildə yazdığı “İnsan nəslinin əsas konstitusiyası” adlı əsərində qədim cəmiyyətlərdə ailə və nikah münasibətlərini emprik tədqiq etmiş, kiçik qrup kimi ailənin həyat fəaliyyətinin konsepsiyasını yaratmışdır.

Mak Lenan isə 1876-cı ildə çap etdirdiyi “İbtidai nikah” adlı əsərində nikahın mənşəyi və mahiyyəti haqqında dəyərli fikirlər irəli sürmüş, ekzoqamiya, endoqamiya, poliqamiya, poliandriya və s. kimi ibtidai nikah formalarının yaranmasına səbəb olan amilləri müəyyən etmişdir.

XIX əsrdə ailənin mənşəyi və inkişafı haqqında ideyalar K.Marks (1888-1883) və F.Engelsin (1820-1895) ictimai-fəlsəfi baxışlarında daha da inkişaf etdirilmişdir. Onlar belə bir fikri qəti olaraq irəli sürmüşlər ki, ictimai –iqtisadi formasiyaların əsasını təşkil edən iqtisadi münasibətlər həm də ailənin əsasını təşkil edir. K.Marks qeyd etmişdir ki, ailə cəmiyyətin inkişaf etdiyi qaydalarla inkişaf etməli və cəmiyyətin dəyişdiyi qaydalarla dəyişməlidir. F.Engels 1884- cü ildə yazdığı “Ailənin, xüsusi mülkiyyətin və dövlətin mən- şəyi haqqında” adlı əsərində qeyd etmişdir ki, cəmiyyətin inkişafı ilə onun mühüm özəyi kimi ailə də sosial-iqtisadi şəraitin təsiri altında aşağı formalardan yüksək formalara doğru inkişaf edir. Deməli, ailə tarixi inkişafın məhsuludur və hər bir ictimai-iqtisadi formasiya yalnız özünə məxsus olan ailə-nikah münasibətlərinə malikdir.

Ailə və nikah problemlərinin ilk dəfə elmi psixoloji aspektdə sistematik araşdırılmasına XX əsrin 20-ci illərinin sonu, 30-cu illərinin əvvəllərindən ABŞ-da başlanılmışdır. Bu problemin tədqiqinə artan maraq, XX əsrin 60-70-ci illərində ailə və nikah məsələlərinə həsr olunmuş tədqiqatların nəticələri bu sahənin müstəqil elm sahəsi kimi fərqləndirilməsi mümkünlüyünü reallaşdırdı. XX əsrin sonlarına doğru ailə və nikahın psixoloji aspektdə tədqiqi aşağıdakı əsas məsələləri əhatə etməyə başladı: nikahın keyfiyyətinə təsir göstərən amillərin öyrənilməsi; ailənin inkişaf mərhələləri; ailənin rol strukturu; ailə üzvləri arasında

hakimiyyətin bölünməsi; ər-arvad arasında ünsiyyət; ailə və nikahı şərtləndirən motivlər; ailədaxili psixoloji iqlim və uyuşma; valideynlər və uşaqların psixoloji xüsusiyyətləri; boşanmanı şərtləndirən psixoloji amillər, onun nəticələri və s.

Ailənin spesifik sosial-psixoloji sistem kimi tədqiqi bir neçə mərhələyə ayrılır:

Birinci mərhələ -Antik dövrdən XIX əsrin ortalarına qədər olan dövrü əhatə edir. Q.Kriatensen bu mərhələni "sosial davrinizm mərhələsi" adlandırmışdır. Bu dövrdə ailənin əsas forması monoqam ailə qəbul olunurdu. Ailə cəmiyyətin çox kiçik, miniatür nümunəsi, cəmiyyətin özü isə genişlənməkdə olan ailə kimi nəzərdən keçirilirdi. Bu mərhələdə ailə haqqında təsəvvürlərdə sırf nəzəri konsepsiyalar üstünlük təşkil edirdi.

İkinci mərhələdə - (XIX əsrin ortaları –XX əsrin əvvəli) antropoloqlar və etnoqraflar ailəni aktiv surətdə öyrənməyə başlamışdılar. Bu mərhələdə onlar çöl tədqiqatlarından və ibtidai cəmiyyətlər üzərində aparılmış müşahidələrdən alınmış geniş empirik materiallara və müqayisəli tarixi təhlilin nəticələrinə əsaslanırdılar. Qohumluğun müxtəlif sistemlərinin öyrənilməsi patriarxatla matriarxatın nisbəti barədə nəzəri diskussiya ilə nəticələndi. Ailənin tarixinin və matriarxat problemlərinin öyrənilməsinin əsasını isveçrəli tarixçi İ.Y.Bahovfen (1815-1887) qoymuşdur. Onun fikrinə görə, cinslər arasında poliqam münasibətlər monoqam nikahdan əvvəl mövcud olmuşdur.

Sosioloq-vəkil C.Mak-Lennan hesab edirdi ki, öz inkişafında ailə üç pillədən keçmişdir: *promiskuitetdən* (cinslər arasında heç bir şeylə məhdudlaşmayan münasibətlərdən) *analıq hüququndan* və onun vasitəsilə *atalıq hüququna* doğru. C. Mak-Lennan həmçinin elmə endoqamiya və ekzo- qamiya anlayışları kimi fundamental anlayışları daxil etmişdir.

O dövrün sosiologiya elmində patriarxal ailə nəzəriyyəsi hakim idi. E.Giddensin rəyincə, antropoloji tədqiqatların əksəriyyəti sübut edir ki, kifayət qədər öyrənilmiş bütün cəmiyyətlər patriarxat cəmiyyətlər idi. Lakin kişilərin hökmdarlığının dərəcəsi və mahiyyəti hər yerdə fərqli olmuşdur. E.Dyurkheymin, M.Veberin, F.Müller-Lierin, U.Qudsedlin əsərlərində Avropa və xüsusilə amerikan sosiologiya elmində ailənin konkret-tarixi idarə edilməsinə doğru çəkilmə qəti olaraq möhkəmləndi. Dyurkheymin ailənin qohumların böyük dairəsindən "ər-arvad ailəsi" deyilənə doğru "kontrak- siyası" (sıxılması) qanununu formulə etdi. Fransız metodoloqu, nəzəriyyəçi və tədqiqatçı F.Le Ple ailənin tipologiyasını işləyib hazırladı.

Üçüncü mərhələ - XX əsrin əvvəllərindən ortalarına qədər davam etmişdir. Q.Krestensen bunu "spontan elmi mərhələ" adlandırmışdır. Bu mərhələdə elmdə nikah münasibətlərinin pillələri, formaları, tipləri haqqında emprik məlumatlar toplanmış, bir çox

sosioloqların səyləri sosial mühəndislik və ailə münaqişələrinin həllinə kömək göstərilməsi üzərində cəmlənmişdir.

Dördüncü mərhələ - XX əsrin ortalarından indiyə qədər davam edən dövrdür ki, Q.Krestensenə görə bu mərhələ mənlik şüuru mərhələsi kimi xarakterizə olunur. Bu mərhələ üçün ailə sosiologiyası və psixologiyası nəzəriyyəsinin planauyğun qaydada yaradılması və kollektiv emprik tədqiqatların aparılması səviyyəsidir.

Sosioloq və demoqraflar çoxdan belə nəticəyə gəlmişlər ki, müasir hadisə və prosesləri hərtərəfli kontekstdə araşdırmaq lazımdır. Sosioloji fikrin klassikləri və müasir nümayəndələri O.Kont, K.Marks, M.Veber. E.Dhürkheym, R.Merton, P.Ştompka və b. qeyd etmişlər ki, müasir dövrdə mövcud olanlar əvvəlki tarixi keçmişin bir hissəsidir. Ailə problemlərinin sosial-psixoloji elmi tədqiqatların müstəqil bir sahəsi kimi fərqləndirilməsi XIX əsrin ikinci yarısında sosial humanitar biliklərin meydana gəlməsi ilə əlaqədardır. Bu dövrdə ailənin sosial institut kimi tarixi keçmişi ilə bağlı nəzəri problemlər ilk növbədə antropoloq və sosioloqların diqqətini cəlb etməyə başladı. Antropoloqlar C.F. Mak-Lennan (1827-1881), İ.Y.Bahofen (1815-1887), L.Q. Morqan (1818-1881) və başqaları tədqiqatlar nəticəsində belə qənaətə gəlmişlər ki, ailə institutu donuq törəmə deyil, təkamül prosesində uzun inkişaf yolu keçmiş və indi də inkişaf edən sosial sistemdir.

XIX əsrin ortalarında sosioloji tədqiqatlarda ailə dəyişkənliyi və inkişaf məsələləri daha da aktuallaşmağa başladı. F.Engels dialektik materialist təlimin prinsiplərinə istinad edərək cəmiyyətin iqtisadi inkişafının ailə transformasiyasına təsirini tədqiq etməyə səy göstərmişdir. Bu dövrdə fransız sosioloqu F.Le-Ple (1806-1882) isə əksinə, qeyd etmişdir ki, ailə dinamikası cəmiyyətdə sosial-iqtisadi proseslərə təsir göstərir.

Keçmiş SSRİ-də ailənin öyrənilməsi 1960-cı illərin ortalarından fəal surətdə həyata keçirilməyə başlanmışdır. İlk dövrlərdə ailədə reproduktiv davranış, işləyən qadınların peşə və ailə rollarının uyğunlaşdırılması, ailədə hakimiyyət və vəzifələrin bölgüsü məsələləri tədqiq olunurdu. 1980-cı illərin əvvəllərindən ailənin həyat tərzinə, ər-arvadın emosional münasibətlərinə, münaqişələrə, vəzifələrin bölgüsünə, hakimiyyət və nüfuz münasibətlərinə, ailəyə dövlət köməyinə, nəzəri və metodik problemlərə, gənc ailələrə, uğursuz ailələrdə uşaqların tərbiyəsinə Bu problemlə bağlı rus psixoloq və sosioloqları olan İ.V.Qrebennikov, İ.V.Dubrovina, İ.S.Kon, V.İ.Sısenko, A.Q.Xripkova, V.İ.Smirnov, T.M.Afanasyeva, Q.P. Razumixina, S.V.Kovolyev, A.Q.Xarçiyev və başqaları geniş tədqiqatlar aparırdılar.

Azərbaycanda ailə problemlərinin sosial-psixoloji və pedaqoji aspektdən araşdırılması sahəsində sistemli tədqiqatlara XX əsrin 70-ci illərindən başlanılmışdır. Bu sahədə Ə.S.Bayramov, Ə.Ə. Əlizadə, Z.B. Göyüşov, Ə.M. Məmmədov, O.Ə.İsmayılov, R.İ.Əliyev, A.N. Abbasov, Ə.Ə. Ağayev, H.Ə. Əlizadə, H.İ. Quliyev, O.İ. Vəliyev, S.F. Şabanov, L.Əliyeva, İ.Ə.Mirzəyev və b. tədqiqatlarında ailə psixologiyası və pedaqogikasının bir sıra aktual məsələlərinə həsr olunmuş çoxşaxəli elmi araşdırmalar diqqəti cəlb edir. Bu sahədə diqqətəlayiq tədqiqatların müəllifi professor Ə.Ə. Əlizadənin xidmətləri xüsusi qeyd edilməlidir. Onun "Ailədə uşaqların cinsi tərbiyəsi (1968) adlı əsəri bu sahədə respublikamızda ilk elmi təşəbbüslərdəndir. Alimin 1975-ci ildə uğurla müdafiə etdiyi "Cinsi dimoqfizm və şəxsi qarşılıqlı münasibətlərinin formalaşmasının psixoloji problemləri" mövzulu (doktorluq dissertasiyası) bu sahədə ən böyük elmi uğur kimi qeyd olunmalıdır. Professor Ə.Ə.Əlizadənin 1986-cı ildə nəşr etdirdiyi "Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi" adlı əsəri bu mövzunun uğurlu elmi davamı diqqəti cəlb edir. Ə.Ə. Əlizadə cinslərarası münasibətlər, həmin münasibətlərin müxtəlif yaş dövrlərində təzahür xüsusiy- yətləri, valideyn və müəllimlərin bu sahədə mövqeləri, sosial-cinsi status, dostluq və məhəbbət hissi və s. haqqında geniş elmi araşdırmalar aparmışdır.

Son dövrlər ailə psixologiyası problemlərinə həsr olunmuş əsərlərdən biri İ.Ə.Mirzəyevin 2005-ci ildə çap olunmuş "Ailənin praktik psixologiyası" əsəridir. Dərs vəsaiti kimi tərtib edilmiş bu kitabda ailə mühitinin sosial-psixoloji xüsusiyyətləri, ər-arvad, valideyn-övlad, gəlin-qaynana mü- nasibətlərinin psixoloji məqamları təhlil edilmiş, ailə həyatına dair praktik tövsiyələr öz əksini tapmışdır.

Ailə problemlərinin tədqiqatçılarından biri rus psixoloqu İ.V.Dubrovina gənclərin ailə həyatına hazırlanmasının metodoloji müddəalarından birini müəyyən etmişdir. Onun qənaətinə görə, gənclərin ailə həyatına hazırlığı hər şeydən əvvəl onların mənəvi səviyyəsinin yüksəldilməsi ilə bağlıdır. A.S.Makarenko (1888-1939) isə yazırdı ki, "Əgər uşaq böyüdükcə öz valideynlərini, bacı və qardaşlarını, öz Vətənini, məktəbini sevməyi öyrənməmişsə, əgər onun xarakterində dərin eqoizm baş qaldırmışsa, onun seçdiyi qadını dərindən sevmək qabiliyyətinin olacağını zənn etmək çox çətindir". Görkəmli Ukrayna pedaqoqu V.A.Suxomlinski (1818-1970) isə haqlı olaraq təsdiq edirdi ki, "məhəbbət elmi" adlı hər hansı xüsusi elm yoxdur, insanlıq elmi vardır.

Ailə institutunu tarixi-müqayisəli təhlil edən və ənənəvi ailə ilə XIX əsrin sonu, XX əsrin əvvəlləri üçün xarakterik olan ailəni qarşılaşdıran P.Sorokin sosiologiyaya "ailənin böhranı"

anlayışını gətirmişdir. O, bu mücərrəd anlayışın empirik indikatorları sırasına həmin dövrdə nikah və doğumun aşağı düşməsini, boşanmaların sayının artmasını, valideyn nüfuzunun zəifləməsini aid edirdi. Sosioloq alimlər ailə institutunda destruktiv xarakterli dəyişikliklərin səbəblərini sənaye cəmiyyətinin inkişaf qanunlarında görürdülər.

Rus psixoloqu V.E.Çudnovski isə şəxsiyyətin kompleks keyfiyyətlərini tədqiq edərkən xoşbəxt nikah üçün zəruri şərtlər sırasına başqa adama yönəlmə, ətrafdakı insanları anlamaq bacarığı və istəklərini, onların maraqlarını, zövq və adətlərini nəzərə almağı vacib hesab edirdi.

Ailə problemlərinin məşhur tədqiqatçılarından biri olan rus sosioloqu V.A.Sısenko ailə psixologiyası elminə "nikaha qabillik" anlayışını daxil etmiş və onun bir sıra komponentlərini müəyyənləşdirmişdir. Bu komponentlər sırasına o, "başqa adama qayğı göstərməyi, ona fədakarlıqla xidmət etməyi, xeyirxahlığı, tərəfdaşın emosional aləminə daxil olmağı, onun yaşantılarına, kədər və uğursuzluqlarına, qələbəsinə şərikliyi, kooperasiya, əməkdaşlıq, insanlararası ünsiyyət qabiliyyətini, əməyin bir çox növləri üzrə bacarıqlarını, ev işlərini planlaşdırmağı, tərəfdaşın nöqsan və çatışmazlıqlarına qarşı səbrli və dözümlü münasibəti, şəxsi eqoizmdən uzaq olmağı və s." aid etmişdir.

Rus psixoloqu İ.V.Qrebennikovun "Ailə həyatının əsasları" (1991) adlı əsəri ailə psixologiyası problemlərinə həsr olunmuş dəyərli əsərlərdən biridir. Ailəni "sivilizasiyanın nəticəsi və yaradıcısı" adlandıran müəllif həmin əsərində ailə-nikah münasibətlərinin inkişafı, ailənin funksiyaları, nikaha və ailə həyatına hazırlıq, habelə intim münasibətlərə aid problemlərə geniş yer ayırmış, artan boşanmaların kökündə gənclərin nikaha və ailə həyatına hazır olmadıqlarının durması faktını əsaslandırmağa çalışmışdır.

Müasir dövrdə ailənin psixoloji problemlərinin tədqiqi sahəsində rus alimlərindən T.V.Andreyevanın, V.N.Drujinin, A.V.Losevanın, M.V.Vdovinanın, V.P.Şeynovun, E.Eydemiller və b. elmi araşdırmaları daha çox diqqəti cəlb etməkdədir.

2. Bəşər cəmiyyətinin inkişafının ayrı-ayrı mərhələrində ailə-nikah münasibətləri.

Cəmiyyətin təkamülünün ayrı-ayrı mərhələlərində ailənin strukturunda, funksiyaları və ailə münasibətlərinin xarakterində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər ibtidai insan şürüsü üçün səciyyəvi olan pros- miskuitetdən (ibtidai insan cəmiyyətinin aşağı

pilləsində cinsi əlaqənin tamamilə nizamsız olması), qrup nikahı, matriarxat, patriarxat və monoqamiyaya qədər milyon illər davam edən təkamül yolu keçmişdir. Cəmiyyətdə baş verən ictimai tərəqqi və təkamül ailəni də ən bəsit, ibtidai formalarından tədricən yüksək, ali təşkilati formalara yüksəltmişdir. Bəşər tarixinin öz inkişafında keçmiş olduğu üç əsas mərhələni–vəhşilik, barbarlıq və sivilizasiyanı fərqləndirmək olar. Bu mərhələlərin hər birində qadınla kişi arasındakı münasibətləri tənzimləyən müəyyən ictimai institutlar mövcud olmuşdur.

Cəmiyyətin inkişafının ilkin mərhələlərində cinsi münasibətlərin nizamsız olması adi və səciyyəvi hal idi. Tayfanın meydana gəlməsi ilə insanlar arasında bu münasibətlər qrup nikahı normaları ilə tənzimlənməyə başlandı. Qrup şəklində yanaşı yaşayan kişilər və qadınlar “kommunal ni- kah” münasibətləri ilə bir-biriləri ilə sıx əlaqədə idilər. Belə həyat tərzində yaşayan hər bir kişi özünü bütün qadınların əri hesab edirdi.

Ailə və nikah heç də bioloji mahiyyət kəsb edə bilməz, onlar yalnız insan cəmiyyəti üçün xarakterik olan sosial təsisat və hadisələrdir. Nikah cinslər arasında münasibətlərin sosial təşkilinin xüsusi sistemidir. O, bu münasibətlərlə bir-birinə bağlanan tərəflərin müəyyən hüquq və vəzifələrinin məcmuyunu özündə əks etdirir.

Bəşər cəmiyyətinin inkişafında başlanğıc mərhələ olan ibtidai icma cəmiyyətində nikahın ilk formaları olan poliqamiya (çoxnikahlıq), poliqniya (çoxarvadlılıq), poliandriya (çoxərlilik) meydana gəlir. Nikahın bu formalarının fərqli cəhətləri ilə yanaşı, ümumi olan cəhəti də vardır ki, bu da nikahın fərdlər arasında mövcud olması idi. Avropa mütəfəkkirlərinin fikrincə, fərdlərarası cinsi münasibətlərin tənzimlənməsinin ən ideal forması olan monoqamiya məhz ibtidai insan cəmiyyətində meydana gəlmiş ən mütərəqqi nikah formasıdır.

Nikah cinslərarası münasibətlərin hüquqi tənzimlənməsində əsas amildir. O, nəinki fərqli cinsdən olan insanlar arasında cinsi münasibətləri nizama saldı, həm də bu əlaqələrin yalnız fərqli cinsdən olan insanlar arasında mümkünlüyünü hüquqi cəhətdən əsaslandırdı. Bununla da ekzoqamiya yəni, nikahın qəbilədən kənarda, başqa qəbilənin digər cinsdən olan üzvü ilə mümkünlüyü qəti şəkildə qaydaya salınmış oldu. Cinsi tərəfdaşın qəbilədən kənarda axtarılması tələbi qəbilə daxilində cinsi münasibətlərin qadağan edilməsi və yolverilməz bir hal kimi qiymətləndirilməsi ilə nəticələndi. Aqamiya adlanan bu qayda qəbilə daxilində nəinki eyni qəbilə üzvləri, qan qohumları, həm də əks cinslər arasında nikah və nikahdankənar münasibətləri ciddi şəkildə qadağan edirdi. Aqam qadağası sinifli cəmiyyətdən əvvəlki, ibtidai

icma dövründə cinslərarası münasibətləri tənzimləyən əsas norma oldu. Bu normanın pozulması ibtidai cəmiyyət tərə- findən yalnız əxlaqi qəbahət kimi deyil, həm də mümkün cinayətlərdən ən qorxulusu kimi qiymətləndirilirdi. Aqamiyanın pozulması ölüm cəzası ilə nəticələnirdi.

İbtidai cəmiyyət daxilində nikah münasibətlərinin tənzimlənməsinin "dual–cinsi ittifaqlar" adlanan forması da mövcud idi. Etnoqrafik tədqiqatların nəticələrinə görə dual ittifaqlar qədim bəşəriyyətin həyatında cinslərarası münasibətləri nizamlayan geniş yayılmış və universal bir təsisat idi. Bu cinslər arasında münasibətlərin sosial təşkilinin elə bir forması idi ki, bu ittifaqda birləşən tərəflərə müəyyən hüquqlar verilməklə yanaşı, onların üzərinə bir sıra öhdəliklər də qoyurdu. Nikahın yeni forması kimi dual –cinsi ittifaqlar cinslər arasında fərdi nikahı deyil, onların qrupları arasında nikahın sosial təşkilini nəzərdə tuturdu ki, bu da qrup nikahı adlanır. "Qrup nikahı" anlayışı sosial psixologiya və etnoqrafiya elmlərində çoxdan işlədilən anlayışlardan biridir. Qrup nikahına daxil olanlar fərdi nikahların özünəməxsus məcmusu kimi çoxərlilik və çoxarvadlılığın mahiyyətini anlayırdılar. Reallıqla qrup nikahı fərdi nikahdan keyfiyyətcə fərqli bir hadisə idi. Qrup nikahı əslində öz-özlüyündə fərdi olaraq seçilmiş cinslər arasında deyil, onların müəyyən qrupları və fərqli cinsləri arasında idi. Belə ki, qrup ittifaqına daxil olan cinslərin qarşılıqlı olaraq müəyyən hüquq və öhdəlikləri vardı. Qrup nikahı ibtidai icma cəmiyyətinin ilkin mərhələlərində cinslər arasında münasibətləri tənzimləyən başlıca deyil, həm də yeganə nikah forması idi. İbtidai insan sürüsünün fərdləri arasında cinsi münasibətlər bu dövrdə öz daxilində ciddi təhlükə daşıyırdı. Bu dövrdə insanların cinsi instinkləri sosial çərçivəyə salınmadığından, tənzimlənməyən münasibətlər kimi nəzərdən keçirilir. Tənzimlənməyən cinsi instinktlər qəbilə və icma daxilində tez-tez açıq toqquşmalara səbəb olurdu ki, bu da formalaşma mərhələsində olan ilk insan cəmiyyətinin təsərrüfat həyatına dağıdıcı təsir göstərirdi.Qəbilə daxilində parçalanmalar ibtidai insanların ilk məşğuliyyət növü olan ovçuluqda qəbilə üzvlərinin sıx birliyinə əsaslanan uğurun əsas şərti idi. Ovçuluq və yığıcılıqda payı, qəbilənin təsərrüfat həyatında fəallığı olmayan qəbilə üzvü daim qəbilə ağsaqqalının təpkiləri ilə üzləşir, amansız cəzalandırılır və ya qəbiləyə yük olduğu üçün qovulurdu. Yaşayış uğrunda mübarizə aparan ibtidai cə- miyyətin adamları üçün ərzaq toplamaq, yemək ehtiyatına malik olmaq ölüm-dirim məsələsi idi. Odur ki, ova hazırlıq və ov dövründə qəbilə üzvləri arasında cinsi münasibətlərə ciddi qadağalar qoyulurdu. İbtidai icma cəmiyyəti insanlarının inanclarına görə, qoyulmuş qadağaların pozulması ov zamanı uğursuzluqlara səbəb olurdu.

Odur ki, bu münasibətləri tənzimləyən yeni sosial çərçivə kimi dual–cinsi nikah forması meydana gəldi. Nikahın yeni olan bu forması nikah quran tərəflər cinslər arasında müəyyən hüquq və öhdəlikləri müəyyənləşdirməli idi. Dual ittifaqa daxil olan hər bir cinsin öz ittifaq üzvü olan həmcinsi ilə cinsi əlaqələr yaratması ciddi surətdə qadağan olunur, hər bir kəs yalnız belə münasibətləri digər cinsin üzvü ilə qura bilərdi. Dual-cinsi nikah forması qəbilə icmasını xeyli möhkəmləndirirdi. Bu konkret olaraq hər bir fərdin mənsub ol- duğu insan kollektivində onun ana nəsli ilə başlanan inkişaf yolunun başlanğıcını qoydu. Yeni doğulan qəbilə üzvü olan uşaq öz anasını tanımaqla həm də mənsub olduğu kollektivi tanımış oldu. Bəşər tarixinin təkamülündə uzunmüddətli dövr olan bu dövr matriarxat və ya ana xaqanlıq dövrü adlanır.

Lakin bu dövrdə kişilərin vəziyyəti sonrakı ataxaqanlığı dövründə qadınların malik olduqları tabeçi vəziyyətinə tamamilə bənzəmirdi. Hətta lap qədim dövrlərə aid olan mifoloji anlamda qadın və kişi bölümü yox idi, hər iki başlanğıc yanaşı yaşayırdı.

Yeri gəlmişkən qeyd edək ki, müasir dövrdə də dünyada yaşayan çoxsaylı qəbilələrin bəzilərində hələ də matriarxat ənənələrinə təsadüf olunur. Məsələ, İndoneziyanın Sumatra adasında sayı təxminən 4,5 milyon nəfər olan Minanqabao adlı qəbilədə ailə matriarxat qaydaları ilə təşkil olunur. Toydan sonra ər xanımının evinə köçür, onun soyadını daşıyır. Qadın ərini boşadıqda o, dövlət tərəfindən təşkil olunan xüsusi sığınacaqlara yerləşdirilir.

Fərdlər arasında nikahın meydana gəlməsi ibtidai insan cəmiyyətinin iqtisadi həyatının təşkili və burada baş verən dəyişikliklərlə sıx bağlı olmuşdur. Tarixdən məlumdur ki, ibtidai icma quruluşunun matriarxat dövrü adlanan ilk mərhələsi “ibtidai kommunizm” adlandırılırdı. Xüsusi mülkiyyətin mövcud olmadığı bu dövrdə bütün istehsal vasitələri və istehlak şeyləri bütün icma üzvlərinin ümumi mülkiyyətinə daxil idi. Mülkiyyətin ictimai xarakteri onun qəbilə üzvlərinin tələbatlarına uyğun bölünməsində ifadə olunurdu. Lakin ibtidai cəmiyyətin inkişafının sonrakı gedişində bu bölgü forması da dəyişikliyə məruz qalırdı. Nə qədər ki, ictimai məhsul fiziki mövcudluğun saxlanılması üçün vacib sərvət idi, kollektivin hər bir üzvü öz payını istehlak ehtiyacına uyğun olaraq alırdı. Lakin heç kəs artıq məhsula sahib ola bilməzdi. Cəmiyyət belə şəraitdə heç bir üzvünə ümumi sərvət olan ərzaqdan təbii ehtiyacdan artıq götürməyə razılıq verə bilməzdi. Ibtidai insanlar üçün qorxu və təhlükə altında əldə edilən ərzaq onların ölümdirim məsələsi idi.

Sonralar, ibtidai cəmiyyətdə məhsul istehsalı gedişində daim artıq məhsul yaranmağa başladı və get-gedə bölgüyə qoyulan məhdudiyyət öz əhəmiyyətini itirdi. Kollektiv tərəfindən

əldə edilmiş artıq ərzağın başqa məqsədlər, xüsusən digər icma üzvlərinə bağışlanması və ya mübadilə edilməsinə real imkanlar yaranmış oldu. Beləliklə də bəşər cəmiyyətinin inkişafında mübadilənin ilk formasıməhsul mübadiləsi, yəni natural mübadilə meydana gəldi. Hər hansı bir şeyi bağışlamaq və ya dəyişmək isə ona sahib olmaq demək idi. Kollektivin mülkiyyətində olan artıq məhsulun bir hissəsinin mübadiləsi ilə yanaşı, digər hissəsinin nəinki istehlakına, həm də onun ayrı-ayrı üzvlərinin mülkiyyətinə keçməsinə real imkan yaranmış oldu. Kollektivin hər bir yaşlı üzvünün artıq məhsul üzərində payı və onun sərəncamçısı olmaq hüququ vardı. Qəbilənin ümumi mülkiyyətində olan sərvət üzərində isə həmin qəbilənin yaşlı olan hər bir üzvünün payı vardı. Öz payını alan yaşlı qəbilə üzvü mülkiyyətində olan ərzaqdan yalnız öz ehtiyacları üçün istifadə hüququna deyil, həm də uşaqları yedizdirmək hüququna malik idi.

Qəbilədə bəsləyici və qidalananlardan ibarət qruplar yarandı ki, bu da “himayədə olan qəbilə” adlanırdı. Qəbilədə yeni doğulan hər bir uşağın ilk təbii qida mənbəyi onun anası idi. O, öz uşağını əvvəlcə öz südü ilə qidalandırır, sonra isə uşağını ərzaqla qidalandırmaq və zəruri olan hər bir şeylə təmin etmək öhdəliyini öz üzərinə götürürdü. Uşaqları və kişiləri cəlb etmək cəmiyyətin zəruri amilinə çevrildi. Çünki onlar qadından asılı idilər. Ananın qardaşları olan kişilər də ananın başçılıq etdiyi bir təsərrüfat kollektivinin üzvü olurdular. Get-gedə bir qəbilə daxilində bir neçə qardaş, bir neçə bacı və uşaqlardan ibarət himayədə olan özəklər meydana gəldi. Beləliklə də, ibtidai icma cəmiyyətində fərdi nikah münasibətləri meydana gəlmiş oldu. Nəticədə kişi, qadın və uşaqlardan ibarət himayədə olanların özəyi, yəni ailə yarandı.

D. Xacnal (1979) nigahın aşağıdakı təsnifatını müəyyənləşdirmişdir: Avropa (Qərbi Avropa nəzərdə tutulur) və Şərq nikahı (adlar şərtidir və coğrafi deyildir, belə ki, Afrika ölkələrində və digər kontinentlərdə də nikahın hər iki formasına rast gəlmək olar hər şey mədəniyyət tipindən asılıdır). Avropa nikah tipinin fərqləndirici xüsusiyyətləri aşağıdakılardır: nikaha gec daxil olmaq (24 yaşından sonra), heç vaxt nikahda olmayan şəxslərin çox olması (bu çox vaxt qadınlar olur, onların ailə qurmaması norma kimi qəbul edilir).

Nikahın Şərq tipində əksinə, nikaha tez daxil olmaq (xüsusilə qadınlar) və demək olar ki, nikaha girməyən şəxslərin olmaması müşahidə olunur. Avropa və Asiya nikah tipləri bir-birindən əsasən onunla fərqlənir ki, qadının nikaha daxil olmaq üçün hansı imkanları vardır və cəmiyyət qadının tək yaşamasına necə münasibət bəsləyir. Bizim ölkəmizə gəldikdə, əsasən nikahın Asiya tipi xasdır. D.Xacnal eyni zamanda nikahın digər müxtəlif növlərini də

göstərmişdir: ardıcıl poliginiya (kişi bir neçə dəfə təkrar evlənir) və ardıcıl poliandriya (qadın bir neçə dəfə təkrar ərə gedir).

3. Azərbaycanda ailə-nikah münasibətlərinin inkişaf tarixi

Erkən Tunc dövründə (e.ə.IV minilliyin sonu, III minilliyin əvvəli) Azərbaycan ərazisində xüsusi mülkiyyət, sinifli cəmiyyət və dövlət qurumlarının təşəkkülü haqqındakı qədim şumer kitabələrində məlumat vardır. E.ə.2104-cü ilə aid olan bir şumer kitabəsində xəbər verilir ki, Uruk şəhərinin hökmdarı Ensi Utuhenqal Kuti hökmdarı En Tirikanı hakimiyyətdən devirmək üçün onu “arvadı ərindən, övladı valideyndən ayırmaqda” ittiham edərək, əhalini ona qarşı qiyama qaldırır. Qaynağın verdiyi məlumatdan aydın olur ki, qədim Mesopotamiya və Azərbaycan ərazisində ailə cəmiyyətin mənəvi dəyərlərindən biri kimi qiymətləndirilirdi. Azərbaycanın qədim soylarından olan kutilər ailəni cəmiyyətin müqəddəs kiçik özəyi hesab edirmişlər.

Azərbaycanlıların ailə və ailə məişətinə dair maraqlı materiallar XI-XVIII əsrlərə aid mənbələrdə, XIII əsrin böyük Azərbaycan alimi Nəsirəddin Tusinin əsərlərində də öz əksini tapmışdır.Azərbaycanda ailə və ailə məişəti məsə- lələri həmçinin XVIII əsrin sonundan başlayaraq XIX əsr və XX əsrin başlanğıcında yazılmış etnoqrafik səpkili rusdilli ədəbiyyatda, Avropa səyyahlarının xatirə və gündəliklərində də əks olunmuşdur.

Dünyanın bütün xalqlarında olduğu kimi, azərbaycalılarda da tarixi inkişaf prosesində ailənin həcmi və strukturu ilə müəyyən edilən iki forması-“böyük ailə” və “kiçik ailə” mövcud olmuşdur.

Böyük ailələr ailə icması, yaxud patriarxal ailə, nəsli ailə, bölünməmiş, birləşmiş və ya mürəkkəb ailə və s. adlarla məlumdur. Görkəmli etnoqraf alim Q.Qeybullayevin qeyd etdiyinə görə, ailə icması üç, dörd və bəzən beş nəslin nümayəndələrindən ibarət olub, ata, oğul, nəvə, nəticə və eləcə də qardaşların ailələrini birləşdirən kiçik ictimai kollektiv, təsərrüfat özəyi idi. Bu kollektivə onun ağsaqqalı başçılıq edirdi. Ailə icması üçün səciyyəvi cəhət onun üzvlərinin torpaqdan, əmək alətlərindən, ev heyvanlarından, digər mülkiyyət və əmlakdan birlikdə istifadə etməklə, birgə istehsal və birgə mənimsəmədir. Bu xüsusiyyətlər ailə icmasının təsərrüfat və ictimai mahiyyətini müəyyənləşdirməklə, onun ilkin əsasını təşkil edirdi.

Ailənin tarixi forması olan böyük ailənin təşəkkülü xüsusi mülkiyyətin meydana çıxması, ata nəslinin qərarlaşması və nəticədə qəbilə icmalarının dağılması, kənd icmalarının

yaranması ilə əlaqədardır. Ailə icmalarının yaranması və dağılması tarixini dəqiq müəyyənləşdirmək mümkün deyildir. Qonşu İran və Orta Asiyada ailə icmalarının dağılması və böyük ailələrin kiçik ailələrə parçalanmasını rus alimləri eramızın V əsrinə aid edirlər. Azərbaycan etnoqrafı Q.Qeybullayev də həmin materiallara əsaslanaraq, Azərbaycanda böyük ailələrin V əsrdən başlayaraq kiçik ailələrə bölünməsini ehtimal edir. Bu fərziyyə orta əsr Azərbaycan xalq dastanlarının materialları ilə də təsdiq olunur. Dastanlarda böyük ailələr haqqında demək olar ki, heç bir məlumat verilmir və təsvir olunan ailələrin hamısı kiçik ailələrdir.

XIX əsrin sonundan başlayaraq XX əsrin 30-cu illərinədək Azərbaycanda ailə icmaları dağılaraq, yerini patronomik qruplara verir. Patronomik qruplar Azərbaycanda “nəsil”, “övlad”, “toxum”, “əqrəba”, “kürək” və s. adlandırılırdı.

XIX əsrin sonunda Rusiyada kəndli islahatları, kapitalist münasibətlərin Azərbaycan kənd təsərrüfatına yol tapması, kənddə əmtəə-pul münasibətlərinin formalaşması böyük ailələrin parçalanması üçün zəmin yaratdı. Böyük ailələrin dağılması prosesi XX əsrin 30-cu illərinədək davam edir. XX əsrin 30-cu illərində ailənin təsərrüfat özəyi funksiyasını itirməsi nəticəsində “qalıqlar” halında mövcud olan tək-tək ailə icmaları da dağılaraq aradan çıxdı.

Ailə icmaları parçalanan zaman böyük ailəyə məxsus torpaq sahəsi bir neçə yerə bölünməli idi. Bu isə təsərrüfatın dağılmasına səbəb ola bilərdi. Ona görə də bir ailə icmasının dağılması nəticəsində yaranmış yeni ailələr bir- biri ilə əlaqələri kəsmir, bir məhəllədə, ayrı-ayrı evlərdə yaşasalar da, torpaq faktiki olaraq bölünmür, yenə birgə əkilib- becərilirdi. Yeni kiçik ailələr müstəqil təsərrüfatlara malik olsalar da, əksər hallarda təsərrüfat əlaqələrində və ictmai münasibətlərində birliyi müəyyən müddət qoruyub saxlıyırdılar. Belə qohum ailələr qrupu “patronimiya” adlanır.

Azərbaycanın müxtəlif bölgələrində patronimik qruplar uşağı, əqrəba, nəsil, övlad, toxum, tirə, kürək, törəmə və s. adlarla mövcud olmuşdur. Patronimiyaya daxil olan ailələr çox vaxt bir-birinə yaxın yerlərdə yurd salıb kənd daxilində məhəllə təşkil edirdilər.

Azərbaycanda orta əsrlərdən başlayaraq, bu günədək ailənin əsas forması kiçik ailələrdir. Böyük ailə ilə kiçik ailə arasındakı fərq yalnız ailə üzvlərinin sayında deyildi. Onların arasında kəmiyyət fərqi ilə yanaşı, əsas iki keyfiyyət fərqi də vardı. Böyük ailənin varidatı bütün ailəyə məxsus olduğu halda, kiçik ailədə mülkiyyətin sahibi yalnız onun başçısı olan kişi hesab edilirdi. İkinci fərq, nəsillərin durumu ilə bağlı idi. Böyük ailə 3-5 və daha çox nəsildən ibarət olmaqla, şaquli istiqamətdə, baba, ata, oğul və nəvələrdən, üfüqi istiqamətdə

isə qardaşların ailələrindən təşkil olunduğu halda, kiçik ailələr üçün xarakterik cəhət onun yalnız şaquli istiqamətdə iki və üç nəsildən ibarət olması idi.

Azərbaycanda kiçik ailələr quruluşlarına görə iki tipə bölünür: “sadə” və “mürəkkəb ailələr”. Sadə ailə iki nəsildən, mürəkkəb ailə isə üç nəsildən, yəni baba-nənə, ata- ana və nəvələrdən ibarət olurdu. Sadə ailədə uşaqlardan biri evləndikdən sonra ata-anaları ilə birlikdə yaşayırsa, bu zaman ailənin tipi deyil, forması dəyişir və o, böyük ailə hesab olunurdu.

Sadə ailə sosial psixologiya elmində “nuklear” (latın- ca “nukleus”–nüvə, özək) ailə adlanır. Nuklear ailədə uşaqların sayı 1-2 nəfər olduqda o, az uşaqlı ailə, 3-4 nəfər olduqda orta uşaqlı ailə, 5 nəfər və daha çox olduqda çoxuşaqlı ailə hesab edilir.

Ailə mülkiyyətinin bölgüsü, əksər hallarda məhəllə ağsaqqalının, bəzən mollanın iştirakı ilə adət əsasında həyata keçirilirdi. Öncə qadınların şəxsi mülkiyyəti, sonra isə valideynlər üçün “xeyratlıq”, subay qızlar üçün “ərgənlik” və subay bacı üçün “cehizlik” ayrılırdı. Ailənin yerdə qalan mülkiyyəti bundan sonra, yeni ailələr arasında bölünürdü. Bu zaman İslam hüququna və şəriət qaydalarına görə, qardaşlar bərabər pay alırdılar, qızlara qardaşın payının yarısı qədər, anaya isə səkkizdə biri qədər pay ayrılırdı. Anaya ayrılan payın azlığının səbəbi öncə onun şəxsi mülkiyyətinin ayrılması ilə bağlı idi.

Vaxtilə Azərbaycanda bir çox türkdilli xalqlarda olduğu kimi spesifik ailə tipləri də mövcud olmuşdur. Belə ailə tiplərinə levirat, sosorat, kuzen və krosskuzen nikah formaları aid edilir.

“Levirat” (lat.”levir”-qayın) ailə adətinə görə kiçik uşaqları olan evli qardaşlardan biri cavan yaşlarında vəfat etdikdə onun subay qardaşı, subay qardaşı olmadıqda isə evli qardaşlardan biri mərhum qardaşının uşaqlarını saxlamaq niyyəti ilə onun dul qadını ilə evlənirdi.

“Sororat” (lat.”soror”-bacı) ailə adəti arvadı vəfat etmiş cavan kişinin subay baldızı ilə evlənməsinə icazə verirdi. Sororat adəti anasız qalmış uşaqların qayğısına qalmaq məsələsi ilə bağlı idi. Belə hesab olunurdu ki, vəfat etmiş bacının uşaqları üçün hamıdan yaxşı ana onların xalası ola bilər.

Azərbaycan ailə məişətində nikah münasibətləri mühüm yer tuturdu. Qədim tarixə aid yazılı qaynaqların az olması səbəbindən qədim Azərbaycanda nikah formaları haqqında təsəvvürlər çox səthidir. Yalnız Strabonun (e.ə.I əsrin sonu–eramızın əvvəlləri) əsərlərində əcdadlarımızdan biri sayılan midiyalılarda poliqamiya-(çoxarvadlılıq) kimi nikahın olması haqqında məlumat vardır.

Poliqam nikah-Azərbaycanda qədim dövrdə mövcud olmuş, sonralar aradan çıxmış və orta əsrlərdə yalnız qalıq şəklində mövcud olmuşdur. Poliqamiya, əsasən ikiarvadlılıq şəklində təzahür etmişdir. Poliqam nikahlar müəyyən səbəbdən (sonsuzluq, yalnız qız uşaqlarının doğulması) nə- ticəsində baş verirdi. “Levirat”, “sororat” adətləri də poliqam nikahı yaradan səbəblərdən idi.

Ailə-nikah münasibətləri ilə bağlı məsələlərdə qohumla evlənmə xüsusi yer tuturdu. Lakin bu, qəbilə-tayfa quruluşu üçün xarakterik olan “endoqam” nikah deyildi, çünki qohum olmayanlarla evlənməyi qadağan etmirdi. Azər- baycanda “ekzoqam” nikahı, yəni yalnız qohum olmayanlarla evlənməyə icazə verib qohumlarla evlənməyi qəti qadağan edən nikah adəti olmamışdır. Sonralar İslam dini Azərbaycanda qohumla evlənmə adətini tənzimləmişdir.

Azərbaycanda qohum ilə evlənmə səbəbindən daha çox “kuzen nikahlar” yaranmışdı. Kuzen nikahlar iki qrupa bölünürdü: “kuzen nikahlar” (əmioğlu ilə əmiqızının və xala-oğlu ilə xalaqızının nikahları) və “krosskuzen nikahlar” (dayıoğlu ilə bibiqızının və bibioğlu ilə dayıqızının nikahları). Təsadüfi deyil ki, qardaş Türkiyə dövlətinin ədəbi dil tərkibində ən yaxın qohumlara “kuzenim” deyə müraciət edilir ki, bu da kuzen nikahların tarixiliyindən xəbər verir. Keçmişdə “ortokuzen nikahlara”, xüsusilə, əmioğlu ilə əmiqızının nikahına daha çox üstünlük verilirdi ki, “onların nikahını göydə mələklərin kəsmişdir” fikri zərb-məsəl kimi indi də işlədilir.

Azərbaycanda ər ilə arvad arasında yaş fərqi məsələsinə münasibət müxtəlif olmuşdur. Qızların özündən böyük oğlanlara ərə getməsi ailənin möhkəmliyinin təminatı kimi qiymətləndirilirdi. Keçmişdə Azərbaycanda ər arvaddan əksər hallarda 10-15 yaş böyük olurdu. İslam dini hüququnda ərin arvaddan 10-12 yaş böyük olması məqsədəuyğun sayılırdı. Müasir dövrdə isə elmi fikirdə Azərbaycanda ərin arvaddan 3-7 yaş böyük olması ən yaxşı seçim hesab edilir. Psixoloqların fikrincə, 20 yaşlı qızın düşüncə tərzi, 30 yaşlı oğlanın düşüncə tərzinə bərabərdir. Bu cür yaş fərqi xalq müdrikliyində aşağıdakı deyimlə təsdiqlənirdi ki, kişilər elmi kitablardan, qadınlar həyatdan öyrənirlər.

4. İbtidai icma cəmiyyətində cinsi rol münasibətləri haqqında E.Taylorun fikirləri.

İngilis etnoqrafı və ibtidai mədəniyyət tədqiqatçısı, ser Edvard Bernett Taylor (1832-1917) Kral Elmi Cəmiyyətinin (Britaniya Elmlər Akademiyasının) üzvü, Oksford Universitetinin antropologiaya sahəsində professoru, həmin universitetin nəzdində

Etnoqrafiya muzeyinin yaradıcısı və mühafizi Böyük Brinaniyanın İrlandiyadakı Antropologiaya İnstitunun prezidenti olub, elmdə müstəsna xidmətlərinə görə zadəgan tituluna layiq görülmüşdür. Özünün “İbtidai mədəniyyət” (1871) adlı əsərində, eləcə də “İnstitutların inkişafının tədqiqat metodu haqqında” (1889) məqaləsində E.Taylor patrixətli(ata), matrixətli(ana) və ikili (ana-ata) mənşə hesabını araşdırıb, varisliyin müxtəlif formalarını (məs,. soyadını, mülkiyyəti, vəzifəni, hakimiyyəti) həmin bölmələrə uyğun təsnif etmişdir. O, sübut etməyə çalışırdı ki, bəşəriyyət ana tipli cəmiyyətdən ata tipli cəmiyyətə doğru ardıcıl hərəkət edib. Əsas material kimi, o, leviratı seçib, ona müraciət etmişdir. Levirat (lat. “levir” - qayın) ailə adətinə görə, kiçik uşaqları olan evli qardaşlardan biri cavan yaşlarında vəfat etdikdə, onun subay qardaşı, subay qardaşı olmadıqda isə evli qardaşlardan biri mərhum qardaşının uşaqlarını saxlamaq niyyəti ilə onun dul qadını ilə evlənirdi.

Onun fikrincə, levirat “nigahın iki fərd arasında bağlanmış müqavilədən daha çox, iki ailə arasında bağlanmış müqavilə olduğu bir dövrünə aid olan” əvəzedilməz adəti idi. Üç mərhələ bir birini dəyişdikcə, leviratın cəmiyyətdə yayılması dairəsi genişlənir. Ata-ana mərhələsində levirat, oğulların dul analarından sonra varis olma adəti yarışa girir.

Daha sonra Taylor “böyük sosial transformasiyanı” açıqlamaq üçün qızı qaçırtmaq yolu ilə nagaha daxil olmaq adətini araşdırır. Adətləri öyrənilmiş 350 xalqdan 100-də qız qaçirtmaq yolu ilə nigahın üç forması var: hücum nəticəsində qız-qaçırtma, mərasimlə bağlı qız qaçırtmaq və adi qızqaçırtma. “Deməli, ana sisteminin dağılmasında və onun ata sistemi ilə əvəz olunmasında qız qaçırtmaq adətinin yolu sosial inkişafın ciddi amili kimi nəzərə alınmalıdır”.

Nəhayət, Taylor ekzoqamiya və qohumluğun təsnif sistemi məsələlərinə toxunur – onlara o, vahid bir tamlığın hissələri kimi baxır. Onun rəyinə görə qohumluğun təsnifatı bir-birini ər və arvadla təchiz edən yalnız iki qrupa bölünmüş cəmiyyətdə ekzoqamiya adətindən irəli gəlir və beləliklə, krosskuzen nigahı ilə bağlıdır. Onun təsəvvürlərinə görə, ekzoqamiya siyasi funksiya, yaxud nigah əlaqələrinin yaradılması vasitəsilə siyasi birliyin güclənməsi və genişlənməsi funksiyasını və beləliklə, qəbilələr arasında əlaqələrin yaradılması funksiyasını yerinə yetirir.

“Ekzoqam” nigah – yalnız qohum olmayanlarla evlənməyə icazə verib qohumlarla evlənməyi qəti qadağan edən nigah adəti.

Mühazirə 6. AİLƏNİN STUKTURU, TİPLƏRİ VƏ FUNKSİYALARI

Plan:

1. Müasir ailənin strukturu və tipləri
2. Ailənin əsas funksiyaları və onların təkamülü
3. Funksional və disfunksional ailə. Disfunksional ailənin tipləri

İstifadə edilmiş ədəbiyyat:

1. Çələbiyev N.Z. Ailə psixologiyası./ Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı: “Mütərcim”, 2015.
2. Ялизадя Я.Я. Qadın psixologiyası (fəlsəvi-psixoloji esselər). Bakı, "Təhsil", 2015.
3. Ялизадя Я.Я., Аббасов А.Н. Аиля: IX синиф шаэирдляри цчцн дярс вясаити. Бакы: Маариф, 1989.
4. Əfəndiyeva Ü.A. Ясрин эендер консепсийасы.Дярс вясаити, Бакы: АДПУ, 2017.
5. Гурбанова Л.М. Аилянин психолоjи проблемляри вя щялли йоллары. Бакы: «Билик», 2013.
6. Мирзяйев И.Я. Аилянин практик психолоэийасы. Бакы: Адилоьлу, 2005.
7. Бендас Т.В. Гендерная психология. СПб: Питер, 2005.
8. Шнейдер Д.Б. Семейная психология.М., 2006.

1. Мцасир аилянин strukturu və типлярi

Ailə cəmiyyətin tərkib hissələrindən biridir. Daha dəqiq desək, ailəni ilkin ictimai qurum adlandırmaq olar.

Müasir ensiklopediya və lüğətlərdə ailəyə verilmiş bəzi tərifl ərlə tanış olaq:

- Ailə-nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik qrupdur. Onun üzvləri bir-birinə məişət birliyi, qarşılıqlı mənəvi məsuliyyət və qarşılıqlı köməklə bağlıdır [Фялсяфя цзря Енсиклopedik лцьят].
- Ailə bir-birinə məişət birliyi və qarşılıqlı məsuliyyətlə bağlı olan adamların nikah və ya qan qohumluğuna əsaslanan birliyidir (Демографийа цзря Енсиклопедик лцьят).

Nəzərdən keçirdiyimiz tərifl ərdə ailəni səciyyələndirən iki mühüm xüsusiyyət: a)məişət birliyi; b)özünəməxsus münasibətlər sistemi, qarşılıqlı cavabdehlik, məsuliyyət və kömək ayırd edilir. Bu xüsusiyyətlər qarşılıqlı əlaqədədir.

Ailəni xarakterizə edərkən onları birlikdə nəzərdən keçirmək lazımdır. Özünün bu məziyyətlərinə görə ailə bütün digər kiçik qruplardan (məsələn, dostlar dəstəsindən, birlikdə işləyən manqa üzvlərindən və s.) fərqlənir.

Мяишят бирлийи цчцн сяжиййяви олан хцсусиййятляр мцхтялифдир: аилянин ямяк мцщити, бцдсяси вя тясяррцфаты, мяишят естетикасы бунларсыз аиля йохдур, ола да билмяз.

Аилядə синсляр вя синсярарасы мцнасибятляр яхлаги-психолоji мцнасибятляр формасында юзцнц эюстярир. Бу мцнасибятляр савбдещлик, мясулиййят вя кюмяк кими сəhətlərlə характеризя олунур.

Мцасир аилядя баш верян кейфиййят дяйишикликляри ilk нювбядя, ярля арвадын, валидейнлярля ушагларын гаршылыглы мцнасибятляриндя юз яксини тапмышдыр. Аиля цчцн вар-дювлят, ев-ешик мягсяд дейил васитя олмалы, мянявi мцнасибятляря даща чох йер верилмялидир. Бу эцн ярин дя арвадын да, ушагларын да шяхсиййятиня бюйцк тялбяляр верилир.

Müasir sosial-psixologiya elmində ailəyə belə tərif verilir: Ailə üzvlərinin nikah və ya qohumluq əlaqələri əsasında birləşən, məişət birliyi, qarşılıqlı mənəvi məsuliyyət və sosial zərurətlə cəmiyyətdə insanların fiziki və mənəvi istehsalı funksiyasını yerinə yetirən kiçik

sosial-psixoloji qrupdur. Bu tərifdən aydın olur ki, ailə daxilində iki əsas münasibət növü fərqlənir:

1. Ər-arvadlıq (ərlə arvadın nikah münasibətləri); 2.Qohumluq (valideynlərlə-uşaqlar və ər-arvadın qohumları arasında qohumluq münasibətləri).

Ailənin təşkil olunmasında bir sıra amillər mötivləşdirici təsirə malikdir. Bunlar sırasından tənhalıqdan qaçmaq cəhdi, uşağa sahib olmaq istəyi, emosional tələbatın reallaşdırılması, psixoloji "biz" hissinin yaradılması, psixoloji müdafiə mexanizmlərinin və üsullarının axtarışı əsas yer tutur.

Ailənin strukturu onun üzvlərinin sayı, tərkibi, həmçinin onlar arasındakı qarşılıqlı münasibətlərin məcmuyudur. Ailənin strukturu nöqteyi -nəzərindən məsələyə yanaşdıqda rəhbərliyin bir ailə üzvünün əlində cəmləşdiyi və bütün üzvlərin idarəetmədə bərabər iştirakının təmin olunması baxımından iki ailə tipini fərqləndirmək olar. Yaşadığımız müasir cəmiyyətə yaşlılardan (ər-ar- vad, bəzən onların valideynləri) və daha tipik 2-3 uşaqdan ibarət ailə geniş yayılmışdır.

Ailənin həyat fəaliyətinin müxtəlif mərhələlərində özünü göstərən sosioneqativ təzahürlərdən biri onun strukturunun pozulmasıdır. Ailədə baş verən struktur pozulması dedikdə, onun funksiyalarının yerinə yetirilməsinə mane olan əngəllərin yaratdığı fəsadlar nəzərdə tutulur. Məsələn, ailədə ərlə arvad arasında təsərrüfat-məişət öhdəliklərinin qeyri-bərabər bölgüsü burada qarşılıqlı münasibətlərin strukturunun pozulmasıdır ki, daha çox yüklənən ər (fiziki qüvvəni bərpa edə bilməmək, mədəni və mənəvi zənginləşmədən məhrumolma və s.) və ya ərlə-arvaddan birinin özünün bir sıra tələbatlarını normal şəkildə təmin edə bilməməsinə gətirib çıxarır.

Ailədə nəyin norma, nəyin pozulma kimi qiymətləndirilməsi müasir dövrdə ailə haqqında elmlərin, xüsusən, sosiologiya və sosial psixologiya elmlərinin qarşısında duran çətin suallardan biridir. Bir sıra ailə psixoterapevtləri (Salvador, Minuxin) əsil ailənin necə olması probleminə aydınlıq gətirərkən ərlə arvad cütlüyü arasında münasibətlərin “necə ola bilməsi” və “necə olmalıdır” kontekstindən yanaşmış. Ailədə uşaqların öz qabiliyyətlərini tam inkişaf etdirməsi və reallaşdırılması üçün onlar qayğıkeş sosial əhatədə yaşamalı- dırlar. Normal ailə şəraitində yaşayan uşaqların uğurları ilə uşaq evlərində böyüyən uşaqları müqayisə etdikdə, ailə amillərinin əvəzsiz rolu bir daha öz təsdiqini tapmış olur.

Ailənin tərkibi və ya strukturu ilə bağlı sosial-psixologiyada müxtəlif təsnifatlar mövcuddur:

- Doldurulmuş ailə-öz tərkibinə görə genişlənmiş ittifaq, ər-arvad və onların uşaqları, onlarla sıx bağlı olan valideynlər və qohumlar (məsələn, baba, nənə, dayı, xala, bibi).
- Qarışıq ailə-yeni nikah və boşanma nəticəsində yenidən yaranan ailədir. Qarışıq ailə öz tərkibinə doğma olmayan valideynləri, əvvəlki nikahdan olan ögey uşaqları da birləşdirir.
- Valideyn ailəsi-tənhalıq-belə ailələrdə boşanma, ailəni tərketmə, cütlüklərin birinin ölümü və ya rəsmi nikahın bağlanmaması səbəbindən uşaqlar valideynlərdən biri ilə yaşayırlar.

Аиля садя вя мцряккяб олмагла ики бюйцк типя айрылır. Мцрəккяб və ya genişlənmiş аиля цч вя йа даща чох нясилдян баба, няня, ата, ана вя ушаглардан ибарятдир. Яэяр ики вя даща чох нуклеар аиля бир йердя йашайырса, о да мцряккяб аиля щесаб олунур.

Нуклеар аиля садя аилядир. Мцряккяб аилядян фяргли олараг, нуклеар аиля 2 нясилдян - ата-ана вя ушаглардан ибарятдир. Нуклеар сюзц дя бу мянада ишлянир - латынса нуслеус - нцвя демякдир. Ушагларын сайына эюря нуклеар аилянин 3 типини фяргляндирирляр:

- чохушаглы (5 вя даща чох);
- орта ушаглы (4 вя 3 ушаг);
- аз ушаглы (2 вя 1).

1941-1945-ci illərin Böyün Вятян Мцщарибясиндян сонра аилянин инкишафында yeni бир мейл юзünü эюстярирди. Дцнйанын щяр йериндя олдуьу кими, республикамызда да азушаглы аилялярин сайы сцрятля артмağa başladı.

Təkrar ailələrə - ər-arvad cütlüyü ilə yanaşı onlardan hansısa birinin əvvəlki nikahından olan və yeni ailəyə gətirilmiş uşaqları daxildir.

Демографийада мцасир аиляни характеризя етмяк цчцн садя вя мцряккяб аиля иля йанашы там вя натамам аиля терминляриндян дя истифадя edilir. Аилянин там вя натамам олмасы яр, арвадын вя uşaqların варлыьына ясасян мцяййян едилир. Яэяр аилядя яр-вя арвад бирликдя йашайырса, беля аиля там аиля щесаб олунур. Яэяр яр

вя йа арвад вяфат етмишдир, йахуд бошанмышдырса, бу заман аиля натамам аиляйя чеврилир.

Сосиологлар аиляляри тящлил едяркян “уьурлу” вя “уьурсуз аиля” терминляриндян истифадя едирляр. Л.Толстойун тябиринся, бцтцн хоşбəxt аилялярин щамысы бир-бириня охшайыр, bədbəxt аиляляр ися hərəsi bir cür bədbəxtdir. Онларын щяр биринин юз тярсцмейи-щалы вя юз тарихи вардыр. Уьурлу аилялярдян фяргли олараг, уьурсуз аилялярдя ярля арвад аиля щяйатында мейдана чыхан проблемлярə ейни бахымдан йанашмыр, бир-биринин щиссляриниanlamır, qarşılıqlı диг- гят вя гайьы эюстярмиплəр.

Mövcud sosioloji və psixoloji ədəbiyyatlarda müasir ailədəki vəzifələrin xarakterinə görə onun üç başlıca tipinin mövcudluğu qeyd olunur:

1. Patriarxal (ənənəvi) və ya asimmetrik ailə: Postsovet məkanına daxil olan ölkələrdə, o cümlədən Azərbaycanda əhalinin sosial-demoqrafiq strukturunda baş verən ciddi dəyişikliklərə baxmayaraq, bu ailə tipi öz mövcudluğunu qoruyub saxlamışdır. Xüsusən, Azərbaycan ailələri sırasında ənənəvi ailələr çoxluq təşkil edirlər. Ənənəvi ailə tipinin başlıca xüsusiyyəti ondan ibarətdir ki, belə ailələr özündə ən azı üç nəslin nümayəndələrini birləşdirirlər. Belə ailədə adətən, yaşlı nəslin nümayəndəsi və ya ailənin ağsaqqalı (ər) həlledici söz sahibi olur, onun nüfuzu birmənalı şəkildə qəbul edilir. Ənənəvi ailə üçün üç cəhət səciyyəvidir:

a) qadının ərindən iqtisadi asılılığı;

b) ailə sferasının funksional bölgüsü və kişi ilə qadının vəzifələrinin möhkəmləndirilməsi;

c) ailə başçısı məsələsində kişinin üstünlüyünün sözsüz qəbul olunması.

2. Neopatriarxal və ya ənənəyə söykənən müasir ailə: Burada kişinin liderliyi və kişi ilə qadının vəzifələrinin məhdudlaşdırılması məqamları saxlanılır, lakin ailənin ilk tipindən fərqli olaraq, qadının kişidən iqtisadi asılılığı azalır. Ailənin bu tipini alimlər “istismarçı tip” adlandırırlar. Çünki qadınlar ictimai əməklə kişilərlə bərabər hüquq əldə etmələrinə baxmayaraq, ev əməyində də öhdəliklər icra etməli olur, ikiqat yüklənməyə məruz qalırlar.

3. Eqalitar ailə və ya ailədə bərabərlik: Bu cür ailə tipi üçün səciyyəvi cəhətlər bunlardır:

a) ailə üzvləri arasında vəzifələrin ədalətli, proporsional qaydada bölünməsi, məişət məsələlərin həllində ərlə arvadın oynadığı rolun qarşılıqlı surətdə əvəz olunması;

b) başlıca problemlərin müzakirəsi və ailə üçün əhəmiyyətli olan qərarın birgə qəbul edilməsi;

c) мünasibətlərin emosional dolğunluğu.

Ailə tiplərinin geniş təhlilini məşhur psixiatr E.A.Liçko belə vermişdir:

1. Struktur tərkibinə görə: tam ailə (həm ana, həm də ata var); natamam ailə (ya ata, ya da anadan ibarət ailə); deformasiya olunmuş ailə (ögey ana və ya atanın olması);

2. Funksional xüsusiyyətlərinə görə: Ailədə tam harmoniya şəraiti və ya əksinə disharmoniya. Ailədə disharmoniya müxtəlif cür ola bilər. Disharmoniyanın yaranmasına aşağıdakı səbəbləri misal gətirmək olar:

-Ailədə ata və ana arasında portnyorluq yoxdur, valideynlərdən biri dominant, digəri isə onadan asılıdır;

-Destruktiv ailə. Ailə üzvləri arasında demək olar ki, münasibət yoxdur, həyati çətinliklərin həll edilməsində bir- birinə dəstək və emosional bağlantı yoxdur;

3. İflasa uğrayan ailə (konfliktli, yüksək boşanma riskli ailə)

4. Rigid, yalançı sosial ailə. Bir ailə üzvünün hədsiz dominant təsirinin, digərlərinin hədsiz aslılığının yüksək olduğu, ikitərəfli emosional istiliyin olmadığı, ailə üzvlərinin yadlaşmağa doğru getdiyi ailələr.

Ailədə “ana-uşaq” münasibətlərinin öyrənilməsi sahəsində öz tədqiqatları ilə məşhur olan S.Brodi bu tip münasibətlərin çoxsaylı tipologiyasını müəyyənləşdirmişdir.

1. “Dəstəklənən və təqdir edilən davranış” tipli münasibətlər. Bu tipli ailələrdə analar uşaqları hər hansı elementar özünəxidmətə alışdırmır, uşağın bu cür xidməti müstəqil öyrənmələrinə üstünlük verirlər. Qeyd olunan tərbiyə üslubu əsasında uşaqlarda özünəinam hissi formalaşır.

2. Uşağın tələbatlarına uyğunlaşmama. Ana uşaqla ünsiyyətdə gərginlik nümayiş etdirir, əksər hallarda dominant mövqe tutur, uşağa güzəştə getmir.

3. Borc hissinin və uşağa marağın olmaması. Belə münasibətlər tipində emosional bağlılıq, qayğı və məsuliyyət hissi olmur. Adətən, ana uşaq üzərində qəddar nəzarəti, xüsusilə uşağın pis vərdişlərinə qarşı amansız rəftarları ilə seçilir.

4. Qeyri-adekvat davranış. Ana uşağın yaş və tələbatlarına uyğun olmayan qeyri-adekvat üsullarla tərbiyə işini həyata keçirir, tez-tez səhvlərə yol verir, uşağı anlamaqda çətinlik çəkir. Belə tərbiyə üsulu uşaqda özünəinamsızlıq hissinin formalaşmasına səbəb olur.

Müasir psixoloji ədəbiyyatlarda ailənin ənənəvi, uşaq mərkəziyyətçi və ər-arvad (demokratik) olmaqla üç əsas psixoloji tipi fərqləndirilir. Ənənəvi ailədə yaşlıların nüfuzu yüksək tutulur və onlara qarşı hörmət hissinin tərbiyəsinə xüsusi diqqət yetirilir: pedaqoji təsir yuxarıdan aşağıya doğru həyata keçirilir, tabeçilik əsas tələb hesab olunur. Belə ailələrdə böyüyən uşaqların sosiallaşması gələcəkdə onların cəmiyyətin şaquli ictimai strukturlarına asanlıqla daxil olmasına təminat yaratmış olur. Onlar ənənəvi normaları asanlıqla mənimsəyir, lakin müstəqil olmadıqlarına görə, öz şəxsi ailələrini yaratmaqda çətinlik çəkirlər. Onlarda təşəbbüskarlıq və çeviklik, ünsiyyət qurmaq bacarıqları zəif inkişaf edir.

“Uşaq-mərkəziyyətçi” tipli ailələrdə valideynlərin başlıca vəzifələri uşağın xoşbəxtliyinin təmin eilməsinə yönəlir. Ailə yalnız uşaq üçün mövcud olur. Qarşılıqlı təsir aşağıdan–yuxarıya, uşaqdan-valideynə doğru istiqamətlənir. Belə ailələrdə “uşaq-valideyn” tipli psixoloji simbioz mövcud olur. Nəticədə, uşaqda yüksək özünüqiymətləndirmə, infantilizm, ərköyünlük, şəxsi gərəklilik hissi formalaşır. Uşaq–mərkəziyyətçi ailələrdən çıxmış uşaqların böyüdükdən sonra ailə əhatəsindən kənarda sosial münasibətlərdə tez-tez konfliktlər yaşaması, məktəbdə, hərbi hissədə, əmək kollektivində sosial dezadaptasiya riski yüksək olur.

“Ər-arvad” (demokratik) tipli ailələr çoxçalarlı rənglərlə səciyyələnir. Belə ailələrdə məqsəd qarşılıqlı inam, ailə üzvlərinin hüquqlarının tanınmasıdır. “Ər-arvad” tipli ailələrdə tərbiyəvi təsir “üfiqi”–bərabərhüquqluların–valideynlərlə uşaqların dialoquna əsaslanır. Belə ailələrin həyatında həmişə ailə üzvlərinin qarşılıqlı maraqları daim nəzərə alınır, böyük uşaqların maraq və tələbatlarına həssaslıq göstərilir. Bu tipli ailələrdə həyata keçirilən tərbiyə işinin nəticəsində uşaqlar demokratik dəyərləri asanlıqla mənimsəyir, insanların hüquq və azadlıqlarına həssaslıqla yanaşır, azadlıq və məsuliyyət, xeyirxahlıq, müstəqillik, fəallıq, özünəinam kimi keyfiyyətlərə sahib olurlar.

Müasir ailə modellərinin nəzəri tipologiyasında infertil (sonsuz), eqalitar (hakimiyyətin ərlə-arvad arasında bərabər bölünməsi), ideal (kollektiv təsəvvürdə, ictimai şüur və mədəniyyətdə və dində xoşbəxt hesab edilən normativ ailə) və.s. kimi tiplərinin də adları qeyd olunur.

Rus psixoloqu V.İ.Qarbuzovanın fikrincə, valideynlərin uşaqlara münasibətdə bu və ya digər rolu mənimsəməsində tərbiyə üslubu əsas amildir. O, düzgün olmayan tərbiyənin qəbuletməmə, emosional imtina, hipersosiallaş- ma və eqosentrik tərbiyə (“ailənin bütü) olmaqla 3 əsas tipini fərqləndirmişdir. V.İ.Qarbuzovaya görə, ailə tərbiyəsində yeniyetməlik

yaş dövrü tərbiyə üslubuna qarşı olduqca həssas bir dövrdür. Bu yaş dövründə əxlaq normaların- dan və davranış qaydalarından kənaraçıxmalara daha çox təsadüf olunur. Yeniyetmədə eyni vaxtda iki tip: avtonomluğa, sərbəsliyə, özünütəsdiqə və ailə dəstəyinə, himayəsinə və ailə "biz"inə olan tələbat aktuallaşır.

Psixoloji ədəbiyyatların təhlili ailənin formaları, növləri və kateqoriyalarının fərqli olmasını göstərir. Ailənin müxtəlif tipləri və münasibətlərinin bu və ya digər sferalarda müxtəlif cür fəaliyyət göstərir, müasir məişətə təsir edən amillərə müxtəlif cür reyaksiya verirlər.

Ailə növləri öyrənilən predmetin fərqləndirilməsinə əsasən müəyyən olunur. Ailənin yuxarıda sadalanan xüsusiyyətlərinə uyğun olaraq Rus pedaqoq və psixoloqu Toroxti Vladimir Sviridoviç ailənin aşağıdakı kateqoriyalarını fərq- ləndirir:

- Uşaqların sayına görə: uşaqsız, tək uşaqlı, çox uşaqlı ailələr;
- Ailənin tərkibinə görə: tam, natamam, çoxnəsilli, təkrar nikahlı ailələr və s.;
- Ailənin strukturuna görə: uşaqlı və ya uşaqsız nikah cütlüyü, tərəflərdən birinin valideynləri və ya qohumları ilə birlikdə, iki və daha artıq nikah cütlüyü ilə birlikdə, iki və daha artıq nikah cütlüyü ilə birlikdə uşaq və ya uşaqsız ailələr, ana və ya ata uşaqları ilə birlikdə və s.;
- Ailəyə liderliyə görə: avtoritar və eqalitar;
- Ailə məişətinə, quruluşuna görə: ailə - "təsəlli", uşağa mərkəzləşmiş ailə və s.;
- Sosial tərkibin həmcinsliyinə görə: homogen (həmcins) və heterogen (müxtəlif cinsli ailələr);
- Ailədə münasibətlərin keyfiyyətinə, atmosferinə və psixi sağlamlıq vəziyyətinə görə: uğurlu, uğursuz və s.;
- İctimai normalara görə: patriarxal (ənənəvi), müasir (eqalitar), kollektiv, fərdi;
- Ailə stajına görə: təzə evlənmiş, cavan ailə, uşaq gözləyən ailə, orta stajlı ailə, yaşlı nikahlar, ahıl yaşlı cütlüklər;
- Coğrafi aləminə görə: şəhər, kənd, rayon və s.;
- İstehlakçı davranış tipinə görə: "fizioloji" və ya "sadə istehlakçı" sərfiyyat tipi ilə bağlı ailə, "intellectual tipli" sərfiyyat tipi (məsələn, kitab, jurnal, dünyagö- rüşlü hadisələr) ilə bağlı ailə və s.;
- Xüsusi vəziyyətli ailə həyatı: tələbəlik illərində qurulan ailələr, "distant" ailə, "kəbinsiz ailə" və s.;
- Azad davranışın xarakterinə görə: açıq və ya qapalı ailə;

- Sosial mobilliyə görə: reaktiv ailə, orta aktivlikli ailə, aktiv ailə;
- Psixoloji sağlamlığın vəziyyətinə görə: sağlam ailə, nevrotik ailə, viktimogen (müxtəlif təsirlərin qurbanı olan) ailə;
- Nəsil sayına görə: mürəkkəb (genişləndirilmi) və sadə (nuklear);
- Xarakteri xüsusiyyətlərinə görə: monoqam, poliqiniya (çoxarvadlı) və poliandriya (çoxərlilik).

2. Аилянин функсийалары вə onların təkamülü

Ailənin başlıca mahiyyəti ictimai, qrup və fərdi tələbatların təmin edilməsi ilə müəyyən olunur. Ailə üzvlərinin müəyyən tələbatlarının təmin edilməsi ilə bağlı həyat və fəaliyyəti ailənin funksiyası adlanır. Funksiya latın sözü olub, mənası icra etmək, fəaliyyət göstərmək deməkdir.

Ailənin tarixən təşəkkül tapmış özünəməxsus funksiyaları vardır. Bu baxımdan adətən onun reproduktiv və ya demoqrafik, təsərrüfat-iqtisadi, tərbiyə və bərpaedici funksiyaları fərqləndirilir.

Bir-biri ilə qarşılıqlı əlaqədə olan həmin funksiyalar, hər şeydən əvvəl, ailənin sosial mahiyyətini əks etdirir və ictimai-tarixi xarakter daşıyır.

Ailənin reproduktiv funksiyası onun həyatının mühüm bir sahəsini – uşaqların doğulması sahəsini əhatə edir. Müasir ailədə isə doğum səmərəli surətdə planlaşdırılır. Bu baxımdan ailənin planlaşdırılması və uşaqların səmərəli tərbiyəsi kimi iki yeni anlayış meydana gəlib.

Birinci anlayış ailənin – qadının sağlamlığı üçün təhlükəli olan süni yollarla deyil, təbabətin səmərəli nailiyyətləri əsasında planlaşdırılmasını, ikinci anlayış isə uşaqların tibbi-psixoloji və pedaqoji tövsiyələr əsasında tərbiyə olunmasını nəzərdə tutur.

Ailənin təsərrüfat-iqtisadi funksiyasına onun həyatının xüsusi əhəmiyyətə malik olan əmək və məişət həyatının müxtəlif tərəflərini - evin səliqə-səhmanı, ailə təsərrüfatı, ailə büdcəsi, onun idarə olunmasından башлайараг мясулиййят вя мцяййян əмək бюлэцсц иля тамаланан бир чох фəaliyyətlər аиддир. Бурада бир сыра статистик рягямлярə диггят yetirsək, Азярбайсан гадынларыны вя кишиляринин ямяк мяшьуллуьу сявиййясинин чох йахын эюсятрисиуə малик олмасы айдын эюрц- нцр. 2003-сц илдя дювлят вя

гейри-дювлят секторунда ямяк фяалийяти иля мяшьул оланларын 47,7 % ни гадынлар, 52,3 %-ни ися кишиляр тяшкил едирdi. Hazırda isə сящиййя, вя мцхтялиф сосиал хидмятляр сащясиндя гадынларын кишиляри цстялямяси –бу- рада онларын хцсуси чякиси 60-80% тяшкил едир.

Бу рягямляр Азярбайсанда гадын ямяйиня хцсуси диггят вя ящямййят верилдийи эюстярир. Цмумиликдя, тядгигатлар эюстярир ки, эетдикся гадынлар даща чох фяал ямяк фяалиййятиня гошулмаьа, гапалы аиля мцщитиндян хилас олмаьа сяй эюстярирляр.

yeni nəsillərə biliklərin, bacarıq və vərdişlərin, norma və dəyərlərin, mənəvi sərvətlərin ötürülməsini və uşaqların sosiallaşmasını əks etdirir. Ailənin tərbiyə funksiyası çoxcəhətlidir: ailədə əxlaq tərbiyəsi, estetik tərbiyə, əqli tərbiyə, fiziki tərbiyə, siyasi tərbiyə, əmək tərbiyəsi və s. bunların hamısı onun əsas istiqamətləridir.

Psixoloji tədqiqatlar göstərir ki, uşaqların ünsiyyət tələbatının təmin edilməsində ailənin xüsusi yeri vardır. Onun ana və ata ilə ünsiyyəti bir şəxsiyyət kimi inkişafının, sosiallaşmasının əsasını təşkil edir. Natamam və uğursuz ailələrdə uşaqların psixi inkişafında ciddi nöqsanlar özünü göstərir. Tək uşaqlı ailədə də valideyn-uşaq münasibətlərində yeni cəhətlər əmələ gəlir. Ana və ata tək uşağın üstündə yarpaq kimi əsməyə başlayır, onu yerli-yersiz əzizləyirlər və uşaq özünəməxsus sosial inkişaf şəraitində böyüyür. Bu şə- raitdə valideynlər onun üçün həm də bacı və qardaşı əvəz etməlidirlər.Təəssüf ki, edə bilmirlər. Tək uşaqlı, ümumiyyətlə, azuşaqlı ailədə uşaq və yeniyetmələrin ünsiyyət (affelyasiya) tələbatının kifayət qədər təmin olunmaması onların sosiallaşmasında və gələcəkdə müstəqil həyat və fəa- liyyətində ciddi problemlərə səbəb olur.

Сосиологлар вя психологлар аиля тярбийясинин бир нечя дайаныглы сереотипини мцяййян едирляр:

1) ушаьын мянафейиндян вя мювгейиндян чыхыш етмя;
2) пешякарлыг;
3) прагматик йанашма.

Биринси щалда ушаьын давранышына вя шылтаглыьына ифрат алудячилик юзцнц эюстярир Аилдя щяр кяс ушаьын назы иля ойнайыр, сящвляриня, елядийи щярякятляря эюря ону щеч кяс мязяммят етмир. Беля ушагларда чох вахт davranış və əməllərə görə фярди мясулиййят, гадаьалара вя валидейнляр гаршысында

савбдещлик щисси тярбийя едилмир. Uşağın hər bir tələbini dərhal ödəmək, daim əzizləmək, pulla, bahalı hədiyyələrlə şirniklə̈ndirmək və s. onun tərbiyəsinə zərər vurur. Бюйцдцкдян сонра, юзцндян разы, инфантил эянсляря чеврилян бу ушаглар, бир гайда олараг, юз цзярляриня мясулиййят эютцрмяйи басармыр, буна щазыр олмурлар.

Икинси щалда юз ювладларынын тярбийясиня пешякарлыг тямайцлц бахымындан йанашан валидейнляр uşaqlara qarşı liberal mövqedə durur, билаваситя ушаьын тярбийяси иля мяшьул олмагдан имтина едирляр.Ушаьын тярбийяси кичик йашларындан дайяляря, баьча тярбийячиляриня тапшырылыр. О, тядрисян бюйцдцкдя ися тярбийячи вязифясини мяктябдя мцяллимляр, педагоглар, пешякар тярбийячиляр явяз едирляр. Аилянин мадди тяминатына хцсуси ящямиййят верилир, бу щяр шейдян юнямли сайылыр. Беля валидейнлярин юзцнямяхсус тярбийя цсулу вардыр. Онлар ювладларын тярбийясиня о заман хцсуси диггят йетирирляр ки, uşaqlar щансыса хошаэялмяз щярякятя йол вермишляр вя йа ата-анасынын нязяриндя ялайаьа долашырлар.

Беля валидейнлярин тярбийя цсулу юз мящдудлуьу вя чох заман сярт давраныш формаларынын сечилмяси иля фярглянир. Бу да валидейнлярля ушагларын бир-бирини анламасыны чятинляшдирир. Ушаьын бир чох щалларда йерли-йерсиз сярт шякилдя сязаландырылмасы, аилядя зярури гайьынын, мещрибанчылыьын olmaması uşaqda дахили наразылыг, инсиклик щиссини эцсляндирир. Беля вязиййят горху, инамсызлыг щиссини эцсляндирир, uşağın мцщитя уйьунлашмасында сидди проблемляр йарадыр.

Цчцнсц щалда ушагларын тярбийясиня прагматик йанашан валидейнляр онларда эцндялик щяйат гайьыларынын щялли цчцн зярури олан практик вярдишляри тярбийя етмяйя чалышыр, онлара юз проблемlərini садя вя асан шякилдя щялл етмяйи юйрядирляр. Беля тярбийя цсулу чох вахт йени нясли, ушаглары щяйатын мцряккяб, дяйишян, йениляшян йолларына, щяйатын сярт цзцня щазырламаг мягсяди эцдцр.

Ailə insan üçün psixoterapevtik mühitdir. Ailənin bərpaedici funksiyası dedikdə, ilk növbədə bu cəhəti nəzərə alırlar. Biz adətən özümüzün dərdimizi də, kədərimizi də ailədə unuduruq.

Ailə münasibətlərinin zəifləməsində kütləvi informasiya vasitələrinin də rolu az deyildir. Ailə üzvləri çox vaxt bir yerə yığışıb yeni hadisələr barəsində fikir mübadiləsi etmirlər.

Bu şəraitdə ailənin bərpaedici funksiyasının da əhəmiyyəti artır. Ailədə onun hər bir üzvü – istər ata, istər ana, istərsə də uşaqlar üçün psixoloji komfort yaradılmalıdır. Ana və ata uşaqların ünsiyyətinə, onların istirahəti üçün mənəvi – psixoloji şəraitin yaradılmasına, asudə vaxtın səmərəli təşkilinə xüsusi diqqət yetirməlidir.

Ailə cəmiyyətə və insana münasibət baxımından çox mühüm, ictimai əhəmiyyətli funksiyaları yerinə yetirir. Cəmiyyətə münasibətdə ailənin əsas funksiyaları aşağıdakılardır:

- fiziki baxımdan əhalinin təkrar istehsalı: nəsillərin əvəzlənməsi üçün müəyyən dövlət çərçivəsində müvafiq sayda uşağın olması;
- tərbiyəedici funksiya: yeni nəslə biliklərin, bacarıq və vərdişlərin, norma və dəyərlərin, mənəvi sərvətlərin ötürülməsini əks etdirir;
- istehsalat-təsərrüfat funksiyası: ailənin əmək və məişət təsərrüfat həyatını əks etdirir;
- asudə vaxtın təşkili və reproduktiv funksiya: ailənin vaxt büdcəsinin əhəmiyyətli hissəsi işdən kənar sahələrə-ailə ünsiyyəti, istirahət və gəzintiyə sərf olunur.

İnsana münasibət baxımından ailənin bir sıra funksiyaları vardır:

- ər-arvadlıq funksiyası. Ailədə ər-arvad ən yaxın cütlük, ən yaxın tərəfdaşdırlar.
- valideynlik funksiyası. Ailə uşaqların həyatının təşkili, onların böyüməsi üçün zəruri işlər görür, qocalıqda möhtac olacaqları qayğı üçün təmi- nat yaradır;
- məişətin təşkili funksiyası. Məlumdur ki, ailənin məişət həyatı psixoloji mənada ən komfort həyatdır.

Ailənin funksiyaları bir-birilə üzvi surətdə bağlıdır. Onlar həyata səmərəli keçirildikdə, ailə xoşbəxtliyinin zəruri şərtinə çevrilir. Zaman keçdikcə ailənin funksiyaları dəyişikliyə uğrayır: bəziləri sıradan çıxır, sosial şəraitə uyğun yeni- ləri meydana gəlir. Müasir dövrdə ailənin ilkin sosial nəzarət funksiyası keyfiyyətcə dəyişilmiş, ailə-nikah münasibətlərində davranış normalarının pozulmasına qarşı (nikahdan kənar uşaqların doğulması, ər-arvad xəyanəti və s.) tolerantlığın və liberal münasibətin səviyyəsi yüksəlmiş, boşanma halları artmışdır.

Bəzi müəlliflər (A.Q.Xarçiyev, A.İ.Antonov, V.M. Medkov, Q.Havaytis) ailənin funksiyalarını spesifik və qeyri- spesifik olmaqla iki əsas qrupa ayırırlar. A.Q.Xarçiyevə görə, ailənin spesifik funksiyaları onun mahiyyətindən irəli gəlir və sosial hadisə kimi onun

xüsusiyyətlərini əks etdirir. Ailənin qeyri-spesifik funksiyaları isə onun müəyyən tarixi şəraitə uyğunlaşması gedişində meydana gəlir.

Ailənin spesifik funksiyaları-uşaqların doğulması (reproduktiv funksiya), təminatı (ekzistensial funksiya) və tərbiyəsi (sosiallaşma funksiyası) əsasən sabit xarakter kəsb edir, cəmiyyətdə baş verən dəyişikliklərdən asılı deyildir. Lakin ailə ilə cəmiyyət arasındakı əlaqələrin xarakteri tarixi inkişafın gedişində dəyişə bilər.

Ailənin qeyri-spesifik funksiyalarına mülkiyyətin əldə edilməsi və ötürülməsi, status, istehsal və istehlakın təşkili, istirahət və asudə vaxt, ailə üzvlərinin rifahı və sağlamlığına qayğı, ailədə mikroiqlimin yaradılması, ailədaxili gərginliyin zəiflədilməsi və s. daxildir. Qeyd olunan həmin funksiyalar ailə ilə cəmiyyətin əlaqələrinin tarixi xarakterini əks etdirir, ailədə uşaqların doğulması, təminatı və tərbiyəsinin necə baş verdiyinin keçici tarixi mənzərəsini açmağa imkan verir. Ailədə mülkiyyətin toplanması və ötürülməsi, onun statusu, istehsal və istehlakın, ev təsərrüfatının, istirahət və asudə vaxtın təşkili, ailə üzvlərinin sağlamlığı və rifahı, gərginliyin aradan qaldırılması və hər kəsin öz “mən”inin özü- nümühafizəsi ilə bağlı mikroiqlimin yaradılması və s. hər bir normal ailənin üzərinə düşən əsas səciyyəvi funksiyalardır. Ailənin qeyri-spesifik funksiyaları ailə ilə cəmiyyət arasında əlaqənin tarixi xarakterini əks etdirir. Odur ki, ailənin həyatında baş verən dəyişikliklər müxtəlif qeyri-spesifik funksiyaları tarixi inkişafla müqayisədə nəzərə çarpan şəkildə aşkara çıxarır, yeni şəraitdə onlar modifikasiya olur, məhdudlaşır və ya genişlənir, tam və ya qismən yerinə yetirilir, hətta tamamilə yox olur.

Q.Havaytis ailənin ən vacib funksiyalarından birini “komplekslilik” adlandırır. Onun fikrincə, ailənin tələbatlarının təmin edilməsi kiçik sosial qrup kimi onun saxlanılmasının əsas şərtidir. Uğura və ya kədərə şəriklik, məişət və tale ümumiliyi hissi ailənin kompleks bir sistem kimi dəyərləndirməyə əsas verir. Həmin müəllif ailənin tələbatlarından çıxış edərək ailəni təmin edən bir sıra funksiyalarını sadalayır:

- atalıq və analıq tələbatlarından irəli gələn funksiyalar;
- ailənin maddi həyatının təmin edilməsi və saxlanılması ilə bağlı funksiyalar;
- fiziki və psixi-intim tələbatlarla bağlı funksiyalar.

Ailə psixologiyasına aid müasir ədəbiyyatlarda ailənin funksiyalarının daha geniş təsnifatı diqqəti cəlb edir.

1. Uşaqların doğulması və tərbiyəsi;

2. Cəmiyyətin dəyərlərinin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi;

3. İnsanların tələbatlarının psixoloji komfort, emosional dəstək və təhlükəsizlik hissi və s. şəraitində təmin edilməsi;

4. Bütün ailə üzvlərinin şəxsiyyətinin inkişafı üçün şəraitin yaradılması;

5. intim tələbatların təmin edilməsi;

6. Asudə vaxtın birgə keçirilməsi tələbatının təmin edilməsi;

7. Ev təsərrüfatının, ailədə əmək bölgüsünün, qarşılıqlı köməyin birlikdə təşkili;

8. İnsanın yaxın adamlarla ünsiyyət,onlarla dayanıqlı kommunikativ əlaqələrə olan tələbatının təmin edilməsi;

9. Atalıq və analığa olan fərdi tələbatların təmin edilməsi, uşaqlarla əlaqə, onların tərbiyəsi işinin təşkili;

10. Ayrı-ayrı ailə üzvlərinin davranışına sosial nəzarət;

11. Ailənin maliyyə təminatının yaradılması və qorunması;

12. Rekreaktv funksiya - ailə üzvlərinin sağlamlığının qorunması, onların istirahətinin təşkili və stressli vəziyyətlərdən çıxarılması.

Rus sosioloqu R.R.Kalinina ailənin funksiyalarını sosial və psixoloji olmaqla iki qrupa ayırır. O, sosial funksiyalara reproduktiv, tərbiyə, psixoloji funksiyalara isə kooperasiya, intimlik, rekreasiya (mənəvi və psixoloji dəstək, psixoterapevtik yardım), özünüaktuallaşdırmanı aid edir.

Sosioloqlar hesab edirlər ki, XXI əsrdə ailənin funksi- yalarının genişlənməsi baş vermiş və o digər sosial institut- ların (təhsilləndirici, hüquqi, xidmət, asudə vaxtın təşkili və s) bir sıra funksiyalarını da mənimsəmişdir. Məhz buna görə də ailənin mülkiyyətin əldə edilməsi və sonrakı nəsillərə ötürülməsi, istehsal və istehlakın təşkili, ev təsərrüfatının idarə edilməsi, asudə vaxtın təşkili və s. kimi qeyri-spesifik funksiyaları meydana gəlmişdir.

Ailənin funksiyalarının pozulması dedikdə,ailənin həyat və fəaliyyətində onun öz funksiyalarını yerinə yetirlməsində meydana çıxan maneələr səbəbindən yaranan fəsad- lar nəzərdə tutlur. Ailənin öz funksiyalarını yerinə yetirə bil- məməsi bir çox amillərdən asılı ola bilər. Ailə üzvlərinin şəx- siyyət xüsusiyyətləri, həyat şəraitindən və s. asılı olaraq onun üzvləri arasında qarşılıqlı münasibətlərin korlanması buna misaldır. Ailədə tərbiyə funksiyalarının pozulması sə- bəbləri arasında ata-anada valideynlik hisslərinin zəif olma- sı, zəruri bilik-vərdişlərin olmaması, onlar arasında münasi- bətlərin pozulması və s. buna misal ola bilər.

3. Funksional və disfunksional ailə. Disfunksional ailənin tipləri

Müasir dövrdə ailənin funksional (normal) və disfunk- sional (qeyri-normal) olmaqla iki əsas tipi fərqləndirilir. Normal ailə elə ailə tipidir ki, o, özünün bütün funksiyalarını di- ferensiallaşmış şəkildə və məsuliyyətlə yerinə yetirir, nəti- cədə, ailədə artım və dəyişikliklərdən asılı olmayaraq, onun bütün üzvlərinin tələbatları qanedici şəkildə təmin olunur. Funksional (normal) ailə özünün çevik iyerarxik hakimiyyət strukturu, aydın formalaşmış ailə qaydaları, güclü valideyn həmrəyliyi və nəsillər arasında səmimi və mehriban münasibətlərlə xarakterizə olunur. Funksional ailə fasiləsiz dəyişmə, təkamül və yeniləşmə prosesində olan sistemdir. Burada ailə qaydaları açıqdır və inkişaf üçün müsbət yönəlişliklərə malikdir. Ailədaxili üçbucaqda tərəflərdən birinin digəri ilə həmrəyliyi digər aliə üzvlərində qısqanclıq və ümidsizlik hissləri doğurmur və normal qəbul edilir. Bərabərlik və azadlığa əsaslanan sərbəstlik, qarşılıqlı hörmət və qayğı ilə çul-ğalaşır. Ailənin dostları və qohum-qonşular ailədaxili məkana sərbəst və qorxusuz daxil ola bilir, məmnuniyyətlə qarşılanırlar. Funksional ailələrdə ailə sistemində adətən, üç, hətta dörd nəsil təmsil olunur. Ailənin yaşlı nəsli kiçiklərlə münasibətləri qayğı və sevgi üzərində qurur, özlərinə hörmət hissi tərbiyə etmək üçün psixoloji məsafəni keçmirlər. Sağlam ailə doğmalığı, yaxınlığı, hətta mübahisə və nifrəti ifadə etmək üçün tam açıq məkandır. Ailənin hər bir üzvü istənilən insani hisslər əsasında intensiv şəxsiyyətlərarsı münasibətlərə daxil olmaqda sərbəstdirlər. Funksional, yəni əlverişli ailə o ailədir ki, orada xüsusi həyat gücü və komfort mühiti vardır. Özünəinam hər bir ailə üzvü üçün səciyyəvi xüsusiyyətdir, onlar arasında ünsiyyət açıq və birmənalıdır. Belə ailələrdə ailənin yaşlı üzvləri yetkin şəxsiyyət xüsusiyyətlərinə, kamil sosial vərdişlərə sahibdir. Uşaqlar da öz yaş normalarına uyğun inkişaf göstəricilərinə malikdirlər.

“Disfunksional (qeyri-normal) ailə” termini, adətən, ailə sisteminin geniş kontekstində onun üzvlərindən birinin və ya bir neçəsinin ailədə qeyri-adaptiv mövqeyini və şəxsi inkişafı üçün zəruri şərtlərin təmin edilmədiyini əks etdirir. Normal, yəni, funksional ailə öz funksiyalarından hər hansı birini yerinə yetirə bilmədikdə, o, disfunksional ailə tipi hesab edilir. Disfunksional (əlverişsiz) ailələrdə ailə uğursuzluğunun möhürünü hər bir ailə üzvünün simasında görmək olar. Burada ikibaşlı ünsiyyət dili, təcrid və rədd edilmək, cəza qorxusu, əsəbi gərginlik hökm sürür. Disfunksional ailə qeyri-yetkin ailə tipidir. Müasir ailə

psixologiyasına aid tədqiqatlarda disfunksional ailənin aşağıdakı əsas xarak- teristikaları öz ifadəsini tapmışdır:

- ailədə hər hansı problemin movcudluğu inkar edilir;
- intim münasibətlərlə bağlı çatışmazlıqlar mövcuddur;
- utancaqlıq hissindən şəxsi davranışın motivasiya vasitəsi kimi istifadə olunur;
- ailə rolları çox kəskin və ciddi xarakterdədir;
- şəxsi identiklik və tələbatlar ailə identikliyinə və ailə tələbatına qurban verilməsi hesabına əldə edilir;
- ailə mifləri reallığı əks etdirmir, yumor, nəvaziş, qayğıkeşlik və optimizm hallarına nadir hallarda təsadüf olunur;
- konfliktlər qapalı və açıq xarakter daşıyır, ailə üzvlərindən birinin digərini qəbul etməməsi xroniki xarakter daşıyır.

Ailə sisteminin disfunksionallığı bir sıra psixoloji və hüquqi simptomlara - alkoqolizm, narkomaniya, zorakılıq, uşaq suisidi (özünəqəsd), qarətləri və s. kimi neqativ sosial hadisələrə səbəb olur.

Psixoloji ədəbiyyatlarda ailə modellərinin tipologiyasında daha çox disfunksional ailə tiplərində baş verən anomaliyalardan, deviasiyalardan (kənaraçıxmalardan) və konfliktlərdən bəhs edilir, funksional (sağlam) ailələrdən isə demək olar ki, bəhs olunmur. Yalnız humanistik psixoloji nəzəriyyələrdə, ideal ailə və “ailə cənnəti” haqqında düşüncələrdə funksional ailə haqqında mülahizələrə rast gəlmək mümkündür. Disfunksional ailə isə elə ailədir ki, burada ailənin həyati vacib funksiyalarının yerinə yetirilməsində pozulmalar özünü göstərir. Bunun nəticəsində ailə üzvü olan şəxslərin şəxsi inkişafına maneələr yaradılır və özünüaktuallaşdırma tələbatı blokadaya alınır. Disfunksional ailələrdə bir qayda olaraq, izafi rigidlik və ya diffuzluq, qapalılıq və ya xaotiklik kimi kənaraçıxmalar müşahidə olunur. Belə ailələrin əsas cəhətlərindən biri də ailə üzvləri arasında ünsiyyət prosesinin həm verbal, həm də qeyri-verbal səviyyələrdə pozulması hallarının tez-tez baş verməsidir. Məşhur psixoterapevtlər E.Q.Eydemiller və V.V.Yustisks disfunksional ailənin aşağıdakı on altı əsas tipinin adlarını qeyd edirlər:

1. Cəmi iki nəfərdən ibarət olan ailə. Bu, ər-arvad cütlüyü və ya bir valideyn və bir uşaqdan ibarət olan ailədir. İki nəfərdən ibarət ailə strukturu hər iki ailə üzvünün potensial fəaliyyətinə mane olan simbiotik asılılığa gətirib çıxara bilər.

2. Üç nəsildən ibarət olan ailə. Belə genişlənmiş ailədə baba, nənə, valideynlər və onların uşaqları birlikdə yaşayırlar. Ailələrdə tək valideyn, baba və ya nənə və uşaqlar evdə birgə yaşamalarına baxmayaraq, məişət həyatı ayrı olan müstəqil qohumluq sistemi şəbəkəsinə əsaslanan mürəkkəb kombinasiyalar mövcuddur. Qeyd olunan disfunksional ailə tipində yarımsistemlər arasında sərhədlər, adətən, pozulduğuna görə, çox vaxt valideynlik funksiyalarını baba və nənə öz üzərlərinə götürmüş olur.

3. "Başmak" tipli (vəzifələri bölüşdürülməyən) ailə. Belə ailə tipi üçün çoxsaylı uşaq yarımsistemləri səciyyəvidir. Evdə çoxlu sayda uşaq olduğuna görə, adətən bir və ya bir neçə böyük uşaq valideynlik vəzifələrini yerinə ye- tirirlər.

4. Flyuktur (köçəri) ailələr tez-tez öz yaşayış yerini dəyişən ailələrdir (məsələn, hərbi qulluqçuların ailələri). Bu tip ailələr sırasına tərkibi tez-tez dəyişən ailələr də aiddir.

5. "Akkerdeon ailələr" elə ailələrə deyilir ki, ailənin əhəmiyyətli yaşlı üzvlərindən kim isə uzun müddət evdə olmur. Ər-arvad cütlüklərindən biri müvəqqəti olaraq uzun müddətə ailədən ayrı düşdükdə, digər cütlük daha çox yüklənir. O, öz üzərinə əlavə olaraq tərbiyəedici, idarəetmə və rəhbərlik funksiyalarını da götürməli olur.Müəyyən müddətə valideynlik funksiyalarını öz üzərinə götürən valideynlərdən birinin öhdəsində olan natamam ailə yaranır. Nəticədə, mütəmadi olaraq uzun müddət səfərdə və ya ezamiyyətdə olan valideyn öz funksiyasını yerinə yetirə bilmədiyindən cütlüklər arasındakı münasibətlər korlanır.

6. Xəyali (kölgə) ailələr. Ailə üzvlərindən birinin ailəni tərk etməsi və ya ölümü ailədə onun öz funksiyalarının yerinə yetirilməsində boşluğa səbəb olur. Belə ailələrdə yaranan problemlər bəzən matəmin başa çatmaması ilə bağlı olur. (Məsələn, "əgər ana sağ olsa idi, o nə etmək lazım olduğunu bilərdi").

7. Amazon ailələr qadının üstünlüyünün açıq hiss olunduğu və qadın tərəfindən idarə edilən ailələrdir. Belə ailələrdə kişi kənarda qalır, ailə idarəçiliyinə yaxın buraxılmır, lakin ailədəki bütün məsuliyyət, o cümlədən uğursuzluqların aradan qaldırılması məsuliyyəti onun üzərinə yüklənir.

8. Centelmenlər (alicənablar) ailəsində isə əksinə, bütün məhəbbət və qayğı obyektində ailədə yeganə olan qadın dayanır, necə deyərlər, hamı onun nazını çəkir. Belə ailələrdə həmin qadın ailənin qeyri-formal lideri kimi qəbul edilir.

9. Ögey valideynli ailələrdə uşaqların tərbiyəsi vəzifələri ögey ata və ya ana, həmçinin doğma valideynlərdən biri tərəfindən həyata keçirilir. Aydındır ki, ailəyə yeni daxil olan ögey valideyn adaptasiya və inteqrasiya proseslərindən keçməlidir. Bu baxımdan "Ögey

ana” bədii Azərbaycan filmindəki Dilarə obrazının məhz hansı ağrılı mərhələlərdən keçdiyini xatırlamaq kifayətdir. Belə ailələrdə, adətən, ögey-doğmalıq ayrı seçkiliklərinə, uşaqların yeni ögey valideynə uyğunlaşması sahəsində problemlərə və bunlardan irəli gələn münaqişələrə tez-tez təsadüf olunur.

10. Qəyyum ailələr. Belə ailə tipi üçün səciyyəvi cəhət ondan ibarətdir ki, o, potensial olaraq bəzən əsil ailə kimi təşkil oluna bilər. Uşaq ailə sisteminə daxil olur, bundan sonra onda ailədaxili orqanizmin yaratdığı stresslərin təsiri ilə yeni simptomlar meydana gəlir. Burada simptom ailənin təşkili ilə bağlı olur. Əgər simptomatika uşağın yeni sistemə daxil olmasının izləridirsə, onda bu sistem keçid dövrü vəziyyətinə uyğundur. Əksinə, əgər uşaq artıq ailəyə tam inteqrasiya olunmuşdursa, onda onun simptomları bu ailənin təşkili ilə şərtlənir.

11. Psixosomatik ailələr ailədə kiminsə xəstə olduğu hallarda daha yaxşı fəaliyyət göstərir. Psixosomatik ailələr üçün xarakterik xüsusiyyətlərə aşağıdakılar aiddir:

- bir-birini qorumağa hədsiz cəhd;
- ailə üzvlərinin bir-birinə qarşı hədsiz sarılmış və ya hədsiz cəmlənmiş diqqəti;
- konfliktləri həll etmək qabiliyyətinin olmaması;
- ailədə əmin-amanlığın dəstəklənməsinə və ya konfliktlərdən qaçmağa sərf olunan böyük cəhdlər.

12. Əvəz edilmiş (əvəzçi) ailə. Belə ailələrdə valideynlərdən hansısa biri olmur və valideynlik funksiyalarını, o cümlədən mənəvi, mədəni, ünsiyyət, məişət-təsərrüfat, qismən isə ərarvadlıq funksiyalarını uşaq öz üzərinə götürür.

13. “Yalnız sən” tipli ailələr. Yaşlı ailədə çoxdan arzu edilən uşaq doğulur. Bu uşaq ailənin mərkəzi fiquruna çevrilir, hər şey onun üçün, ondan ötrü, onun istəklərinə tabe etdirilir. Belə ailələrdə uşağın tərbiyəsi normal hədləri aşır və o, ailənin “büt”ünə çevrilir.

14. Əlil üzvü olan ailələr üçün valideynlərin digər sosial və ailə rollarından imtinası ilə kompensasiya olunan günah hissi xarakterikdir. Belə ailələrin sərhədləri hədsiz bağlı olur. Onlar üçün yüksək aqressiya və psixoloji müdafiə mexanizmlərinin çoxluğu, əlil ailə üzvündən yardım və güzəşt üçün vasitə kimi istifadə cəhdləri xarakterikdir.

15. Psixi xəstəsi olan ailələr. Belə ailələr üçün kəskin sərhədlər mövcuddur. Ailə sirlərini açmaq qorxusu (xəstəliyi cəmiyyətdən gizlətmək istəyi) özünün xəstə olub-olmamasına şübhə, xəstəliyi boynuna almama kimi xüsusiyyətlər özünü göstərir.

16. İdarəolunmaz ailələr. Ailə üzvlərinin inkişaf səviyyəsindən asılı olaraq idarəolunmazlıq problemi müxtəlif ola bilər:

- səbatsız, dəyişkən tərbiyə üslubu zamanı kiçik uşaqları olan ailədə uşaq qayda-qanunlara məhəl qoymur və “kiçik tirana” çevrilir;
- yeniyetmə uşaqları olan idarəolunmaz ailələrdə problem uşağa qayğı mərhələsindən yeniyetməyə hörmət mərhələsinə keçid qabiliyyətinin olmaması ilə bağlı olur;
- azyaşlı qanunpozanlar olan ailələrdə valideynlər tərəfindən ailənin idarəçiliyi onların iştirakı faktından asılı olur. Belə ailələrdə idarəçilik səyləri əksər hallarda səmərəsiz olur. Söz- söhbətlər bitib-tükənməyən belə ailələrdə affektiv qarşılıqlı təsir hallarına daha çox təsadüf olunur;
- uşaqlarla rəftar və onların tərbiyəsi ilə bağlı məsələlər ifadəli aqressiv formada ailədə valideynlərdən birinin sərəncamında olur. Belə ailələr üçün ailə üzvlərinin diqqətinin bir- birinə hədsiz cəmləşməsi səciyyəvi haldır;
- uşağın inkişfında geridəqalma halı olan ailələrdə adətən va- lideynlər uşağın tələbatına adekvat cavab vermək qabiliyyətinə malik olmurlar.

Disfunksional ailənin problemli ailə, nevrotik ailə və böhranlı ailə olmaqla üç əsas tipi fərqləndirilir. Disfunksional ailənin yaranmasına bir sıra amillər təsir göstərir. Buraya nikah üçün tərəfdaşın seçilməsində yanlışlıq, valideynlərdən asılılıq və müstəqil yaşaya bilməmək, utopiya sindromu (illüziyaların tükənməsi), xəyanət və boşanma təhlükəsi, məsuliyyətdən (hüquqi, maliyyə) qaçma cəhdləri aiddir.

Nikahın müəyyən mərhələsində normal ailə kimi mövcud olan ailənin həyatın sonrakı mərhələlərində müxtəlif səbəblərdən disfunksional ailəyə çevrilmək riski də mövcuddur.Disfunksional ailələrdə nikaha daxilolma bir sıra motivlərlə şərtlənir. Buraya valideynlərdən qaçma (canım qurtarsın), borc hissinə görə nikaha daxilolma, tənhalıqdan bezikmə, ənənənin davam etdirilməsi (valideyn təşəbbüsü, maddi rifah axtarışı və prestij) aid edilə bilər.

Müasir dövrdə öz strukturuna görə nuklear ailə tipi daha geniş yayıldığından, ər-arvad və uşaqlardan ibarət olan reproduktiv orientasiyalı ailələrə daha çox təsadüf olunur.

Mövzu 7. Məhəbbət mənəvi estetik bir hiss kimi və məhəbbətin növləri

Plan.

1. Məhəbbət estetik hiss kimi.
2. Kişi və qadın arasında məhəbbət.
3. Məhəbbət dostluqdur.

1. Ailənin yaradılması üçün ən başlıca mənəvi şərt sevgidir. Sevgi hər bir kəsin başqa birisi üçün özünü fəda etmək cəhdlərində əks olunan fərdi-seçici, dərin və davamlı, mənəvi-estetik hiss, ailə-nikah münasibətlərinin əsas amilidir. Tarix boyu məhəbbəti uca tutan xalqımız sevgini insanı həyata bağlayan ecazkar qüvvə hesab etmiş "Tarir-Zöhrə", "Əsli-Kərəm", "Aşıq Qərib", "Abbas-Gülgəz", "Leyli-Məcnun", "Valeh-Zərnigar", "Soltan-Qəndab" və s. kimi ondan artıq məhəbbət dastanları yaratmışdır. Məhəbbət-elmi təhlilə gəlməyən, insan idarakının hüdudlarından da kənara çıxan ruhi-mənəvi hiss, həyati vacib tələbatların və maraqların ifadısi olan obyektlərə qarşı seçici münasibətin yüksək emosional ifadəsidir. Dahilər məhəbbət anlayışına ümumi və fərdi qütbdən yanaşmışlar. XII əsr Azərbaycan ədəbiyyatının qüdrətli siması, ölməz Nizami Gəncəvi məhəbbət anlayışına bəşəri konteksdən yanaşaraq yazmışdır:

Eşqdir mehrabınca uca göylərin
Eşqsiz ey dünya, nədir dəyərin?

Məhəbbətin obyekti çoxcəhətlidir. Onun konkret fərdə yönəlmiş təzahür forması sevgi adlanır. Sevgi həm də insanı həyata bağlayan ecazkar bir qüvvədir. Bu baxımdan qeyd etmək olar ki, sevgi yaşamaq, yanmaq, başqa biri üçün təmənnasız fədakarlıq, empatiyadır. O, bir çox digər emosiyalarla – zəriflik, məftunluq, heyranlıq, riqqətlə çulğalaşır. V.Şekspir "Venera və Adonis poemasında yazı; məhəbbətin hökmran olduğu yerdə qısqanclıq onun əbədi keşikçisidir". Məhəbbət nifrətin qılıncı, nifrət isə məhəbbətin zəhəridir. Məhəbbət haqqında tarix boyu çoxsaylı dastanlar, nağıl və əfsanələr minlərlə ədəbiyyat və incəsənət əsərləri yaradılmış, filmlər çəkilmişdir. Lakin indiyədək məhəbbətin əsil mükəmməl fəlsəfəsini yaratmaq heç kəsə nəsib olmamışdır. Şərqdə "Leyli və Məcnun", Qərbdə "Romeo və Cülyetta" kimi onlarla məhəbbət dastanları yaradılmışdır. Məhəbbət həyatın bəzəyidir. O, təbiəti çiçəklənməyə, rənglərlə oynamağa, sehrli mahnılar oxumağa, məharətli rəqslər etməyə məcbur edir. Məhəbbət haqqında zaman-zaman bir çox mütəfəkkirlər, dahilər, şair və yazıçılar dəyərli fikirlər söyləmişlər.

Qədim fəlsəfi təlimlərdə məhəbbət cəzibə qüvvəsinə bənzər kosmik bir qüvvə hesab olunur, dünyanın qurucu, birləşdirici, qovuşdurucu və hərəkətverici enerjisi kimi təqdim edilirdi. Qədim yunan filosofu Platona görə, məhəbbət bir tərəfdən gözəl cismə (bədənə) qarşı hissi aşıqlik və estetik heyranlıq, digər tərəfdən isə mütləq səadət və mütləq gözəllik, insanın mənəvi yüksəlişinin ali pilləsidir. Sipinozaya görə, məhəbbət sadəcə olaraq başqa insana müsbət, xeyirxah münasibətdir və

bu hissin qüvvətli olması mütləq deyil. Bir çox filosofların fikrincə, məhəbbət obyektini əldə etmək və saxlamaq, onu razı salmaq və narahatlıq gətirəcək şeylərdən qorumaq arzusunu yaradır.

Müasir insana xas olan məhəbbət hissi, cəmiyyətin və insan şəxsiyyətinin özünün uzunmüddətli tarixi inkişafının nəticəsidir.

Fransız yazıçısı Ann Filip "Bir qöz qırpımı" adlı hekayəsində yazır: "İllər keçdikdə duyuruq ki, məhəbbətimiz sayəsində hər şeyə qadir olacağıq. Uşaqlarımız olacaq, sənətimiz, dostlarımız olacaq, evlər tikəcəyik, bəlkə daha yaxşı bir dünya yaradılmasında da xidmətimiz olacaq. Biz cuşa gəlmiş inşaatçılar kimi hey qurub yaradırıq".

2. Məhəbbət haqqında söhbət düşəndə ilk növbədə kişi ilə qadın arasındakı sevgi başa düşülür. Bu baxımdan məhəbbətin uşaqlara, valideynlərə, peşəyə, vətənə olan digər növləridə az əhəmiyyətli deyildir. Insanda haradasa, on dörd yaşında hər şeyə üstün gələ biləcək bir seksual enerji axını başlayır. Belə bir təəssürat yaranır ki, sanki insanın bütün bəndləri açılır. Insan özündə indiyə qədər tanımadığı, bilmədiyi bir enerji qaynağı aşkarlayır... Təbii prosesdir. Bu enerjiyə özünü tamamilə verəndə, onun qarşısını almağa çalışmayanda 40 yaşında eyni enerji axını, eyni hal baş verir. Təxminən 42 yaşında geri çəkilmə prosesi başlayır. Enerji axını yavaş-yavaş azalır.[38, s.70]

Kişi ilə qadın arasında məhəbbətdən söhbət gedərkən onun da çox fərqli növlərindən söz açmaq mümkündür. Bu mənada məhəbbət in sevgi, yetkin məhəbbət, sevgi-ehtiras, sevgi-adət, istehlakçı məhəbbət və s. kimi növlərini fərqləndirmək olar.

Antik dövrün fəlsəfi sistemlərində məhəbbət anlayışı əsas anlayışlardan biri kimi diqqət mərkəzində olmuşdur. Empedolm mənəbbəti insanı şadlandıran əsas amil, ümumdünya vəhdətinin başlanğıcı, Platon isə varlığının kamilliyə çatması və oradan gözəllik yaratmağın mənbəyi hesab edirdi. O, özünün "Pir" ("Ziyarət") adlı əsərində məhəbbətlə idrakın əlaqəsini formulə etmiş, onu fasilasiz proses adlandırmışdır. Platonik eros dərketmə erosudur.

3. Aristotelin fikrincə, məhəbbətin məqsədi hissi həzzalma yox, dostluqdur. O, məhəbbət anlayışını belə müəyyən etmişdir; "sevmək özünə yox, başqa birinə onun xoşbəxtliyi naminə nə isə arzulamaq, onun bu xoşbəxtliyə çatması üçün qüvvə sərf etməkdir". Orta əsrlər dövründə Qədim Şərqin sufi filosof və ədiblər məhəbbətə fərqli mövqedən yanaşmışlar. Ömər Xəyyam və Əlişir Nəvainin poeziyasında məhəbbət sufi ənənələri ruhunda şərabla eyniləşdirilir, nəşə gətirən qüvvə hesab edilirdi.

Böyük Nizami eşqi ilahi qüvvə kimi ucalara yüksəldir, onu "uca göylərin mehrabı", M.Füzuli isə "sehr", "ilahi qüvvə" adlandırırdı. Şərqin böyük şairi Sədi Şirazi "məhəbbəti arzuya qovuşmağın vasitəsi" adlandırır və yazırdı;

Kimə yar olubsa, incə bir nigar,

Onun ürəyində qalmaz arzular.

M.Füzuliyə görə məhəbbət aşiqlərin həyat yolunu işıqlandıran bir qüvvədir, ülvi və müqəddəs hissdir. Məhəbbət elə bir kamil nəşədir ki, şərab öz hərarətini, musiqi sədası təsir qidasını ondan almışdır.

Fransız yazıçısı Sent-Ekzüperi yazırdı; "Sevmək bir-birinə baxmaq deyil, hər ikisi eyni tərəfə baxmaq deməkdir". Məşhur rus yazıçısı L.N.Tolstoy yazırdı ki, "Sevgi insan həyatının daxili qanunu və insanın arzu etdiyi xoşbəxtliyə çatmasının yeganə vasitəsidir".

Azərbaycan filosofu Asif Əfəndiyev "Müdriklik səlahiyyəti" adlı əsərində "məhəbbət" anlayışının məzmunu-semantik quruluşunu aşağıdakı kimi açıqlayırdı;

- məhəbbət – müdriklikdir, mənəvi emosional bağlılıq, səcdədir.
- məhəbbət – sevilən insanın idealizə edilməsi, ilahi varlıq səviyyəsinə qaldırılmasıdır.
- məhəbbət – xəstəlikdir, lakin bu xəstəlik insana verilən ən böyük nemət, ən böyük səadətdir.
- məhəbbət – şirin, dadlı əzablar, işıqlı qüssədir.
- məhəbbətdə alov mövcuddur, o, ədalətsiz cəmiyyətdə kəskin konflikdədir.
- məhəbbət – heyrətdir. İnsana şairanə təbiət bəxş edir.
- məhəbbət – enişli – yoxuşlu yoldur. Bu yolu yalnız qəhrəmanlar axıradək başa vura bilərlər.
- məhəbbət ruhi – mənəvi yaxınlıq, şəxsi intim ünsiyyət donunda yaranır.

Avropa ölkələrində orta əsrlər dövründə məhəbbət dini mistikanın predmeti olmuş, qadın kultuna həsr edilmiş ideallaşdırılmış cinsi məhəbbət mövzusu poeziyada dərin kök salmışdır. Sitayiş, şəfqət və utancaqlıq harmonik məhəbbətin üç elementi kimi fərqləndirilmişdir.

Psixologiya elmi çərçivəsində sevgi probleminin sistematik şəkildə araşdırılmasına XX əsrin 40-cı illərində başlanılmışdır. Sevgi haqqında ilk tədqiqatlar əsasən nəzəri xarakter daşımış, zəmanəmizdə isə əhəmiyyətli dərəcədə empik məzmun almağa başlamışdır. Fəlsəfə ensiklopediyasında "sevgi" anlayışı "öz obyektində qarşı ypönəlmiş təmənnasız və fədakar can atmada ifadə olunan mənəvi-estetik hiss kimi" nəzərdən keçerilir. Filosofların nöqteyi-nəzərincə, bu hissin spesifik məzmunu bu zəmində meydana çıxan mənəvi yaxınlıq əsasında özünü fədaetmə, qurbanverməkdən ibarətdir. Psixoloqlar sevgini əks cinsdən olan obyektə unikal dəyərli varlıq kimi seçici münasibət hesab edirlər. Məhşur fransız yazıçısı Anatol Frans qeyd edirdi ki, həyatın

məşəqqətlərinə dözmək üçün onu mütləq bir qadınla bölüşmək laqzımdır. Məhəbbət obyektinə yönəlişlik birtərəfli eqoist məzmunlu olmamalı, sevən fərd kimi fərdiyyətini itirmədən məhəbbət obyekti ilə eyniləşdirməyə, "məni", "biz"lə əvəz etməyə əsaslanmalıdır. Müasir psixologiyada şərtli olaraq "pessimistik" və "optimistik" olmaqla iki məhəbbət modeli mövcuddur.

Pessimistik istiqamətin tərəfdarları qeyd edirlər ki, sevənin sevgi obyektindən asılılığı anı və süvginin mənfi yaşantılarla əlaqəsi hər şeydən əvvəl sevgi qorxusu ilə bağlıdır. **Pessimistik məhəbbət modelinə** görə, sevgi insanı qorxaq və asılı vəəziyyətə salır, onun şəxsi inkişafına mane olur (Məcnun vı ya Romeo sindromu). Dünyanın əksər xalqlarının məhəbbət dastanlarında nakam sevginin yanğılı bir hiss olduğu, insanı bəlalara düçar etdiyi qeyd edilmişdir. Nakam sevgi pessimistliyə yol açır, tərəflərdən biri öz fərdiyyətini itirərək digərində əriyib yoxa çıxır. Belə çütlüklərin sevgisində vüsal yosdur, çoxlu iztirab və əzablar vardır, onlar qovuşa bilmir, yəni iki "mən"in bir "biz"ə çevrilməsi mümkünsüz olur. Müəyyən hallarda sevgin şəxsiyyət psixologiyası simptomuna, melanxologiya xəstəliyinə, obrazlı desək, "məcnunluğa" gətirib çıxarır.

Məhəbbətin "optimistik" modelləri ABŞ psixoloqu A.Maslou (1908-1970) və humanistik psixologiyanın digər nümayəndələri tərəfində irəli sürülmüşdür. Bu modellərdə məhəbbət qorxunun aradan qaldırılması və tam psixoloji komfortun yaradılması amili kimi səciyyələndirilir. "Optimistik" modellərin güşə daşı sevənin sevgi obyektindən asılı olmadığı haqqında təsəvvürlərdən ibarətdir. A.Maslonun tərtib etdiyi "insan tələbatlarının piramidasında" məhəbbət mənsub olmaya tələbat üçüncü pillədə qərar tutmuşdur.

Amerikan psixoloqu Dorotti Tennov "**Məhəbbət və məftunluq**" adlı kitabında ehtiraslı romantik məhəbbəti, sələflərimizin çoxalma mexanizm kimi təqdim edir. O, məftunluğu əsil sevgi hesab etmir, əksinə, bir sıra siptomları olan xəstə hal kimi səciyyələndirir. Onun fikrincə, belə vəziyyətdə insanın beynində daim sevgi obyekti haqqında anlaşılmaz fikirlər dolaşır, qarşı tərəfin cavab hissinə kəskin tələbat yaranır, qarşılıqlı intim əlaqə zamanı eyforik duyğular baş qaldırır, obyektin təhrif olunması müşahidə olunur. Belə sevgi anında insan qarşı tərəfin müsbət keyfiyyətlərini hədsiz şişirdir, onun neqativ, qüsurlu xüsusiyyətlərini ya görmür, ya da onları əhəmiyyətsiz hesab edir, sevgi obyektinə qarşı güclü seksual oyanma baş qaldırır.

Alimlərin bir çoxu romantik məhəbbəti adi, bayağı fizioloji nöqteyi-nəzərdən tədqiq etməyə təşəbbüs götərmişlər. Onlar romantik duyğuların insanlarda hansı biokimyəvi proseslərə səbəb olduğunu araşdırarkən maraqlı nəticələr əldə etmişlər. Məsələn, eksperimentlərin birində gənc jurnalist qız gənclərə yaxınlaşmış və müsahibədən sonra öz telefon nömrəsini onlara vermişdir. Romantik maraq kişiləri həmin qıza dəfələrlə zəng etməyə təhrik etmişdir. Bu zaman romantik

oyanmanın emosional gücü o gədər yüksək olmuşdur ki, bu, dağ çayından keçmək üçün tələb olunan fiziki yükə bərabər tutula bilər. Bir çox hormonlar və maddələr məhz sevgi ilə bağlıdır.

Romantik ehtiras zamanı insan beynində olduqca az miqdarda **feniletilamin** adlı maddə hasil olur. Məhz həmin maddə "ağəlsız" məhəbbət hissinin baş qaldırmasını stimullaşdırır. Bu maddənin təsiri o qədər güclüdür ki, onu kakoin və ya stimulyatorlar sinifinə aid edilən digər narkotiklərlə müqayisə etmək olar. Onun təsiri ilə insanda sevgi zamanı eyforik və seksual oyanma ehtirası və cinsi əlaqə arzusu baş qaldırır. Feniletilaminin təsiri müvəqqətidir və insan ona alışdıqdan sonralar əvvəlki təsirə malik "kimyəvi reyaksiya" doğurmu.

Həm kişilərdə, həm də qadınların beynində cinsi noyanma və həzzalmaya səbəb olan **oksitoksin** adlanan hormon hasil olunur. Bu hormon körpə uşaqları əmizdirən qadınlarda südün yaranmasını stimullaşdırır. O, toxunma zamanı cinsi hissiyatın baş qaldırılmasına, erotik həvəsin yüksəlməsinə səbəb olur. Stresslərə qarşı güclü müqavimət qabiliyyətinə malikdir. Yaxın adamlarda ünsiyyət zamanı taktil əlaqə olduqda (əllə, dodaqla) qanda oksitoksinin miqdarı artır.

Psixoloq Zik Rubin romantik məhəbbətin **bağlılıq, qayğı və intimlik** olmaqla üç elementdən ibarətdir olduğu fikrini irəli sürmüşdür. Onun qənaətinə görə, bağlılıq başqa adamla fiziki yaxınlığa, bəyənilməyə və qayğıya tələbatla şərtlənir. Məsələn, insan tənha olduqda və ya əhvalı pisləşdikdə dərhal dərdini bölüşmək sevdiyi insanın dəstəyinə, ehtiyac duyur, onunla görüşmək, dərdini bölüşmək arzusunda olur.

Qayğı öz şəxsi tələbatlarından daha artıq başqa adamların xöşbəxtliyinə və tələbatlarına həssaslıq göstərmək və yardım əlini uzatmaqdır. Qayğı hissi bizi başqa adamların maraq və ehtiraslarını ön plana keçirməyə məcbur edir, ona kömək göstərməyə təhrik edir. Intimlik iki insanı birləşdirən ümumi fikirləri, istək və hissləri ifadə edir. Intim münasıbətlər nə qədər dərin olarsa, insanlar arasında etibar, inam, ideya və emosiyaları bölüşmək tələbatı bir o qədər çox olar. Zik Rubin qeyd olunan 3 element əsasında test tərtib etmişdir ki, həmin test vasitəsilə insanlar arasında "**məhəbbətin gücü**"nü ölçmək və qiymətləndirmək mümkündür.

Mövzu 8. Ailədə ər-arvad münasibətlərinin formalaşmasının psixoloji mexanizmləri.

Plan:

1. **Ailə həyatının dinamikası və inkişaf mərhələləri.**
2. **Gənc ailənin psixoloji xüsusiyyətləri**
3. **Nikahda uyğunluq və psixoloji uyuşmanın şərtləri**

1. Ailə həyatının dinamikası və inkişaf mərhələləri.

Ailə öz inkişafında müxtəlif mərhələrdən keçir. ABŞ sosioloqu E. M. Dynval hələ 1957-ci ildə ailənin həyat tsiklinə aşağıdakıları aid edirdi:

1. Cütlüklərin görüşməsi, onların bir-birini emosional cəzb etməsi;
2. Yeni valideynlik rollarının qəbul edilməsi və inkişafı;
3. Ailədə yeni şəxsiyyətin - övladın qəbul edilməsi. Ər-arvad cütlüyü arasında diad (ikili) münasibətlərin triad (üçlü) münasibətlərlə əvəz olunması;
4. Uşaqların ailədənkənar institutlara daxil olması;
5. Yeniyetməlik yaş dövrü ilə hesablaşma;
6. Müstəqilliyə canatma və onun sınaq mərhələsi;
7. Uşaqların ata evindən köçüb getməsinə hazırlıq;
8. Uşaqların ailədn getməsi və bu gedişlə barışmaq, ər-arvadın "üz-üzə" həyatı;
9. Təqaüdə çıxma və qocalıq faktının qəbul edilməsi.

Müasir sosial-psixoloji tədqiqatlarda ailənin həyat tsiklinin daha mükəmməl müəyyənləşdirilmiş aşağıdakı mərhələləri ayıd edilmişdir:

1. Ailə həyatına hazırlıq. Nikahın motivləşməsi. Həyəcan, inamsızlıq, ümidlər;
2. Ailənin doğulması –nikaha yeni daxil olanların psixoloji simbiozu, müstəqillik və asılılıq problemi (“Biz” və “mən”);
3. Ailə uşaqgözləmə ərəfəsində. Uşağın doğulması;
4. Uşağın ailədənkənar institutlara daxil olması. Valideynlik sərişləliliyinin yoxlanılması;
5. Uşağın öz həyat yolunu seçməsi və onun ailədən getməsi mümkünlüyü.
6. Yaşlı qohumların ölümü;
7. Ailənin ölümü (Cütlüklərdən birinin ölümü)

2013-cü ilin hesablamalarına görə Azərbaycanda 1 mln 870 min ailə vardır ki, onlardan da 5 mini sonsuzdur. 2012-ci ildə 500 mindən çox Azərbaycan ailələsində uşaqların sayı kəskin şəkildə azalmağa başlamışdır. Bu tendensiya 25 il əvvəl başlanmışdır və müxtəlif səbəblərlə bağlıdır:

- şəhər həyat tərzinin xüsusiyyətləri-mənzil problemi, qadınların işləməsi, təhsil-peşə səviyyəsinin artırılması

zərurəti ilə;

- şəhər əhalisinin artması (indi əhalinin təxminən yarısı şəhərlərdə yaşayır), kəndlərin sosial-iqtisadi inkişaf və şəhərləşmə prosesinin sürətlənməsi ilə;
- valideynlərin müəyyən səviyyədə (ən azı orta təhsilli olması nəticəsində onların tibbi bilgilərə malik olması, arzu olunmaz hamiləlikdən qorunma vasitələrindən istifadə etmək bacarığı ilə;
- ər-arvaddın psixoloji yetkinliyi ilə;
- çoxuşaqlı ailədə uşaqların tələb və arzu olunan səviyyədə tərbiyə edilib böyüdülməsində meydana çıxan maddi problemlərlə.

Ailə inkişaf edir, öz ömrünün ayrı-ayrı mərhələlərində özünəməxsus sosial və iqtisadi xüsusiyyətlər kəsb edir. Günlərin bir günü hamının uşaq hesab etdiyi oğlan və qız el adəti üzrə toy edir, ailə qurur.

Nikahın bağlanması ilə gənc ailənin həyatında ilk mərhələ başlayır. İlk uşağın doğulması ilə ailə öz həyatının yeni mərhələsinə qədəm qoyur: bu mərhələni sosioloqlar, psixoloqlar və pedaqoqlar valideynlik mərhələsi adlandırırlar vz ya uşaqların sayı, cinsi, ata və ananın peşə və təhsili, ailənin tipi, bunların hamısı özünü valideynlik mərhələsinin xüsusiyyətlərində tapır. Həmin mərhələ ən azı 20-25 il davam edir.

Ailə şaxələnməyə qol-budaq atmağa başlayır. Bu ailə həyatının yeni mərhələsidir:ata-ana qaynana və qaynataya, nənə və babaya çevrilir. Onların ailədə sosial rolu tədricən dəyişir: nəvə qayğıları ömrün sevinc payı kimi səslənir.

Bu gün nənə və babaların əksəriyyəti (nuklear ailələrin sayını nəzərə alsaq, 72, 6%-i) öz uşaqlarından ayrı yaşayırlar. Necə deyərlər, uşaqlar pərvazlanır, hərəsi öz budağına qonur. Bir də görürsən ki, evdə bir qoca ana, bir qoca ata qalıb. Demoqraflar ailə həyatının bu mərhələsini obrazlı şəkildə "boş **Gənc ailənin psixoloji xüsusiyyətləri**

"Gənc ailə" dedikdə, nikah yaşı beş ildən az olan ailə nəzərdə tutulur. Bu orta hesabla cütlüklərin 23-30 yaş hədlərini əhatə edir. Nikahın ilk beş ilində cütlüklər bir-birilərinə uyğunlaşır, mənzil üçün əlavə avadanlıqlar alır, adətən şəxsi mənzil olmzdıqda valideynləırlə birlikdə və ya kirayədə yaşayırlar. Gənc cütlüklər mənziilə sahib olduqdan sonra özlərinion şəxsi ev təsərrüfatını yaradır, uşaq gözləyir, ailə planlaşdırılması əsasında arzu edilən uşaqların sayını müəyyənləşdirir Ailədə körpə uşaqların olması gənc ailənin qayğılarını artırır, onlara qulluqla bağlı meydana çıxan yeni problemlərin həllinə daha çox vaxt sərf etməli olurlar. Ər-arvad cütlüyündən ibarət gənc ailənin həyatında uşaqların olub-olmamamsından asılı olmayaraq ilk beş il ən məsuliyyətli dövrdür. Gənc ailə həm də uşaq gözləyən və ya körpə uşaqları olan ailədir.

Lakin həyat sübut edir ki, ailə quran və gənc ailə adlanan cütlüklərin heç də hamısı həm iqtisadi, həm sosial, həm də psixoloji planda ailə həyatına tam hazırlıqlı olmurlar.

Mövcud həyati reallıqlar da göstərir ki, hər 5 gənc ailədən 4-ü tam sərbəst yaşaya bilmir, valideynlərin bu vəya başqa formada köməyinə ehtiyac hiss edirlər. Mənzil-məişət, maddi təminat, işlə bağlı problemlər, həmçinin ailədə körpə uşağa qulluqla əlaqədar çətinliklər gənc ailəyə dəstək göstəriləməsini tələb edir.

Məlumdur ki, yaxşı ailə bir gündə yaranmır. Bunun üçün vaxt lazımdır və o, tədricən qurulur. nikahaqədərki dövrdə özünü göstərən romantik məhəbbət öz yerini tədricən real məhəbbətə verir. Qarşılıqlı anlaşma, güzəşt, qarşılıqlı hörmət və məsuliyyət real məhəbbətin təməl prinsipinə çevrililr. Sevdiyi adamla birgə yaşayan hər bir kəsdə özünə inam, etibar və sədaqətlilik, daha sevimli olmaq, özünü başqasına həsr etmək tələbatı güclənir.

Gənc ailənin həyatı bir neçə mərhələdən keçir. Bunların sırasında adaptasiya və inteqrasiya adlanan mərhələlər xüsusilə önəmlidir.

Adaptasiya mərhələsində yeni ailə quran gənclər ailə naminə öz mövqelərini, təsəvvür və rəylərini, zövq və tələbatlarını könüllü şəkildə birləşdirməlidir. Buraya qarşılıqlı münasibətlərin üslubu, maddi və məişət problemləri, ailə büdcəsi, mənəvi həyat, ilk uşağın doğuşunun gözlənilməsi, valideynlərlə qarşlılıqlı münasibətlər, bir-birinin peşə və ictimai fəaliyyətinə, habelə mənəvi dəyərlərə münasibətin formalaşması aiddir.

Ailənin inteqrasiyasında uğurlar ailə quran gənclərin ağıllı, düşünülmüş adaptasiyası olmadan qeyri-mümkündür. **Adaptasiya dedikdə,** ər-arvadın bir-birinə, habelə ailənin ümumi iqliminə uyğunlaşması, ər-arvadı birləşdirən dəyərlərin birgə axtarışı nəzərdə tutulur. İnteqrasiya və adaptasiya qarşılıqlı asılı olan və qarşılıqlı şərtlənmiş, bir-birini tamamlayan sosial-psixoloji, mənəvi proseslərdir. Bu proseslər o vaxt uğurla nəticələnir ki, gənclərdən hər biri bu proseslərə

öz tphfəsini versin, bir-birinə əl uzatsın, bir-birinin hisslərini anlayışla qarşılasın, bir-birinə dəstək verib həmdəm olsunlar. Eqoistik maraqlar, təzyiq və zorakılıq təzahürləri, kobudluq, bacarıqsızlıq, pintilik, tənbəllik, moda əludəçiliyi, ailənin real imkanları ilə hesablaşmamaq, şübhəmeyillilik, xəyanət və s. ailənin sütunlarında çatlar yaradır. Uzunmüddətli ayrılıq, tez-tez küsüşmə, ər- arvad psixikasına zərbə vurur, mənəvi sağlamlığı zədələyir.

Gənc ailədə cütlüklürəin bir-birinə adaptasiyası bir sıra şərtlərdən asılıdır. buraya düşüncəli səbr və dözüm, başqasının haqqını tanımaqla səmimi hörmət, öz ləyaqətini qorumaqla yanaşı başqası üçün fədkarlıq və

s. kimi müsbət davranış nümunələriu daxildir. Bunlar isə birtərəfli yox, qarşılıqlı olmalıdır. Ailənin möhkəmliyində sevgi əsas şərtrdir, lakin bu həm dəaysberqin görünən romantik tərəfidir. Əsil sevgi həm də ailə həyatı dövründə onu qoruyub saxlamaqdır.

Burada əsrlər öncə yaranmış müdrik xalq misalını xatırlatmaq yerinə düşərdi.

"Qədim dövrlərdə qeyri-adi, təəccüblü bir ailə yaşayırdı. Bu ailə 100 nəfərdən ibarət idi. Bu ailədə söz birliyi, məhəbbət və hörmət hökmran idi. Bu ailə haqqında söz-söhbət imperatora gəlib çatmışdı. O, bu ailəyə baş çəkməyə gedir. İmperator heç nəyin şayə olmadığına gözləri ilə şahid oldu. İmperator ailə başçısından belə əmin-amanlıq, mehribanlıq şəraitində, münaqişədən, inciklikdən uzaq bir mühitdə yaşamağın sirrini soruşdu. Ailə başçısı vərəq götürdü və bu suala cavab yazdı. O, 100 söz yazdı. İmperator cəld kağızı alıb oxudu. Orada 100 dəfə "səbr" sözü yazılmışdı".

Psixoloqlar ən xoşbəxt və mehriban həyat sürən, uşaq tərbiyə edib böyütmüş, yaşlı, öz gümüş toylarını etmiş 5 cütlüyə anket paylamış, ərlə-arvadın sahib olmalı olduqları 8-10

Gənc ailənin həyatına yersiz müdaxilələr istər cəhalətdən, istərsə də səmimiyyətdən irəli gəlsin, hər ikisi yanlışdır. Qaynana ağlı və həyat təcrübəsi ilə örnək, ibrətverici olmalı, yeni ailə qurmuş gənclərə, oğluna, gəlninə qarşı səxavətini artırmalıdır. Gəlin qaynan problemi tarix boyu iki əsas qaynaqdan yaranıb: cəhalət, qısqanclıq. Ailə həyatında gənc xanımların qarşılıaşdığı ən ciddi problemlərdən biri **"qaynana fobiyasıdır".**

Məhz buna görədir ki, gəlin köçən gənc qızların əksəriyyəti bəyin valideynləri ilə birgə yox, ayrıca həyat sürməyə üstünlük verirlər.

keyfiyyət və imtiyazlara malik olmaq arzusunun ifadəsi ola bilər». Yuxarıda qeyd etdiyimiz kimi, Karen Horni öz nəzəriyyəsində hər dəfə nəzərə çatdırır ki, qadının gərəksizliyi hissinin genderlə heç bir əlaqəsi yoxdur; o, mahiyyətcə kişi və qadında eyni olan qeyri-mükəmməllik hissinin digər mənbələrini ört-basdır etmək üçün qadınlıq və kişilik barədə təsəvvürlər üzərində qurulur. Özünə möhkəm inam insanın təşəbbüskarlıq, cəsurluq, müstəqillik, istedad, şəraiti idarə etmək kimi keyfiyyətlərinə əsaslanır və emosional çalarlara malikdir. Əgər insanın özünəinamı onun verdiyi, yaxud aldığı sevgidən asılıdırsa, bu o deməkdir ki, onun əsası çox dar və laxlayan bir əsasdır: dar ona görə ki, bir çox qiymətli şəxsi keyfiyyətlər diqqətdən kənarda qalır; laxlayan ona görə ki, məsələn, əlverişli partnyor tapmaq imkanı kimi bir çox zahiri amillərdən asılı olur. Bundan savayı, belə mövqe çox asanlıqla sevgidən emosional asılılığa və kənardakı insanların qiymətindən asılılığa gətirib çıxarır. Nəticədə insan əgər onu sevmirlər və qiymətləndirmirlərsə, özünü layiqsiz hesab edir.

Freydin fikrincə, hər iki cinsdə psixi çətinliklər onlardan hər birinin bioseksual meyli ilə bağlıdır. O, hesab edirdi ki, kişilərin bir çox psixi problemləri onların özündə «qadın» meyillərini rədd etməsinin nəticəsində, qadında isə onun kişi olmaq arzusundan gələn xüsusiyyətlərdən yaranır. Ehtimal olunur ki, kişi anatomiyasına qibtə hissi qadının inkişafında pozulmaz iz qoyur; hətta ən əlverişli inkişaf zamanı belə, bu hiss böyük enerji hesabına aradan qaldırılmır. Qadının qeyri-mükəmməllik hissi öz cinsinə həqarət ifadəsi kimi nəzərdən keçirilir. Z.Freyd düşünür ki, qadın kişidən daha şöhrətpərəstdir və bunu onun öz qeyri-mükəmməlliyinin əvəzini çıxmaq ehtiyacına bağlayır. Qadın xarakterin- də mühüm rol oynayan qibtə və ziyankarlıq bunun birbaşa nəticəsidir. Qadında «ədalət hissinin az inkişaf etməsi» və onun «kişi fəaliyyət sahələrinə aid olan mənəvi və profes- sional marağa üstünlük verməsi»nin səbəbləri də paxıllığa meyillə izah edilir. Praktiki olaraq,

qadının bütün şöhrətpərəslik cəhdləri Freyd üçün onun kişi olmaq arzusuna sübutdur. Eləcə də, adətən, qadın xüsusiyyəti sayılan şöhrətpərəst istəklər, məsələn, hamıdan gözəl olmaq, yaxud ən görkəmli kişiyə ərə getmək istəyi həmin xüsusiyyətin ifadəsidir.

Freydin qadın psixologiyasına dair son məqaləsinin bəzi müddəalarında onun daha ilkin tədqiqatları ilə müqayisədə qadın psixologiyasına mədəni amillərin təsiri əlavə olaraq nəzərdən keçirilir. «Eyni zamanda biz qadını passivlik vəziyyətinə salan sosial qaydaların təsirinə verilən qiymətə diqqət yetirməliyik».

Freydin qadının əsas qorxusunun sevgi hissinin yox olması hesab etməsi müəyyən mənada bu postulatın bir hissəsidir. Bu fikirlər bizim mədəniyyətdə mazoxist meyillərə kişilərdən daha çox qadınlarda rast olunması təsəvvürü ilə möhkəmlənir, lakin bioloji deyil, mədəni meyillər qadının sevgiyə verdiyi qiymətin yüksəlməsinə və bununla da onu itirməkdən qorxmasına səbəb olur. Qadın əsrlər boyu ciddi iqtisadi və siyasi vəzifələrdən kənar şəraitdə yaşamış və həyatda şəxsi emosional sahə ilə məhdudlaşmışdır. Bu o demək deyildir ki, qadın məsuliyyət daşımamış və işləməli olmamışdır. Lakin onun işi ailə çərçivəsində yerinə yetirilmiş və buna görə də, daha şəxssiz işgüzar münasibətlərə zidd olaraq, emosionallığa əsaslanmışdır. Bu vəziyyətdəki baş- qa bir aspekt isə ondan ibarətdir ki, sevgi və sədaqətə spesifik qadın idealı və ləyaqəti kimi yanaşmışlar. Daha bir aspekt isə odur ki, qadının kişilərlə və uşaqlarla münasibəti səadətə, təhlükəsizliyə, hörmətə aparan yeganə qapı oldu- ğu üçün qadından ötrü sevgi kişinin pul qazanmaq bacarığı ilə müqayisə edilə bilən real dəyər idi. Beləliklə, nəinki emosional sahədən kənarda hansısa bir işlə məşğul olmaq istəyi faktiki olaraq öldürülürdü, həm də qadının şüurunda bu məşğuliyyətlər nəsə ikinci dərəcəli bir iş kimi qəbul olunmuşdu. Nəticədə, bizim mədəniyyətdə qadının nə səbəbdən sevgiyə olduğundan daha yüksək qiymət verməsi və ona verilə biləcəyindən daha

artıq gözləməsi, qadının sevgini itirməkdən kişidən daha çox qorxmasının real səbəbləri mövcud olmuşdur və mövcuddur. Məsələn, müasir qadının sevgini yeganə həyat dəyəri olaraq qəbul etməsinin lehiyə danışan bir amilə nəzər salaq: yaşa münasibət –qadının qocalıq və onun nəticələri qarşısındakı qorxusu. Uzun illər ərzində istər sevgi olsun, istər ev yaxud ailə – bütün bu sevinclərə qadın kişi vasitəsi ilə nail olduğu üçün kişini razı salmaq ondan ötrü vacib, əhəmiyyətli bir işə çevrilirdi. Burada gözəllik və cəzbetmə kultunun vacibliyini bəzi münasibətlərdə müsbət nəticə kimi qiymətləndirmək olar. Lakin bütün diqqəti qadın cəlbediciliyinin vacibliyinə yönəltmək, onun dəyərinin azalacağı dövrlə bağlı təşviş yaratmaq deməkdir. Biz beşinci onilliyə yaxınlaşan kişilərdə qorxu, yaxud depressiyanı nevrozun əlaməti hesab edirik. Qadın üçün isə bu çox adi hal hesab olunur və müəyyən mənada elə belədir, çünki cəlbedicilik unikal bir dəyərdir. Bu qorxu qadın cəlbediciliyinin sonu sayılan yaşla məhdudlaşmır, o qadının bütün həyatında iz qoyur və həyata münasibətdə güclü özünəinamsızlıq hissi doğurur. Bəzən sual verilir – cəmiyyətimizdə qeyri-mükəmməllik hissindən daha çox əziyyət çəkən kimdir, kişi ya qadın? Psixi xüsusiyyətləri kəmiyyətcə ölçmək çətin məsələdir, amma aşağıdakı fərq mü- şahidə olunur: bir qayda olaraq, kişidə qeyri-mükəmməllik hissi o səbəbdən yaranmır ki, o – kişidir; qadınsa qeyri-mükəmməllik hissini özünün yalnız qadın olması səbəbindən hiss edir.

Azərbaycan qadını alman qadınından fərqlənir, onlar hər ikisi isə hindu qadınlardan fərqlənir. Nyu-Yorkda yaşayan qadın Latın Amerikasındakı fermerin arvadından seçilir. Spesifik mədəni şəraitin həm kişilərdə, həm də qadınlarda hansı yolla spesifik keyfiyyət və bacarıq doğurması – bizim anlamaq istədiyimiz bax budur!

Mühazirə 11. UŞAQ YAŞLARINDA GENDER SOSİALİZASİYASI

Plan:

1. Sosiallaşmanın mexanizmləri. Sosiallaşma və tərbiyə
2. Uşaqlarda cinsi identikliyin formalaşması. Valideynlərin gender sosializasiyasına təsiri
3. Gender sosializasiyasının ailədənkənar mənbələri
4. Gender sosializasiyasının uşaqların koqnitiv inkişafına təsiri

İstifadə edilmiş ədəbiyyat:

1. Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı: ADPU-nun nəşri, 2005.
2. Ялизадя Я.Я. Ушаг вя йенийетмяляр: сексуал инкишафын психопедагоэикасы. Бакы: АДПУ-нун няшри, 2009.
3. Ялизадя Я.Я.Qadın psixologiyası (fəlsəvi-psixoloji esselər). Bakı, "Təhsil", 2015.
4. Эендер елминя эириш. Ы силд, мцяллиф кол. Ф.Ж. Мяммядова вя б. Бакы: Гярб Университети Эендер Арашдырмалары Мяркязи, Картон-М, 2005.
5. Zamanov A.D., Əliyeva H.İ. Sosial işin əsasları/ Dərslik. Bakı: “Təhsil işçisinin mətbəəsi” MMC, 2015.

6. Майерс Д. Социальная психология. Санкт-Петербург, 2000.

7. Шон Берн. Гендерная психология. Санкт-Петербург, 2001

1. Sosiallaşmanın mexanizmləri. Sosiallaşma və tərbiyə

Инсан сосиал мцщитин тясирляри алтында сосиаллашыр, шяхсиййятя чеврилир. Психи инкишафын амилляриндян бири олан «мцщит» анлайышы чохсящятли вя мцряккяб анлайышдыр. О, щям тябии, щям дя сосиал мцщитин тясирлярини нязярдя тутур.

Психи инкишафа фяал тясир бахымындан тябии мцщит амилляри кими щава, су, эцняш, зялзяля, иглим амилляри, радиасийа вя с. бюйцк тясирляря маликдир. Бу амилляр бирбаша дейил, долайы йолла психи инкишафа тясир эюстярир.

Ушаьын психи инкишафында сосиал мцщит амилляринин ися даща фяал вя бирбаша тясир имканлары вардыр. Сямиййят щяйаты вя инсанларын цнсиййят мцщити бу сящятдян даща фяал тясир imkanlarına malikdir.

Professor A.D.Zamanov və psixologiya üzrə fəlsəfə doktoru H.İ.Əliyevanın həmmüəllifliyi ilə 2015-ci ildə çap olunmuş ali məktəblər üçün “Sosial işin əsasları” adlı dərsliyin “Ailəşünaslıq” adlanan 7.1-ci fəslində müasir dövrdə ailənin sosial problemlərinin təzahür etdiyi fəaliyyət sahələri aşağıdakı kimi qruplaşdırılır:

- cəmiyyətin kəskin sosial-iqtisadi təbəqələşməsində;
- dövlət büdcəsinin daimi qıtlığı, sosial və coğrafi mobilliyin mümkünsüzlüyündə;
- miqrasiyada;
- əhalinin, o cümlədən ailənin sağlamlıq vəziyyətinin pisləşməsində;
- əhalinin təbii azalmasında təzahür edən demoqrafik situasiyada;

- ailə üzvlərinin, xüsusilə qadınların ənənəvi rollarının köklü şəkildə dəyişməsində;
- natamam ailələrin sayca artmasında;
- başqasının hesabına yaşama əmsalının çoxalmasında;
- ailədəki zorakılıqda, sosial yetimlikdə və bir çox başqa hallarda ifadə olunur.

Хариси юлкя психолоэийасында шяхсиййят вя онун инкишафы проблеми иля баьлы цч ясас истигамят-биолоҹи, сосиолоҹи вя биососиал истигамятляр диггяти сялб едир. Биолоҹи истигамятин нцмайяндяляри шяхсиййяти бядбяхт тябии варлыг щесаб едир, инсанын бцтцн давранышыны онун тябии, анаданэялмя щявяслярини, тялабатлар вя инстинктляриня баьлайырлар. Бу истигамятин тяряфдарлары ичярисиндя эюркямли Австрийа психиатры вя щякими психоанализин баниси З.Фрейд хцсуси йер тутур. Биоэенетикляр беля щесаб едирляр ки, инсан сямийуятин тяляблярини табе олмаьа мяcбур олдуьуна эюря, даим юз тябии тялабатларыны боьмаьа, мящдудлашдырмаьа мящкумдур. Она эюря дя о, даим юз-юзц иля эизли мцбаризядядир, одур ки, вязиййятдян чыхмаг цчцн «маска эейинир» вя йа тямин олунмамыш тялабатларыны фяалиййятин бу вя йа диэяр нювц иля явяз етмяли олур. Онun фикрinся, истимаи щяйатын бцтцн щадисяляри (гийамлар, тятилляр, ингилаблар) садя адамлар цчцн тябии щадисялярдир, чцнки доьулдуьу андан инсанын эенляриндя щцсум, гяддарлыг, ихтишаш, гараэцрущчулуг мювсуддур. Лакин реал щяйат эюстярир ки, адятян инсанлар вятянпярвяр, дюйцшчц, садяся олараг вятяндаш борсуну йериня йетирмяк цчцн щяйати истяк вя тялабатларынын зиддиня щярякят етмяли олурлар. Инкишаф щаггында сосиолоҹи нязяриййянин тяряфдарлары ися беля щесаб едирляр ки, инсан биолоҹи варлыг кими дцнйайа эялся дя, юз щяйаты

инкишафы просесиндя цнсиййятдя олдуьу сосиал групун вя мцщитин тясирляри нятисясиндя тядрісян сосиаллашыр, йяни шяхсиййятя чеврилир. Шяхсиййятин инкишаф сявиййяси ня гядяр ашаьыдырса, онда биолоҝи яламятляр щяр шейдян яввял сащиб олма, даьыдысы, синси вя с. кими инстинктляр даща айдын вя кяскин шякилдя тязащцр едир. Рус пedaqoгу Anatoli Biktoroviç Мудрик сосиаллашманын ясас амилляриниmцяййян едяряк, онлары 3 ясас групда сямляшдирмишдир. Макрофакторлар (космос, планетляр, дцнйа, юлкя, сямиййят, дювлят) бу амилляр планетин бцтцн сакинляринин, мцхтялиф юлкялярдя йашайан инсанларын чох бюйцк групларыны ящатя едир. Мезофакторлар (мезо-орта, аралыг) милли яламятляря эюря фярглянян бюйцк инсан групларынын, он- ларын йашайыш йеринин (реэион, кянд, шящяр, гясябя) бу вя йа диэяр аудиторийайа вя йа диэяр кцтляви коммуникасийа шябякясиня (радио, телевизийа, кино вя с.) мянсубиййяти. Микрофакторлар конкрет инсана бирбаша тясиретмя имканлары олан амилляр (аиля, йашыдлар групу, сосиал тярбийянин щяйата кечирдийи тялим, пешя, истимаи вя с. тяшкилатлар). Бу амилляри бцтювлцкдя щям дя шяхсиййятин формалашмасына тясир эюстярян мцщит факторлары да адландырмаг олар. Биососиал истигамятин тяряфдарлары беля щесаб едирляр ки, психи просесляр (дуйьулар, гаврайыш, тяфяккцр вя с.) биолоҝи тябиятя маликдир, лакин шяхсийуятин истигамяти, мараглары, габилиййятляри, кими хцсусиййятляр сосиал щадисялярдир. Ютян ясрин эюркямли ушаг психологлары В.Штерн вя Ъ. Пиаје конверэенсийа нязяриййясини – ирсиййят вя сосиал мцщит факторларынын инкишафда паралел тясиря малик олмасы идейасыны гябул едирдиляр. Ъ.Пиаје гейд едирди ки, инкишафын эедишиня ушаьын йашадыьы сосиал мцщит дя тясир эюстярир. В.Штерп «сосиал мцщит» дедикдя ушаьын йахын ящатясини нязярдя

тутурду. Сон илляр ирсиййятин механизмляринин ачылмасы сащясиндя эенетика елминин ялдя етдийи наилиййятляр психи щадисяляр, хцсусиля габилиййятлярин тябияти щаггында янняяви биоэенетик вя сосиоэенетик бахышлара йенидян нязяр йетирмяк зярурятини ортайа гоймушдур. Бу мясяля биолог, фи- лософ, психолог, щяким, щцгугшцнас вя с. кими мцтяхяссисляр арасында кяскин дискуссийа мювзусуна чеврилмишдир. Белйликля, щал-щазырда психи инкишафын зямини вя шяртляри, ону шяртляндирян амилляр щаггында мювсуд нязяриййяляри конкрет ола- раг ашаьыдакы шякилдя груплашдырмаг олар:

1. İнкишафын тякамцл нязяриййяси - организмин инкишафынын онтоэенезиндя эенетик сящятдян рцшеймдя олмайан щяр щансы бир хцсусиййятин щяйатын сонракы мярщяляляриндя мювсуд ола билясяйини инкар едир.

2. İнкишафын ингилаби нязяриййяси - бу нязяриййячиляр эенетик- ирси амилляри инкар едир, инкишафын бцтцн нятисялярини мцщитин тясирляри иля баьлайырлар. Онларын фикрinся, истянилян адамда онун тябии-анатомик физиолоjи хцсусиййятляриндян асылы олмайараг, тялим вя тярбийя сайясиндя истянилян психолоjи вя давраныш хцсусиййятляри формалашдырмаг мцмкцндцр.

3. İнкишафын ещтимал вя йа схоластик нязяриййяси. Бу нязяриййя нисбятян йени олуб, даща чох тяряфдарлара маликдир. Онун нцмайяндяляринин фикрinся, инкишафын щяр щансы мярщялясиндя ялдя едилмиш вя цмумян сон нятися ирялисядян эенлярдя мцяййянляшдирилмямишдир. Лакин бу нятисянин гятиййян эенлярдян асылы олмадыьыны да сюйлямяк доьру олмаз. Инкишафын щяр бир мярщялясиндя ялдя едилян нятисяляр щям эенляр, щям дя мцщитля шяртлянир. Щяр бир мярщялядя ялдя

едилян нятися isə организмин яввялки инкишаф мярщяляряринин нятисяси щесаб едилир.

4. İнкишафын функсионал нязяриййяси - бу вя йа диэяр психи функсийанын йаранмасы вя формалашмасы организмин щяйатындакы тялабатларын ящямиййятиндян асылыдыр. Бурада психиканын инкишафында щяйат тярзинин ролу юн планда дурур.

5. «Баьлылыг» нязяриййяси - рсихоанализин тясири алтында мейдана эялмиш вя щал-щазырда мяшщур олан сяряйанлардын бири олан бу нязяриййя американ психологдары Сон Боулби вя Meri Ейнсворт тяряфиндян иряли сцрцлмцшдцр. Психоанализдя олдуьу кими, бу нязяриййядя дя ушаьын инкишафында башлыса амил онун ян йахын йашлы иля мцнасибяти щесаб олунур. Ушаьын валидейнляри иля мцнасибятиндя, хцсусиля щяйатын биринси илиндя газанылмыш тясрцбя онун сонракы психи инкишафында щялледиси рол ойнайыр. Бу нязяриййя ушаьын анайа баьлылыьыны, пси- хоанализин гейд етдийи кими, физики щяззля дейил, мцдафия вя тящлцкясизлик инстинктиндя эюрцр. Онларын фикрinся, баьлылыг анаданэялмя вя эенетик механизмлярля шяртлянмишдир. Con Боулбийя эюря щейванларда олдуьу кими, инсанларда да ана юз баласыны ятраф мцщитин хошаэялмяз тясирляриндян горуйур. Тякамцл нятисясиндя бцтцн санлылырда хцсусиля тящлцкяли шяраитдя анайа баьлылыг инстинкт механизми йаранмышдыр. Онлар гейд едир ки, бу инстинкт эенетик мяншяли олса да, о, хариси амиллярдян, башлыса олараг ана иля илк мцнасибятин характе- риндян асылыдыр. Яэяр ана кюрпянин щяйатынын илк айларында она гаршы щяссаслыг, гайьыкешлик, онун мараг вя тялабатларына мещрибанлыг эюстярярся, кюрпядя етибарлы баьлылыг вя бунун ясасында тящлцкясизлик щисси йараныр. Ананын кюрпяйя гаршы якс мцнасибяти ися онда

цмидсизлик, сойуглуг щиссинин мянбяйиня чеврилир. Бир йашын сонунда кюрпянин анайа баьлылыьы мотивляшмя, давраныш системинин базасына чеврилир вя онун базасында ушаьын шяхсиййятинин формалашмасы давам едир. Сон дюврлярдя Американ вя Авропа психолоэийасында ушаьын анайа гаршы баьлылыьынын онун щяйатынын мцхтялиф сащяляриндя мяктябдя уьурлары, сосиал вя идракы проблемляринин щяллиндя йашыдлары иля мцнасибятиндя, сосиал мцщитя уьурла уйьунлашмасында щялледиси тясири хцсуси тядгигатлар васитясиля сцбут едилмишдир.

6. Али психи функсийаларын мядяни-тарихи инкишафы нязяриййяси. Бу нязяриййя эюркямли рус психолгу Л.С.Выготски тяряфиндян йарадылмышдыр. Щямин нязяриййянин башлыса мцддяаларыны мцяллиф беля формула етмишдир:

1. Мядяни-тарихи инкишаф просесиндя инсан чохсящятли вя чохсайлы васитяляр, ишаря системляри йаратмыш, бунлардан ямяк фяалиййятиндя алят кими, цнсиййятдя дил кими вя щесаблама васитяляри кими истифадя етмяйи юйрянмишдир. Онлардан хцсусиля йазыда истифадя етмякля инсан гаврайышдан тутмуш тяфяккцря гядяр юз психи функсийаларыны йенидян гурмушдур. Тарихи мювсудлуг дюврцндя инсанлар тяряфиндян ики тип васитяляр йарадылмышдыр. Онларын биринин кюмяйи иля инсан тябиятя, (ямяк васитяляри), диэяринин кюмяйи иля (ишаря системляри) юзцня тясир едир.

2. Ямяк вя ишаря системи васитяляринин практик фяалиййятдя тятбиги инсанын психи просеслярининин васитясиз формалардан васитяли формалара кечидиндя мцщцм рол ойнайыр. Нятисядя, инсанын бцтцн психи фяалиййяти йенидян гурулмагла, щейванларла мцгайисядя даща йцксяк сявиййядя йцксялир.

3. Тялим юз гаршысына ушаьы бу васитя вя ишарялярдян истифадя етмяк тясрцбясини юйрятмяк мягсядини гойур ки, ушаг онларын васитясиля юз давранышыны вя психи просесляриии идаря етмяйи мянимсяйир. Мясялян, йазы щафизяни йахшылаш- дырмаг, онун инкишафыны эенишляндирмяк васитясиня, ишаря јести вя сюз гаврайыш вя диггяти идаря етмяк цсулларына чеврилир.

4. Мцасир мядяни вя тящсилли адамын давранышыны вя психолоэийасы биолоји йетишмя вя тялим кими ики просесин гаршылыглы тясириниn нятисясидир. Щяр ики просес кюрпянин дцнйайа эялдийи андан дярщал олараг башланыр вя практик инкишафын ва- щид хяттиндя битишикдир.

5. Щяр щансы психи функсийа юз эенезисиндя (мяншяйиндя) ики формайа маликдир: анаданэялмя вя йахуд тябии, газанылмыш вя йа мядяни. Биринси биолоји сящятдян детерминляшмишдир, икинси тарихян шяртлянмишдир вя васитяли характер дашыйыр. Онлар васитяляр вя ишарялярдян истифадя иля баьлыдыр вя онларын идаря едилмяси ролунда чыхыш едир.

6. Ушаьа системлярдян вя васитялярдян истифадя етмяк цсуллары яввялся йашлыларын цнсиййяти вя бирэя яшйави фяалиййяти иля эюстярилир. Яввялся васитя вя ишаряляр башга адамын давранышыны идаря етмяк васитяляри кими чыхыш едир, сонра ися ушаг цчцн юз давранышыны идаря етмяк васитяляриня чеврилир. Бу интериоризасийа, йяни идаряетмянин шяхсиййятлярарасы функсийасынын шяхсиййят-дахили функсийайа чеврилмяси просесиндя баш верир. Л.С.Выготски гейд етмишдир ки, инсанын психи функсийалары йалныз цнсиййят просесиндя, мцяййян сосиал шяртляр дахилиндя формалаша биляр. Бу шяртляр васитясиля инсан психикасынын спесифик хассялярини-ихтийари

щафизяни, мянтиги тяфяккцрц вя нитги инкишаф етдирмяк мцмкцндцр.

2. Uşaqlarda cinsi identikliyin formalaşması. Valideynlərin gender sosializasiyasına təsiri

Sosiallaşma problemi bir çox elmlərdə, o cümlədən ailədə və gender psixologiyasında araşdırılan problemlərdən biridir. “Sosiallaşma” fərdin sosial təcrübəni mənimsəməsi, sosial davranış formalarına yiyələnməsi (başqa adamlarla ünsiyyət və münasibətlər qurmaq, sosial hadisələrə münasibət və s.) kimi məsələləri tədqiq edir.

Cəmiyyətdə fərdin sosiallaşmasını təmin edən əsas ictimai institut və təşkilatlar, ailə, məktəb, bağça, mətbuat, radio, televiziya və sosial şəbəkələr hesab olunur. Sosiallaşmanın çox mühüm mexanizmlərindən biri identikləşdirmədir. Uşaqlar böyüdükcə, öz valideynlərinə, həmyaşıdlarına ətrafdakı adamlara məxsus olan müxtəlif norma, münasibət və davranış formalarını daha fəal şəkildə mənimsəyirlər. Uşaqlar özünü onlarda eyniləşdirməyə cəhd göstərərək onların baxışlarını, həyat tərzlərini və təcrübələrini öyrənir və öz həyatına köçürür.

Sosiallaşmada identikləşmə prosesinin ən basilica amilləri sırasında rol-cins tipikləşdirməsinin subyekti kimi qadın və kişilərin müstəsna təsiri vardır. Bu proses fərd tərəfindən onun öz cinsinə aid olan başqalarının davranış xü- susiyyətlərinə yiyələnməsidir. Bu funksiyanın yerinə yetirilməsi başlıca olaraq valideynlərlə bağlıdır. Onların ailədəki rol-cins davranışı normaları, etalonları və stereotipləri məhz ailədə valideynlər tərəfindən ötürülür. Valideynlərin zəruri rol-cins gözləmələri uşaqlarda rəğbətləndirmə və cəzalandırma vasitəsilə bu və ya digər davranış formasının, geyimin, oyuncaqların, cinsə aid vəzifələrin və iş bölgüsünün məqbul və ya qeyri-məqbul olub-olmaması barədə münasibətlərin adekvat

olan kişi və ya qadın davranış nümunələrini mənimsəyirlər. Adətən ailədə oğlanların tərbiyəsini atalar, qızların tərbiyəsini analar həyata keçirir.

Uşaqlar böyüdükcə, onlar cəmiyyət həyatında vaxtlarının çox hissəsini özləri ilə eyni cinsə aid olan valideynlərinin biri ilə keçirirlər.

Psixoloqların keçirdikləri bir sıra eksperimentlər nəticəsində uşaqlarda identifikasıyanın formalaşması amilləri və mexanizmlərini müəyyənləşdirməyə imkan vermişdir. Müəyyən edilmişdir ki, uşaqlar üçün adətən identikləşmənin obyekti onların valideynləri olan yaşlı insanlardır. Ailədə ana dominant rola sahib olduqda, qızlar özlərini analarına, ata olduqda oğlanlar atalarına bənzəməyə çalışırlar. Anaların dominant mövqeyə malik olduğu ailələrdə oğlan uşaqlarında kişi xarakteri və davranış nümunəsinin formalaşmasında müəyyən maneələr, inkişaf problemləri yaranır. Atanın ailə başçısı olduğu ailələrdə isə əksinə, qızlar daha çox atalarının nümunəsini təqlid edirlər, lakin eyni zamanda onlarda anaya məxsus bir çox əlamətlər də formalaşır.

Uşaq yaşlarında sosializasiya mexanizmləri sırasında təqlid, təlqin, sosial fasilitasiya, konformluq və qaydaların gözlənilməsi kimi fenomenlərin də əhəmiyyətli təsiri vardır. Təqlid fərd tərəfindən şüurlu və ya şüursuz olaraq başqa adamların təcrübəsinin, xüsusilə, onların hərəkətlərinin, ədalarının, əməllərinin yamsılanması prosesidir. Təqlidin mexanizmləri anadangəlmədir. Təqlidin müxtəlif forma və növlərinə ali heyvanlarda, xüsusilə meymunlarda daha çox təsadüf olunur. Təqlid irsi-genetik davranış və şərti-reflektor öyrənmə forması kimi heyvanlar üçün həyat təcrübəsi mənbəyinin qazanılmasının vacib mexanizmlərindən biridir. İnsanlarda belə hala körpəlik və məktəbəqədər yaş dövrlərində daha çox təsadüf olunur. Başqaları ilə müqayisədə yaşlı adamlarda sosializasiya mexanizmi kimi təqlid ikinci dərəcəli rol oynayır.

Sosial fasilitasiya dedikdə, bir adamın davranışının başqalarına sərbəst, fəal və intensiv stimullaşdırıcı təsiri nəzərdə tutulur. Adətən təqlid

və tələqin fasilitasiya ilə müşayət olunur və əsasən tanış, yaxın adamların ona təsirində özünü biruzə verir. Cəmiyyətdə yad, tanış olmayan adamların davranış nümunələrinin uşaqlar tərəfindən təqlid edilməsi narahatçılıq və qorxu yaradır. Adətən, bu təqlidə əks olan “sosial inqibitasiya” adlanan hadisə ilə müşayət olunur. Sosial inqibitasiya fərd tərəfindən yeni sosial təcrübənin qazanılmasına mane olur və sosiallaşmanı ləngidir.

Şəxsiyyətin formalaşması ümumi, o cümlədən psixoseksual inkişafının gedişində baş verən prosesdir. Onun özünəməxsus bir sıra xüsusiyyətləri vardir. Bunlardan birincisi “cinsi Mən” obrazının və “cinsi mənlik şüurunun” formalaşmasıdır. Rus alimi A.İ.Belkin qeyd edir ki, yeniyetməlik dövründə təşəkkül tapan cinsi mənlik şüuru konstant (sabit) və konseptual olmaqla iki əsas formada özünü göstərir. Konstant mənlik şüuru yeniyetmənin bütün davranış aktlarında özünü göstərdiyi halda, konseptual mənlik şüuru əsasən stress şəraitində, şəxsiyyət üçün bu və ya digər situasiyada mühüm əhəmiyyət kəsb edən həyati vacib problemlərin həlli zərurəti meydana çıxdıqda aktivləşir.

Bioloji cinsdən fərqli olaraq gender sosiallaşma prosesində formalaşır. Ona görə də, insanın bioloji cinsi bəzi hallarda onun sosial cinsi ilə uyğun gəlməyə bilər. Genderin formalaşması insanın özünü bu və ya digər bir cinslə identikliyində əks olunur. Psixoloqlar cinsi-rol identikliyinin formalaşması pro- sesinin uşağın doğulduğu andan başladığını aşkar etmişlər. Valideynlərin körpəyə münasibəti onun cinsini bilən andan müəyyənləşir. Uşaq böyüdükcə ətrafdakılar ənənəvi cinsi-rol gözləməsinə əsaslanaraq uşağa müəyyən tələblə yanaşır və onun yalnız cinsinə müvafiq olan davranışını rəğbətlə qarşılayırlar; yəni valideynlər və digər böyüklər qızı və ya oğlanı gender roluna öyrətməyə başlayır. Əgər balacanın davranışı cinsi-rol stereotipinə uyğun deyilsə, böyüklər mütləq ona özünü başqa cür aparmalı olduğunu anladırlar. Artıq həyatının birinci

ilində uşağın valideynlərlə münasibəti cinsi əlamət üzərində qurulur. Demək olar ki, cinsi mənsubiyyət uşağın öz «Mən»ini dərk etdiyi ilk kateqoriyadır. İlkin gender identikliyi, özünün cinsi mənsubiyyətini dərk edən yaşyarımlıq uşağın şüurunda artıq sabit və mühüm element təşkil edərək formalaşır. 3 yaşındakı uşaq inamla özünü kişi yaxud qadın cinsinə aid edir. Bu zaman o, kişi və qadınların başqa-başqa cür göründüyünü, ayrı-ayrı fəaliy- yətlə məşğul olduğunu və başqa-başqa şeylərlə maraqlandığını ayırd etməyə başlayır. Uşaq kişi və qadın arasında fərqin olduğunu seçməyə başlayan kimi özü ilə eyni cinsdən olanların rol modelinə diqqəti artır ki, bunun əsasında ən yaxşı qız və ya oğlan olmaq istəyi durur. Differensial bənzətmə vasitəsi ilə, məsələn, nə üçün qadınların bir qayda olaraq alış-veriş etməyi və bayrama hazırlıq görməyi xoşladıqlarını, kişilərin isə bundan kənar gəzmək istədiyini izah etmək olar. Uşaq böyüyərkən məhz qadının bunu etdiyini görür və əgər həmin uşaq qızdırsa, bu işlər onu oğlandan qat-qat çox maraqlandırır. Yaş artdıqca cinsi-rol identikliyinin məzmunu da dəyişir. Məsələn,

- İki yaşlı uşaq öz cins mənsubiyyətini bilir, amma hələ bu atribusiyanı əsaslandırmağı bacarmır.
- 3-4 yaşlarında uşaq artıq ətrafdakıların cinsini müəyyələşdirməyi bacarır, amma çox zaman onu təsadüfi xarici əlamətlərlə, məsələn, geyimlə, saçla eyniləşdirir.
- 6-7 yaşlarında uşaq cinsi mənsubiyyətin dəyişməzliyini tam dərk edir və bu, davranışda cinsi differensiasiyanın güclənməsi ilə üst-üstə düşür.
- Yeniyetmə yaşında qender rolunun məzmunu və ifası barədə təsəvvürlər dəqiqləşir və möhkəmlənir.

Uşaqların cinsi inkişafının nə dərəcədə normal getdiyini bilmək üçün valideynlər cinsi yetkinliyin bu və ya digər mərhələsinin başlanma dövrlərinə bələd olmalıdırlar.

Uşaqların cinsi inkişafındakı normadan kənar olan halları iki qrupa ayırmaq olar:

- Cinsi inkişafdan qeri qalma;
- Cinsi inkişafın vaxtından əvvəl başlaması.

Əksər hallarda cinsi inkişafın gecikməsinin irsi-ailəvi formasına rast gəlinir. Bu zaman 15-16 yaşına çatmış uşağın xarici cinsiyyət üzvləri onun real yaş dövrünə uyğun gəlmir, ikincili cinsi əlamətlər isə ya zəif olur və ya heç olmur. Yalnız 15-16 yaşından sonra onlarda xarici cinsiyyət üzvləri normaya qədər inkişaf edir və eyni zamanda ikincili cinsi əlamətlər də formalaşır.

Uşaqlar həyatın yeniyetməlik dövründə cinsi yetişkənliyə daxil olurlar. Cinsi yetişkənlik yaşı qız uşaqlarında 8 yaşdan, oğlan uşaqlarında 9 yaşdan öncə olmamalıdır. Cinsi yetişkənliyin erkən başlamasının hər iki cinsdə gətirdiyi ən böyük problem boy qısalığıdır. Bu uşaqlar yaşıdlarına görə 8-9 yaşlarında daha hündürboylu olsalar da, daha sonra yaşıdlarından geri qalırlar. Oğlan uşaqlarında da həmçinin, bığ-saqqal çıxması, səsin qalınlaşması, kişi tipli skelet və əzələ kütləsinin formalaşması ilə müşayət olunur.

Bir çox tədqiqatlar göstərir ki, oğlanın valideynləri qız valideynlərindən uşağın davranış siqnallarına şərti reaksiya tezliyi kimi səciyyəvi bir göstəriciyə görə seçilir. Müşahidələrə əsasən, südəmər uşağa döş verən ana oğlanın verdiyi siqnala qızın siqnalından daha həssas və diqqətlidir. Həm analar, həm də atalar oğlanın səs siqnalına cavab olaraq, qızla müqayisədə onunla daha böyük ehtimalla kontakta girir. Hələ körpə yaşda nəzərə çarpan bu şərti reaksiyadakı fərq uşaqlıqda da davam edir. Müxtəlif yaş səviyyələrində aparılmış çoxsaylı araşdırmalar göstərir ki, oğlan öz valideynlərindən nəinki daha neqativ cavab reaksiyası, o cümlədən cismani cəza, eyni zamanda daha artıq pozitiv cavab reaksiyası alır. Bu müşahidələr valideynlərin qızdan fərqli

olaraq oğlanın etdiyi hərəkətlərə daha böyük hazırlıqla reaksiya verdiyini və fiziki olaraq da oğlanı qızdan daha çox həvəsləndirdiyini göstərir. Kişi cinsinə mənsub körpəni qucaqda daha çox saxlayır və dartışdırır, bununla da onda coşqun motor aktivliyi hərəkətə gətirirlər. Ana və südəmər körpələr arasında qarşılıqlı əlaqə ilə bağlı Yarroyun apardığı tədqiqat göstərir ki, oğlan anası öz körpəsi ilə daha çox əlaqədə olur, onunla hərəkəti daha intensiv, davranışı isə daha zəngin və rəngarəng olur. Südəmər oğlanın qızdan daha çox şirnikləndirilməsini nümayiş etdirən bu müşahidələr sonradan uşaqlıqda sosializasiya zamanı aşkar olunan cinsi fərqlərlə və tədqiqat refleksinin həvəsləndirilmə intensivliyi ilə uzlaşır. Uşaqların sosializasiyası prosesində valideyn davranışı ilə bağlı araşdırmalar cinsi mənsubiyyətə görə fərqləndirməni nümayiş etdirir: dünyanı tanımaq üçün oğlana qızdan daha çox azadlıq verilir. Ənənəvi Azərbaycan ailəsi buna parlaq nümunədir. Müəyyən qadın obrazları və stereotipləri Azərbaycan xalqının və onun mədəniyyətinin göstəricisi kimi qızın ənənəvi, etik dəyər və rəmzlər daşıyıcısı olduğunu təsdiq edir və gender rolunun dəqiq sərhədlərini cızır. Oyun zamanı qızlar anaya daha yaxın olur; onlara evdən müstəqil surətdə uzağa getmək və gəzmək üçün daha seyrək icazə verilir; evdə qız həmişə ananı ardınca gedirsə, bu rəğbətlə qarşılanır; qızın aktivliyi daha ciddi nəzarətdə saxlanılır. Evlə bağlı vəzifələrin oğlan və qız arasında fərqli bölümü də oğlanın hərəkət azadlığının qızdan fərqlənməsini əks etdirərək, ona evdən kənardakı işlərin tapşırılması ilə əlaqədardır; qız isə evin içindəki işlərlə – ev yığışdırmaq, təsərrüfatda kömək etmək, uşaqlara baxmaq kimi ev mühitinin əhəmiyyətini nəzərə çarpdıran işləri yerinə yetirməli olur. Çodorov təsdiq edir ki, qızın və oğlanın uşaqlıqlarının keçdiyi sosial kontekst arasındakı fərq bir çox psixoloji cinsi fərqlərin, o cümlədən kişinin daha fərdi, onun üstünlüyünü xüsusi qeyd edən aktivliyindən fərqli olaraq, qadının sosial əlaqəyə daha yaxından qoşulmasını əks etdirən səbəbə

çevrilir. Standart şəraitdə valideyn və uşaqlar arasında baş verən qarşılıqlı əlaqəyə dair sistematik tədqiqatlara müraciət etsək, valideynin müxtəlif cinsli uşaqlara münasibətinin fərqli olmasının isbatını aşkar edə bilərik. Tədqiqatların birində ata və anaların ayrılıqda uşaqlarda davranışı müşahidə olunaraq və müstəqil şəkildə qiymətləndirilərək videoya çəkilmişdir. Ataların davranışında fərqləndirmə analardakından daha güclü idi. Bu nəticə atanın ana ilə müqayisədə uşaqlardan cinsinə müvafiq davranış tələb edərək onlara daha çox təzyiq göstərməsinin nümayişi ilə üst-üstə düşür. Oğlu ilə təlim keçən ata onun üçün daha yüksək standartlar qoyur, təpşırıqların koqnitiv eleme- ntlərinə diqqət yetirir və nailiyyətlərə daha böyük əhəmiyyət verir. Qızını öyrədən ata daha çox təlim şəraitinin şəxslərarası aspektlərinə həvəsləndirməyə, dəstəklənməyə, zarafatlara, oyuna və müdafiəyə diqqət yetirir. Böyüklərin təlim davranışı cinsi əlamətə görə analoji fərqləndirmə strukturuna malikdir. Üzərində sınaq keçirilən ikiyaşlıların cinsi identikliyi barədə ehtimal ilə əlaqədar keçirilən eksperimentin nəticələri göstərmişdir ki, böyüklər, xüsusən də kişilər oğlanların davranışını daha məqsədyönlü əsaslandırır və tapşırıqları yerinə yetirərkən onlardan qızlarla müqayisədə daha artıq müvəffəqiyyət gözləyirdi, qızlar isə daha çox tərif və dəstək qazanırdılar. Bütövlükdə həmin nəticə böyüklərin, xüsusən də atanın oğlu ilə daha instrumental, tapşırığa istiqamətlənən, onun üstünlüyünü nəzərə çarpdıran, qızları ilə isə daha ekspressiv, nailiyyətə az istiqamətlənən, asılılığı möhkəmləndirən üsullarla rəftar etməsini göstərir. Qızlarla təlim keçərkən nailiyyətlərə və üstünlüyə daha az fikir verən təkcə atalar deyil – analar da özünü bu cür aparır. Müşahidələrə əsasən, qız anaları onların köməyinə ehtiyac duyulmursa belə, problemlərin həllində övladına oğlan analarından daha tez-tez yardım edir. Analar yardımla bağlı qızın xahişinə oğlanın xahişindən daha müsbət emosiyalarla reaksiya verir və frustrasiyaya səbəb olan həyəcanla bağlı qızı fiziki cəhətdən daha tez-tez

əzizləyir. Ola bilsin ki, valideynlər qızın müstəqil uğurlarına lazımınca diqqət yetirmir; amma o da mümkündür ki, qızın nailiyyətə istiqamətlənən cəhdini qiymətdən salırlar. Ailədaxili ünsiyyət nümunələrini araşdıran tədqiqatçılar valideynlərin söhbət zamanı qızın sözünü oğlandan daha tez-tez, ailə üzvlərinin isə ata- dan daha çox ananın sözünü kəsməsini aşkar etmişlər. Əgər söhbət zamanı qadının sözünü kəsirlərsə, bu qadının daha az hörmətə və əhəmiyyətə malik olması ilə bağlı fikri ötürən gizli xəbərdarlıq rolunu oynaya bilər. Bu cür gizli xəbərdarlıq qadında özünəinamın və özünəqiymətləndirmənin formalaşmasına neqativ təsir göstərir.

Uşaqlar cinsi-rol davranış modelini iki yolla öyrənir: başqa uşaqların özünü necə aparmasını müşahidə etməklə – belə növ təlim **dolayı öyrətmə** adlanır. Ya da eyni cinsdən olan valideynə özünü bənzətməklə – bu növ öyrənməni isə psixoloqlar **imitasiya yolu ilə öyrətmə** yaxud **modelləşmə** adlandırır. Uşağın öz gender identikliyini dərk etməsi həmçinin ona müəyyən münasibəti nəzərdə tutur. Buraya cinsi- rol oriyentasiyası və cinsi-rol üstünlüyü aiddir. Cinsi-rol oriyentasiyası uşaqdakı keyfiyyətlərin kişi və qadın rollarının tələblərinə və gözləmələrinə nə dərəcədə uyğun olduğu barədə onun təsəvvürləridir. Cinsi-rol üstünlüyündə arzuolunan cinsi identiklik əks olunur. Bu, adətən «sən kim olmaq istərdin – oğlan yoxsa qız?» tipli sualla aşkar edilir. Nəticədə uşaqlar böyüyüyəndən sonra öz həyatlarını cinsi-rol gözləmələrinə uyğun qurur. Bu cür davranış gözləmələrindən də kişi və qadının «gender rolu» formalaşır.

Sosial öyrətmə nəzəriyyəsinə əsasən, şəxsiyyətin davranışı mühüm dərəcədə xarici mühitdəki pozitiv yaxud neqativ əsaslarla formalaşır. Bu nəzəriyyənin nümayəndələrindən biri, amerikan alimi Berres Frederik Skinner hesab edir ki, cinsi-rol davranışının inkişafında hər şey uşağın özünü bənzətməyə çalışdığı valideyn modelindən və uşağın davranışına

valideynlərin verdiyi əsaslandırmadan asılıdır, yəni cinsə uyğun davranış üçün – müsbət əsaslandırma, əks davranış üçün – mənfi. Öyrətmənin başlıca prinsipi–müşahidə, mükafatlandırma, cəza vasitəsi ilə, birbaşa və dolayı əsaslandırma yolu ilə fərqləndirmədir. Ailədə rəğbətləndirmə funksiyasının yerinə yetirilməsi müvafiq davranışın inkişaf etməsinin əsas amili rolunu oynaya bilər. Uşaqlar adətən o adama bənzəməyə çalışırlar ki, onun əlində hakimiyyət olsun. Müəyyən modelə bənzətməni hər bir konkret uşaqda möhkəmləndirmək məcbur deyil, başqa bir uşağın bu yaxud digər davranışının həvəsləndirilməsini görmək ona bəs edir.

3. Gender sosializasiyasının ailədənkənar mənbələri

Gender sosializasiyası insanın bütün həyatı boyu davam edən bir prosesdir, o, dəyişən şəraitin təsirlərini və yeni təcrübəni əks etdirir. Həyat boyu genderin təşəkkül tapması üçün həmin konkret cəmiyyətdə və mədəniyyətdə “kişilik” və “qadınlıq”la əlaqələndirilən bütün sistem material rolunu oynayır. Sosiallaşma prosesində ailədənkənar mənbələrin güclü təsiri vardır. Bunlara uşaq ədəbiyyatları, kitabxanalar, dövrü mətbuat, kütləvi informasiya vasitələri və s. daxildir. Müasir dövrdə sosiallaşma vasitələri kimi internetin və sosial şəbəkələrin rolu get-gedə artmaqdadır. Müasir cəmiy- yətdə uşaqlarda rol-cins streotipik baxışların və davranış formalarının formalaşması prosesi xeyli sürətlənmişdir. Artıq 2-3 yaşlı uşaqlarda cinsə aid əlamətlərin, davranış formalarının, baxışları və qiymətləndirmələrin aydın təzahürləri ilə qarşılaşmaq mümkündür.

Uşaqların informasiyanı hər iki gender nümayəndələrindən almasına baxmayaraq, tədqiqatlar göstərir ki, onlar davranışda məhz öz genderinə müvafiq gələn modelləri qəbul etməyə meyillidir. Ailədənkənar gender-rol sosializasiyası mənbələrini nəzərdən keçirək:

1. Uşaq ədəbiyyatı. Eksperimental tədqiqatlar təsdiq edir ki, məzmununda cinsi stereotipləşmənin izləndiyi kitabların oxunması uşaq oyunlarında cinsi-tipik davranışın güclənməsinə səbəb olur. Tədqiqatların nəticəsinə əsasən, qadın cinsinə mənsub personajlar arasında ailə təsərrüfatına aid əşyalarla təsvir olunanların sayı daha çox olsa da, bu nisbət 50 ildir ki, dəyişməmiş qalır. Kişilər çox zaman əlində əmək vasitələri ilə, rəhbər rolunda və s. təsvir edilir.

2. Oyuncaqlar. Differensial cinsi sosializasiya prosesində valideynlərin qıza və oğlana təklif etdiyi uşaq oyuncaqlarının rolu böyükdür. Tədqiqatlara görə, oyuncaqlar və oyunlar qıza ana olmaq və ailə təsərrüfatını apara bilməklə bağlı fəaliyyət növündə təcrübə keçməyi, ünsiyyətdə olmağı və əməkdaşlıq etmək bacarıqlarının inkişafına köməklik edir, oğlanları isə ixtiraçılığa, ətraf mühitin dəyişdirilməsinə istiqamətləndirir, sonralar məkan və riyazi qabiliyyətin əsasına çevriləcək vərdişləri inkişaf etdirməyə kömək edir, müstəqilliyi, yarış və lider davranışını həvəsləndirir. Bir sıra araşdırmalar göstərir ki, oğlanlara qızlardan daha fərqli oyuncaqlar alınır və valideynin qıza və oğlana təklif etdiyi oyuncaqlar tamamilə bir-birindən fərqlənir. Oğlan oyuncaqları qız oyuncaqlarından daha çox ixtiraçılıq qabiliyyətini, aşkar etmək, müxtəlif əşyalarla təmasda olmaq və maddi aləmlə birbaşa əlaqədə olmaq imkanı verir. Oğlanların ənənəvi olaraq üstün tutduğu quraşdırma tipli oyuncaqlar uşaqda vizual-məkan vərdişlərini inkişaf etdirir və buna görə də, oğlanlar qızlardan daha böyük həvəslə kompüter oyunları oynayır. Digər tərəfdən, adətən qız oyuncaqları belədir ki, qızlar oyun zamanı özünü daha çox böyüklərə bənzədir, tərbiyəçiyə daha yaxın yerdə oynayır və rəngarəng və yenilikçi fəaliyyət üçün daha az imkana malik olur. Oğlanların və qızların üstünlük verdiyi oyuncaq növləri arasındakı fərq çoxsaylı tədqiqatlarda qeydə alınmışdır. Lakin oğlan və qızların üstünlük verdiyi oyuncaqlardakı fərqin onların inkişafına hansı təsir göstərdiyini alimlər bu yaxınlarda

öyrənməyə başlamışlar. Müxtəlif xarakteristikalı oyuncaqlardan istifadədəki seçim ona səbəb olur ki, oğlan və qızlar oyun sahəsində və problemlərin həllində ayrı-ayrı təcrübəyə malik olur, belə təcrübə isə sonrakı koqnitiv inkişafa təkan verir. Uşaqlar tərəfindən bu və yaxud digər oyuncağa verilən üstünlük «təbii»dirmi, yoxsa sosial mühit tərəfindənmi yaradılır? Bununla bağlı bir neçə fərziyyə vardır.

Skar və Makkartni ehtimal edir ki, qızlar və oğlanlar elə anadangəlmə müxtəlif meyillərə malik olur və buna görə də, vaxt keçdikcə müxtəlif oyuncaqlara meyil göstərirlər, böyüklərin differensial sosializasiyaya aid etdiyimiz hərəkətləri isə həmin «təbii» fərqlərə reaksiyadan başqa bir şey deyildir. Onlar bu tezisi “genotipə səbəb olan – ətraf mühitin reaksi- yası” adlandırmışlar. Təəssüflər olsun ki, biz uşağın onun cinsi üçün tipik olan oyuncaqlara üstünlük verəcəyi vaxtda differensial sosializasiyanın müəyyən dərəcədə artıq baş verdiyini istisna edə bilmərik. Bir sıra tədqiqatlar göstərir ki, oyuncaqla bağlı uşaq meyillərini böyüklər formalaşdırır. Məsələn, Sidoroviç və Lanninin öz tədqiqatlarının birində üzərində sınaq keçdikləri 11 aylıq uşaqlar üç qrupa böldülər. Bir qrupa dedilər ki, uşaq qızdır; o birinə isə – oğlandır; üçüncüsünə uşağın genderi barədə ümumiyyətlə heç bir söz deyilmədi. Uşaqla ünsiyyətdə olan böyüyün əlində üç oyuncaq vardı: rezin top, gəlincik və çeynəmək üçün halqa. Əgər davranışındakı fərqə əsaslanaraq, biz uşaqlara başqa-başqa oyuncaq versəydik, gözləmək olardı ki, imtahan edilənlər oyuncağı körpənin real meylindən çıxış edərək seçəcəklər. Nəticədə real cins praktiki olaraq sınananların seçiminə təsir etmədi; gender işarəsi barəsində isə bunu söyləmək olmaz. Qarşısındakının oğlan olduğunu düşünən qrupdakı 50% kişi və 80% qadın futbol topunu seçdi. Uşağın qız kimi təqdim olunduğu qrupdan 72% qadın və 89% kişi gəlinciyi seçdi. Həmin qrupdan olan yalnız 28% qadın «qız»a top təklif etdi; kişilərin isə heç biri bunu etmədi.

3. Kütləvi informasiya vasitələri. Gender-rol sosializasiyasında müntəzəm olaraq bizə stereotip qadın və kişi obrazları nümayiş etdirən kütləvi informasiya vasitələri mühüm rol oynayır. Onlardan ən geniş vizual təsir effektinə malik olanı televiziyadır.Televiziyadakı obrazlar real görsənir, insanlar isə televiziyadan geniş istifadə edir və onların seçim imkanı var. Tanınmış biheviorist Albert Bandura televiziyanın təqlid üçün rol modelləri mənbəyi olaraq valideynlərlə və müəllimlərlə rəqabətə girə biləcəyi ideyasını irəli sürmüşdür. Tədqiqatçılar qeyd edir ki, yüksək səviyyəli rəhbər vəzifə tutan televiziya qəhrəmanları olan kişilər ekranda daha tez-tez görünür və qadınlarla müqayisədə onlar daha güclü şəxsiyyət kimi təqdim edilir. Onlar daha çox sərt, eqosentrik, rəqabətə və təcavüzə meyilli təsvir olunur. Televiziya verilişləri qadınları həssas və qəlbi açıq göstərərək, mənfi personajları kişi cinsinə aid etməyi üstün tuturlar. Televiziya proqramlarını təhlil edən ABŞ alimi C.Devis belə qənaətə gəlmişdir ki, təqdim edilən qadınlar proqramlarda iştirakçı yox, daha çox bəzək rolunu ifa edən cavan və cəlbedici qadın portreti yaradır. Bu cür televiziya obrazı bizə qadının gənc və həmin mədəniyyətdə gözəllik və qadınlıq haqqında qəbul edilmiş təsəvvürlərə cavab verdiyi zaman qiymətləndirildiyi fikrini təlqin edir. Televiziyada göstərilən reklam roliklərinin kontent təhlili göstərdi ki, onların yaradıcıları da kişi və qadınları təsvir edərkən cinsi stereotiplərdən geniş istifadə edir.Televiziya reklamlarındakı amiranə səs adətən kişiyə məxsus olur; qadınların iştirak etdiyi roliklərin əksəriyyəti ev üçün mallar reklam edir; kişilər üçün reklam rolikində məşğələ diapozonu qadınlar üçün olduğundan üç dəfə genişdir. Müəyyən edilmişdir ki, insanın gender stereotipləri hopmuş kütləvi informasiya vasitələrinin təsirinə məruz qalması ilə onda stereotip dərketmə, attitüd və davranış modelləri meydana gəlməsi arasında müsbət korrelyasiya aşkar olunur. Başqa sözlə desək, stereotip attitüdlü insanlar həm də gender stereotipləri təbliğ edən proqramlara üs- tünlük

verirlər. Ola bilər ki, belə verilişləri seyr etməyə valideynlərin icazə verdiyi uşaqlar gender stereotiplərinin təsirinə televiziyanın təsiri ilə yox, valideyn münasibətinin nəticəsi olaraq valideynləri bu icazəni vermədiyi uşaqlardan daha çox düşsün. Stiv Cobbsun apardığı tədqiqat televiziya modellərinin balaca uşaqların oyuncaq seçiminə təsir edə bilməsi barədə fərziyyəyə dəstək verən faktlar aşkar etdi. Bu sınaqda 4 yaşdan 6 yaşa qədər uşaq iştirak etmiş və onların hər birinə qəhrəmanları təsadüfi seçilmiş «Sezam küçəsi» adlı cizgi filmi serialından kuklalar olan üç videoyazıdan biri göstərilmişdi. Hər üç film teleekranda həm oğlanların, həm də qızların oynadığı oyuncaqlar nümayiş etdirilən fraqmentdən başlayırdı. Sonra süjetə görə oğlan kukla və qız kukla həmin oyuncaqların hansı cinsə daha çox uyğun olduğunu müzakirə edirdi. Filmin birinci versiyasında kuklalar həmin oyuncaqların «oğlanlar üçün» olmasını, ikinci versiyada – eyni dərəcədə qızlara da uyğun olmasına sübut gətirirdi. 20-dəqiqəlik filmə baxdıqdan sonra uşaqları iki oyuncaq dəstinin olduğu otaqda qoydular: bir dəst – filmdə göstərilən, ikinci isə birincidən fərqli olaraq, uşaqlar arasında daha az populyar olan və başqa tədqiqatda neytral gender kimi qiymətləndirilən idi. Həm qızlar, həm də oğlanlar sınaq oyuncaqları ilə yox, daha çox filmdə onların cinsinə aid olan kimi təqdim edilmiş – testdəki oyuncaqlarla oyna- dılar. Bir sözlə desək, alınmış nəticə onu göstərir ki, genderə aid olan oyuncaq seçimini oyuncağın bu, yaxud digər cinsə mənsubluğunu göstərən televiziya modelləri vasitəsi ilə yaratmaq mümkündür.

4. Məktəb və müəllimlər.

Əgər ailənin sosiallaşma modelində cinslə əlaqəsi olan fərqlər müəllimin davranışın- da təkrar olunursa, kişi və qadın davranışının həmin cins üçün tipik olan formaları daha böyük qrupa ayrılır. Uşaq bağçasındakı tərbiyəçilərin davranışı üzərində aparılan müşahidə göstərir ki, qızlarla müqayisədə oğlanlara həm müsbət, həm də mənfi mənada daha çox

diqqət yetirilir. Bir çox tədqiqatlar (Serbin O`leari, Kent) tərbiyəçilərin oğlan və qızların suallarına verdiyi cavablarda da fərqin olduğunu aşkar etdilər. Tərbiyəçilər nəinki oğlanlara daha çox, həm də daha gərəkli cavablar verir, onlara daha dəqiq informasiya çatdırırdılar. Bu tədqiqatın nəticələri müəllimlərin müxtəlif cinsli şagirdlərə münasibətdə davranışının seçildiyinə dair başqa araşdırmalarla üst-üstə düşür: müşahidələr göstərir ki, müəllimlər oğlanlarla daha çox qarşılıqlı təsirdə olur, oğlanlara qarşı daha müsbət reaksiya verir və tənqidi gös- tərişləri isə daha çox qızlara ünvanlayırlar. Hətta bir sıra xarici ölkələrdə universitet səviyyəsində belə tələbə oğlanlarla müqayisədə tələbə qızların koqnitiv nailiyyətinə daha zəif dəstək verilməsi qeydə alınmışdır.Tələbə və müəllimlər arasında aparılmış geniş anket araşdırmaları göstərir ki, tələbə qızların intellektual meyilləri müəllim tərəfindən daha az ciddiliklə qarşılanır. Qadınların ali məktəblərdən daha çox getməsinin səbəblərindən biri də onların intellektual fəaliyyətinə dəstəyin olmaması və mənfi münasibətin zərərli təsiri sayıla bilər. Artıq vərdişə çevrilmiş bu hal təhsil sisteminin bütün səviyyələrində – uşaq bağçasından kollec yaxud universitet qurtarana kimi aşkar izlənilir. Ev, laboratoriya və tədris şəraitində əldə olunmuş bu nəticə - qızların, hətta uğur qazanmaq üçün yüksək motivi olan qızların da səyinin onların yaşıdı olan oğlanlardan daha az həvəsləndirilməsini təsdiq edir. Problemlərin həlli zamanı özünəinamın, “Mən” konsepsiyasının davranış səviyyələrində gender fərqinin mövcudluğunun səbəbi evdə yaxud məktəbdə qazanılmış və çox zaman qadında ümidsizlik və onun səyinə qiymət verilməməsi hissi yaradan həmin təcrübə sayıla bilər. Cinsi rola uyğun gələn ənənəvi davranış növlərinin və gender fərqlərinin möhkəmlənməsinə təkcə müəllimin spesifik davranışı yox, həmçinin daha geniş məktəb konteksti təsir göstərir. Məktəb və xüsusən də, universitet sistemində daha nüfuzlu vəzifələri kişilər tutur, qadın cinsinə mənsub müəllimlər üçün daha zəif professional identiklik səciyyəvidir. Məktəbin

həyəti, bir qayda olaraq, cinsi seqreqasiyaya təsir edir, çünki oğlanlar və qızlar ayrı-ayrı fəallıq növlərinə üstünlük verir və sinifdə vəzifələr adətən cinsi mənsubiyyətə görə bölünür. Bundan başqa, oğlanların və qızların oyun meydançasında üstünlük verdiyi oyunlar da cinsi əlamətə görə seçilir və müxtəlif xarakteristikalara malik olur. Oyun meydançasında oğlanların və qızların məşğul olduğu oyunların formal xarakteristikasını araşdırarkən aşkar etmişdir ki, qızların oyunu dəqiq struktura malikdir, hərəkətlər növbə ilə yerinə yetirilir, bütün prosedurlar dəyişməyən qaydalarla nizama salınır; iştirakçıların sayı az olur və qabaqcadan nəzərdə tutulmayan strategiyadan seyrək istifadə edilir. Oğlanların oyunu qaydalara tabe olsa da, burada təşəbbüskarlıq, improvizasiya, nəzərdə tutulmayan vəziyyətdən baş açа bilmək bacarığı rəğbətlə qarşılanır, çox sayda yaşıdların iştirak etdiyi komandalar iştirak edir və həm komanda daxilində əməkdaşlıq, həmçinin müxtəlif komandalar arasında rəqabət həvəsləndirilir. Beləliklə, differensial sosializasiya agentləri şəbəkəsi ailə ilə məhdudlaşmır və bu, uşağın evdən geniş aləmə ayaq basdığı zaman təcrübə ardıcıllığını təmin edir.

4. Gender sosializasiyasının uşaqların koqnitiv inkişafına təsiri

Cinsi (gender) sosializasiyası ümumi sosiallaşma prosesinin tərkib hissəsidir. Əgər sosiallaşmaya insanın bir tərəfdən cəmiyyətə inteqrasiyası və adaptasiyası kimi baxsaq, digər tərəfdən şəxsiyyətin sosial mühitdə özünü inkişaf və özünü reallaşdırma prosesi kimi baxmaq lazımdır. Cinsi (gender) sosiallaşmasında qeyd olunan hər iki tendensiyada nəzərə alınmalıdır. Cinsi (gender) sosializasiyası özündə bir-biri ilə qarşılıqlı əlaqədə olan iki prosesi əhatə edir. Birincisi, bu konkret cinsə aid fərd tərəfindən sosial təcrübənin, psixoseksual ustanovka və dəyərlərin, müəyyən davranış qaydaları və normalarının mənimsənilməsi, ikincisi, cinsi mənlik şüurunun (cinsi identikliyin) formalaşması prosesidir.

Sosializasiya evdə və məktəbdə cinsi əlamətə görə nəzərə çarpacaq qədər seçilir və nəticədə oğlanlara ailədə daha böyük azadlıq verilir, onların müstəqilliyi, hər şeyi bilmək istəyi və özünü uğurlarda və digər rəqabət şəraitində sınaqdan keçirməsi həvəsləndirilir. Bu cür sosializasiya modeli oğlanlarda özünütəsdiq imkanlarının genişlənməsinə və fəallığın artmasına səbəb olur. Sosializasiya prosesində qızlar oğlanlardan fərqli olaraq həvəsləndirilmir, fəallıq dairəsi məhdudlaşdırılır, tələblər davranışın düzgün olub-olmamasına yönəldilir və ciddi nəzarət həyata keçirilir ki, bu da qızların təcrübəsini çərçivəyə salır. Bir çox tədqiqatçılar göstərir ki, təcrübə qazanmaq və ətraf aləmlə qarşılıqlı əlaqədə olmaq imkanı fərdin koqnitiv inkişafının dərin strukturlarına təsir göstərir. İlkin yaşlarda əsası qoyulan və gələcəkdə koqnitiv inkişafa təsir göstərən üç əsas başlanğıcı ayırmaq və həmin başlanğıcları qızlarda və oğlanlarda müxtəlif xarakteristikaların formalaşmasına kömək edən sosializasiya sxemləri ilə bağlamaq olar. Sonrakı koqnitiv inkişafın mühüm dərəcədə asılı olduğu üç başlanğıc aşağıdakılardır:

1. ətraf aləmin onun hərəkətlərinə necə reaksiya verməsi ilə bağlı uşağın təsəvvürləri;
2. uşağın «təbiətlə eksperiment aparmaq» imkanı;
3. uşağın ziddiyyətli və təsdiq olunmamış təcrübəyə reak- siya verərkən istifadə etdiyi strategiyalar.

• Ətraf aləmin onun hərəkətlərinə necə reaksiya verməsi ilə bağlı uşağın təsəvvürləri. Göstərilir ki, əlavə münasibətlər təcrübəsinin mühüm koqnitiv nəticəsi vardır. Bir sıra tədqiqatlar uşağın ümumi inkişaf səviyyəsi ilə, davranışın məqsədyönlü tədqiqat davranışı ilə bağlılığı arasında əlaqənin olmasını aşkara çıxarmışdır. İnformasiya ilə əlaqədar istifadə olunan iş üsullarının və bununla şərtlənən sabit koqnitiv strukturların müəyyən dərəcədə uşağın fiziki və sosial aləmlə mümkün olan münasibətləri ilkin təcrübə- dən törəmə olduğu üçün uşağın

valideynlərlə qarşılıqlı əlaqələri qızların və oğlanların cinsi fərqlənməsinə səbəb olur. Əvvəllər, cinsi əlamətə görə differensial sosializasiyaya dair ədəbi məlumatı ümumiləşdirərkən qeyd etmişdik ki, qızlarla müqayisədə oğlanlar valideynlərin və müəllimlərin daha böyük diqqətinə nail olur: onlara daha çox fikir verilir; onlara daha həssas yanaşılır və onlara daha tez-tez həvəsləndirici, yaxud tənqidi göstərişlər edilir. Oğlanlara cinsi identikliklə bağlı daha güclü potensiala malik oyuncaqlar alınır və onlar daha ciddi oyunlarda iştirak edir. Oğlanların əldə etdiyi mümkün münasibətlərlə bağlı ilkin və daha zəngin təcrübə onların hərəkət motivinə müsbət təsir edir və onlarda aydın məqsədin inkişafına kömək göstərir. Bundan başqa, həmin təcrübə oğlanlara öz hərəkəti ilə ətraf mühitdə dəyişiklik yarada bilmək bacarığını dərk etməsinə imkan yaradır. Fərdiyyətin səmərəliliyinin (və səmərəlilik hissi) belə erkən dərk olunması şəxsi keyfiyyətlərin və koqnitiv əsasların formalaşmasına kömək edir və sonralar instrumental sərişt əlilik bundan asılı olur. Müəyyən edilmişdir ki, hazırda bizim mədəniyyətimizdə təcrübədən keçirilən sosializasiya üsulunda təsəvvürlər sisteminin inkişafında qızlarla müqayisədə oğlanlara daha çox kömək göstərilir və bu da onların üstünlüyünü və instrumental sərişt əliliyini təmin edir. Məsələn, altıncı, yeddinci və səkkizinci sinif şagirdləri ilə aparılan tədqiqat göstərmişdir ki, oğlanların qazandığı nailiyyətlərlə “Mən” obrazı arasındakı qarşılıqlı asılılıq qızlarla müqayisədə daha güclü ifadə olunmuşdur və yaş artdıqca bu kor- relyasiya güclənir, qızlarda isə zəifləyir. Bu müşahidə oğlanlar böyüdükcə onlara qazanılmış nailiyyətlərlə bağlı ictimai təzyiqin gücləndiyi barədə fərziyyə ilə də uzlaşır. Eyni zamanda sosial əlaqələr yaratmalı olan qızlara isə yaşıdların təzyiqi artır; buna görə də onların diqqəti təhsildə uğur qazanmağa yox, cəmiyyətdə münasibətlərin müəyyən olunmasına istiqamətlənir.

- «Təbiətlə eksperiment aparmaq» imkanı. Jan Piaje vaxtilə yazırdı ki, «hər dəfə uşağa vaxtından qabaq onun özünün öyrənə biləcəyi

bir şeyi öyrədərkən onu müstəqil kəşf imkanından və nəticədə həmin hadisəni tamamilə anlamaq imkanından məhrum edirlər». O, qeyd edirdi ki, uşağın təfəkkürü altı-yeddi yaşlarından başlayaraq yaşlıların nüfuzu, məcburiyyəti və əməkdaşlığı sayəsində sosiallaşmağa başlayır. Amerikan psixoloqları Daniel Siqel və Stiven Hokinq uşaqlarda reprezentativ təfəkkürün inkişafı zamanı valideynlərin «distansiya seçmək» bacarıqsızlığının hansı təsirə malik olduğuna diqqət vermişdilər. Onlar ehtimal edir ki, «distansiya seçimi»nin düzgünlüyü uşağın problemin həllinə aktiv cəlb olunmasına kömək edir və təcrübə və gözləməsi arasında onun həmin məqamda assimilyasiya edə bilmədiyi ziddiyətin ola biləcəyi ehtimalını artırır. Bu ziddiyyətlərin həlli üçün uşaq məsələyə baxımı dəyişdirməli, əvvəlki təsəvvürləri yenidən yoxlamalı və mühakimənin şəklini dəyişdirməlidir ki, bu zəmində yeni koqnitiv struktur inkişaf edir. Tədqiqatların təsdiq etdiyi kimi, uşağın böyüklərə yaxın olması heç də həmişə sosializasiya praktikasında problemin müstəqil həllini həvəsləndirmir, çünki böyüklər vaxtından tez, yaxud da həddindən çox onlara müdaxilə edir, bununla da uşağın müstəqil tədqiqat fəaliyyəti məhdudlaşır, aktiv oyunlar təşviq edilmir. Bu isə uşaqda koqnitiv inkişafın mahiyyətini təşkil edən koqnitiv təsəvvür və vərdişlərin formalaşmasına mane olur. Gender sosializasiyası prosesində valideynlər oğlanları tərbiyə edərkən onlarda hər şeyə maraq göstərmək meylini, müstəqillik və ətraf aləmin tədqiqini, bununla da, təcrübə üçün gərək olan koqnitiv strukturun inkişafında əsas şərt hesab edilən key- fiyyətləri və davranış tiplərini həvəsləndirirlər. Əksinə, qız valideynləri isə daha məhdud vasitələrlə tərbiyə (uşağın böyüklərin yanında olması, nəzakətli davranış gözləməsi, ciddi nəzarət və problemlərin həllində yardım) və s. daha çox diqqət yetirirlər. Buna görə də qızların ətraf mühitlə aktiv eksperimentlərdə iştirak etmək, ziddiyyətlə qarşılaşmaq və həll yolu tapmaq cəhdi ilə bağlı imkanları azdır.

• Ziddiyyətli təcrübəyə yönələn koqnitiv reaksiya strategiyası. “Koqnitiv assimilyasiya” və “koqnitiv akkomodasiya” anlayışlarına müasir inkişaf psixologiyasında geniş istinad edilir. Assimilyasiya prosesində yeni informasiya, yaxud təcrübə əvvəllər mövcud olan koqnitiv strukturlara daxil edilir, akkomodasiya prosesində isə əvvəlki təsəvvürlərlə üst-üstə düşməyən yeni informasiya, yaxud təcrübəni özünə daxil edə bilən yeni koqnitiv strukturlar yaranır, yaxud mövcud olanlar dəyişir. J.Piaje yeni təcrübəyə uyğunlaşmanın həmişə elə bil ki, bir əskinasın iki üzü olan assimilyasiya və akkomodasiyanı eyni vaxtda olmasını tələb etdiyini qeyd etsə də, bu iki koqnitiv strategiya bir-birindən seçilir. Hər bir şəxsiyyət təcrübi fəaliyyətdə bir-birini əvəz edən və ayrı-ayrı şəraitdə müxtəlif zaman ərzində hərəkətdə olan iş üsulundan istifadə edir. Buna baxmayaraq, informasiya üzərindəki işin hansı üsulunun – assimilyasiyanın yaxud akkomodasiyanın həmin insan üçün üstün, yaxud əsas olmasını araşdırmaq lazım gəlir. Assimilyasiya mövcud strukturları konservləşdirir və bunun üçün bəzən kreativ üsullardan istitfadə edir, keçmişin və gələcəyin ardıcıllığını təmin edir, mədəni və ailə ənənələrini və tarixi dəyərləri əbədiləşdirir. Akkomodasiya yeni, bəzən də lazım olmayan uyğunlaşma üsullarının yaranmasına səbəb olur, sosial yeniliklərə və mədəni dəyişikliklərə təkan verir. Əgər fərd üçün təcrübə nəticələri ilə bağlı hər iki iş üsulu əlverişlidirsə və əgər kontekst nəzərə alınaraq onlara müraciət etmək olarsa, problemin həllinin səmərəliliyi artır. Əgər ziddiyyətli informasiya üzərində işləyərkən real aləmin tələblərini nəzərə almadan bu strategiyalardan yalnız birinə arxayın olsaq, bu – koqnitiv disfunksiyanın meydana gəlməsinə səbəb olur. Yuxarıda irəli sürülən mülahizələr ailə mühitində oğlanla müqayisədə qızın daha strukturlaşmış və direktiv bir aləmdə böyüdüyünü təsdiq edir. Valideyn nəzarəti, tədqiqat fəaliyyətinin məh- dudluğu, ev işlərinin bölünməsi, valideynlərin yaxınlığında olmaq və problemlərin həlli ilə əlaqədar qıza daha tez-tez (və bəzən lazımsız)

kömək göstərilməsi – bütün bunlar qız üçün oğlanlarla müqayisədə daha sərt mühit yaradır. Qızın evdən kənardakı dünya ilə qaşılaşma imkanları az intensivliyi ilə seçilir və onlar oğlanlardan fərqli olaraq, qadağalara daha çox məruz qalırlar. Bu hər yerdə - qızların seçdiyi oyunların daha dəqiq strukturunun olmasından və oğlanların oyunlarından daha artıq dərəcədə nümunəyə, göstərişə və qaydalara tabe olmalarında da müşahidə olunur. Böyükyaşlı qızların xoşladığı oyunlar da daha çox strukturlaşmışdır və oğlanların oyunundan daha az improvizə tələb edir; oğlanların oynadıqları oyunlarda qeyri-tipik vəziyyətin öhdəsindən gəlmək və yaranmış şəraitin üstünlüklərindən tez bir zamanda istifadə etmək bacarığı rəğbətləndirilir. Oğlanların və qızların sosializasiya üsullarının müqayisəsi göstərir ki, qızların sosializasiyası zamanı yeni informasiyanın işlənməsi ilə bağlı assimilyativ strategiyalardan istifadə onları daha çox həvəsləndirir, oğlanların sosializasiyasında isə daha çox əvvəlki təsəvvürlə üst-üstə düşməyən giriş informasiyasının işlənməsi ilə əlaqədar akkomodativ strategiyalardan istifadə olunur. Ehtimal olunur ki, oğlanlarla müqayisədə qızlar koqnitiv assimilyasiyadan koqnitiv akkomodasiyaya daha tədricən keçir. Qadınlar qaydalara aid göstərişi yenidən icra edərkən, yaxud dəyişərkən tələb olunan koqnitiv problemlərin həlli zamanı daha aşağı nəticə nümayiş etdirir. Koqnitiv risklə bağlı olan vəziyyətlərdə davranışın qiymətləndirilməsi göstərir ki, qadınlar irəli sürdüyü mühakimədə kişilərdən daha konservativdir. Dostluq münasibətləri modeli ilə bağlı olan amilləri aşkar etmək məqsədi ilə aparılan tədqiqatlar qızlarda dostluğun əsasını psixoloji yönlü bənzərliyin təşkil etməsini, oğlanlarda isə belə olmadığını nümayiş etdirmişdi. Müəyyən vərdişlərə yiyələnən qızlar onlar üzərində, xüsusən də sosial dəstəyin mövcud- luğu şəraitində oğlanlardan daha çox işləməkdə davam edir. Digər tərəfdən, oğlanlar həll yolu axtararkən, həll olunmayan problemlərə daha çox vaxt sərf edir. Ehtimal edilir ki, yuxarıda təsvir olunan nəticələr (təsnifat zamanı kateqo- riyalar

üçün qadınların daha dar çərçivə müəyyən etməsi; mövcud qaydaları dəyişdirən zaman strukturun yenidən təşkilinə daha az meyilli olması; riskli hərəkətlə bağlı mühakimələrdə böyük konservatizm nümayiş etdirməsi; bən- zər psixoloji xasiyyəti olan dostlara üstünlük verməsi və artıq tanış olan vəzifələri həll etməyi üstün tutması) yeni təcrübə üzərində işlə bağlı assimilyativ üsulun üstünlüyünü nümayiş etdirir. Beləliklə, cinsi əlamətə görə differensial sosializasiya praktikası kişi və qadınların koqnitiv inkişafına çoxcəhətli təsir göstərir. Beləliklə, birincisi, kişilər və qadınlar mühüm dərəcədə fərqli psixoloji kontekstdə böyüyür və ikincisi, həmin kontekst kişi və qadınların sonrakı psixoloji fəaliyyətinə həlledici təsir göstərir.

Mühazirə 12. BÖYÜK YAŞLARDA GENDER SOSİALİZASİYASI.

Plan:

1. Ənənəvi qadın rolu ilə bağlı məhdudiyyətlər
2. Ишляйян гадынын ролла баьлы мцнагişəsi
3. Kişi gender rolu və ona daxil olan normalar
4. Müvəffəqiyyət/status norması
5. Möhkəmlik norması (fiziki, əqli, emosional möhkəmlik)

İstifadə edilmiş ədəbiyyat:

1. Çələbiyev N.Z. Ailə psixologiyası./Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı: “Mütərcim”, 2015.

2. Əfəndiyeva Ü.A. Əsrin gender konsepsiyası.Bakı, ADPU, 2017.

3. Ялизадя Я.Я. Ушаг вя йенийетмяляр: сексуал инкишафын психопедагоэикасы. Бакы: АДПУ-нун няшри, 2009.

4. Ялизадя Я.Я.Qadın psixologiyası (fəlsəfi-psixoloji esselər). Bakı, "Təhsil", 2015.

5. Zamanov A.D., Əliyeva H.İ. Sosial işin əsasları/ Dərslik. Bakı: “Təhsil işçisinin mətbəəsi” MMC, 2015.

6. Майерс Д. Социальная психология. Санкт-Петербург, 2000.

7. Шон Берн. Гендерная психология. Санкт-Петербург, 2001.

1.Ənənəvi qadın rolu ilə bağlı məhdudiyyətlər

Məlum olduğu kimi, гендер–мцряккяб сосиомядяни конструкт, киши вя гадынын сямиййят тяряфиндян йарадылмыш ролларында, давранышында, ментал вя емосионал хцсусиййятляриндяки фяргидир. Müasir dövrdə cəmiyyətdə gender rolları ilə bağlı müəyyən məhdudiyyətlər, problemlər də özünü göstərir. Bir çox sosial psixoloqlar hesab edirlər ki, ənənəvi gender rolları şəxsiyyətin inkişafını məhdudlaşdırır və sosial bərabərsizliyə gətirib çıxarır. Bu gün qadınların təhsil səviyyəsi yüksəlmiş, ictimai həyatda yeni tipli qadın obrazı formalaşmışdır. Onlar müxtəlif sahələrdə həkim, müəllim, mühəndis, menecer, rektor, məktəb direktoru, kafedra müdiri, dekan, deputat və s. kimi vəzifələrdə kişilərlə çiyin-çiyinə uğurla çalışırlar. Evdən kənarda işləmək, evlə, ailə ilə bağlı vəzifəni və uşaqlarla bağlı qayğının yükünü eyni zamanda çəkmək çox çətindir. Bununla əlaqədar eyni zamanda bir çox qadınlar ikiqat və ya üçqat yüklənmədən əziyyət çəkir, həm yaxşı ana, həm yaxşı evdar qadın, həm də yaxşı işçi olmağa çalışdıqları zaman stress və ya rol konflikti keçirirlər. Evdar qadınlar isə işləyənlərə nisbətən daha çox depressiyaya məruz qalırlar. Tədqiqatların nəticələri hələ də bir çox ölkələrdə qadınların hər bir sahədə, işdə, məvacibdə, statusda, cəmiyyətdə hakim mövqedə kişilərlə müqayisədə qeyri-bərabər olduğunu göstərir.

Kişi ilə qadının əmək haqqındakı fərqin səbəbinə həsr olunan bir çox tədqiqatlar mövcuddur. Məsələn, hətta qadın əhalisinin üstünlük təşkil etdiyi məşğulluq sahələrində belə, orta əmək haqqı kişi kateqoriyasına aid işçilərdə olduğundan aşağıdır. BMT məlumatına əsasən, Azərbaycanda əməkdaşların 81 faizinin qadınlar olduğu səhiyyə sahəsində orta əmək

haqqı kişilərin əmək haqqının 61 faizini, işçilərin 65 faizinin qadın olduğu təhsil sahəsində orta əmək haqqı kişilərin məvacibinin 79 faizini təşkil edir.

Kişi və qadınların məvacibi arasındakı fərqin üç geniş yayılmış izahı mövcuddur: birincisi, qadınların məvacibi ona görə aşağıdır ki, onlar özləri az ödənişli işi seçirlər; ikincisi, qadınların təcrübəsi və peşəkarlığı lazımınca olmadığı üçün bir işçi kimi daha az qiymətləndirilir. Üçüncüsü, belə ehtimal da mövcuddur ki, qadınlara onlar az qazanca razı olduğu üçün daha aşağı maaş verilir. Bu izahlardan hər birini ayrılıqda nəzərdən keçirək. Ənənəvi olaraq qadın əsasən «qadına aid» hesab olunan və ənənəvi olaraq «kişi» işi sayılan işdən daha az ödəniş verildiyi işlə məşğul olur. Kompensasiya fərqləri əsasında izah nəzərdə tutur ki, qadınlar az ödənişli olsa da, əvəzində daha yüksək əmək şə- raiti, daha yaxşı sosial iqlimi, başqalarına yardım etmək imkanı, daha çevik iş qrafiki yaxud daha çevik işi olan fəaliyyətə üstünlük verir. İşçi qüvvəsi cinsi əlamətə görə bölünür, yəni ixtisasların əksəriyyəti əsasən bu və ya digər cinsə məxsus olur. Məsələn, hamıya məlumdur ki, katibələrin 90 faizi qadın olur. Belə ki, Azərbaycanda mədəniyyət, tibb, təhsil və sosial müdafiə sahələrində çalışanların 60 faizini qadınlar təşkil edir. Ən yüksək siyasi və inzibati qurumlarda isə qadınlar çox seyrək təmsil olunmuşdur. Siyasi və inzibati sahələrdə qadınların sayı cəmi 30 faizdir və onların əksəriyyəti ən aşağı mövqelərdə çalışır. Parlament üzvləri arasında qadınlar 12 faiz, nazir vəzifəsində isə 9 faiz təşkil edir; 9 faiz bölgə inzibati orqanların başçısı vəzifəsini yerinə yetirir. Hüquq sistemindəki Azərbaycan qadınlarının cəmi 15,4 faizi qulluqçu vəzifəsində və yalnız 11 faiz isə səfir və konsul kürsüsünü tutur. Statistikaya görə, Nazirlər Kabi- netində qadınlar əsasən katibə və texniki işçilərdir ki, bu da orada işləyənlərin 83 faizini təşkil edir. Doğrudan da qadınlar ənənəvi olaraq kişilərə aid sayılan işlərdə çox seyrək şəkildə çalışır; və «qadın» işində məvacibin aşağı olması da doğru faktdır. Bu o deməkdirmi ki, qadınlar bu cür işi yüksək ödənişli «kişi»

işindən ona görə üstün sayır ki, onlar qadın üçün daha xoşagəlimlidir və paralel funksiyaların yerinə yetirilməsinə daha müvafiqdir? Statistik məlumatlara əsasən, bu heç də belə deyil. «Qadın» işində nə daha çevik qrafik, nə daha az gərginlik, nə də valideyn vəzifəsini yerinə yetirməyə yardım edən başqa bir şey nəzərdə tutulmur. Əslində isə hansısa bir ixtisas sahəsində qadınların çox sayda cəmlənməsi həmin işdəki daha az çevikliklə, müdiriyyətin daha dəqiq nəzarəti ilə və işin yerinə yetirilməsi ilə bağlı üsul və müddət seçimindəki daha məhdud müstəqil- liklə müşaiyət olunur. ABŞ-da aparılmış 1600 ixtisasın təhlili göstərmişdir ki, «kişi» işindən fərqli olaraq, «qadın» işi başqa, amma heç də daha yüngül olmayan iş şəraiti ilə səciyyələnir. «Qadın» ixtisasları daha çətin müştərilərlə işi, başqalarından qalan yarımçıq işi, mexaniki şəkildə təkrar olunan və daha az avtonomluğa malik işi (öz işini özünün idarə etmək hüququnun olmaması) nəzərdə tutur. Eyni zamanda həmin təhlildən məlum olur ki, xoşagəlməz iş şəraiti həm «kişi», həm də «qadın» fəaliyyəti sahələrində məvacibə neqativ təsir göstərir, çünki həmin xoşəgəlməz iş bir qayda olaraq, daha aşağı sosial statusa malik olan və pis iş şəraiti əvəzində maaşın artırılmasını tələb edə bilməyən insanlar tərəfindən yerinə yetirilir. «Kompensasiya fərqləri» konsepsiyası qadınların azödənişli işi seçdiyini ehtimal edir. Məsələ burasındadır ki, qadının «kişi» işinə gedən yolda qarşısına bir çox maneələr qoyulur. İşə götürərkən ayrıseçkilik həm qadının ənənəvi «kişi» işinə qəbul olunmaq istəyəndə, həm də kişinin ənənəvi «qadın» işinə düzəlmək istəyəndə baş verir. İşə götürənlər çox vaxt namizədin bacarığı barədə özlərinin həmin ixtisasda məhz kişi, yaxud qadının lazımi keyfiyyətlərə malik olması zənninə və stereotiplərə əsaslanırlar. Qadınlar özlərini onlara daha yaxın olan və daha yaxşı bildiyi «qadın» işlərində daha yaxşı hiss edirlər. Statistik tədqiqatlar da göstərir ki, əgər qadın qadına aid olmayan» işlə məşğul olarsa, insanlarla münasibətindən neqativ nəticələr gözləyir, çünki həm kişi, həm

də qadın hesab edir ki,«kişi» sənəti qadını romantik şərəfdən məhrum edir və onun cəlbediciliyini azaldır. Ola bilər ki, qadın onu iş yerində gözləyə biləcək xoşagəlməz psixoloji şəraiti qabaqcadan hiss etdiyi üçün «kişi» işindən qaçır.

Bəzi tədqiqatçılar belə hesab edir ki, kişi kollektivində adətən, qadınlara fikir verilmir, onların peşəkar keyfiyyətləri aşağı qiymətləndirilir, səhvləri şişirdilir, onlara münasibətdə ikili standart tətbiq edilir. Qadınların bu və ya digər, xüsusilə, özəl fəaliyyət sahələrində işə qəbulunda süni əngəllər yaradılır, onlara yaş senzi tətbiq olunur. Bir çox şirkətlərdə 25-30 yaşdan yuxarı qadınların işə qəbulu məqbul hesab edilmir.

Kişi və qadınların müxtəlif xidmət sahələrində bölünməsində qeyri-müvafiqliyi izah edən geniş yayılmış fikirlər “insan kapitalının qiymətləndirilməsi prinsipi”nə əsaslanır. Bu prinsipə əsasən, fərdin öz işinin əvəzində aldığı mükafat onun təhsilə və peşəkar hazırlığa qoyduğu sərmayədən asılı olur. Hesab olunur ki, qadınlar ona görə daha az qazanır ki, onların bacarığı daha azdır, onlar daha aşağı təhsil almışlar, yaxud daha az təcrübəyə malikdirlər və nəticədə daha aşağı dəyərə malik işçidirlər. Qadınlar az maaş alacaqlarını əvvəlcədən bilir və buna qane olurlar. Odur ki, qadın az alacağını əvvəlcədən bildiyinə və buna qane olduğuna görə, demək ona həmin ixtisasdan olan kişi ilə müqayisədə daha az maaş da təklif olunur. Tədqiqatların birində müəyyən edilmişdir ki, sahibkar rolunda çıxış edən iştirakçılar iş yerinə iddia edən namizədlərə onların gözlədiyi maaşı təyin edirdilər: kim az maaş gözləyirdisə, ona daha yüksək məvacib iddiasında olan həmin ixtisasdan olan işçi ilə müqayisədə daha aşağı maaş təklif olunurdu. Belə məlum oldu ki, hətta kişi və qadınların daha yüksək maaş iddiasında olduğunu bilmədikləri şəraitdə belə, qadınlar daha aşağı məvacib tələb edirdi. ABŞ alimləri Con Meycor və K.Forsi yenicə karyera qurmağa hazırlaşan gənclər arasında sorğu keçirərək müəyyən etmişlər ki, qızlar özlərini oğlanların almaq istədiyi

məvacibdən daha az əmək haqqına layiq hesab edir. Biznes sahəsində ixtisaslaşan ali təhsil müəssisələri tələbələri arasında da gələcək məvaciblə bağlı mühüm fərq müşahidə olunur. ABŞ alimin C.Jekson və onun həmkarları müəyyən etmişlər ki, gələcək fəaliyyət sahəsindən asılı olmayaraq, kollecdə yuxarı kurslarda təhsil alan tələbə qızlar qrup yoldaşları olan oğlanlarla müqayisədə gələcək qazancları ilə əlaqədar daha az məbləğə qane olurlar.

“Şüşə tavan” fenomeni. Karyerada yüksəliş əldə etmək istəyən qadınlar çox vaxt «şüşə tavan» hadisəsi ilə üzləşir. Bu metafora təşkilatlarda sanki qadının ondan o yanayüksələ bilmədiyi gözəgörünməz tavanın olması faktını ifa- də edir. Bu termin ilk dəfə ABŞ-ın Əmək naziri Linn Martin tərəfindən təklif olunmuşdur. Onun qənaətinə görə, təşkilatların daxilində «şüşə tavan» işçilərin vəzifə pilləsi ilə irəliləməsinə və öz təşkilatlarında rəhbər vəzifə tutmasına imkan verməyən süni maneədir. İxtisaslı qadınlar və azlıq nümayəndələri çox vaxt həmin tavanın altında qalaraq, oradan digərlərinin vəzifə pilləsi ilə necə irəlilədiyini müşahidə edirlər. Qadının lider rolu və rəhbər iş üçün yararsız hesab olunmasının səbəbi yəqin ki, onun cəmiyyətdə hökm sürən stereotiplər əsasında qəbul olunmasıdır. ABŞ alimləri Edqar Şeyn və Culian Müller öz tədqiqatları ilə Birləşmiş Ştatlarda, Almaniyada və Böyük Brijhgtaniyada kişilərin bu stereotiplərə eyni səviyyədə riayət etdiyinin şahidi olmuşlar. Onlar həmçinin aşkar etmişlər ki, alman qadınlar da alman kişilərindən az olmayaraq rəhbər vəzifəni «kişi» işi hesab edir. Böyük Britaniyanın qadınları alman qadınları qədər olmasa da, rəhbər vəzifələri kişiyə aid edirlər. Amerikalı qadınlar isə əksinə, hər iki cinsin işə rəhbərlik üçün vacib olan keyfiyyətlərə eyni dərəcədə malik olduqları düşüncəsinə sahibdirlər. Bir çox insanlar qadının emosional və qətiyyətsiz (lider üçün olduqca xoşagəlməz kefiyyət) olması fikrinə tərəfdar çıxırlar. Biznes sahəsində ixtisaslaşanlar qadın rəhbərə yumşaq xasiyyət, insanlara qarşı diqqətcillik

və asılılıq kimi cəhətləri aid edir, digərləri isə göstərir ki, bu cəhətlər pis rəhbər obrazı ilə identikdir. Əksinə, sərt və rəqabətə meylli rəhbərlik tərzi kişilər üçün səciyyəvi hesab edilir. Bəzi tədqiqatçılar təsdiq edir ki,«yaxşı menecer» və «tipik kişi» stereotipləri bir çox halda üst-üstə düşür. Onlar göstərir ki, yaxşı lider məqsədə doğru gedən, insanlarla ünsiyyət qurmağı bacaran və onlara layiqincə qiymət verə bilən liderdir ki, bunlar da əsasən qadınlar üçün tipik xüsusiyyətlərdir. Alimlər aşkar etmişdir ki, uğur qazanan liderin davranışına ilk növbədə qadın davranışı üçün səciyyəvi olan əlamətlər də daxildir. Lider kişi stereotipi əsl liderin rolunu daraldır və rəhbərin müvəffəqiyyətli fəaliyyəti üçün mühüm olan bir çox keyfiyyətləri nəzərə almır.

Müasir cəmiyyətdə qadının ev və ailə ilə bağlı vəzifələri də onlara karyera pilləsi ilə yüksəlişinə mane olur. Qadının evdəki vəzifələri onun vəzifə pilləsi ilə irəliləməsindən ötrü işinə əlavə güc sərf etməsinə imkan yaratmır. Qadın üçün rəhbər olmaq çətindir, xidməti ezamiyyətlər, görüş və konfranslar, ailəyə və uşaqlara qayğı onun vaxtını çox alır. Ona görə də, əksər qadınlar bilərəkdən daha aşağı karyera perspektivi olan işi seçir ki, bu onlara evdə böyük problem yaratmasın. Bu ehtimal sosial psixologiyada “şəxsi seçim hipotezi” adını almışdır. Bir çox tədqiqatlar təsdiq edir ki, həqiqətən qadın rəhbərlər arasında rəhbər vəzifə tutmayan qadınlarla müqayisədə ailəsiz olanlar daha çoxdur.

Müasir gənc qadınlar Azərbaycan reallığında karyera yüksəlişi sahəsində bir çox stereotiplərdən asılı olaraq daha məhdud təhsil - ən yaxşı halda ali təhsil ilə kifayətlənməli olurlar. Onlar illər keçdikcə yaşlarının artması və buna görə də nikah yaşı keçdiyi üçün “evdə qalmaq” təhlükəsindən ehtiyyatlanır və karyera pilləkənləri ilə irəliləmək üçün təhsil səviyyəsini artırmaq sahəsində patriarxal düşüncədən irəli gələn maneələrlə üzləşirlər.

2. Ишляйян гадынын ролла баьлы мцнагişəsi

Bizim dövrümüzdə ənənəvi qadın rolunun məruz qaldığı mühüm məhdudiyyətlərdən biri də işləyən qadının ev qayğılarını və uşaqlarla bağlı məsuliyyəti öz üzərində daşımaq məcburiyyəti ilə qarşılaşmasıdır. Evdən kənarda iş gününü başa çatdıran qadın evə gələndən sonra ikinci iş gününə başlayır. Bu «ikinci iş günü» kişi və qadınlarda «istirahət vaxtındakı qırılma»nın əsas səbəbini təşkil edir. Tədqiqatlar kişilərin son 10 il ərzində təsərrüfata sərf etdiyi vaxtın əhəmiyyətli dərəcədə artdığını göstərsə də, statistikaya görə, işləyən qadın əvvəlki kimi orta hesabla ev işinin 69 faizini özü yerinə yetirir. Qadının işə sərf etdiyi vaxtın artması onun evdəki vəzifəsinin azacıq dərəcədə ixtisar olun- masına gətirsə də, uşaqlarla bağlı sərf olunan (uşaqların məktəbə hazırlanması, həkimə baş çəkmək və s.) vaxtın həcmi tamamilə dəyişməz olaraq qalır. Tədqiqatçılar bu nəticəyə gəlmişlər ki, qadınlar evdə orta hesabla kişilərdən iki dəfə çox iş görür. Onlar ev işlərinə orta hesabla həftədə 33 saat vaxt sərf etdikləri halda, kişilər üçün bu vaxt sərfi 14 saatdır. Araşdırmalarda təsdiq olunur ki, ev işi sırf «cinsi mənsubiyyət»ə görə bölünür, özü də «qadın» işləri – bir qayda olaraq, hər gün, müəyyən saatlarda yerinə yetirilməli olan işdir (yemək hazırlamaq, səliqə-səhman, yaxud qab yumaq), «kişi» işi isə (bağçada iş görmək, evdə nəyisə təmir etmək) vaxtını daha azad bölüşdürməyə imkan verir.

Ailədənkənar işlə həddindən çox məşğul olmaq ənənəvi qadın roluna uyğun gəlmir, buna görə də işləyən qadın çox zaman narahatçılıq keçirir, ailəyə, ev işlərinə lazımınca vaxt ayıra bilmədiyinə görə, özünü günahkar hiss edir. 1963-cü ildə Amerikan alimi Betti Fridanın «Qadının xüsusi istedadı» kitabı çapdan çıxdı. Fridan «qadının xüsusi istedadı» söz birləşməsindən istifadə etməklə, qeyd edirdi ki, şəhər kənarında yaşayan amerikalı ev xanımının sosial cəhətdən təminatlı və uğurlu qadın olması ilə bağlı təsəvvür düzgün deyildir. Fridan qeyd edir ki, çətinlik bir çox qadınların həyatdan narazı olduğu və bundan sıxıntı çəkməsindən

ibarətdir, axı onlar bəxtinin nə qədər gətirdiyini hiss etməli olduqlarını bilirlər. Obrazlı deyilsə, «ailə ocağının mühafizəçiləri» olan qadınlarla apardığı söhbətdən Fridan aydın etdi ki, arzusu yalnız həyat yoldaşı və ana olmaq olan qadınlar belə, həyatından heç də tam məmnun deyillər. Onun əldə etdiyi məlumatlara görə, əsas problem qadının başqalarının ehtiyacına xidmət etməsində, öz şəxsiyyətinə isə malik ola bilməməsindədir. Bəli, onların oynadığı rol vacibdir, çünki bu rol onların uşaqlarına və ərinə həyatda nəyəsə nail olm- ağa imkan verir; amma "başqaları üçün yaşamaq" heç də sənin özünün də yaşamağın demək deyildir. Buna baxmayaraq, hesab edilir ki, elə bu qadınlara xas olan «xüsusi istedad», qadın varlığının zirvəsidir. Fridanın sözlərinə görə, «ailə ocağının mühafizəçisi» rolu ilə bağlı başqa bir problem ondan ibarətdir ki, ev xanımı "avtomobilin yük yerindən atılan" gərəksiz əşyalar kimi insanların həyatındakı ən mühüm hadisələrdən kənarda qalır və özünü mükəmməl insan hesab edə bilmir. Bu problemə münasibət bildirən Betti Fridan yazırdı: «Sevgi, uşaqlar və ev – yaxşı şeydir, amma qadın üçün yazılan sözlərin əksəriyyətində belə deyilsə də, bu heç də bütün dünya demək deyildir». Fridanın kitabı təxminən 60 il əvvəl çap olunsa da, müəyyən dərəcədə «qadının xüsusi istedadı» barədə təsəvvür və bununla bağlı olan problemlər bu gün də yaşamaqda da- vam edir. Azərbaycanlı ailəsində qıza öyrədirlər ki, o özünü layiqli aparmalı, yaxşı davranış tərzinə malik olmalı, hər şeylə razılaşmalı, mehriban olmalıdır, çünki məhz qız ənənə və etik normaların daşıyıcısıdır. Qızlara asılılıq, qeyri- müstəqillik təlqin olunur, oğlanlara isə müstəqillik və məqsədə doğru irəliləmək, güclü iradə, iddiaçılıq rəğbətlə qarşılanır; təcavüzkarlığa və emosiyalarını boğmamağa icazə verilir. Adətən ənənəvi Azərbaycanlı ailəsində ana qızı oğlandan daha çox nəzarətdə saxlayır.

Yeganə rolu ev xanımı olan bir çox qadının keçirdiyi frustrasiya vəziyyətini 1997-ci ildə K.Tavris xüsusi "ev sahibəsi sindromu" adlanan

terminlə ifadə etməyə təşəbbüs göstərmişdir. O, qeyd edirdi ki, ev xanımları çox vaxt öz sosial izolyasiyasını hiss edir, hərəkət azadlığının məhdudluğu, şəhərdən kənardakı həyat, ətrafda işləyən qadınların olması və kiçikyaşlı uşaqların müntəzəm diqqət tələb etməsi kimi amillər həmin hissi daha da gücləndirir. İstehsalatda işləyən qadınların sayının artması evdə qalanların bayramvari və qayğısız həyat keçirdiyi barədə cəmiyyətdə geniş yayılmış təsəvvürü möhkəmləndirir və ev işlərinin bu cür aşağı qiymətləndirilməsi ev xanımlarının həyatdan narazılığını daha da artırır. Yəqin buna görə də, bəzi tədqiqatçılar hesab edir ki, ev xanımlarının özünüqiymətləndirmə səviyyəsi işləyən qadınlarla müqayisədə daha aşağıdır. Bəzi tədqiqatlarda hətta evdə oturan qadının depressiyaya istehsalatda işləyənlərdən daha çox uğraması təsdiq olunur. Çünki onların işi daha yeknəsəkdir və az qiymətləndirilir, razılıq mənbəyi isə yalnız birdir. ABŞ alimi T.Krouz yazırdı ki, nə vaxtsa qadın rolunu qeyri-ənənəvi başa düşən, lakin ənənəvi dünyagörüşə malik kişiyə ərə gedən ev xanımları öz rolundan daha çox narazıdır və həmişə ənənəvi etiqada malik olanlardan daha tez depressiyaya uğrayır. Digər Amerikan alimi Perri-Censkins isə qadının evdəki vəzifəsi və işindən razılığı ilə onun bu rola verdiyi qiymət arasında birbaşa asılılığın olduğunu söyləyir. Məsələn, öz gəlirinin ailə üçün ərinin qazancı qədər vacib olduğunu hesab edən qadın onun gəlirinin ikinci dərəcəli əhəmiyyəti olduğunu görən, yaxud onun gördüyü işin lazımlığına əmin olmayan qadınlarla müqayisədə həyatından daha çox razı olur. Ev xanımı rolunun qadına necə təsir göstərdiyi barədə bir çox alimlərin fikri müxtəlifdir, lakin psixoloqların əksəriyyəti pul qazanan qadının evdə daha böyük hakimiyyətə malik olması ilə razılaşır. Ailədə hakimiyyət nəzəriyyəsinə görə, daha böyük iqtisadi imkana malik olan ər, yaxud arvad həmin səviyyədə də hakimiyyətə malik olur. Ev xanımının ərindən maliyyə asılılığı onu evdə daha az nüfuzlu fiqura çevirir, çünki pul «onun» puludur və «əsil» işlə məşğul olan yeganə şəxs də odur. Çünki

qadının evdəki zəhməti ödənmir; insanlar onu ödənişli zəhmətlə müqayisədə daha az dəyərə malik sayırlar. İşləyən arvadın ailədə evdə oturandan daha yüksək hörmətə malik olduğunu təsdiq edən bir neçə tədqiqat əsəri mövcuddur. E.Erikson və həmkarları bu nəticəyə gəlmişlər ki, nüfuzlu ixtisasa malik ərlər ailə həyatında öz dediyinin üstündə durmağa meyilli olur. Ailədə cinslərin bərabərsizliyi ailədən kənarda analoji qeyri- bərabər şəraitin formalaşmasına təsir göstərir.

3. Kişi gender rolu və ona daxil olan normalar

Kişilər də həmişə ənənəvi kişi rolunun yaratdığı və dəstəklədiyi çətinlik və məhdudiyyətlərlə qarşılaşırlar. Tədqiqatçılar hesab edir ki, müasir psixologiyanın əsasını kişi psixologiyası təşkil edir, çünki norma olaraq kişi davranışı araşdırılmışdır və uzun müddət tədqiqatlarda yalnız kişilər iştirak etmişdir. Buna baxmayaraq, psixologiya praktiki olaraq heç vaxt kişilərin gender mənsubiyyəti ilə bağlı spesifik duyğularına müraciət etməmişdir. Kilmartin kişi psixologiyasının öyrənilməsinin vacibliyini göstərən səbəbləri belə şərh edir:

1. Bütövlükdə kişilər qadınlardan daha artıq nüfuza malik olsa da, bu nüfuzdan məhrum olan kişilər də vardır və sərt kişi sosiallaşması onlara yalnız zərər vurmuşdur.

2. Güclü qadınla ünsiyyətdə olan kişi bəzən ciddi sıxıntı hiss edir. Uşaq yaşlarından oğlanlar o etiqadla böyüyür ki, məhz o, güclü və hökmlü olmalıdır, buna görə də güclü qadın kişi başlanğıcı üçün təhlükə kimi qəbul olunur. Bu zid- diyyət öz həllini tələb edir, çünki güclü qadınların sayı gün-gündən artmaqdadır.

3. Kişidə ətrafdakılarla qarşılıqlı münasibətin keyfiyyəti o səbəbdən zərər çəkir ki, bu münasibətlər insanın ehtiyacı – əsas emosiyaların ifadəsi üçün yer tapılmayan çərçivədə baş verir.

Psixoloqlar qadının rolunu yalnız feminist hərəkatın cəmiyyətin diqqətini qadının aşağı sosial statusuna cəlb etdiyi XX əsrin ortalarından sonra öyrənməyə başlamışlar. Son bir neçə ildə kişinin oynadığı rol da tədqiqatçıların diqqət mərkəzində qalmaqdadır. Kişi rolu da qadın gender rolu kimi modeli müşahidə etməklə, mədəni kanallar vasitəsi ilə, məsələn, kütləvi informasiya vasitələri ilə mənimsənilir. Rolun daşıyıcıları müntəzəm normativ və informativ təzyiq altında olur. Tarix boyu kişilərin başı onlara «kişiliyin» nə olduğu barədə bilik verən sosial informasiya okeanına qarışmışdır (informasiya təzyiqi); cəmiyyət onları genderə müvafiq davranışına görə həvəsləndirməkdə və rol normaları çərçivəsinə yerləşməyən kiçicik bir hərəkətə görə isə cəzalandırmaqdan yorul- mur (normativ təzyiq). Kişinin davranışı onun mədəniyyətdən qanına hopmuş kişilik bərədə təsəvvürünə əsaslanır. Əsil kişinin necə olması haqqında etiqad və təsəvvürlər „kişilik ideologiyası“ adlandırılan dieoloji baxışlara söykənir. Bu ideologiya əslində gender rolu adı ilə tanınan sosial normalar toplusundan başqa bir şey deyil. ABŞ alimləri Tompson və Plek kişi rolunu «kişilərin nə hiss etməli və nə etməli olduğu barədə göstəriş və qadağalardan ibarət sosial normalar» kimi müəyyən etmişlər. 1986-cı ildə kollecdə oxuyan oğlan tələbələr arasında tədqiqat aparan Tompson və Plek müəyyən etmişlər ki, həmin rol normalarının strukturu 3 amildən yaranır:

- Birincisi, sosial toplumda kişilər xüsusi status və başqalarının hörmətini qazanırlar. Müvəffəqiyyət/statusu norması – kişinin sosial dəyərinin onun qazancı və işdəki müvəffəqiyyəti ilə müəyyən olunduğunu təsdiq edən gender stereotipini möhkəmləndirir.
- İkinci amil möhkəmlik norması olub, kişidən əqli, emosional və fiziki cəhətdən möhkəm olmaq gözləntilərini əks etdirir.

• Üçüncü amil kişinin stereotip qadın məşğuliyyətlərindən və qadına aid olan fəaliyyət növlərindən uzaq olması kimi gözləntilərdir ki, bu, (antiqadınlıq norması) adlanır.

4. Müvəffəqiyyət / status norması

Müvəffəqiyyət/status norması dedikdə kişinin sosial dəyərinin onun qazancı və işdəki müvəffəqiyyəti ilə müəyyən olunduğunu təsdiq edən gender stereotipləri nəzərdə tutulur. Ş.Bern və A.Lever böyükyaşlı kişi və qadınların kar- yeraya can atması ilə əlaqədar təəccüb doğuracaq qədər maraqlı faktlar aşkar etmişlər. Onların əksəriyyəti çoxlu pul qazanmaq iddiasında olduqlarını bildirmişlər. ABŞ tədqiqatçısı Cim Devis gündəlik qəzetlərdə tanışlıqla bağlı dərc olunan elanların təhlilini aparmışdır. O, müəyyən etmişdir ki, kişilərdən fərqli olaraq, qadınlar gələcək namizədin işi və maliyyə vəziyyəti ilə xüsusiylə maraqlanırlar. Romantik görüşlər, kişinin qadını pulla təmin etməsi, onun xərclərini qarşılaması üçün o, həmişə işləməli, pul qazanmalı cəmiyyətdə müəyyən mövqe tutmalıdır. Kişilər üçün bir çox məhdudiyyətlər də həmin norma ilə bağlıdır. Birincisi, kişilərin əksəriyyəti 100 faiz buna müvafiq gəlmir və bu səbəbdən də aşağı özünəqiymətləndirməyə malikdirlər.

Buna oxşar qənaətlərə U.Kimmelin tədqiqatlarında rast gəlmək olar. O yazır ki, kişilər “kişilik” anlayışını zənginlik, hakimiyyət və cəmiyyətdə mövqe ilə eyniləşdirilər: kimin çox pulu varsa, o udmuşdur. Ancaq özünü inamlı hiss etmək üçün çox az kişilərə kifayət qədər pul, hakimiyyət və cəmiyyətdə hörmət nəsib olur. C.Klimartin isə qeyd edir ki, ənənəvi kişi rolunu daşıyan kişilərin heç biri ölçü bilmir və sahib olduqlarından belə zövq ala bilmirlər. O, həmişə işin vaxtını və ölçüsünü artırmalıdır və belə həyat tərzi çox vaxt fizioloji, psixoloji simptomlara səbəb olan stresslərə nəticələnir. K.Messiner isə qeyd edir ki, hələ cavanlıqda kişi idman uğurları ilə özünə status qazanmalıdır. Problem ondadır ki, bir çox kişilər idmanda çox da güclü deyildir, güclü olanlar da

həmişə öz statuslarını davamlı təsdiq etməlidirlər. Çünki, oyunçunun gücünə qiymət həmişə məhz axırıncı oyuna görə verilir.

Cəmiyyətin kişinin qazancına xüsusi diqqət verməsi də tarixi səciyyə daşıyır və bu, həm də onun özünü aktuallaşdırmasına da təsir göstərən güclü stimuldur. Bu, kişiyə özünün potensial imkanlarını reallaşdırmaq üçün motiva- siya olunmağa imkan yaradır. Kişilər elə iş və karyera seçməyə meyillidirlər ki, ona daha yaxşı qazanc əldə etməyə imkan versin. Lakin həyati reallıq göstərir ki, çox vaxt gənclərin seçdikləri gələcək peşələri xoşlarına gəlmir və ondan ehtiyat edir, bir çoxu peşələrini dəyişir, bəziləri isə oxumağa davam edirlər.

Bütün dünyadakı atalar daha çox iş yerində və ondan kənarda olduqlarına görə, öz övladları ilə az vaxt keçirməyə məcburdurlar. Məsələn, “kişilik” anlayışı müəyyən mənada “özünü tamamilə işə həsr etmək deməkdir” düşüncəsinin hakim olduğu müasir Yaponiyada atalar iş günləri öz uşaqları ilə 3 dəqiqə, bazar istirahət günləri isə 19 dəqiqə vaxt keçirirlər.

Amerika Birləşmiş Ştatları qara dərili kişilərin işsiz olmaları göstəricilərinə görə dünyada ilk yerləri tutur ki, bu da həmin insanların təhsilinin aşağı səviyyədə olması, irqi diskriminasiya, texnoloji təkmilləşmə nəticəsində istehsalatda aztəminatlı iş yerlərin ləğv olması ilə izah edilir

Müasir Amerika cəmiyyətində idman afroamerikanların iqtisadi uğur qazandığı bir sahədir. Bir çox qaradərili kişilər amerikan mədəniyyətində dominantlıq edən kişilik haqqında təsəvvürləri qəbul etmişlər. Onların nəzərində kişi pul qazana bilən, gücə malik olan, qadınları özünə tabe edə bilən güclü cinsin nümayəndəsidir. Bu qabiliyyətlərə malik olmadıqda, onlar öz gender mənsubiyyətini “kompensiv kişilik”lə sübut etməyə çalışırlar. Buraya emosional və fiziki cəhətdən möhkəmlik, tabe etmək və risklə bağlı davranış daxildir.

ABŞ alimi İon Berp “kompensiv kişiliyi”, “kompensator kişilik” (əvəzləyici kişilik xüsusiyyəti) hesab edir, onun da əsas vəzifəsi peşə və kommersiya dairəsində uyğunsuzluğu kompensasiya etmək hissi ilə bağlıdır. Kompensator kişilik kişinin ümumi qəbul olunmuş kişilik standartının uyğunluğunu kompensasiya etmək məcburiyyəti ilə bağlı olan keyfiyyətlərinin birliyidir.

Moyars və Billsau yazırdılar ki, “kompensator kişilik” çox vaxt “dikbaş” olmaq arzusunu ifadə edir. Dikbaşlıq kişiyə insanların şüurunda öz kişiliyini möhkəmləndirməklə, ona iftixar, güc, nəzarət hissi verir. Belə ki, ətraf aləmdə özünü emosiyasız, qorxusuz, tənha adam kimi göstərərək, bu maska altında özünün zəif daxili nəzarət hissini, daxili gücünün çatışmazlığını, stabilliyini, qürurun olmamasını, özünə qarşı qırılmış inamını, “kövrək sosial kompetentliyi gizlətmək imkanı verir. Plekin fikrinə görə, əgər kişi gender rolunun aspektlərinə uyğun gəlmirsə, başqa sahədə şişirdirmiş kişilik nümayiş etdirir və bununla da özünün iflas olmasını, çarəsizliyini kompensasiya edir.

5. Möhkəmlik norması (fiziki, əqli, emosional möhkəmlik)

Möhkəmlik norması kişilərdə bir neçə formada olur: fiziki, əqli, emosional.

Fiziki möhkəmlik norması. Fiziki möhkəmlik norması kişidən fiziki güc və kişilik gözləntisidir. Trenojer zalları əzələ kütləsini artırmaq, güclü olmaq üçün gələn kişilərlə doludur. Fiziki cəhətdən güclü olmayan kişilərin özünüqiymət- ləndirməsi aşağı olur, bu da onları arzu olunan fiziki möhkəmliyə çatmaq üçün, hətta sağlamlıq üçün zərərli metodlara əl atmağa məcbur edir.

Buna ən geniş yayılmış nümunə - əzələ kütləsinin və gücünü artırılması üçün steroidlərdən və stimulyatorlardan geniş istifadə olunmasıdır. Steroidlərin nəzarətsiz istifadə olunması həm emosional

sahədə yan təsirlərə, həm də oy- naqların zədələnməsinə, ürək, hətta onkoloji xəstəliklərə gətirib çıxardır. Steroidi qəbul edən kişilər bu təhlükələr haqqında eşitsələr də, onlar yenə steroidlərdən özlərini fiziki standartda uyğunlaşdırmaq üçün dəyişməz bir vasitə kimi istifadə edirlər.

Steroidlərin istifadəsindən də daha çox geniş yayılmış bir problem var ki, bu da fiziki halsızlıq zamanı ağrının olmasını inkar etmək və tibbi yardımdan imtina etməkdir. Bu xüsusiyyətdə kişilərin qadınlara nisbətən az yaşamasını əsas səbəblərdən biridir.

Fiziki möhkəmlik norması – kişinin fiziki gücə və yüksək bioloji aktivliyə malik olmasına əsaslanan kişilik stereotipidir. Fiziki möhkəmlik çox vaxt zorakılığa qədər gətirib çıxara bilər. Sosial situasiyaya görə, aqressiyadan yan keçmək kişilikdən deyil. Ətrafdakılar belə situasiyalarda kişini qorxaq və cəsarətsiz biri kimi qiymətləndirə bilərlər. Kişilər öz kişiliklərini, mərdliklərini güc yolu ilə nümayiş etdirməyi xoşlayırlar. Başqa sözlə desək, zorakılığın kökündə kompensator kişilik dayanır. Zorakılıq başqa sahələrdə köməksiz olan kişilər üçün özünü güclü hiss etməyin yeganə üsuldur. Bu deməkdir ki, “Mən iqtisadi planda uğursuz olsam da, kişiyəm”.

Psixoloqlar Meyeers və Bilsona görə, ümumi qəbul olunmuş uğur qazanmaq yollarını əldə edə bilməyən kişilər özlərini daha asan olan zorakılıq yolu ilə təsdiq etməyə əl atırlar. Qadın üzərində zorakılıq kompensator kişiliyə aid olan xüsusiyyətlərdən biridir. Özünün gücsüzlüyünü hiss edən kişi qadın zorakılığına əl atır və bununla o öz gücünə inam, hakimiyyət və üstünlük əldə etməklə, özünütəsdiqə təşəbbüs göstərir ki, döyüşkən kişilər çox vaxt aşağı özünüqiymətləndirməyə və aşağı sosial - iqtisadi statusa malik olsalar, bu, qadınlar üzərində zorakılığın əsas səbəblərindən birinə çevrilir və onu motivləşdirir.

Kimmerrel “möhkəmlik norması” ilə bağlı olan destruktivlikdən bəhs edərək yazır: "Hər şeyi cəhənnəmə vasil elə və irəli!”. Bu norma kişiləri öz kişiliyini nümayiş etdirmək üçün ağılsız, riskli və aqressiv hərəkətlər etməyə sürükləyir. Kimmerel sübut etmişdir ki, məişət zorakılığı və kişilərin xəstəliklərə, stresslərlə, içkili vəziyyətdə avtomobil idarə etməyə, bədbəxt hadisələrdən ölməyə meyilli olması onların riskə hipertrofik yanğısı ilə bağlıdır.

Əqli möhkəmlik norması. Kişilərlə bağlı stereotiplər göstərir ki, onlar nəyisə bilmədikdə, bunu çətinlikdə boyunlarına alırlar və məsləhət almamağı, soruşmamağı üstün tuturlar. Bunun əsasında kişinin peşəkar, səriştəli, bilikli olması gözləntisi ilə bağlı olan əqli möhkəmlik norması dayanır. Bu, yüksək sərişt əlilik modelinə uyğun gəlmək üçündür. İnsan başa düşəndə ki, nəyisə bilmir, başa düşmür – belə vəziyyətlərdən təlaş və həyəcan keçirir. Həyəcan o zaman xüsusilə intensiv olur ki, kişi ətrafdakılar onun nadan olması haqqında düşünür, onu ələ salır, istehza və lağ obyektinə çevirirlər.

Əqli möhkəmlik norması şəxsiyyətlərarası münasibətlərdə böyük problemlər yaradır. Belə ki, bu normaya uyğun gəlməyə çalışan kişi, çox vaxt başqalarını alçaltmaq, təhqir etmək yolu ilə özünün hamı- dan çox bildiyini nümayiş etdirməyə çalışır, öz gücsüzlüyünü və zəifliyini aqressiya ilə kompensasiya etmək cəhdi göstərir.

Emosional möhkəmlik norması. Bu norma göstərir ki, kişi emosional cəhətdən möhkəm olmalıdır, hissə qaplmamalı, psixoemosional tarazlığını itirməməli, öz emosional çətinliklərini ətrafdakıların köməyi olmadan həll etməlidir. Bu norma kişilər və onların yaxınları üçün ciddi problemlər doğurur. Tədqiqatlar göstərir ki, qadınlara nisbətən kişilər heç də az emosional deyillər, ancaq öz ənənəvi gender rollarına görə, daha az ekspressiv ola bilərlər. Kişilərə çox vaxt sosial

qəbul olunmuş emosiyaları zalımlıq, qəddarlıq, kobudluq və sərtliklə ifadə edirlər.

Emosional möhkəmlik norması elə stereotipdir ki, bu stereotipə görə, kişi az hiss keçirməli, öz emosional problemlərini ətrafdakıların köməyi olmadan həll etməlidir.

Emosional ekspressivliyin formalarından biri olan səmimilik verbal və qeyri-verbal səviyyələrdə kommunikasiyanın elə bir tipidir ki, bu zaman bir adam başqa bir adama öz şəxsi hisslərini açıq bildirir. Köhnə bir lətifədə deyilir: “Kişi dostları ilə görüşdən qayıdır, arvadı soruşur: "Siz nə haqda danışdınız?" Əri cavab verir: “Heç nə barədə. Biz elə-belə balıq otuturduq”. Arvad öz rəfiqələri ilə görüşdən gələndə kişi də öz növbəsində soruşur: “Siz orada neynədiz?”. Arvad cavab verir: “Heç bir şey, biz sadəcə olaraq söhbət elədik”. Bir çox tədqiqatlar da göstərir ki, kişilər qadınlara nisbətən daha az səmimi olur, başqaları ilə müna- sibətlərinin təfərrüatlarına varmağı xoşlamırlar. Məsələyə münasibət bildirən ABŞ alimi Harker bu xüsusda qeyd edir ki, səmimilik biz kişilərə baha başa gələ bilər, özümüz haqqında şəxsi informasiyanı kiməsə etimad etdikdə, bizi kənarlaşdıra, istifadə edə, sata, bizə gülə bilərlər. Eyni zamanda, biz kiminsə qarşısında öz sirlərimizi açırıqsa və həmin adam isə bizimlə səmimi olmursa, bu zaman disbalans yarana bilər. Bu riskdən qaçmaq üçün bir çox kişilər heç kimlə səmimi olmamağa çalışırlar. Tədqiqatlar göstərir ki, kişilər arasındakı münasibətlər qadınlara nisbətən, daha çox konfliktlilik, yarış xarakterində olunması, məsələnin az açılması və müzakirə olunmaması ilə seçilir. Məhz buna görədir ki, kişilər uzun çəkən iclasların, konfrans və yığıncaqların, müşavirələrin çox vaxt aparmasını heç də xoşlamırlar.

Müəyyən edilmişdir ki, “ənənəvi kişi” anlayışını yüksək qiymətləndirən ki- şilər səmimilikdən qaçmağa çalışsalar da, androgen tipli şəxsiyyətlər - həm kişilər, həm qadınlar səmimiliyin eyni səviyyəsini büruzə verirlər.

Cinslərin emosional möhkəmlik normasından bəhs edən ABŞ psixoloqu Elionora Mokkobi yazır: Heç nədən ehtiyat etmədən öz cinsindən olan şəxslərlə bir yerdə olmaq imkanı əldə etmək üçün bir çox kişi xüsusi strukturaya ehtiyac duyur, bu, idman və başqa buna uyğun fəaliyyət də ola bilər. Qadınların isə, belə fəaliyyətə ehtiyacı yoxdur. Məsələn, belə bir fikir irəli sürülür ki, idman kişini ona görə cəlb edir ki, onun üçün bu öz kişiliyini sübut etmək üsulu və başqa kişilər tərəfindən qəbul olmaq və bağlılıq imkanıdır. Lakin tədqiqatlar sübut edir ki, hətta idman komanda növləri də şəxsiyyətə həqiqətən lazım olan yaxın əlaqələri, başqa insanlarla birlik hissini bəxş edə bilmir.

Kişilər və qadınlar özlərinin qadınlarla dostluq münasibətini daha fərəhli və qarşılıqlı qayğı göstərmək kimi təsvir edirlər. Müəyyən edilmişdir ki, kişilərlə müqayisədə iki qadının dost kimi münasibətləri uzunmüddətliliyi, dərinliyi, bir- birinə yaxın olması ilə xarakterizə olunur. Bir çox tədqiqatlar göstərir ki, ənənəvi kişilik xüsusiyyəti kişi cütlüklərində partnyorlardan birinin dostluq tələbatının qaneedici səviyyədə təmin edilməməsi fonunda meydana çıxan narazılığı ilə bağlıdır. Kişidən emosional dəstək az gözlənilir, çünki bəzən onlar başqa adamın onlar qarşısında hisslərinin büruzə verməsinə məntiqi və emosiyasız yanaşır, soyuq reaksiya verirlər ki, bunu da qəbul etməmək, biganəlik və ya imtina etmək kimi başa düşmək olar.

Kişilərlə dostluq münasibətləri ilə bağlı tədqiqatlar aparan alimlər hesab edirlər ki, məsələ onda deyil ki, kişilər onlar qarşısında digər kişinin səmimi olmasına neqativ reaksiya verir, əslində isə dostun qarşısında səmimi olan kişi cavab olaraq, ondan səmimilik, açıqlıq görə bilmir. Kişilər çox vaxt göstərirlər ki, dostlar onlara yüksək səviyyədə kömək göstərməyə hazır olurlar (məs. maşını təmir etmək, başqa yerə köçməkdə yardım etmək), amma reaksiyadan görmək olur ki, onlar qarşılıqlı səmimiliyi istəmirlər. Səmimilik, yaxınlıq, maraqlanmaq, hisslərini etiraf etmək və

anlamaq, daha dərindən açıqlamağa yönəlmiş suallarla nümayiş olunan reaksiya ilə dəstəklənməlidir. Eyni zamanda, kişilər empatiya hissinə, qadınlara nisbətən başqalarının emosiyalarına düzgün reaksiya verə bilmək qabiliyyəti baxımından qadınlardan geri qalırlar və bu da onların başqa adamlarla səmimi olmasına əngəl törədir.

Bir sıra tədqiqatların nəticələri göstərir ki, kişilərdə depressiv pozuntuların qadınlara nisbətən az olması onların depressiv simptomlarla bağlı şikayətlərinin sosial cəhətdən qəbuledilməz hesab edilməsi ilə əlaqədardır. Başqa sözlə, depressiya kişi roluna uyğun gəlməyən davranış kimi qiymətləndirilir və depressiv kişilər sadəcə olaraq, peşəkar yardım üçün müraciət etmirlər.

Qadınlar depressiyadan çıxmaq üçün öz problemlərini dostları və rəfiqələri ilə bölüşür, və ya peşəkar psixoloji yardım üçün müraciət etdikləri halda, kişilər depressiya ilə əsaslı mübarizə probleminə məhəl qoymur, bu vəziyyətdən çıxış yolunu alkoqol və ya narkotika qəbulunda görürlər. Kişilər üçün sosial normaların təzyiqindən kömək axtarmaq daha çətindir, onlar öz probelmlərinin öhdəsindən özləri gəlməlidir.

Bəzi psixoloqlar kişilər arasında daha çox intihar hadisələrinin olmasını möhkəmlik və kişilik norması ilə izah edirlər.Onların qənaətinə görə, bu normalar onları başqalarından kömək istəməsinə imkan vermir.

ABŞ psixoloqu Klimiartin kişilərin ətrafdakılarla bağlılığının olmaması ilə əlaqədar daha bir yan təsirini göstərmişdir. Onun fikrincə, yaxınlıq hissinin olmaması, onların ətrafdakılara fiziki və psixi zərər verməsini şərtləndirən əsas amildir. Sosializasiya kişiləri empatiya hissindən təcrid edir və nəticədə bu onların yolunda maneçilik törədənlərə qarşı qəddar münasibət göstərməsinə səbəb olur. Kişinin yarışa, rəqabətə yönəlişliyi onu başqalarına, ətrafdakılara diqqət göstərməsinə imkan vermir.

Klimatın hesab edir ki, kişilərin müharibələrə, zorakılığa meylliyi, planetə zərər vermək, sosial azlıqların əzilməsində, psixoloji qəddarlıqda daha çox iştirak etməsi əsasən onların ənənəvi kişi obrazı ilə bağlıdır.

Antiqadınlıiq norması. Bu norma kişiləri stereotipcəsinə tipik qadın məşğuliyyəti, fəaliyyəti, davranış modeli hesab edilən işlərdən qaçmağa yönəldir. Məsələn, bir çox kişilər hesab edirlər ki, hisslərin ifadə edilməsi və səmimilik yalnız qadınlara xasdır və onlar emosional cəhətdən ekspressiv olsalar, kifayət qədər kişi kimi görünməyəcəklər. Stereotipik baxışlara görə, əgər kişi ağlasa və kişilik normalarından birini pozubsa, nifrətlə onu “qadın” adlandıracaqlar. Belə hallar göstərir ki, ənənəvi kişi təsəvvüründə yaxınlıq, emosional həssaslıq, kövrəklik və ekspessivlik yalnız qadınlara aid xüsusiyyətlərdir.

Antiqadınlıq norması kişilərdə, xüsusilə qadına xas olan məşğuliyyət, fəaliyyət növləri və davranış modelindən uzaq olmaqla bağlı stereotipdir.

Bu, bəzi kişilərdə “femifobiya” adlanan qadın kimi görünmək qorxusu yaradır. Müvəffəqiyyət norması statusu kişilərin tam ata olmağına mane olduğu kimi, antiqadınlıq norması da həmin effektə malikdir.

Psixoloqlar göstərirlər ki, insanın valideyn kimi funksionallaşmasının əsas cəhətlərindən biri – zəriflik, qayğıkeşlik, həmişə emosional dəstək olmaq, uşağı həmişə qucaq- lamaq və onu sevdiyini demək tələbatlarından ibarətdir. Bir çox kişilərə belə hərəkətlər etmək çətin gəlir, belə ki, onlar bunu qadına xas xüsusiyyət hesab edirlər, onların sosializasiyası kişiləri istənilən qadınlıq xüsusiyyətindən qaçmağı öyrətmişdir. Nəticədə, bir çox insanlar atalarının onları həqiqətən sevib-sevməməsi ilə bağlı şübhə ilə böyüyürlər. Təəssüf ki, bizim emosional və psixi inkişafımızda, formalaşmağımızda ataların rolu barədə tədiqqatlar azlıq təşkil edir. Şəxsiyyətin inkişafı haqqında əksər nəzəriyyələrdə ananın rolu atanın rolundan daha yüksək tutulur.

Mövzu 13: Ailə konfliktlərinin psixoloji səciyyəsi

Plan:

1. Sosial psixologiyada “konflikt” anlayışı haqqında.

2.Ailənin psixoloji iqlimi.

3.Ailə həyatının böhranları

1. Fərdi sosial həyatı başqa adamlarla çoxsaylı birgə fəaliyyət formalarının və qarşılıqlı münasibətlərinin mürəkkəb sistemidir. Müxtəlif insanlar öz fərqli xüsusiyyətlərindən və şəxsi təcrübələrindən asılı olaraq, həyatda qarşılaşdıqları situasiyalara fərqli reaksiya göstərirlər.

Konflikt (latınca confliktus - toqquşma) insanların bir-birinə münasibəttə mənafe, görüş və meyillərin toqquşması, son nəticədə qarşıdurmaya gətirib çıxaran ciddi ixtilaf, kəskin mübahisədir. Psixoloji mənada konflikt insanlar arasındaki ziddiyətlərə və bu ziddiyyətlərin kəskin emosional vəziyyətdə həlli cəhdinə əsaslanan ünsiyyət növüdür. Sosial pssixologiyada “konflikt” anlayışı bir-birinə əkss olan maraqların, məqsədlərin, baxışların habelə fərdlər və qruplar arasında ideologiyaların toqquşması kimi izah olunur. Bir çox psixoloqlar konfliktləri sosial, pedaqoji və psixoloji anlamda müxtəlif məntiqi əsaslarla təsnif edirlər: 1) *ziddiyyətlərin reallıq dərəcəsinə görə:* ***real konfliktlər*** *(real ziddiyyətlərə əsaslanır);* ***qeyri-real konflikt*** *(təhrif olunmuş təsəvvürlərə əaslanır);****qeyri-real konfliktlər*** *(təhrif olunmuş təsəvvürlərə əsaslanır); 2)*

ziddiyətlərin xarakterinə görə; ***obyektiv*** *(obyektiv ziddəyyətlərə əsaslanan) və* ***subyektiv*** *(subyektiv ziddəyyətlərə-baxış və motivlərin toqquşmasına əsaslanan) konfliktlər; 3)dərk olunma dərəcəsinə görə:* ***dərk olunan*** *və* ***dərk olunmayan****konfliktlər; 4)miqyasına görə:* ***məhdud****(fərdlər arasında) və* ***əhatəli*** *(qrup və ya bütün kollektivi əhatə edən) konfliktlər; 5)ziddiyətlərin təzahürünə görə:* ***açıq*** *(təzahür edən) və* ***gizli*** *(təzahür etməyən) konfliktlər; 6)məzmununa görə:* ***şəxsi*** *(şəxsi münasibətlərə əsaslanan) və* ***fəaliyyətlə bağlı*** *(fəaliyyət prosesində yanan) konfliktlər; 7) qarşılıqlı münasibət tipinə görə:* ***asılılıq****(rəhbərlə işçi arasındakı) və* ***status bərabərliyi*** *(müəllim-müəllim, şagird-şagird arasında) münasibətlərində yaranan konfliktlər; 8) sahələrinə görə:* ***sosial, siyasi, iqtisadi,hərbi*** *və s. konfliktlər; 9)obyektinə görə:* ***şəxsiyyətlərarası, qrupdaxili, qruplar arası, ailə-məişət, etnik, pedaqoji*** *konfliktlər; 10) funksialarına görə:* ***konstruktiv*** *(qrupun inkişafına müsbət təsir göstərən) və* ***destruktiv (****qrupdakı qarşılıqlı münasibətlərə mənfi təsir göstərən****) konfliktlər.*

Konfliktər öz stukturuna görə də fərqli xüsusiyyətlərə malikdir. Hər bir konfliktdə **münaqisə tərəfləri** (haqlı və haqsız tərəf), **münaqişə obyekti, münaqişə şəraiti** və bir çox hallarda isə əlavə iştirakçılar olur. **Münaqişə obyekti dedikdə,** münaqişə predmeti**, münaqişə şəraiti** dedikdə isə, münaqişənin səbəbləri və şərtləri başa düşülür. Sosial-psixoloji ədəbiyyatlarda iştirakçıların sayından asılı olaraq **sadə** və **mürəkkəb** konfliktlər fərqləndirilir. Yalnız münaqişə tərəflərinin iştirak etdiyi konflikt sadə sadə konflikt, tərəflərdən əlavə çoxlu iştirakçı olduqda isə belə konflik mürəkkəb konflikt adlanır. **Münaqişənin iştirakçıları** dedikdə isə münaqişədə marağı olan adamlar və sosial qruplar nəzərdə tutulur.

Ailə psixologiyası problemlərinin tanınmış tədqiqatçılarəndan olan. İ.V.Qrebennikova görə, **ailə konflikt** ailə üzvlərinin baxış, maraq və tələbatlarının uyğunsuzluğundan irəli gələn ciddi fikir ayrılığıdır.

2. Ailənin soial-psixoloji iqlimi onun həyat tərzi və **məişət mədəniyyətinin** əsasıdır. Normal ailə həyat tərzində yaşayan bütün insanları ümumi maraq və mənafelər birləşdirir. Ailə üzvləri ailənin həyat tərzini məişət mədəniyyətini formalaşdırırlar. Buraya: ailədə məsləhətləşmələr (növbəti həftə üçün fəaliyyət strategiyasını planlaşdırmaq);yayda harada istirahət etməli; kimə hansı paltar alınmalıdır; hansı xeyir-şər işlərdə iştirak edilməlidir; bayramları necə keçirməli; hansı qohumlara baş çəkməli və s. aiddir. Ailənin məişət mədəniyyətinin təşəkkülündə formalaşmış **ailə ənənələrinin** müstəsna əhəmiyyəti vardır.

Ailədaxili münasibətlər konfrontasiya, əməkdaşlıq mühiti və mövcudluq (hərə özünə) olmaqla üç əsas tipə ayrılır. Ailədə bu və ya digər səviyyədə mövcud olan davamlı emosional əhvallar **ailəninpsixoloji iqlimini** yaradır. Ailənin pixoloji iqlimi əlverişli və əlverişsiz olmaqla iki yerə ayrılır. Psixoloji iqlim özündə ailənin ümumi yaşayış və həyat üslubu, qarşılıqlı münasibətlərin xarakterindən asılı olaraq tədricən formalaşır. **Əlverişli psixoloji iqlimin** başlıca və əsas şərti **ər-arvad arasında psixoloji uyuşmadır.** Psixoloji uyuşma qarşılıqlı xeyirhaqlıq, qayğı, hörmət, müdafiə, səbirlilik hissi, yüksək daxili intizam, məsuliyyət, istiqanlılıq, tələbkarlıq kimi münasibətlər fonunda tədricən təşəkkül tapır. Ailədaxili münasibətlər mühitini formalaşdıran həmin xüsusiyyətlər həm də ailəni sosial sistem və qrup kimi səciyələndirməyə əsas verən başlıca dəyərlərdir. **Əlverişsiz psixoloji iqlim** ailəni depressiya və strsslərə, mübahisə və münaqişələrə sürükləyir. Belə ailələrdə müsbət emosiyaların çatışmazlığı, gərginlik, küsülülük və inciklik halları tez-tez baş verdiyindən bu artıq bir həyat tərzinə çevrilir.

Ər-arvad taleyin birləşdirdiyi cütlüklərdi. Onların birgə xoşbəxt həyatı sosial-psixoloji uyuşmanın səciyyəsindən bilavasitə asılıdır. **Sosial uyuşma** dünyagörüşünün, əqidə, ideal zövq, tələbat və maraqların, dəyərlər sistemi və

sərvət meyllərinin ümumiliyində, **psixoloji uyuşma** isə xarakter, temperament, şəxsi-iradi keyfiyyətlərin uyğunluğunda əks olunur.

Ər-arvad konflikti ailə kinfliktinin xüsusi növü olub, ər-arvad cütlükləri arasındakı etik münasibətlərin, biopsixoloji uyğunluğun, tələbat və maraqların, uşaqların tərbiyəsi ilə bağlı fərqli baxışların, qohumlara müxtəlif münasibətlərin və s. zəminində meydana gələn konfliktlərdir. Ər-arvad münasibətlərində konfliktlərin meydana gəlməsinə təsir göstərən bir sıra amillər də vardır ki, bunlara ailənin inkişafındakı böhranlı dövrlər aid edilir.

Ər-arvadlıq həyatının birinci ili bir-birinə uyğunlaşma, iki "mən"in bir "biz"ə çevrilməsi zəminində baş qaldıran konfliktlərlə xarakterizə olunur. Bu dövrdə hisslərin təkamülü baş verir, sevgi bir qədər zəifləyir və cütlüklər bir-birləri qarşısında necə var, olduqları kimi dayanırlar.

3. Ailənin həyatında ikinci böhranlı dövr uşaqların doğulması ilə bağlıdır. Hələ tam möhkəmlənməmiş gənc ailə sistemi ciddi sınaqla üzləşir. Bu dövrdə ər-arvadın işi və ya təhsili, şəxsi istirahət və ya əyləncə ilə bağlı konfliktlər daha çox müşahidə olunur. Uşağa qulluqla əlaqədar qadının yorğunluğu onun seksual fəallığının müvəqqəti zəiflənməsinə gətirib çıxara bilər. Ailə həyatının qeyd olunan ilk dövrlərində adətən uşaqların tərbiyəsi problemləri ilə bağlı ər-arvad özləri və onların valideynləri arasında münaqişələrin yaranması mümkündür. **Ailə həyatının üçüncü dövründə** konfliktlərə orta yaş mərhələsinə daha çox təsadüf olunur ki, bu cür konfliktlər, adətən, yeknəsək həyat tərzi ilə bağlıdır. Tərəflərdə yeni təəssürat çatışmazlığı yaranır ki, bu da tərəflərin bir-birinə qarşı adiləşməsi ilə səciyyələnir. Bunu "kohnə təəssüratlardan doyma və yeni təəssürat aclığı" adlandırmaq olar. Ailədə **ər-arvad konfliktlərinin dördüncü mərhələsinə** onların birgə həyatının 18-24-cü illərindən sonra təsadüf olunur. Onun meydana gəlməsi adətən **qocalıq** dövrünün yaxınlaşması, tənhalıq hissinin meydana gəlməsi, uşaqların ailədən köçüb getməsi, qadının emosional asıllığının güclənməsi və s. ilə bağlı olur. Bu dövrdə cütlüklər arasında konfliktlər

kişinin öz seksual tələbatlarını kənarda təmin etmək cəhətlərinin mümkünlüyünün (“nə qədər ki, gec deyil”) yaranma təhlükəsi zəminində və ya bu halın reallığı fonunda baş verir.

Ər-arvad konfliktlərinin meydana gəlməsində xarici amillərin təsir ehtimalı da az rol oynamır. Buraya bir çox ailələrin get-gedə müflisləşmə nəticəsində maddi vəziyyətinin pisləşməsini, cütlüklərdən hər ikisinin və ya birinin işdə hədsiz yüklənməsini, tərəflərdən birinin iş bilməməsi və ya işsizliyini, ailənin uzun müddət ayrıca mənzilə sahib ola bilməməsini, uşaqların bağçaya yerləşdirilməsi ilə bağlı çətinlikləri, ailədə şikəst ailə üzvünün olmasını, yataq xəstəsinin və ya həbsdə olan ailə üzvünün problemlərini və s.aid etmək olar. Ailə konfliktlərinin baş vermə səbəblərinə aşağıdakıları aid etmək olar:

- Qarşılıqlı sevgi və hörmətin olmaması;
- Cütlüklərdən birinin cinsi-intim həyatdan narazılığı, bioritm fərqi;
- Şəxsi ləyaqət hissinin təhqir edilməsi, inciklik, hörmətsiz və qayğısız münasibət, daim tənqid;
- Tənbəllik və pintilik;
- Tərəflərdə müsbət emosiyaların çatışmazlığı (nəvaziş və qayğıkeşliyin olmaması, psixoloji yadlaşma, emosional soyuqluq);
- Liderliyə canatma;
- Tərəflərdən birinin çox pul sərfiyyatı tələb edən spirtli içkiyə, qumara, narkomaniyaya qurşanması;
- Maliyyə məsələlərində fikir ayrılığı;
- Ailədə əmək bölgüsü problemləri;
- Sonsuzluq;
- Maraq və əyləncələrdə, zövqlərdə uyğunsuzluq;

Valideynlərlə övladlar arasında qarşılıqlı təsir forması kimi konfliktlər bir sıra psixoloji amillərlə də şərtlənir. Bunlara aşğıdakıları aid etmək olar:

1. Ailədaxili münasibətlərin tipi. Bu cəhətdən ailə münasibətlərinin harmonik və disharmonik tipləri fərqləndirilir. Harmonik ailədə hər bir ailə üzvünün psixoloji rolu ailə "biz"inin formalaşmasına, baş verən ailədaxili ziddiyətlərinaradan qaldırılmasına yönəldilir və bu əsasda məqsəd ailədaxili münasibətlərdən mütəhərrik müvazinətin tənzim edilməsini təmin etməkdən ibarər olur. Ailənin disharmoniyası dedikdə, ər-arvadın konfliktli qarşılıqlı təsirində ifadə olunan neqativ münasibətlər başa düşülür. Belə ailələrdə psixoloji gərginlik səviyyəsi onun üzvlərinin nevrotik reaksiyalarına,uşaqların daimi narahatlıq hissinə səbəb olur.

2. Ailə tərbiyəsinin destruktivliyi. Bu cəhətdən ailədə destruktiv tərbiyənin aşağıdakı əlamətləri fərqləndirilir:

- Uşaqların tərbiyəsi ilə əlaqədar məsələlərdə ailə üzvləri arasında fikir ayrılıqları;
- Münasibətlərdə ziddiyyətlilik, qeyri-ardıcıllıq, qeyri-adekvatlıq;
- Uşaqların həyatlarının bir çox sferalarındakı hədsiz himayəçilik və qadağalar;
- Uşaqlara qarşı hədsiz tələbkarlıq, tez-tez hədə-qorxu, cəza və məzəmmətlər;

3. Uşaqlarda normal yaş böhranları, adətən, ailənin yaşlı üzvləri tərəfindən təbii psixofizioloji hadisə kimi dərk edilmədiyindən hədsiz dərəcədə yüksək konflikt amilinə çevrilir. Yaş böhranları uşaqların həyatında bir yaş mərhələsində digərinə keçid dövrü olduğuna görə, bu dövrlərdə uşaqlar sözəbaxmaz, şıltaq, kobud və əsəbi olurlar. Belə simptomlar uşaqların tez-tez ətrafdakı adamlarla, xüsusən, valideynlərlə konfliktlərə girməsinə gətirib çıxarır. Onlar əvvəlki tələblərə müqavimət göstərir, işdən boyun qaçırırlar. Yeniyetməlik dövründə isə yaş böhranı daha kəskin xarakter alır.

4. Şəxsiyyət amili. Valideynlərin şəxsiyyət xüsusiyyətləri, onların temperament tipi və bu əsasda formalaşan xarakterləri uşaqlarla konfliktlərin yaranmasını şərtləndirən amillərdən biri, həm də ən əsasıdır. Bu cəhətdən

mühafizəkar təfəkkür üslubu, köhnə davranış qaydalarından və zərərli vərdişlərdən (alkoqol, narkotika qəbulu, qumar oyunu və s.) asılılıq, əqidə barışmazlığı və s.belə amillərdəndir. Uşaqların şəxsiyyət xüsusiyyətlərinə isə təlimdə aşağı nəticələr və uğursuzluq, davranış qaydalarının pozulması, valideynlərin tövsiyə və nəsihətlərinə etinasızlıq, söz eşitməzlik, tərslik, eqoizm, eqosentrizm, özündənrazılıq, tənbəllik, pintilik və s.aid edilə bilər.

Psixoloqların tədqiqatları göstərir ki, ailələrin 80-85 %-də kofliktlər mövcuddur. Qalan 15-20% ailələrdə isə mübahisələr müxtəlif zəmində baş verir. Konfliktlərin kəskinliyi və tezliyi kimi əlamətlər baxımından ailələrin **böhranlı, konfliktli, problemli və nevrotik** olmaqla 4 əsas tipi fərqləndirilir.

Böhranlı ailədə ər-arvadın maraq və tələbatlarının uyğunsuzluğu əsasında yaranan qarşıdurmalar kəskin xarakter daşıyır və ailənin həyat və fəaliyyətinin bütün vacib sahələrini əhatə edir. Belə ailələrdə ər-arvad arasında münasibətlər özünün kəskin xarakteri ilə fərqlənir, barışmaz və hətta düşmənçilik həddinə çatmış olur. Cütlüklər bir-birinə qarşı heç cür güzəştə getmək istəmirlər. Böhranlı nukah ittifaqı həddindən olan ailələr ya dağılma ərəfəsində, ya da artıq iflasa uğramış olurlar.

Konfliktli ailələr ər-arvad cütlüyünün həyatında elə sahələr olur ki, burada onların maraqları daim toqquşur, davamlı və güclü mənfi emosional vəziyyətlər yaradır. Bütün bunlara baxmayaraq, nigah güzəştlər, konfliktlərin konpromist həll üsulu və digər amillərlə qorunub saxlanılır.

Problemli ailə tipi özünün nikahın sabitliyinə ciddi zərər vura biləcək uzunmüddətli, həllini tapmayan çətinliklərlə xarakterizə olunur. Məsələn, mənzilin yoxluğu, cütlüklərdən birinin uzunmüddətli xəstəliyi, ailənin normal yaşayışı üçün daimi vəsait çatışmazlığı, ailə üzvlərindən birinin uzunmüddətli həbsdə olması və s.bu kimi problemlər ailənin həyatında ciddi sıxıntı və gərginliyə səbəb olur. Belə ailələrdə qarşılıqlı münasibətlərin kəskinləşməsi, cütlüklərdən birində vəya hər ikisində psixoloji pozğunluqların yaranması riski yüksək olur.

Nevrotik ailə tipində irsi pozğunluqlar deyil, ailənin gündəlik həyatında qarşılaşdığı psixoloji çətinliklərlə əlaqədar **qazanılmış psixi pozğunluqlar** əsas rol oynayır. Nevrotik ailələrdə cütlüklər hədsiz qorxu, tələş və iztirablardan əziyyət çəkir, onlarda yuxu pozğunluğu, affektiv reaksiyaların kəskinliyi və bir-birinə qarşı hədsiz aqressivlik müşahidə olunur.

Ailə cütlükləri arasında konfliktli davranış həm gizli, həm də açıq formalarda təzahür edə bilər. **Gizli konfliktlərin** əsas simptomlarına narazılığı ifadə edən kəskin jest və baxış, ailə həyatının hər hansı sahəsində aid işin birgə icrasında tərəflərdən birinin boykot mövqeyində durması, qarşılıqlı münasibətlərdə ifadəli soyuqluq və s.aid edilə bilər. **Açıq kofliktlər,** adətən, korrekt formalı açıq söhbətlərdə təzahür edir. Bu zaman qarşılıqlı verbal təhqir nümayişkaranə hərəkətlər (qapını, qab-qacağı çırpma, stolu yumuruqla döyəcləmə), zorakı fiziki hərəkətlər, təhqir və s.ilə müşayət olunur.

Qısqanclıq ailədaxili münasibətlər sistemində tarixən geniş yayılmış problemlərdən biridir. Ona hətta uşaqlar arasında rast gəlmək mümkündür. Böyük uşaqlar kiçiklərə qarşı olan nəvazişə, alınmış oyuncaqlara, təzə paltara və s.görə qısqanclıq keçirirlər. Bunun səbəbi onların diqqət və qayğıdan kənardan qalmalı, artıq sevilməmələri ilə bağlı meydana gələn yanlış təsəvvürləri ilə bağlıdır. Qısqanclıq, hətta bunun üçün əsaslı səbəb olmadığı halda belə, güclü təzahürə malik ola bilər. Emosional reaksiyalar doğuran qısqanclıq o zaman yaranır ki, insan ona məxsus olan "mülkiyyətinə" başqa birinin sahiblik iddiyası ilə üzləşmiş olur. Belə duyğular real və xəyali ola bilər. Ailə bir meyvəyə bənzəyir. Məhəbbət onun içi, nikah-qabığı, həyanət isə onun içəridən yeyən qurddur.

Ailə üzvləri olan **ər-arvad qısqanclığı** təbii və normal hissdir. Çütlüklərdən birinin üçncü şəxsə bağlı olan intim münasibətləri onlardan birində təbii qısqanclığa, emosionallığının oyanmasına səbəb olur. Qısqanclığın normal və təbii olması ilə yanaşı, onun **patoloji qısqanclıq** adlanan forması artıq psixi

xəstəlik hesab olunur. Məsələn, gənc oğlan sevdiyi qızı onun yanağından süzülən göz yaşlarına, iylədi gülə və s.qısqanır.

Mövzu 14. Ailədaxili problemlərin psixi sağlamlığa təsiri

Plan:

1. **Ailədə tərbiyə işinin psixopedaqoji əsasları**
2. **Uşaqların tərbiyəsində ananın və atanın rolu**
3. **Valideynlərin şəxsiyyəti: onların şəxsi nümunəsi və nüfuzu**
4. **Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi və nikaha hazırlıq**
5. **Ailə tərbiyəsində özünü göstərən nöqsanlar**

1. Ailə tərbiyəsi cəmiyyətdə özünü göstən mürəkkəb, sosial-psixoloji və pedaqoji hadisələrdən biridir. Şəxsiyyətin tərbiyəsinə və bu prosesin nəticələrinə ailədaxili münasibətlərlə şərtlənən ailə həyat tərzinin mühüm təsiri vardır. Ailədaxili münasibətlərin mübət və ya mənfi xarakteri tərbiyə prosesinə fərqli təsir göstərən psixisosial amillərdən biridir. Ailə tərbiyəsi mürəkkəb və çoxşaxəli sistemdir. Bu sistemə təsir göstərən amillər sırasında irsiyyət, uşaqların anatomik – fizioloji sağlamlığı, maddi-iqtisadi təminat, ailənin sosial vəziyyəti, həyat tərzi, ailə üzvlərinin sayı, yaşayış yeri, uşağa münasibət və s. başlıca yer tutur. Ailə tərbiyəsi qarşısında duran başlıca psixopedaqoji vəzifələr bunlardır:

1. Uşağın yetkinləşməsi və inkişafı üçün mümkün olan bütün şəraitin yaradılması;

2. Ailədaxili ənənələrin qorunub saxlanılması və uşaqların tərbiyəsində bu amilin tərbiyəedici imkanlarının reallaşdırılması;

3. Müsbət vərdiş və bacarıqların uşaqlara aşılanması və bu zəmində özünəxidmətə və başqalarına kömək etmək meylinin formalaşdırılması;

4. Şəxsi ləyaqət hisinin tərbiyə olunması.

Ailə tərbiyəsi işində sınaqdan çıxmış bir çox ümumi prinsiplər mpvcuddur. Həmin prinsiplərə ilk növbədə bunları aid etmək olar: inkişaf etməkdə olan uşağa humanist və qayğılı münasibət; ailədaxili münasibətlərin optimallılığının təmin edilməsi; uşağın ailənin daxili həyat və fəaliyyətinə cəlb edilməsi; ailədə açıq və inama əsaslanan münasibətlərin yaradılamsı; valideynlərin uşağa qarşı yönələn tələblərinin vahidliyi və davamlığı; uşağa mümkün olan hər bir yardımın göstərilməsi. Qeyd olunan prinsiplərlə yanaşı ailə tərbiyəsində müəyyən qaydalara da əməl edilməlidir: fiziki cəzanın yolverilməzliyi; nəsihətçilikdən imtina; uşağa qarşı dərhal tabe olmaqtələbinin irəli sürülməsi; uşağın yerli-yersiz hər cür tələb və arzusunun dərhal yerinə yetirilməsi və s.

Cəmiyyətə münasibət baxımından ailənin başlıca funksiyalarından biri tərbiyə funksiyasıdır. Ailənin tərbiyəedici funksiyasl yeni nəsillərə biliklərin, bacarıq və vərdişlərin, norma və dəyərlərin, mənəvi sərvətlərin, ictimai tarixi təcrübənin ötürülməsini nəzərdə tutur. Psixoloji araşdırmaları ilə məşhur olan Penelopa Liç yazır: “Uşaqları tərbiyə etmək, boyütmək ən dəyərli, ən yaradıcı əmək növlərindən biridir. Siz yeni şəxsiyyət yaradırsızın, uşağa elə insan olmaqda kömək edirsizin ki, bu sizin görmək istədiyinizdir”

Psixoloqlar hesab edirlər ki, uşağın şəxsiyyətinin inkişafında valideynlərin uşağa münasibəti və nəzarətin xarakteri ən mühüm amillər kimi nəzərdən keçirilə bilər. Bu baxımdan valideynlər üç əsas qrupa ayrılır: demokratik, avtoritar və liberal valideynlər.

Demokratik tərbiyə üsulubu ailədə uşağa qarşı münasibətdə fəal əməkdaşlığa əsaslanır.

Müasir cəmiyyətdə avtoritar tərbiyə üsulubunun hökm sürdüyü ailələrə daha çox rast gəlinir. Avtoritar valideynlər uşaqlardan daha onların tələblərini sözsüz və qeyri-şərtsiz, qeyri-məntiqi olaraq qəbul edilməsini tələb edirlər.

Psixoloqlar liberal tərbiyə üslubuna malik valideynləri xüsusi olaraq fərqləndirməklə yanaşı, belə tərbiyə üslubunun da zərərli olduğu qənaətinə gəlmişlər.

2. Klassik və müasir pedaqoji psixologiyada ailə tərbiyəsi ilə bağlı bir sıra yanaşmalar mövcuddur. Bu yanaşmalar ailə tərbiyəsi modellərinin psixopedaqoji mahiyyətini əks etdirir. Ailə tərbiyəsi sahəsində diqqət çəkən tərbiyə modellərindən biri **Adler modeli** adlanır. Avstriya psixoloqu A. Adler (1870-1937) ailə tərbiyəsi konsepsiyası valideynlərin davranışının şüurlu və məqsədyönlü surətdə dəyişdirilməsi ideyasına əsaslanır. Alferd Adler nəzəriyyəsinə görə, ailədə mövcud olan psixoloji iqlim, ümumi yönlişlik, ailədaxili dəyərlər və qarşılılı münasibətlər, uşaq şəxsiyyətinin inkişafının və tərbiyəsinin mühüm amilləridir. O, qeyd edirdi ki, valideynlər tərbiyə işində bərabərlik, əməkdaşlıq və təbii nəticələri ısas prinsiplər kimi qəbul etməlidir. Valideynlər hər bir uşaq şəxsiyyətində təkrarolunmazlığı, fərdiyyətliliyi və toxunulmazlığı ilə hesablaşmağa alışmalıdırlar. Ailə psixologiyasında ailə tərbiyəsinin modellərindən biri amerikan psixoloqu B.F.Skinner (1904-1990) tərəfindən irəli sürülmüşdür. Ailə tərbiyəsinin təlim-nəzəri modeli adlanan bu model biheviorizmin ümumi nəzəriyyəsinə əsaslanıt Bu nəzəriyyəyə görə, valideynlərin və onların uşaqlarının davranışını yenidən öyrətmə və öyrətmə metodu əsasında dəyişdirmək mümkündürş Təlim-nəzəri modeldə uşaqların davranışının formalaşmasının vasitələri sırasında müsbət möhkəmləndirmə rəğbətləndirmə yolu ilə mənfi möhkəmləndirmə isə cəza ylu ilə həyata keçirilməlidirş Valideynlər sosial öyrətmə nəzəriyyəsinin prinsiplərini praktik olaraq tətbiq etməklə ailə mühitində uşaqların davranışının dəyişilməsinə nail ola bilərlər. Ailə tərbiyəsi modellərindən bir də amerikan psixoloqu K.R.Rocersin (1902-1987) irəli sürdüyü hissi kommunikasiya modeli adlanır. Şəxsiyyətin fenomenoloji nəzəriyyəsinə əsaslanan bu modeldə şəxsiyyətin özünüifadəsi üçün əlverişli şəraitin yaradılması bir tələb kimi irəli sürülür. Ailə tərbiyəsinin hissi kommunikasiya modeli ailədaxili ünsiyyətin qarşılıqlı, səmimi və azad olmasının

təmin olunmasında ifadə olunur. Bu modelə yiyələnən hər bir valideyn 3 mühüm bacarığa sahib olmalıdır: 1) aktiv dinləmək; 2) uşağın başa düşəcəyi şəxsi hisslərin ifadəsi; 3) ailədaxili münasibətlərdə "hər iki tərəf haqlıdır" prinsipinin praktik olaraq tətbiqi.

Ailə tərbiyəsinin modellərindən biri kimi **qrup terapiyası** modelinin mahiyyəti uşağın tələbatlarından asılı olaraq valideyinlərin öz mövqelərini dəyişdirərək yenidən qurmalarında asılı olaraq valideyinlərin öz mövqelərini dəyişdirərək yenidən qurmalarında əks olunur. Bu modelə görə, valideyinlərin tərbiyəsi qrup şəraitində aparılan məsləhətlər, terapiyalar və təlimatlar vasitəsilə həyata keçirilir. Qrup terapiyası modelinin əsas məqsədi valideynlərin şəxsiyyətinin strukturunda müsbət dəyişikliklərin təmin edilməsinə nail olmaqdır. **Valideynlərin maarifləndirilməsi və gənclərin ailə həyatına hazırlanması** modeli rus pedaqoqu İ.V.Qrebennikov tərəfindən irəli sürülmüşdür. Bu modeldə valideynlərin pedaqoji maarifləndirilməsinin metodik proqramı işlənmiş və belə bir mövqe əsaslandırılmışdır ki, ailə tərbiyəsində və ailədaxili münasibətlərdə baş verən çətinliklərin əsasında valideynlərin pedaqoji psixoloji məlumatsızlığı durur.

Cəmiyyətdə münasib baxımından ailənin başlıca funksiyalarından biri **tərbiyə funksiyasıdır.** Ailənin tərbiyəedici funksiyası yeni nəsillərə biliklərin, bacarıq və vərdişlərin, norma və dəyərlərin, mənəvi sərvətlərin, ictimai tarixi təcrübənin ötürülməsini nəzərdə tutur. Psixoloji araşdırmaları ilə məşhur olan Penelopa Liç yazır: "uşaqları tərbiyə etmək, böyütmək ən dəyərli, ən yartadıcı əmək növlərindən biridir. Siz yeni şəxsiyyət yaradırsız, uşağa elə insan olmaqda kömək edirsiz ki, bu sizi görmək istədiyinizdir."

Görkəmli pedaqoq V.A.Suxomlinskiyə görə isə uşağın normal psixi inkişafı, şəxsiyyətinin formalaşması əhəmiyyətli dərəcədə ailə tərbiyəsi üslubundan asılıdır. Bunun psixoloji əsasları ilə bağlı tədqiqatcı yazır: "Uşağın qəlbini ədalətsizliyini doğurduğu emosional gönüqalınlıqdan daha çox eybəcərləşdirən başqa bir şey təsəvvür etmək çətindir. Uşaq özünə etinasız münasibəti hiss edərək, xeyirə və şərə həssaslığı itirir. Onun qəlbində şübhə, insanlara inamsızlıq

yurd salır, bu isə qəzəbliliyin ən başlıca mənbəyidir". Psixoloqlar belə hesab edirlər ki, uşağın şəxsiyyətinin inkişafındavalideyinlərin uşağa münasibəti və nəzarətin xarakteri ən mühüm amillər kimi nəzərdən keçirilə bilər. Bu baxımdan valideynlər üç əsas qrupa ayrılır: demokratik, avtoritar və liberal valideynlər.

Demokratik tərbiyə üslubu ailədə uşağa qarşı münasibətdə fəal əməkdaşlığa əsaslanır. Demokratik valideynlər ailədə öz uşaqlarına, sərbəstlik verir, onların şəxsiyyətinə hörmətlə yanaşır, isti münasibət bəsləyir. Onlar uşaqlara qarşı tətbiq edilən cəzalardan maksimum dərəcədə uzaq olmağa çalışırlar. Demokratik tərbiyə mühitində uşaqların azad inkişafı, fəallıq və yaradıcı qabiliyyətlərinin inkişafı üçün əlverişli şərait təmin olduğundan, belə ailələrdə böyüyən uşaqlarda başqa adamlarla əməkdaşlıq etmək qabiliyyətləri yüksək səviyyədə inkişaf edir, onların başqa adamlarla münasibətlər qurmaqda ünsiyyət çətinlikləri olmur. Bu tərbiyə üslubunun hakim olduğu ailələrdə uşağa və ailənin digər üzvlərinə qarşı humanist dəyərlər, qarşılıqlı hörmət, sevgi və məhəbbət hissləri daha üstün mövqeyə malik olur.

Müasir cəmiyyətdə avtoritar tərbiyə üslubunun hökm sürdüyü ailələrdə daha çox təsadüf olunur. Avtoritar valideynlər uşaqlardan onların tələblərinə sözsüz və qeyri-şərtsiz, qeyri-məntiqi olaraq qəbul edilməsini, "qayda-qanuna" tam əməl edilməsini, ailə ənənələrinə və valideynlərin nüfuzuna tabe olmalarını tələb edirlər. Avtoritar tərbiyyə ciddi surətdə məcburi intizama yönəlmiş tərbiyədir. Belə ailələrdə avtoritar tərbiyyə üsulları eyni vaxtda valideynlərin uşaqlara qarşı soyuq münasibəti ilə çulğalaşdıqda, uşaqlarda aqressivliyə və konfliktlərə cəhd daha tez-tez müşahidə olunur. Avtoritar ailələrdən çıxmış uşaqlar yeni həyat şəraitinə uyğunlaşmaqda çətinlik çəkirlər. Elə avtoritar ailələrə də təsadüf olunur ki, orada valideynlər uşağın gələcəyi üçün hədsiz narahatlıq keçirdiklərindən bir tərəfdən övladlarına isti münasibət göstərir, digər tərəfdən isə onların hər adddımını izləyir və nəzarət edirlər. Belə ailələrdən çıxmış uşaqlarda təşəbbüskarlıq olmur, onlar qapalı, qətiyyətsiz, müti, ünsiyyətsiz, infantil və eqosentrik təbiətli olurlar. Bir çox ailələrdə uşaqların gün rejimi düzgün

planlaşdırılmadığından onlar yaşlarına uyğun olmayan televiziya verlişlərinə, kompyuter oyunlarına və serialları hədsiz maraq göstərir və onlardan ayrıla bilmirlər. Ailədə yeniyetmələrin həyat fəallığının və təşəbbüslərinin yaşlılar tərəfindən boğulması, fəaliyyətin zorakı vasitələrlə digər istiqamətlərə yönəldilməsinə təhriketmə və təzyiqlər, iradi azadlığa qarşı yönələn sanksiyalar onlarda asanlıqla stress və aqressiyalara, bəzən isə daha ağır formalı psixi pozulmalara və hətta intiharlara gətirib çıxara bilər.

Yeniyetmələrin davranışında, fəaliyyət və ünsiyyətində, ətrafdakı adamlarla qarşılıqlı münasibətlərində özünütəsdiqetmə motivi aparıcı amildir. Özünütəsdiqetmə cəhdi çox zaman maneələrlə, qadağanlarla üzləşdikdə yeniyetmə öz mühiti və onun qadağaları ilə açıq və ya gizli ziddiyyətlə daxil olur. Açıq ziddiyyətə daxil olur. Açıq ziddiyyətlər konfliktlərə, gizli ziddiyyətlər isə əksər hallarda özünəqapanmaya səbəb olur ki, bu da əhvalın ümumi psixoastenik və depressiv fonunu yaradır.

Psixoloqlar **liberal tərbiyə üslubuna** malik olan valideynləri xüsusi olaraq fərqləndirməklə yanaşı, belə tərbiyə üslubunun da zərərli olduğu qənaətinə gəlmişlər. Uşaqlara qarşı laqeyd və etinasız olan valideynlər övladlarına heç bir isti nəfəs, lazimi diqqət, qayğı və nəzarət göstərmədiyindən, onlar necə deyirlər, "özbaşına" böyüyürlər. Onlarda bu baxımsızlıq və valideyn səhlənkarlığı hüquqa zidd əməllərə qədər ciddi davranış pozğunluqlarının yaranmasına gətirib çıxara bilər. Təsadüfi deyildir ki, azyaşlı cinayətkarlar və qanunpozanlar arasında məhz belə ailələrdən çıxmış uşaqlar çoxluq təşkil edir.

Uşaqların ailə tərbiyəsi işində valideynlərin qarşılaşdığı əsas çətinliklər yeniyetmələrin böyüdüyü ailələrdə özünü biruzə verir. Tərslik, hövsələsizlik, sözəbaxmazlıq və kobudluq "çətin" yeniyetmə yaşlı uşaqların tipik xüsusiyyətləridir. Yeniyetmələrin bu cür davranış öz-özlüyündə təbii olaraq meydana gələn normal yaş böhranının simptomlarıdır. Çox vaxt isə belə qarşıdurma halları və konfliktlər yaşlıların yeniyetmənin müstəqillik cəhdlərini anlamadıqlarından, onun şəxsiyyətinə qarşı hərmətsiz münasibətlərindən törəyir.

Yeniyetmə nə qədər böyükdürsə, o bir o qədər maksimalistdir, azadlığın məhdudlaşdırılmasına qarşı bir o qədər dözümsüzdür.

Yeniyetmənin valideyn üçün əsas problem uşağa qarşı münasibətin, adət edilmiş müraciət formalarının dəyişdirilməsindən, tərəflər arasında dialoqun qurulmasından ibarətdir. Valideyn yeniyetmə övladı ilə münasibətdə hər şeydən əvvəl **psixoloji məsafəni gözləməli,** "üz açmamalı", "pərdə saxlamağı" bacarmalıdır.övladı ilə münasibətdə optimal məsafəni tapan valideynlər xeyirxah məsləhətçi olmaqla yanaşı, eyni zamanda öz nüfuzlarını qoruyub saxlayaraq tələbələrinin yerinə yetirilməsinə nail olmağı bacarırlar. Belə münasibətlər uşaq və yeniyetmənin şəxsiyyətinə hörmət üzərində qurulmalıdır. Yeniyetmənin öz maraq və meyillərindən, ehtiraslarından avtoritar tərzdə məhrum etmək, onu yaşıdlarından təcrid etmək heç də arzu edilən nəticənin əldə edilməsinə yol açа bilməz. Müasir ailə tərbiyəsi psixologiyasında **optimal valideyn mövqeyi haqqında təsəvvürlər geniş yayılmaqdadır.** Uşaqların tərbiyəsində valideynlərin mövqeyi o halda optimal hesab edilə bilər ki, onlar uşağı başa düşsün , ona isti münasibət bəsləsin, onu obyektiv qiymətləndirsin və tərbioyə işini bu qiymətləndirməyə adekvat qurmağı bacarsın.

Hər bir uşaq lap erkən yaşlarından valideynlərin emosional rəğbət və stimullarına ehtiyac hiss edir. Nəvaziş, bəyənmə, təqdiretmə və tərif uşaqlarda öz qüvvəsinə inam yaradır. Danlaq və qadağalar isə əksinə, uşaqda ruh düşkünlüyü , bacarıqsız və sərasətsiz olması haqqında təsəvvürlərin yaranmasına səbəb olur. Ailədə valideyn nəvazişi almayan, **sevgidən doymayan uşaqlar** bu boşluğu tərbiyəçi və müəllimdən əldə etdiyi qayğı və sevgi ilə "doldurmağa" çalışırlar. Uşağın özünə inamsızlığlı yalnız qorxaqlığın deyil, həm də utancaqlığın əsas səbəbidir. Adətən yeksək iddialı olması ilə tanınan uşaqlarda təkəbbür və özündənrazılıq halları müşahidə olunur. Bu cür uşaqların davranışı psixoloji terminologiyada **"affektiv davranış"** adlanır**.** Affektiv uşaqlkara elə gəlir ki, valideynləri onları sevmir. Məktəbdəki uğursuzluqlar, yoldaşlarının təlimdə onları qabaqlaması, ədalətsizlikləri onlarda dərin sarsıntılara səbəb olur. Onlar

hər vasitə ilə öz sinif yoldaşlarının diqqətini cəlb etməyə, müəllimlərin rəğbətini qazanmağa çalışsalar da, buna nail ola bilmirlər. Affektiv davranışlı uşaqlar, əsasən, valideyn məhəbbətinin və qayğısının çatışmadığı, hədsiz tələbkarlıq və ciddi münasibətin olduğu ailələrdə yetişirlər. Belə ailələrdə valideynlər həmişə özlərini haqlı hesab edir, hətta ailədə uşaqlara qarşı münasibətin dəyişdirilməsinin zəruriliyi haqqında psixoloqların və müəllimlərin tövsiyələrini qəbul etmirlər. Onlar müəllimlərlə dialoji ünsiyyətlərdən qaçır, heç kimin məsləhətlərinə ehtiyaclarının olmadığını söyləyirlər. Uşaqlara qarşı etinasızlıq çox vaxt ata və ananın şəxsiyyətinin fərdi xüsusiyyətləri, özünə və öz şəxsi problemlərinə münasibəti ilə bağlı olur. Valideynlərin uşaqlara qarşı etinasız və mənfi münasibətinin bir sıra səbəbləri vardır: boşanma nəticəsində ailənin tamamlığının pozulması; valideynlərin uşağın şəxsiyyətinə hörmət qoymaması, uşağa yaşına uyğun olmayan hədsiz tələbkarlıqla yanaşılması; gücü çatmayan işlərə sövq edilməsi nəticəsində uşağın əldə etdiyi səviyyə ilə qane olmamaq; daim uşağa qabiliyyətsiz və bacarıqsız olduğu barədə tənqidlər ünvanlamaq və s. Valideyn məhəbbəti mühitində böyüyən uşaqlarda müdafiə, özünə və öz qüvvəsinə inam hiss yüksək olur. Ailədə mövqeyi qəbul edilən uşaqlarda ədalətlilik, qərəzsizlik və qəbahətli hərəkətlərinə görə günah hissi formalaşır. Əksinə, istehza və gülünc hədəfinə çevrilən uşaqlar daim sıxıntı icində olur, qəmqin görünürlər. Onlar qaim pərt edildiyindən utancaq və kinli olur, böyüyüb sərbəstlik əldə etdikdən sonra , uşaq vaxtı ona edilmiş haqsızlıqlara görə valideynlərinə qarşı soyuq və etinasız münasibət göstərirlər.

Alman psixoloqu İ.B.Hippenreyter valideynlərə uşaqla ünsiyyət zamanı aşağıdakı qaydalara əməl etməyi tövsiyə edir:

- Bütövlükdə uşaqdan deyil, onun ayrı-ayrı hərəkətlərindən narazı olduğunuzu bildirin;
- Nə qədər yolverilməz olsa belə, onun hisslərini deyil, əməllərini məzəmmət edin;

- Heç vaxt uşaqdan mümkün olmayan və ya yerinə yetirilməsi çətin olan işlər tələb etməyin. Yaxşısı budur, fikir verin, ətrafda nəyi dəyişdirmək mümkündür;
- Uşağın hərəkətlərindən narazı imkanını itirmiş olar;
- Uşağın emosional problemlərini öz üzərinizə köçürməyə və onunla yüklənməyə çalışmayın.
- Uşağa öz mənfi hərəkətlərinin nəticələri ilə üzləşmək imkanı verin. Bu, ona öz səhvlərini anlamaqda kömək edir.

Mövzu 14: Boşanma ailə münasibətlərinin pozulmasının nəticəsi kimi

Plan:

1. Boşanma evli cütlüklər ailə ilə bağlı qanunlara son qoyulması haqqında.
2. Boşanma problemi müasir ailədə qarşılıqlı münasibətin pozulması kimi.
3. Xəyanətə əxlaqsızlıq kimi baxmaq olarmı.

1. Boşanma evli cütlüklər arasında ailə ilə bağlı qanunla nəzərdə tutulan məsuliyyətlərə son qoyulmasıdır. Bu hal məhkəmə qərarı ilə rəsmləşdirilir. Boşanma qarşılıqlı sevgiyə , güvənə, xoşbəxtlik gözləmələrinə əsaslanan nikahdan narazılığın hüquqi forma almış ifadəsidir.

Istənilən digər sosial-psixoloji hadisələr kimi, boşanmalar da, adətən, obyektiv və subyektiv səbəblərlə bağlıdır. Bəzi soioloqların fikrinə görə, boşanmanı şərtləndirən əsas amillər həyat tərzinin urbanizasiyası, əhalinin miqrasiyası, ölkənin sənayeləşməsi, **qadınların emansipasiyasıdır.** Bütün bu amillər cəmiyyətdə sosial nəzarəti aşağı salır, insanların həyatını əhəmiyyətli dərəcədə avtonomlaşdırır. Bu isə öz növbəsində bəzi hallarda məsuliyyətin, cütlüklərin bir-birinə qarşı davamlı bağlılıq və qayğı hissinin itməsinə səbəb olur. Lakin bütün sadalananlar problemin ümumi fonudur. Müasir cəmiyyətdə sosial nəzarəti aşağı salır, insanların həyatını əhəmiyyətli dərəcədə avtonomlaşdırır. Bu isə öz növbəsində bəzi hallarda məsuliyyətin, cütlüklərin bir-birinə qarşı davamlı bağlılıq və qayğı hissinin itməsinə səbəb olur. Lakin bütün sadalanlar problemin ümumi fonunda. Müasir cəmiyyətdə çoxsaylı möhkəm, davamlı, uzunömürlü ailələrlə yanaşı, müvəqqəti, iflasa doğru gedən nikah ittifaqları heç də az deyildir.

Boşanma münasibət lap qədim dövrlərdə istənilən cəmiyyətlərdə müzakirə mövzusu olmuşdur. İnsanların yalnız nikaha daxil olmaq hüququnun deyil, həm də boşanmaq hüququnun tanınması demokratik cəmiyyətlərin göstəricilərindən biridir. Boşanma hüquq haqqında qanun, boşanmaya, boşananlara və boşanan

ailələrin uşaqlarına münasibətdə formalaşan ictimai rəy ölkələrin ictimai-siyasi münassibətləri sistemi, mövcud mədəni, milli ənənələr, xalqların sosial-psixoloji xüssusiyyətləri ilə sıx bağlıdır.

XX əsrə qədər bir çox ölkələrdə boşanma kişilər üçün yol verilən bir həyat norması hessab edilir, qadınların bu hüquq tanınmır, onlara kölə münasibəti hökm sürürdü. Ayrı-ayrı xalqlarda qadının boşanma iddiası ilə etməsi pis qarşılanır, bu əxlaqi baxımdan yolverilməz bir hərəkət hesab edilirdi.

Vaxtilə A.Bebel yazırdı ki, hər hansı ölkənin qanun və ənənələrinə bilmədən yalnız boşanmanın az olması faktına görə həmin ölkə haqqında fikir söyləmək olmaz. Məsələn, katolik kilsəsinin təsirinin güclü olduğu ölkələrdə boşanma qadağan edilmişdir və bu ölkələrdə boşanmaya əngəl yaratmayan ölkələrə müqayisədə boşanma hallarına az təsadüf olunur. Bəzi ölkələrdə boşanma yalnız "günah prinsipi" əsasında həyata keçirilir, yəni məhkəmə ər-arvaddan birinin ər-arvad vəfassızlığında, öz vəzifələrini yerinə yetirməməkdə, xəyanətdə günahkar olduğunu sübuta yetirməlidir.

Respublikamızda boşanma ailə və nigah münasibətlərini ailənin gələcəkdə saxlanılmasının mümkünsüzlüyü çərçivəsində "Ailə" və "Mülki" məcəllələr əsasısnda VVADQ orqanları və məhkəmələr tərəfindən ər və ya arvaddan birinin müraciəti əsasında həyata keçirilir.

2. Boşanma ərlə arvad arasındakı ciddi konfliktlərin geniş yayılmış həlli üsulu kimi həmişə mövcud olmuşdu. Boşanmaya münasibətin dəyişməsi bir çox cəhətdən qadınların iqtisadi vəziyyətinin yaxşılaşması ilə bağlıdır. Əgər qdının daimi işi varsa, özünü və uşaqlarını asanlıqla təmin edə bilirsə, o, münaqişələrin baş alıb getdiyi ailədə yaşamaqdansa boşanmaya üstünlük verir.

Boşanma problemi müasir ailədə qarşılıqlı münasibətlərin xarakterində baş verən dəyişikliklərlə sıx bağlıdır. Yeni yaranan ailə modellərində münasibətlərin pozulmasının xüsusi formaları meydana gəlir. Əgər ənənəvi nikahda boşanma hadisəsi hüquqi, iqtisadi, psixoloji planda baş verirdisə, ailə münasibətlərinin müasir formalarında boşanmadan sonra da onun psixoloji aspektləri nəinki saxlanılır, hətta ön plana keçir. Məşhur sosioloq N.M.Rimaşevskayanın qeyd etdiyi kimi, boşanma problemi və ailənin taleyi cəmiyyətin həyatının keçid dövründə qeyri-adi və ciddi əhəmiyyət kəsb etməyə başlayır.

Son illər ölkəmizdə boşanmaların və nikahdankanar doğumların sayı artır ki, bu da natamam ailələrin sayının çoxalmasına səbəb olur. Demoqrafların qənaitinə görə, qeydə alınmış hər beş nikahdan biri boşanma ilə ləğv olunur. Boşanmaların 30 % 5 ildən az nikah yaşı olan gənc ailələrdə baş verir.

Rus sosioloqu V.V.Solodnikovun otən əsrin 90-cı illərinin ssonunda apardığı tədqiqatların nəticələrinə görə boşanma öncəsi vəziyyətlərdə kömək üçün cütlüklər ailə və nikah məsləhətxanalarına deyil, daha çoh qohumlara və dostlara

müraciət edirlər. Cütlüklərdən 75% analara , 51,8% dostlara, 39,2% atalara, 10,2% hüquqşunalara, yalnız 49% psixoloq v ə həkimlərə müraciət edirlər.

3. Dünyanın bir çox ölkələrində boşanmanı şərtləndirən motivlər sırasında **ər-arvad xəyanəti** aparıcı amil hesab edilir. Statistikaya görə, respublikamızda boşanma səbəbləri içərisində ər-arvad sədaqətinin pozulması nəticəsində boşanma bütün digər səbəblərin təxminən 25%-ni təşkil edir. Ə-arvad sədaqətinin, məhəbbətin qənimi olan xəyanət ər-arvad hissləri zonasına toxunur. Müasir ailə üçün məhəbbət nikaha daxil olmaq, ailəni təşkil etməyin və onun mövcudluğunu təmin etməyin əsası və aparıcı motividir. Xəyanət ailədə müxtəlif ziddiyətlərə, konfliktlərə ər-arvad arasında disharmoniyaya səbəb olur. Müasir dövrdə ər-arvad xəyanətinə hər cür ailə tiplərində-həm firavan, dayanaqlı münasibətləri olan, həm konfliktli, həm problemli, həm də ər-arvad arasındakı münasibətlərin praktiki olaraq pozulduğu böhranlı ailələrdə təsadüf olunur. Xəyanət əksər hallarda ailənin dağılmasının, həm də doğulma ərəfəsində olan münaqişəli ailələrdəki qeyri-simpatik münasibətlərin nəticəsidir. Yeni qurulmuş gənc ailələrlə yanaşlı, orta və uzun ömürlü ailələrdə də xəyanət hallarına təsadüf olunur. Gənc ailələrdə baş verən xəyanət ər-arvadın yüngülağıllılığı, qeyri-yetkin olması, mənəvi düşkünlüyü, alkoqolizm və narkomaniya, cütlüklərin müqəddəs ailə dəyərlərini kifayət qədər anlaya bilməməsi ilə bağlıdır. Burada insanların ümumi mədəni, estetik və əxlaqi tərbiyəlilik səviyyəsi də vacib amil kimi nəzərdən keçirilməlidir. Bütün dövrlərdə kişinin mədəniyyəti, onun şərəf və ləyaqəti onun qadına olan münasibət səviyyəsi ilə müəyyən edilmişdir. Əsil mədəniyyət isə əslində qadını hər şeydən əvvəl dost, şəxsiyyət kimi görmək və ona hörmətli yanaşmaqla müəyyən olunur.

Xəyanətə hec də əxlaqsızlıq kimi baxmaq olmaz. Əgər ailədə tez-tez təkrarlanan qeyri-normal münasibətlər, şübhələr, qısqanclıq, qalmaqallar mövcuddursa, xüyirxahlıq, mehribanlıq, qayğı, qarşılıqlı anlaşma, hörmət, kədər şəriklik, ən nəhayət, sevgi yoxdursa, bu tərəflərdən birinin bu boşluğa kənarda olan başqa bir adamda axtarmağa təhrik edir. Bir səra müasir sosial-psixoloji tədqiqatlarda ər-arvad xəyanətinin səbəblərinin təhlilinə təşəbbüslər göstərilmişdir. Həmin səbəbləri əks etdirən təsnifatlardan birinə diqqət yetirək:

1.**Yeni məhəbbət.** Ər-arvad xəyanətinin bu səbəbi məhəbbətin qətiyyən olmadığı və ya əhəmiyyətsiz olduğu nikahlarda özünü göstərir.

2. **Qarşılıqlıq.** Ailədə xəyanət etmiş tərəfin acığına digər tərəf də xəyanət etməklə, qisas almaq istəyində olur və bununla da özünün gərəksiz olmadığını və şəxsi ləyaqət hissini bərpa etmək istəyir.

3. "Alçaldılmış məhəbbət". Nikah münasibətlərində qarşılıqlı məhəbbət olmadıqda, cütlüklərdən biri öz sevgisinin qarşılığını ala bilmədiyindən əziyyət

çəkir. Belə vəziyyət ər və ya arvadı onu anlayan başqa bir tərəfdaşla münasibətlər qurmağa təhrik edir.

4. **Yeni sevgi təəssüratları axtarmaq.** Bu, adətən, çoxillik ailə təcrübəsinə malik cütlüklərin həyatında müşahidə olunur. Belə ailələrdə, adətən yaşlaşmış, maddi durumu yaxşı olan kişilər yeni sevgi macəraları yaşamaq istəyirlər. Adətən, ər-arvadlıq həyatının 25-30-cu illərində belə hallar daha çox təsadüf olunur.

5. **Ailənin kütləvi iflası.** Burada xəyanət qeyri-leqal yəni ailənin yaranması ilə bağlı olur. Bu halda xəyanət birinci ailənin həyat qabiliyyətinin olmaması kimi qavranılması, faktiki olaraq yeni ailənin yaradılmasının nəticəsi kimi özünü göstərir.

6. **Təsadüfi əlaqələr şəklində baş verən xəyanət** heç də dərin sevgiyə əsaslanmır, ardıcıl və müntəzəm xarakter daşımır, əksinə təsadüfi tanışlıq "həzz məqamları", fürsətlə bağlı olur.

Xəyanət istənilən insan, istənilən ər-arvad ittifaqı üçün amansız sınaqdır. Buna yüngül və əhəmiyyətsiz münasibət bəsləyən istənilən şəxs ya heç kimi sevmir, ya da ümumiyyətlə, sevgi hisslərindən məhrumdur. Adətən, xəyanət konfliktli münasibətlər fonunda baş verdikdə, o, təbii hadisə kimi qavranılır. Xəyanətə məruz qalmış qalmış insanın sarsıntıları və məyusluq səviyyəsi onun bu hərəkətlə bir dəfə, yoxsa dəfələrlə qarşılaşması faktından da asılıdır.